ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2023
№2 (74)

BAKI-2023

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2023
№2 (74)

BAKU-2023

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 32(092)

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDAKI ROLU

**FAİQ ƏLİYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: faiq-aliyev@yahoo.com*

Mənəvi dəyərlərin qorunması və gələcək nəsillər üçün saxlanması müasir dövrdə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin bərpası və mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması dövlətin daim diqqət mərkəzində saxladığı məsələlərdir və Azərbaycanda aparılan bütün islahatlarda bu məsələ daim diqqət mərkəzindədir.

Cəmiyyətdə ictimai dəyərlər, milli dəyərlər və intellektual dəyərlər bir-birindən fərqləndirilir. Əxlaqi dəyərlərlə mənəvi dəyərlərin fərqli və oxşar cəhətləri mövcuddur. Fərd başqa insanlarla əlaqəyə, ünsiyyətə girdikdə mənəvi dəyərlər əxlaqi dəyərlərə çevrilir. Bütün dəyərlər istənilən halda mənəvidir. Harada insani münasibətlər varsa, orada mənəvi məsələ ön plana keçir. Məhz insan başqa insanla münasibətdə özündə gizlənmiş xeyri şərdən fərqləndirmək imkanı əldə edir.

Mənəvi dəyərlər insanın ailədə, cəmiyyətdə, ölkədə davranışını tənzimləyən sosiumun sosiomədəni sferasının sabit, dəyişməz elementləridir. İnsan varlığına, bütövlükdə cəmiyyətə təsir mənəvi dəyərlərin, mənəviyyatın çoxsaylı funksiyaları: humanistləşdirici, tənzimləyici, müəyyənedici, idraki, tərbiyəvi, kommunikativ və s. vasitəsilə həyata keçirilir.

Universal, mütləq dəyərlər bütün bəşəriyyət üçün əbədi status qazanmışdır. Həqiqət, gözəllik, xeyirxahlıq, məhəbbət, inam və s. dəyərlərə tələbat da əbədidir. İnsan varlığı bunlarsız keçinə bilməz. Lakin hər bir dövrdə bu dəyərlər yenidən dərk edilməli olduğundan onların məzmunu da fərqli başa düşülür. Həyatın özünün ən müqəddəs dəyər olması şübhəsizdir. Çünki həyat və insan yoxdursa, digər dəyərlər mənasını itirir. Lakin həyatın təhlili, anlaşılması üzərində düşünən hər kəs bu qənaətdə deyil (10, s.144).

Xalqımızın əldə etdiyi nailiyyətlər varislik, yaradıcı təkamül prinsipinə uyğun olaraq yaradıcı şəkildə inkişaf etdirilərək gələcək nəsillərə ötürülməlidir. Bu baxımdan milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunması və yeni türk dünyası ilə münasibətlərimizin özəlliyi və digər bu kimi istiqamətlər diqqəti cəlb edir. Azərbaycan xalqının öz milli-mənəvi dəyərlərinə sadiq qaldığını bildirən Ulu Öndər Heydər Əliyev deyidi: "Bizim xalqımız öz mənəvi dəyərlərinə əsrlər boyu sadiq qalmış və onları inkişaf etdirmişdir. Mənəvi dəyərlərimiz saf-dır, onlar həmişə insanlarda təmizlik, xeyirxahlıq, yüksək ideallar tərbiyə etmişdir. Bu gün biz ona görə xoşbəxtik ki, babalarımızdan miras qalmış mənəvi dəyərlər yenidən canlanır, gənc nəslə çatdırılır və gələcək nəslə ötürülür" (2).

Dəyərlərin yerinə yetirdiyi funksiyalar insanın psixikası ilə mövcud reallıq arasında çox mühüm əhəmiyyət kəsb edən qarşılıqlı əlaqələrlə sıx bağlıdır. Bu əlaqələrin əsas məzmununu insan tərəfindən onu əhatə edən çoxsaylı hadisə və proseslərdən özü üçün dəyərli olanı seçməsi və faydasız hesab etdiyini bir kənara qoyması təşkil edir. Beləliklə, dünya, onun rəngarəng mövcudatları insanın qarşısında bir-biri ilə müəyyən asılılıqda olan çoxpilləli dəyərlər vasitəsilə qiymətləndirilir və o öz təbiətinə görə bipolyar xarakter daşıyır. Burada obyektin bu və ya digər xassənin (habelə bütövlükdə obyektin) subyekt üçün əhəmiyyət kəsb etməsi və yaxud əhəmiyyət kəsb etməməsi müəyyənləşdirilir. Dəyərlər insanın dünya ilə qarşılıqlı təsiri gedişində yaranır və bu qarşılıqlı təsirin bütöv, inteqral şəxsiyyətini əks etdirir. Onlarda, sözün geniş mənasında götürülən insan ilə dünya arsındakı çoxcəhətli əlaqələr tələbat, məqsəd, arzu, maraq, ideal və sair anlayışlarla sıx bağlı formada çıxış edir. Həmin anlayışların hamısında bu və

ya digər dəyərin çox vacib atributu olan qiymətləndirmə özünü göstərir (5, s. 46.).

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir (4).

İslam dünyasının bir parçası olan Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz milli-mənəvi dəyərlərimizi və xalqımıza məxsus xüsusiyyətlərimizi də qoruyub saxlayırıq. Ümummilli Lider Heydər Əliyev bununla bağlı fikirlərini hər zaman açıq şəkildə ifadə edirdi: “Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük” (1, s.46). Xalqımızın tarixdən gələn bu xüsusiyyətlərini gələcək nəsillər yaşatmalıdır.

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Məhz bu amilə əsaslanaraq Ümummilli Lider hər zaman öz çıxışlarında vurğulayırdı: “Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapmışdır. Ancaq bununla belə, Azərbaycanın təfəkkürlü insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıbdır. Biz bunların hamısı ilə fəxr etməliyik”. (6, s.4)

Ulu Öndərin sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqının keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı və Azərbaycan Respublikasının “Dini etiqad azadlığı haqqında” Qanununda geniş şəkildə təsbit olundu.

Ulu Öndər Heydər Əliyev milli-dini dəyərlərimizin qorunmasında, İslam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, eləcə də ölkədə vicdan azadlığının bərqərar edilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində əməli fəaliyyəti ilə misilsiz rol oynayıb: “Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik”(1, s.57).

Müasir Azərbaycan cəmiyyətində mənəvi dəyərlərin transformasiyası prosesi, sosial-tarixi hadisə olub, mahiyyət etibarı ilə şəxsiyyətin, qrupun, sosiumun stereotipləşmiş dəyər təsəvvürlərinin dəyişməsini göstərir. Milli dəyərlərin taleyi, milli mədəniyyətlərin taleyindən bilavasitə, asılı olub, biri o birinin varlığını şərtləndirir, yəni bunlar qırılmaz qarşılıqlı bağlılıqda mövcuddurlar. Mədəniyyət və milli dəyərlərin qarşılıqlı bağlılığı özünü milli mentalitetin, milli identikliyin, mədəni irsin, varisliyin, başqa sözlə, mədəni müxtəlifliyin saxlanılmasında, eyni zamanda vətənpərvərliyin və milli qürur hissinin yüksəldilməsində göstərir. Azərbaycan filosofu S.Xəlilov bu barədə yazır: “İnsan mənəviyyatı, bir tərəfdən, genetik əsaslara malik olsa da, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin kulturoloji aspektləri mühüm rol oynayır” (7, s.236).

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, beynəlxalq standartlara cavab verən dövlət-din münasibətləri, tolerantlıq prinsipləri ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olub. Ulu Öndərin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirilib, konfessiyalar arasında dözümlülük mühiti yaxşılaşdırılıb, eləcə də dini-tarixi abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Ölkəmizdə dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seç-

məsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ümummilli Lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsidir.

Multikulturalizmin Azərbaycan nümunəsinin təbliğ və tətbiqində Ümummilli Lider Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur. Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərlik etməyə başladığı dövrdən etibarən istər xalqlararası, istərsə də dinlərarası münasibətlərdə tolerantlığı və multikultural prinsipləri önə çəkən bir siyasət yürütməyə başlamışdır (8, s.16). Ulu Öndər Heydər Əliyevin tolerant dəyərləri önə çəkən çıxışları, habelə istər ölkəmizdə, istərsə də dünyada mövcud olan böyük dini konfessiyaların rəhbərləri ilə müxtəlif görüşlər keçirməsi, Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini və etnik qrupların mənsublarının problemlərinin həlli istiqamətindəki əməli fəaliyyəti onun multikultural dəyərlərə münasibətini əyani şəkildə əks etdirən faktlardır. 1993-cü ilin 10 oktyabrında Azərbaycan Respublikası Prezidentinin Andiçmə mərasimində söylədiyi aşağıdakı ifadələr Ümummilli liderin bu dəyərlərə nə qədər bağlı olduğunu göstərir: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır. Bu gün bizim İslam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır" (3, s.17). Heydər Əliyev hakimiyyətdə olduğu illərdə istər İslam dininə, istərsə də digər dinlərə məxsus məbədlərin tikilməsinə və bərpasına xüsusi diqqət ayırmışdır. Ölkəmizin iqtisadi çətinliklər içərisində olduğu dövrlərdə belə, Ümummilli Liderin tapşırığı ilə bir çox məscid, kilsə və sinaqoq inşa və ya təmir edilmişdir.

Heydər Əliyevin tolerantlığa söykənən bu siyasəti dünyadakı böyük din mərkəzləri tərəfindən də rəğbətlə qarşılanmışdır. Təsadüfi deyildir ki, tarixdə ilk dəfə Roma Papası ölkəmizdə məhz Heydər Əliyevin hakimiyyəti dövründə səfər etmişdir. O, bu səfərdə Azərbaycanın müxtəlif dinlərin və xalqların nümayəndələrinin birlikdə sülh şəraitində yaşadığı bir ölkə olduğunu vurğulamış və bu birgəyaşayış ənənəsinin ölkəmizin haqlı olaraq fəxr edə biləcəyi dini dözümlülük və qarşılıqlı rəğbət ruhu sayəsində mümkün olduğunu bildirmişdir. Dünyada böyük nüfuz sahibi olan bir çox başqa din xadimləri də ölkəmiz haqqında buna bənzər fikirləri səsləndirmişlər. Şübhəsiz ki, bütün bunlar Heydər Əliyevin ümumbəşəri dəyərlərə söykənən siyasətinin nəticəsində olmuşdur.

Ümummilli lider multikultural dəyərləri önə çəkməklə yanaşı, bəzi islamafob qüvvələrin dinimizin sanki bu dəyərlərə zidd olduğu fikrinə də qarşı çıxır, İslamı qaralamaq istəyənlər tərəfindən ortaya atılan bu fikrin əsassız olduğunu vurğulayırdı. O, 1994-cü il avqust ayının 26-da Həzrət Peyğəmbərin (s) Mövludu münasibətilə Təzəpir məscidindəki çıxışında bu məqama diqqət çəkərək demişdir: "İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Təalanın buyuruğu, bizim yolumuzdur" (3, s.65).

Azərbaycanda demokratik prinsip, vətəndaş əxlaq normaları, milli dövlətçilik ideologiyası, mənəvi və sosial-mədəni dəyərlər ölkəmiz müstəqillik əldə etdikdən sonra bərqərar olub. Bu yöndə gerçəkləşən çoxsaylı islahatlar nəticəsində ateizmdən imtina və İslam prinsiplərinə qayıdış baş verib. Respublikamız milli mentalitet və dövlətçilik ənənələrinə söykənən canlı demokratik sistem qurmaq yolunu seçib. İslam dini mənəvi tərəqqinin mühüm tərkib hissəsi kimi qəbul edilib. Məlumdur ki, əsrlər boyu Azərbaycan xalqının özünəməxsus varlığı və milli ruhunun mühafizəçisi məhz onun əxlaqı, adət-ənənəsi, dini şüuru və mədəniyyəti olub. Ona görə də müstəqilliyimizin taleyi milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsindən çox asılıdır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev son dövrdə zəngin mənəvi irsimizin yaşadılmasına

və inkişafına yol açmış, milli birliyimizin, bütövlüyümüzün möhkəmlənməsində əvəzsiz rol oynamışdır. Onun respublikamıza rəhbərlik etdiyi illərdə mənəviyyatımız yenidən çiçəklənmə dövrünü yaşamışdır. Xüsusən Heydər Əliyevin birbaşa iradəsi ilə dilimizin dövlət dili kimi təsbit edilməsi, "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu, mədəniyyət və incəsənətimizə, ədəbiyyatımıza, musiqimizə, folklorumuza və bu sahələrdə çalışan sənət adamlarına qayğı və diqqətin artırılması, klassik və yazılı abidələrimizin öyrənilməsi, mədəniyyətimizin, mənəviyyatımızın UNESCO səviyyəsində dünyada genişmiqyaslı təbliği və s. xüsusi qiymətləndirilməyə, alqışlanmağa layiqdir.

Heç kimə sirr deyil ki, Azərbaycan xalqının milli kimliyinin formalaşması türk təfəkkürü, İslam mədəniyyəti və mənəviyyatı ilə bağlı olub. Hər millətin öz dili, folkloru, mədəniyyət abidələri, ədəbiyyat və incəsənəti, musiqisi, elmi, düşüncə tərzi, adət-ənənələri əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülərək, onun milli kimliyini müəyyən edən başlıca amilə çevrilir. Bu mənada Azərbaycan xalqı içərisində ən zəngin mənəviyyatlı xalqlar sırasındadır (9, s.18).

Humanizm, vicdan, mənəvi təmizlik, əxlaqi saflıq, xeyirxahlıq və sair mənəvi dəyərlərin səciyyəvi cəhətlərindən biri budur ki, onlar təkcə mənəvi fəaliyyət tənzim etməklə məhdudlaşmır, onun hüdudlarını aşıb keçir, praktiki olaraq insan fəaliyyətinin bütün növlərində və sahələrində özünü göstərir. Bu, onunla izah edilir ki, sözügedən dəyərlər bütövlükdə insanlıq mahiyyətini, onun davranışının əsas özülünü təşkil edir. Həmin keyfiyyətlər isə konkret növündən asılı olmayaraq insanların fəaliyyətinin bütün sahələrinə məxsusdur.

Mənəvi fəaliyyət ilə dəyərlərin qarşılıqlı vəhdətinin möhkəmlənməsində burada əxlaqi prinsiplərin geniş yayılması çox mühüm rol oynayır. Bu təsadüfi olmayıb, onunla izah edilir ki, əxlaq ictimai şüurun əsas dəyər formasıdır və burada insan davranışının ümumi qəbul olunmuş formaları və qiymətləri öz ifadəsini tapır. Əxlaqi prinsiplər əsasında fəaliyyət göstərən insan öz hərəkətlərinə daxili nəzarət edir, mənəvi borc və vicdan hissi kimi yüksək mənəvi dəyərləri əldə rəhbər tutur.

Əsl inkişaf milli-mənəvi dəyərləri, qədim mədəniyyəti qorumaqla elmi-texniki, sosial-iqtisadi tərəqqiyə nail olmaqdır. Dövlətimiz də bu baza üzərində inkişaf siyasəti yürüdür. Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı strateji inkişaf konsepsiyası konkret olaraq milli-mənəvi dəyərləri qoruyaraq dünyaya inteqrasiya etməyi özündə ehtiva edir. Bu gün həmin siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanda milli dövlətçilik və milli-mənəvi dəyərlər bir-biri sıx daxili vəhdətdədir. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bu cür inkişaf konsepsiyası ola bilər. Ümumilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" – deyən Ulu Öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Bu gün də bu siyasət uğurla davam etdirilir, milli-mənəvi dəyərlərin qorunması üçün lazım olan bütün tədbirlər həyata keçirilir, geniş maarifçilik işi və təbliğat aparılır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Əliyev H.Müstəqilliyimiz əbədidir.Bakı, 2005*

*2. Əliyev H. Novruz bayramında nitqi. "Azərbaycan" qəzeti, 26 mart 1999-cu il.*

*3. Heydər Əliyev və multikultural dəyərlər. Bakı, 2016*

*4. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası: Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir // "Azərbaycan" qəzeti. 2007, 24 may*

*5. Qılıcov İ. Fəaliyyət və dəyərlər seçimi. Bakı, 2005*

*6. Qurbanlı M. Heydər Əliyev yolu milli inkişafın rəhnidir. Azərbaycan qəzeti, 9 may 2018*

*7. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2007*

*8. Əhmədov Ə. Azərbaycan modelinin multikultural təbiəti. Heydər Əliyev irsi və multikultural dəyərlər. 2008*

*9. Salahlı S. Dünyada Azərbaycan nümunəsi.Bakı,Nurlar, 2018*

*10. Şabanov Z. Müasir Azərbaycanda islahatların reallaşmasında mənəvi dəyərlər sisteminin rolu// Müasir islahatlar: ümumfəlsəfi əsaslar. Bakı, Optimist, 2022*

**Faiq Əliyev**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINDAKI ROLU

**Xülasə**

Məqalədə Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunmasındakı rolu ətraflı təhlil olunur. Bildirilir ki, H.Əliyev proqram xarakterli bütün çıxışlarında bu məsələyə diqqət yetirmiş, uzun illər ərzində formalaşmış milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün tövsiyələrini vermişdir. Ölkədə qəbul olunan bütün qanunvericilik aktlarının beynəlxalq standartlara uyğun olmaqla mənəvi dəyərlərimizi ifadə etməsinə həssaslıqla yanaşılmışdır. Ulu Öndər Azərbaycanda milli dövlətçilik və milli-mənəvi dəyərlərin bir-biri sıx daxili vəhdətdə olduğunu vurğulamış, milli kimlik üçün dəyərlərin böyük məna daşıdığını qeyd etmişdir. H.Əliyev milli-mənəvi dəyərlərin gənclər arasında daha geniş təbliğ olunmasını zəruri hesab etmiş, bu işin ailədə, məktəbdə və əmək kollektivlərində aparılmasının əhəmiyyətini vurğulamışdır.

**Açar sözlər:** *Ulu Öndər, milli-mənəvi, dəyər, tərbiyə, gənclər, din, vətənpərvərlik.*

**Faig Aliyev**

## THE ROLE OF THE GREAT LEADER HAYDER ALIYEV IN THE PROTECTION OF NATIONAL AND SPIRITUAL VALUES

**Summary**

The role of the great leader Heydar Aliyev in the protection of national and moral values is analyzed in detail in the article. It is reported that H. Aliyev paid attention to this issue in all his programmatic speeches and gave recommendations for the preservation of national and moral values formed over many years. All legislative acts adopted in the country have been sensitively treated to express our moral values in accordance with international standards. The great leader emphasized that national statehood and national-moral values are in close internal unity in Azerbaijan, and noted that values are of great importance for national identity. H. Aliyev considered it necessary to propagate national and moral values more broadly among young people, and emphasized the importance of carrying out this work in the family, school and labor collectives.

**Keywords:** *great leader, national-spiritual, value, youth, religion, patriotism.*

**Фаик Алиев**

## РОЛЬ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ЗАЩИТЕ НАЦИОНАЛЬНЫХ И ДУХОВНЫХ ЦЕННОСТЕЙ

**Резюме**

В статье подробно анализируется роль великого лидера Гейдара Алиева в защите национальных и нравственных ценностей. Уделяя внимание нравственности, национальности, духовности Гейдар Алиев – основоположник идеи возрождения и развития азербайджанской идеологии, во всех своих выступлениях наставлял, как надо оберегать и поддерживать систему ценностей, созданную годами; в законодательстве страны корректно выражать моральные ценности в соответствие международным стандартам. Общенациональный лидер отмечал, что в Азербайджане национальная государственность и национально-нравственные ценности находятся в тесном внутреннем единстве, что имеет большое значение для национального самосознания. Г. Алиев считал необходимым, предпринимать важные шаги в деле пропаганды национально-нравственных ценностей среди молодежи и подчеркивал важность проведения этой работы в семье, школе и трудовых коллективах.

**Ключевые слова:** *общенациональный лидер, национально-духовное, ценность, воспитание, молодежь, религия, патриотизм.*

UOT 327 ; 930.22

# HEYDƏR ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**ƏLİMUSA İBRAHİMOV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər fakültəsinin müəllimi*
*E-mail: ialimusa@mail.ru*

## Giriş

1991-ci ildə SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda müstəqil dövlətlərin yaranması ilə İran İslam Respublikasının (İİR) xarici siyasətində yeni istiqamət açıldı. 1990-cı illərin əvvəllərindən elmi ədəbiyyatda azərbaycanlı (6; 3; 42; 18) və iranlı tədqiqatçılar (44; 41) ilə yanaşı xarici ölkə alimlərinin də Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə həsr olunan əsərləri dərc edilmişdir (14; 15; 37; 33; 34; 48; 47).

Azərbaycan ilə İran arasında əməkdaşlığı araşdıran alimlər arasında S.M. Markedonov (16), V.Mesamed (17), V.I.Sajin (19), İ.E.Sidorov(20), S.Y.Şenin (22) kimi mütəxəssislərin adlarını çəkmək olar. S.Blank (25), A. Boche (26), S. Braun (27), S.Kornell (28), B.Shaffer (45), A. Jodicke (36) kimi Qərb tədqiqatçılarının əsərlərində Azərbaycan-İran münasibətlərinə toxunulur.

Azərbaycan tədqiqatçıları arasında Bakı və Tehranın ikitərəfli əməkdaşlığı necə inkişaf etdirə biləcəyinə dair ümumilikdə iki fikir mövcuddur. Birinci fikrin tərəfdarları, o cümlədən Y.Vəliyev (7), Ə.M.Həsənov (11), M.Məhəmmədi (4) hesab edirlər ki, ikitərəfli əməkdaşlığın inkişafı daha çox daxili amillərdən (iqtisadi, dini, etnik və s.) asılıdır. Ə.Abbasbəyli (8), Ş.Əbilov (24), K.Makili-Əliyev (40) və C.Eyvazovun (23) bölüşdükləri ikinci fikrə görə, qeyri-regional aktorların Cənubi Qafqazda apardıqları siyasət bu münasibətlərin xarakterini çətinləşdirir və onların inkişafına təsir göstərir.

Azərbaycan-İran münasibətlərinin iranlı tədqiqatçılarını da iki qrupa bölmək olar. M. Qudarzi, A. Laşaki (31) və M. İsfahani (30) kimi iranlı ekspertlər öz araşdırmalarında ümumilikdə Azərbaycan və İran arasında mövcud əməkdaşlığın inkişaf perspektivlərini müsbət qiymətləndirirlər. Öz növbəsində, E. Kulai, M. Hafezian (38), H. Rabi, M. Qarebeygi, S. Musavi (43), A. Jansiz və M. Hojastenin (35) fikrincə, Azərbaycan və İran arasında xüsusilə təhlükəsizlik sahəsində əlaqələr kifayət qədər zəif olaraq qalır, lakin eyni zamanda onlar İranın Qafqaz-Xəzər regionunda təhlükəsizliyin təmin edilməsində xüsusi rolunu qeyd edirlər.

## Azərbaycan-İran münasibətlərinin inkişaf mərhələləri

Postsovet dövründə geosiyasi simasını dəyişən Cənubi Qafqaz İran üçün "risklər və imkanlar məkanı" kimi diqqəti cəlb edib. SSRİ-nin dağılması İranın Rusiya ilə bilavasitə sərhədinin yox olmasına gətirib çıxardı və Sovet İttifaqının ərazisində müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan yarandı. İran hakimiyyəti bunu Cənubi Qafqazla bağlı tarixi iddialarını bir daha ortaya qoymaq üçün fürsət hesab edirdi[1]. İran üçün "müstəqil Azərbaycan problemi" yenidən gündəmə gəldi və bununla əlaqədar olaraq, 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan Respublikası Cənubi Qafqazda İran siyasətinin mərkəzində dayandı. Beləliklə, Azərbaycan-İran münasibətlərinin tədqiqi İran hakimiyyətinin bütün Cənubi Qafqaz regionu ilə bağlı siyasətini başa düşmək üçün effektiv üsuldur.

Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin xarakterini nəzərə alaraq, bu dövrdə bu əlaqələrin aşağıdakı mərhələlərini ayırmaq olar.

### Birinci mərhələ (oktyabr 1991 - oktyabr 1993)

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik əldə etdikdən sonra ikitərəfli əlaqələrin qurulması məqsədilə AR və İİR rəsmilərinin Tehran və Bakıya qarşılıqlı səfərləri başlandı. 1991-ci il dekabrın 25-də o vaxtkı xarici işlər naziri Ə.Ə.Vilayətinin rəsmi səfəri zamanı İran Azərbaycanın dövlət müstəqilliyini rəsmən tanıdı. Lakin iki ölkə arasında diplomatik əlaqələr yalnız 1992-ci il martın 12-də qurulub (9). M.Cəlilinin sözlərinə görə, ortaq tarix və etnik-dini amil hər iki dövləti yaxınlaşdırmalı idi, lakin bu, iki ölkə arasındakı ideoloji fikir ayrılığına görə baş vermədi - Azərbaycan dünyəvi ölkəyə çevrildi, İran isə islam respublikası idi (29). Bu fikri digər iranlı alimlər M.R. Qudarzi, A.B. Laşaki və S.F.Lakani dəstəklədi (32).

İlk mərhələdə rəsmi Bakı Tehranı Azərbaycanla müharibə vəziyyətində olan Ermənistanı dəstəkləməkdə ittiham etdiyi üçün tərəflər bir-birinə şübhə

1. Агазаде М.М. Азербайджано-иранские отношения: основныенаправления и особенности в 1991-2019 гг. (историографический обзор)//Вестник РУДН. 2021. Т. 21. № 4. С.803-821.DOI: 10.22363/2313-0660-2021-21-4-803-821.

ilə yanaşırdılar. Tehranda isə hesab edirdilər ki, Azərbaycan hakimiyyəti İranın Cənubi Qafqaz regionunda tarixi rəqibi olan Türkiyə ilə yaxınlaşma kursu müəyyən edib. S.B.Drujilovski bu amilə diqqət çəkərək Türkiyə və İranın tarixi rəqiblər olduğunu və Sovet İttifaqının dağılmasından sonra bölgədə onların qarşıdurmasının yenidən alovlandığını qeyd edir (12).

İkitərəfli münasibətlər xüsusilə 1992-ci ilin yayından 1993-cü ilin yayına qədər Azərbaycanın prezidenti Ə.Elçibəyin İranda yaşayan türkdilli xalqları, o cümlədən İranda yaşayan Azərbaycan türklərini açıq şəkildə müdafiə etdiyi zaman gərginləşdi. Təbii ki, Azərbaycan rəhbərliyinin belə mövqeyi İran hakimiyyətini çox narahat edirdi. Onu da qeyd etmək lazımdır ki, 1990-cı illərin əvvəllərində İranda SSRİ-nin dağılmasından sonra beynəlxalq aləmdə yeni türkdilli dövlətlərin meydana çıxması ilə əlaqədar türkdilli əhali arasında millətçiliyin artması müşahidə olunurdu. Buna baxmayaraq, M.Məhəmmədinin haqlı olaraq qeyd etdiyi kimi, İran tərəfi Azərbaycan Respublikasının bəzi cənub şəhərlərində qaçqınlar üçün yeddi çadır şəhərciyi yaradaraq, Qarabağda hərbi əməliyyatlar zamanı yaralanan Azərbaycan əsgərlərini xəstəxanalara yerləşdirməklə Azərbaycana humanitar yardım göstərmişdir (4). Ümumiyyətlə, bu mərhələ iki ölkə arasında münasibətlərin yaradılması cəhdləri ilə yadda qaldı.

**İkinci mərhələ (1994-2000)**

1993-cü ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev qonşu dövlətlərlə, o cümlədən İranla əlaqələrin inkişafına xüsusi diqqət yetirməyə başladı. Azərbaycan rəhbərinin 1994-cü ilin yayında İrana üç günlük rəsmi səfəri dövlətlərarası əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaratdı. Lakin 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması İranda etirazlarla qarşılandı və bu, Bakı ilə Tehran arasında münasibətlərdə gərginliyə səbəb oldu, bundan sonra Azərbaycan cənub qonşusu ilə hər hansı münaqişənin qarşısını almaq üçün İran hakimiyyəti ilə enerji sahəsində əməkdaşlıq haqqında danışıqlara başladı. 1996-cı ildə aparılan danışıqlar nəticəsində Bakı İran Milli Neft Şirkətinə “Şahdəniz” qaz yatağında 10 faiz pay təqdim etdi (4).

Əksər alimlərin ikitərəfli münasibətlərin qiymətləndirilməsinə yanaşmaları oxşardır: onlar hesab edirlər ki, Ə.Elçibəydən fərqli olaraq, böyük siyasi təcrübəyə malik H.Əliyev praqmatik lider idi. Məsələn, Y.Vəliyev qeyd edir ki, H.Əliyevin hakimiyyətə gəlişi Azərbaycanla İran arasında münasibətlərin tənzimlənməsində əsas rol oynayıb (7). Öz növbəsində, O. Bağırovun sözlərinə görə, H.Əliyevin 1993-cü ildə ölkə prezidenti seçilməsi Azərbaycan-İran münasibətlərinin konstruktiv mahiyyətinin qurulmasında və inkişafında əsas amil olmaqla yanaşı, həm də Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində mühüm hadisə oldu (2). Eyni fikri bölüşən S.Kornell də H.Əliyevin ölkə daxilində asayişin yaradılmasında, eləcə də qonşu dövlətlərlə əlaqələrin möhkəmləndirilməsində müstəsna rolunu vurğulayır (28).

Qeyd edək ki, İran bu mərhələdə xarici siyasətdə şiə islamçı hərəkatlarına dəstək prinsipinə sadiq qalaraq 1991-ci ildə yaradılmış Azərbaycan İslam Partiyasının Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mövqeyini gücləndirməyə çalışaraq ona maliyyə yardımı göstərmişdir. Bu fakt 1995-ci ildə məhkəmədə sübuta yetirilərək, İslam Partiyasının rəhbərləri həbs edildi, Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarı ilə partiyanın rəsmi dövlət qeydiyyatı ləğv edildi (4). Sonrakı illərdə iki ölkənin rəsmi nümayəndələrinin görüşləri dövlətlərarası münasibətlərin inkişaf tempinin qorunub saxlanmasına töhfə versə də, ümumilikdə, ikinci mərhələdə tərəflərin hələ də münasibətləri etimad səviyyəsinə çatdıra bilmədiyini ifadə etmək olar.

**Üçüncü mərhələ (2001-2003)**

İran hakimiyyətinin fikrincə, Qafqaz-Xəzər regionunda regional təhlükəsizlik yalnız region ölkələri arasında əməkdaşlıq yolu ilə təmin edilməlidir (35). Bu kontekstdə NATO-nun baş katibi Corc Robertsonun 2001-ci ilin yanvarında Azərbaycana rəsmi səfəri İran tərəfindən narazılıqla qarşılanaraq ikitərəfli münasibətlərdə gərginliyə səbəb olmuş və həmin ilin iyulunda ziddiyyətlər pik həddə çatmışdı. 2001-ci il iyulun 23-də İslam Respublikasının hərbi təyyarələri Xəzər dənizinin Azərbaycan sektorunda geoloji kəşfiyyat işləri aparan gəmilərin üzərindən uçaraq Azərbaycanın hava sərhədini pozmuş, İran Hərbi-Dəniz Qüvvələrinə məxsus gəmi isə Azərbaycan gəmilərinə yaxınlaşaraq güc tətbiq etməklə hədələmişdi (20).İran hərbçilərinin bu hərəkəti Bakıda dövlət suverenliyinə təhdid kimi qarşılandı və İranın təxribatlarına cavab olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İran İslam Respublikasının Xarici İşlər Nazirliyinə nota verdi. Maraqlıdır ki, bu hadisədən dərhal sonra Türkiyə rəsmiləri İran əleyhinə açıqlamalar vermiş, 2001-ci il avqustun 21-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general H.Kıvrıkoğlu Bakıya rəsmi səfər etmiş, bundan sonra öz növbəsində İranın xarici işlər nazirinin müavini A.Əhaninin başçılıq etdiyi İran nümayəndə heyəti də 2001-ci il avqustun 28-

də Bakıya rəsmi səfərə gəlmişdi. Azərbaycanın milli təhlükəsizlik naziri N. Abbasov isə sentyabrın 4-də Tehrana səfər etdi (5). 2002-ci il mayın 18-də Azərbaycan Respublikasının Prezidenti H.Əliyev iki ölkə arasında münasibətlərdə gərginliyi azaltmaq üçün İrana səfər etdi. Bu səfər zamanı iki ölkənin prezidentləri Azərbaycan və İran arasında dostluq və əməkdaşlıq prinsipləri haqqında saziş imzaladılar.

Yuxarıdakı hadisə ekspertlər tərəfindən birmənalı qiymətləndirilmir. E.Kulai, M. Hafezyan, T. Lütfi, V. Qolməhəmmədi və H. Sərmadi hesab edir ki, Azərbaycan Xəzər dənizinin İranla Azərbaycan arasında mübahisəli dəniz ərazisi olan həmin zonada qeyri-qanuni olaraq geoloji kəşfiyyat işləri aparıb (38; 39). Lakin A.Aslanlı qeyd edir ki, bir tərəfdən Azərbaycan gəmiləri əvvəllər imzalanmış beynəlxalq müqaviləyə uyğun olaraq geoloji kəşfiyyat işləri aparıb, digər tərəfdən də İran bu zonanın cənubunda yerləşən bir neçə yatağı Azərbaycan yatağı kimi tanıyıb (1). Bu mərhələ ikitərəfli münasibətlərdə ən gərgin dövr kimi yadda qaldı. Hər iki dövlətin xarici siyasətdə fərqli strategiyaları və regional məsələlərdə fərqli mövqeləri olması səbəbindən nəzərdən keçirilən dövrdə Bakı ilə Tehran arasında ikitərəfli münasibətlər bir tərəfdən qarşıdurma, digər tərəfdən əməkdaşlıq ilə yadda qalıb. Lakin Azərbaycan Respublikası və İran İslam Respublikası prezidentlərinin səyləri nəticəsində 1993-2003-cü illərdə ikitərəfli əməkdaşlıq konstruktiv xarakterini qoruyub saxlaya bilmişdir.

**Nəticə**

1990-cı illərin əvvəllərindən başlayaraq İran hakimiyyəti öz xarici siyasətində türk dövlətləri arasında bir növ "körpü" rolunu oynayan Azərbaycanla ikitərəfli münasibətlərə xüsusi diqqət yetirirdi. Ortaq tarixi, etno-mədəni və dini xüsusiyyətlərinə görə Azərbaycan və İran arasında ikitərəfli münasibətlər 1991-2003-cü illərdə o qədər həssas idi ki, onların digər qonşu dövlətlərlə əməkdaşlığı, eləcə də iki ölkənin hakimiyyət orqanları tərəfindən həyata keçirilən daxili siyasət birbaşa dövlətlərarası münasibətlərin səviyyəsinə təsir edirdi.

Hər iki dövlətin xarici siyasətdə fərqli strategiyaları və regional məsələlərdə fərqli mövqelərinin olması səbəbindən nəzərdən keçirilən dövrdə Bakı ilə Tehran arasında ikitərəfli münasibətlər bir tərəfdən qarşıdurma, digər tərəfdən isə əməkdaşlıq kimi yadda qalıb. Lakin Azərbaycan Respublikası və İran İslam Respublikası prezidentlərinin səyləri nəticəsində 1993-2003-cü illərdə ikitərəfli əməkdaşlıq bütövlükdə konstruktiv xarakterini qoruyub saxlaya bildi.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Aslanlı A. Geosiyasi rəqabət və Geoiqtisadi maraqlar zəminində Xəzər hövzəsinin "Qordi düyünü". Bakı, 2014.*

*2. Bağırov O. Azərbaycan-İran iqtisadi əlaqələri: gerçəklik və imkanlar // Azərbaycan — İran əməkdaşlığı: əsas istiqamətlər və imkanlar / ed. by C. Vəliyev, M. Məhəmmədi. Bakı: SAM, 2018. P. 42-54.*

*3. Həsənli C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı: Diplomat, 1998.*

*4. Məhəmmədi M. Azərbaycan-İran münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / ed. by F. Məmmədov, C. Vəliyev, A. Məmmədov. Bakı: Poliart, 2017. P. 225-253.*

*5. Qasımlı M. Azərbaycan Respublikasının diplomatiya tarixi (1991-2003): 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015.*

*6. Vəkilov C. Azərbaycan Respublikası və İran 40-cı illər. Bakı: Elm, 1991.*

*7. Vəliyev Y. Müasir dövrdə Azərbaycan — İran münasibətləri // Tarix və onun problemləri. 2009. No. 4. P. 253-259.*

*8. Аббасбейли А.Н. Движение НАТО на Восток и Азербайджанская Республика // Каспийский регион: полити- ка, экономика, культура. 2007. № 1 (10). С. 9-16.*

*9. Агазаде М.М. Азербайджано-иранские отношения: основныенаправления и особенности в 1991—2019 гг. (историографический обзор) // Вестник РУДН. 2021 Т. 21. № 4 . С. 803-821. DOI: 10.22363/2313-0660-2021-21-4-803-821 .*

*10. Гасанлы Дж. СССР — Иран: азербайджанский кризис и начало холодной войны (1941—1946 гг.). М.: Герои Отечества, 2006.*

*11. Гасанов А.М. Подход Ирана к Каспийско-Черноморскому бассейну и безопасности Южного Кавказа, геост- ратегические интересы Азербайджана в области безопасности // Геостратегия. 2013. № 3 (15). С. 6-14.*

*12. Дружиловский С.Б. Ирано-турецкое соперничество в Закавказье // Научно-аналитический журнал Обозрева- тель — Observer. 2012. № 4 (267). С. 43-49.*

*13. Ибрагимов А.Г. Основные принципы и приоритеты внешней политики Азербайджанской Республики // Постсоветские исследования. 2021. Т. 4. № 2. С. 96-103.*

*14. Куртов А.А. Азербайджан — Иран: пока проблем в отношениях соседей больше, чем решений // Независимый Азербайджан. Новые ориен-*

*тиры: в 2 т. Т. II / под общ. ред. Е.М. Кожокина. М.: Российский институт стратегических исследований, 2000. С. 189-279.*

*15. Мамедова Н.М. Особенности политической и экономической ситуации в Иране и ее влияние на развитие отношений с государствами Центральной Азии и Кавказа // Центральная Азия и Кавказ. 2003. № 2. С. 72-82.*

*16. Маркедонов С.М. Тридцать лет Нагорно-Карабахского конфликта: основные этапы и перспективы урегулирования // Постсоветские исследования. 2018. Т. 1. № 2. 129-138.*

*17. Месамед В.И. Ирано-азербайджанские отношения в свете этнического фактора // Институт Ближнего Востока. 30.10.2011. URL: http://www.iimes.ru/?p=13544 (дата обращения: 05.07.2021).*

*18. Назаров И. Азербайджано-иранские взаимоотношения сегодня и перспективы на ближайшие годы // Центральная Азия и Кавказ. 2002. № 5 (23). С. 94—100.*

*19. Сажин В.И. К вопросу об ирано-азербайджанских отношениях // Центральная Азия и Кавказ. 2004.№ 4 (34). С. 97-105.*

*20. Сидоров И.Е. Иранское посредничество в карабахском конфликте как фактор ирано-азербайджанских отношений // Известия Саратовского государственного университета. Новая серия. Серия: История. Международные отношения. 2016a. Т. 16. № 2. С. 198-201. DOI: 10.18500/1819-4907-2016-16-2-198-201*

*21. Сидоров И.Е. Становление и развитие ирано-азербайджанских отношений (1989-2005 гг.): дис. ... канд. ист. наук. Саратов, 2016b.*

*22. Шенин С.Ю. Ирано-азербайджанский конфликт (июль-август 2001 г.) в контексте американских стратегических планов: пролог к третьей мировой, или Буря в стакане воды? // Americana: сборник статей. Волгоград: Волгоградский государственный университет, 2009. С. 213-228.*

*23. Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития*

*24. Abilov Sh. The Azerbaijan — Israel Relations: A Non-diplomatic, but Strategic Partnership // Journal of Central Asian and Caucasian Studies. 2009. Vol. 4. No. 8. P. 138-156.*

*25. Blank S. Azerbaijan's Security and U.S. Interests: Time for a Reassessment. Washington: Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2013.*

*26. Bocse A.M. EU Energy Diplomacy: Searching for New Suppliers in Azerbaijan and Iran // Geopolitics. 2019.Vol. 24. Iss.1. P. 145-173. DOI: 10.1080/14650045.2018.1477755*

*27. Brown S.C. Wanting to Have Their Cake and Their Neighbor's Too: Azerbaijani Attitudes towards Karabakh and Iranian Azerbaijan // Middle East Journal. 2004. Vol. 58. No. 4. P. 576-596.*

*28. Cornell S. Azerbaijan since Independence. New York: M.E. Sharpe, 2011.*

*29. Djalili M. Iran and the Caucasus: Maintaining Some Pragmatism // Connections: The Quarterly Journal. 2002.Vol. 1. No. 3. P. 49-58. DOI: 10.11610/Connections.01.3.07*

*30. Esfahani M.K. Iran's Foreign Policy in the South Caucasus: Relations with Azerbaijan and Armenia. Abingdon: Routledge, 2019.*

*31. Goudarzi M.R., Lashaki A.B. Effects of Regional and Transregional Players' Policies in Continuation of Tension between Iran and Azerbaijan // Central Asian and the Caucasus. 2013. Vol. 14. Iss. 4. P. 48-57.*

*32. Goudarzi M.R., Lashaki A.B., Lakani S.F. Turkish Foreign Policy in South Caucasus and Its Impact in Iran-Azerbaijan Relationship // Journal of Politics and Law. 2015. Vol. 8. No. 1. P. 122-129. DOI: 10.5539/jpl.v8n1p122*

*33. Herzig E. Iran and the Former Soviet South. London: Royal Institute of International Affairs, 1995.*

*34. Hunter S. The Evolution of the Foreign Policy of the Transcaucasian States // Crossroads and Conflict: Security and Foreign Policy in the Caucasus and Central Asia / ed. by G.K. Bertsch, C.B. Craft, S.A. Jones, M.D. Beck. New York: Routledge, 2000. P. 25-48.*

*35. Jansiz A., Hojaste M.R. Conflicts in the Caucasus Region and Its Effects on Regional Security Approach // Journal of Politics and Law. 2015. Vol. 8. No 1. P. 83-93. DOI: 10.5539/jpl.v8n1p83*

*36. Jödicke A. Shia Groups and Iranian Religious Influence in Azerbaijan: The Impact of Transboundary Religious Ties on National Religious Policy // Eurasian Geography and Economics. 2017. Vol. 58. Iss. 5. P. 533-556.*

*37. Karasik T. Azerbaijan, Central Asia, and Future Persian Gulf Security. Santa Monica: RAND, 1993.*

*38. Koolaee E., Hafezian M.H. The Islamic Republic of Iran and the South Caucasus Republics // Iranian Studies. 2010.Vol. 43. No 3. P. 391-409. DOI: 10.1080/00210861003693935*

*39. Lotfi T., Golmohammadi V., Sarmadi H. Political Consideration and Development of Economic*

*Relations, Economic Cooperation Capacities of Iran and the Republic of Azerbaijan // Mediterranean Journal of Social Sciences. 2016. Vol. 7. No. 3. P. 72-82. DOI: 10.5901/mjss.2016.v7n3s3p72*

*40. Makili-Aliev K. Azerbaijan's Foreign Policy: Between East and West. Roma: Istituto Affari Internazionali, 2013.*

*41. Mohsenin M. Iran's Relations with Central Asia and the Caucasus // Iranian Journal of International Affairs. 1996.Vol. 7. No 4. P. 834-853.*

*42. Nasibli N. Azerbaijan-Iranian Relations: Past and Present // Journal of Azerbaijani Studies. 1999. Vol. 22. P. 3-21.*

*43. Rabbiee H., Gharehbeygi M., Mousavi S. Hegemony of Iran in the Caspian-Central Asia Region from the Perspective of Geopolitical Realities // Communication and Globalization. 2015. Vol. 5. No 1. P. 65-73.*

*44. Sajjadpour S.K. Iran, the Caucasus and Central Asia // The New Geopolitics of Central Asia and Its Borderlands / ed. by A. Banuazizi, M. Weiner. London: I.B. Tauris & Co Ltd, 1994. P. 197-216.*

*45. Shaffer B. Borders and Brethren: Iran and the Challenge of Azerbaijani Identity. Cambridge: MIT Press, 2002.*

*46. Shaffer B. The Formation of Azerbaijani Collective Identity in Iran // Nationalities Papers. 2000. Vol. 28. No. 3.P. 449-477. DOI: 10.1080/713687484*

*47. Attar A. İran'ın farslaşma süreci ve bu süreçte farsçanın rolü // Erdem dergisi. 2008. Sayı 52. P. 1-40. (На турец- ком языке).*

*48. Gökdağ B., Heyat R. İran türklerinde kimlik meselesi // Bilgi. 2004. Vol. 30. P. 76-79.*

## XÜLASƏ

Məqalə Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan və İran arasında ikitərəfli münasibətlərin tədqiqinə həsr olunub. Müəllif əməkdaşlığın prioritet istiqamətlərini, eləcə də onların inkişaf tempinə təsir edən amilləri təhlil edir. Qeyd olunur ki, iki dövlətin xarici siyasət strategiyası və regional məsələlərdə mövqeləri fərqli olduğundan, onlar arasında münasibətlər həm əməkdaşlıq, həm də qarşıdurma ilə səciyyələnir. Yekunda belə qənaətə gəlinir ki, siyasi elitaların, xüsusən də prezident Heydər Əliyevin səyləri sayəsində bütövlükdə ikitərəfli münasibətlər öz konstruktiv xarakterini qoruyub saxlaya bildi.

**Açar sözlər:** *Azərbaycan Respublikası, İran İslam Respublikası, ikitərəfli əlaqələr, Xəzər dənizi, Cənubi Qafqaz.*

**Алимуса Ибрагимов**

**Основные направления Азербайджано-иранских отношений в период президентства Гейдара Алиева**

## РЕЗЮМЕ

Статья посвящена исследованию двусторонних отношений между Азербайджаном и Ираном в период президентства Гейдара Алиева. Автор анализирует приоритетные направления сотрудничества, а также факторы, повлиявшие на темп их развития. Отмечается, что, поскольку оба государства имели разные внешнеполитические стратегии и международное позиционирование по региональным вопросам, двусторонние отношения между ними характеризовались противоречивостью — одновременно сотрудничеством и противостоянием. Однако благодаря усилиям политических элит, особенно президента Гейдара Алиева двусторонние отношения в целом смогли сохранить свой конструктивный характер.

**Ключевые слова:** *Азербайджанская Республика, Исламская Республика Иран, двусторонние отношения, Каспия, Южный Кавказ.*

**Alimusa Ibrahimov**

**The main directions of Azerbaijani-Iranian relations during the presidency of Heydar Aliyev**

## SUMMARY

The article is devoted to the study of bilateral relations between Azerbaijan and Iran during the presidency of Heydar Aliyev. The author analyzes the priority areas of cooperation, as well as the factors that influenced the pace of their development. It is noted that since both states had different foreign policy strategies and international positioning on regional issues, bilateral relations between them were characterized by inconsistency - both cooperation and confrontation. However, thanks to the efforts of the political elites, especially the president Heydar Aliyev bilateral relations as a whole were able to maintain their constructive character.

**Keywords:** *Republic of Azerbaijan, Islamic Republic of Iran, bilateral relations, Caspian Sea, South Caucasus .*

UOT 327;930.22

# KIRGIZ CUMHURİYETİ YÖNETİM YAPISI

**Prof. Dr. EYÜP ZENGİN**
*E-mail: ezengin@yahoo.com*

**Dr. Öğretim Üyesi BURAK KOÇAK**
*Recep Tayyip Erdoğan Üniversitesi*
*E-mail: burak.kocak@erdogan.edu.tr*

## GİRİŞ

Bu çalışmanın amacı, Sovyet Sosyalist Cumhuriyetleri Birliği (SSCB)'nin dağılmasından sonra bağımsızlığını kazanan ülkelerden biri olan Kırgız Cumhuriyeti'nin tarihsel süreçte yaşadığı dönüşümleri incelemek ve mevcut yönetim yapısını analiz etmektir. Bu doğrultuda Kırgız Cumhuriyeti'nin bağımsızlığının ilanıyla başlayan reformlar ve yaşanan sık devrimlerin yönetim yapısında ve idari yapıda neleri değiştirdiğini anlayabilmek bir diğer gayemizdir.

Orta Asya Cumhuriyetleri'ne genel olarak bakıldığında uzun süreli – tek aktörlü bir siyasi süreci benimsedikleri görülmektedir. Bu cumhuriyetlerde demokrasi anlayışı ülkeden ülkeye değişebilmektedir. Kırgız Cumhuriyeti de 'demokrasi adası' olarak bilinmesine karşın darbeler ile birkaç kez yönetim değişiklikleri yaşamıştır. Aslında bu durum bile Orta Asya ülkelerinin 'demokrasi'den anladıklarının farklı olduğunu göstermektedir.

Çalışmada önce Kırgız Cumhuriyeti'nin, SSCB'den kopuş ve bağımsızlığını ilan ediş süreci üzerinde durulacak, sonra da demokrasi doğrultusunda nelerin yapıldığı izah edilecektir. Devrimler ile kesintiye uğrayan yönetimlerin başkanlık, yarı başkanlık ve parlamenter demokrasiye geçiş süreçleri anlatılarak Kırgızistan'ın idari yapılanması incelenecektir.

## 1. Kırgızistan Hakkında Genel Bilgiler

### 1.1. Coğrafi Yapı

This article is devoted to studying the Republic of Turkey's position on the events of the Arab Spring in Egypt, Syria and Libya. In addition, the reaction of these countries to Turkey's position is also studied . The last few years of Turkish foreign policy have been marked by ambiguous tendencies. Of particular note are the confrontation between Turkey and Egypt in the Mediterranean Sea, Turkey's involvement in civil wars in Libya and Syria. In the first case, Turkey participates alongside the government that runs Tripoli, the country's internationally recognized capital, and in the second case, on the contrary, it supports forces opposed to the central government. Relations between Turkey and Egypt have gone from the friendliest under the Morsi government to openly hostile under the Sisi government. The events of the Arab Spring, when civil society in these countries decided to overthrow local governments, opened the window for Turks to actively participate in the Middle East's political arena and finally cemented its status as a regional power. The relevance of the article lies in the fact that it was Turkey's position during the Arab Spring that refined the current situation in relations between the countries. Various academic and open sources were used in writing the article, including a critical analysis of the author.

**Key words:** *Turkey, Syria, Libya, Egypt, Arab Spring.*

**Халид Алекперов Эмин оглы**

***Магистр, Бакинский Государственный Университет***

**СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ВНЕШНЕПОЛИТИЧЕСКОЙ ПОЗИЦИИ ТУРЦИИ В СВЯЗИ С СОБЫТИЯМИ АРАБСКОЙ ВЕСНЫ В ЕГИПТЕ, СИРИИ И ЛИВИИ**

**АННОТАЦИЯ**

Данная статья посвящена изучению позиции Турецкой Республики к событиям «арабской весны» в ряде Египта, Сирии и Ливии. Кроме того, изучается и реакция этих стран на позицию Турции. Последние годы внешней политики Турции характеризуются неоднозначными тенденциями. В частности, стоит отметить противостояние Турции и Египта в Средиземном море, участие Турции в гражданских войнах в Ливии и Сирии. Причем в первом случае Турция выступает на стороне правительства, возглавляющего Триполи, международно признанной столицы, а во втором случае, наоборот, поддерживает силы, противостоящие центральной власти. Отношения между Турцией и Египтом из самых дружеских при правительстве Мурси превратились во враждебные при правительстве Сиси. Актуальность статьи заключается в том, что именно позиция Турции в период «арабской весны» сформировала нынешнюю ситуацию в отношениях между странами. При написании статьи использовались различные академические и открытые источники, включая критический анализ авторов статьи.

**Ключевые слова:** *Турция, Ливия, Сирия, Египет, Арабская весна.*

**Xalid Ələkbərov Emin oğlu**

***magistrant, Bakı Dövlət Universiteti***

**MISIR, SURİYA VƏ LİVİYADA "ƏRƏB BAHARI" HADİSƏLƏRİ İLƏ ƏLAQƏDAR TÜRKİYƏNİN XARİCİ SİYASƏT MÖVQEYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ**

Bu məqalə bir sıra Misir, Suriya və Liviyada "ərəb baharı" hadisələri ilə bağlı Türkiyə Cümhuriyyətinin mövqeyinin öyrənilməsinə həsr olunub. Bundan başqa, bu ölkələrin Türkiyənin mövqeyinə reaksiyası da öyrənilir. Türkiyənin xarici siyasətinin son illəri qeyri-müəyyən tendensiyalarla xarakterizə olunur. Xüsusilə Aralıq dənizində Türkiyə ilə Misirin qarşıdurmasını, Türkiyənin Liviya və Suriyadakı vətəndaş müharibələrində iştirakını qeyd etmək lazımdır.Birinci halda Türkiyə beynəlxalq səviyyədə tanınan Liviyanın paytaxtı Tripoliyə rəhbərlik edən hökumətin tərəfindədir, ikinci halda isə əksinə, mərkəzi hakimiyyətə qarşı olan qüvvələri dəstəkləyir. Türkiyə ilə Misir arasındakı münasibətlər Mursi hökuməti dövründə dost münasibətdən Sisi hökuməti dövründə düşmənçiliyə çevrilib. Bu ölkələrin vətəndaş cəmiyyətinin kök salmış yerli hakimiyyət orqanlarını devirmək qərarına gəldiyi "ərəb baharı" hadisələri Türkiyənin Yaxın Şərqin siyasi arenasında fəal iştirakına və regional güc statusunun son möhkəmlənməsinə pəncərə açdı. Məqalənin aktuallığı ondan ibarətdir ki, ölkələr arasında münasibətlərdə mövcud vəziyyəti formalaşan məhz Türkiyənin "ərəb baharı" zamanı tutduğu mövqe olub. Məqaləni yazarkən müxtəlif akademik və açıq mənbələrdən, o cümlədən məqalə müəllifin tənqidi təhlilindən istifadə edilmişdir.

**Açar sözlər:** *Türkiyə, Liviya, Suriya, Misir, Ərəb Baharı.*

UOT 327;930.22

# INTERNATIONAL TERRORISM AFTER ISIS DEFEAT: TRENDS AND PERSPECTIVES

**FARAH MAMMADOVA**
*Dissertator of Baku State University, International Relations and Modern Integration Processes Department*
*E-mail: farashka97@gmail.com*

The study of international terrorism has great theoretical and practical significance. The history of terrorism goes back thousands of years,but the beginning of the XXI century is undoubtedly distinguished by its quantitative growth and qualitative changes. Terrorism has become a global problem. According to the Institute of Economics and Peace, about 100 thousand terrorist attacks have been committed since 2002 , the victims of which were more than 200 thousand people [5]. Economic damage from terrorism amounts to tens of billions of dollars annually. It should be noted that modern terrorism has become very strong organizationally. Currently, terrorist activities are carried out not by individuals and groups, but by terrorist structures. They consist of cells that directly carry out terrorist attacks; organizations engaged in propaganda activities; information technology structures; financial institutions, etc. In the early 2000s, there were more than 500 international terrorist organizations in the world, the total budget of which was annually from 5 to 20 billion dollars. The scale of the problem has led some authors to talk about the beginning of the Fourth World War – the war on terrorism.

The geography of international terrorism has expanded. Terrorist attacks are taking place in the Middle East, in the Western Asia, Africa. Terrorists are increasingly choosing developed Western countries as targets for attacks. The beginning of the XXI century was marked by an unprecedented terrorist attack on the United States. Then a wave of terrorism swept Western Europe (the Madrid bombings in 2004, the attacks on London's transport system in 2005, a series of terrorist attacks in Paris in November 2015,Brussels in March, Nice in July,Berlin in December 2016, London in March, Manchester in May, Catalonia in August 2017, March 2018 in the south France, December 2018 in Strasbourg, May 2019 the explosion in Lyon, November 2019 attack on London Bridge and etc.). At the same time, in the last few years there has been a decrease in the number of terrorist acts and their victims.Thus, the death rate from terrorism is currently 52% lower than in peak 2014.[1:p.3]. The largest reduction in the number of deaths is observed in Iraq,Syria and Nigeria. In Europe, the number of terrorist victims is also decreasing –from more than 200 people in 2017 to 62 people two years later.

Of course, some decrease in the activity of international terrorism is associated with the defeat of ISIS, the organization which suffered in Iraq and Syria. The State created by the terrorists was liquidated.It is not surprising that due to the defeat of ISIS, the number of victims of terrorist attacks committed by this organization has decreased by about 70% worldwide [3].

The reduction in the scale of terrorist activity in the world is also caused by the weakening of the organization "Boko Haram" (since 2015 – "West African province of the Islamic State").

Undoubtedly, the coronavirus pandemic also contributes to the "freezing" of international terrorism. The closure of borders, monitoring of compliance with the regime of self-isolation and quarantine prevented the activity of terrorists.

At the same time, it is too early to celebrate the victory over terrorism. Although the intensity of terrorist attacks has generally decreased, their number in some regions has not decreased at all. So, Afghanistan has become the country most affected by terrorism, as there has been an increase in the number of victims of terrorist attacks by 59% compared to 2017 [4]. The Taliban movement is becoming more active in the country, which is becoming the most dangerous terrorist organization in the world.

And ISIS, with its extensive network structure, cannot be written off. Some affiliated groups do not reduce their activity. At the moment, a special threat to international stability is posed by foreign fighters who are actively returning to their countries of residence after defeats of ISIS in Syria. For example, some persons who fought on the territory of this country appeared in episodes related to terrorism on the territory of France.

Historical experience shows that political terrorism experiences ups and downs. Thus, the surge of terrorist activity in the second half of the XIX – early XX centuries was replaced by a decline that lasted until the second half of the 1960s, when a new wave of terrorism rose (ultra-left in Western Europe, Palestinian in Middle East and etc.).

In the 1990s the next rise of international terrorism began – Islamist,the leading force of which was first Al-Qaeda and then ISIS.

As we can see, international terrorism is characterized by survivability, the ability to revive in new forms. It has become an attribute of world politics, an integral factor in international relations, which is constantly evolving, adapting to the changing situation,which allows it to maintain its potential.

Therefore, we can not count on the fact that the defeat of ISIS in Syria and Iraq will lead to to the disappearance of terrorism from the political arena. Moreover, for a strategic victory over terrorism, force methods are not enough. It is no accident that in 2016 UN Security Council resolution once again recognized that terrorism cannot be defeated only by military force, law enforcement measures and intelligence operations.

The physical elimination of terrorists does not have a long-term effect if the causes of terrorism remain. The current wave of international terrorism – Islamist terrorism –primarily covers those Muslim countries that are most affected by the uneven and painful modernization of the Western model for the broad strata of society and part of the elites [6].Their disappointment that "development" in the forms proposed by the ruling corrupt elites does not lead to social peace and prosperity is combined with perceptions of injustice towards the Muslim world by developed states of the West.

western countries. This combination feeds the illusion that a return to the values of early Islam and their spread will guarantee more than just a social order and ensure respect and a strong position for Muslims in the world.

In the conditions of modernization and conflict-prone globalization that threaten the cultural and linguistic independence of people, the religious factor serves as a means of identifying society, and political terrorism under religious slogans becomes a method of fighting against Westernization and social injustice.

The intensification of terrorism is also closely linked to political conflicts in Islamic states and attempts by the United States to influence their development through armed intervention. Statistics show that military interventions by Western countries in Afghanistan, Iraq, and Syria have caused outbreaks of terrorist attacks around the world. 95% of victims of terrorist attacks particularly are associated with them.

One of the consequences of armed conflicts in developing countries has been the unprecedented and uncontrolled migration of Asian and African residents to developed countries, many of whom are Muslim believers. It also has a serious impact on the growth of religious terrorism. The resettlement of immigrants from the Islamic world to Western countries leads to the fact that immigrants begin to see the inequality in the situation of rich and poor countries not only on TV screens, but also in real life.

Immigrants make up a fairly high percentage of the population in European countries, but they are mostly on the social bottom. This causes indignation, and they become potential recruits. Many migrants cannot and/or do not want to integrate into a society alien to them, live separately in a kind of "ghetto", which also favors the spread of extremist sentiments. Unsurprisingly, the European countries most affected by terrorism also have the highest rates of immigrants and internally displaced persons[7]. It shows a close connection between the current refugee crisis, military conflicts and the level of terrorism.

Did the military victory over ISIS eliminate the above-mentioned sources of international terrorism? Obviously not. Moreover, the economic crisis caused by the coronavirus pandemic leads to a further deterioration of the socio-economic situation of the poorest social strata in Western Europe. Therefore, despite the weakening ISIS, in the coming years, most of the global terrorist activity will still come from Islamist/jihadist militant movements operating in regions where armed conflicts occur and have cells in Western countries.

The same negative moods –rage, anger arise on the opposite flank, among low-income groups of the local population Western Europe and North America, but only in relation to immigrants. They see them as the reason for their growing financial difficulties, declining living standards, unemployment, etc.

It is not surprising that over the past five years, the number of terrorist acts committed by the far-right has tripled. The most high - profile crime of the far- right was the mass shooting on March 15 , 2019 in a mosque and an Islamic center in Christchurch (New Zealand), as a result of which 50 people were killed [2]. Taking into account the current aggravation of the socio-economic crisis, it is possible to predict a further increase in the activity of right-wing extremists.

## Solution

Therefore, in the fight against terrorism, in my opinion, it is necessary to focus not on its suppression, but on prevention. Countering terrorism is such a complex, strategically important and complex task that its solution cannot be reduced to a forceful reaction to another terrorist attack. Prevention of terrorism should be systemic in nature, include a set of political, economic, informational, social, medical, educational, cultural and other measures aimed at identifying and eliminating the causes and conditions that contribute to the emergence and spread of terrorism. Currently, special attention should be paid to the solution of those socio-economic, political and socio-cultural problems that are exacerbated by the pandemic and its result.

Growing poverty and increasing social inequality in the modern

world are a breeding ground for terrorism, not only Islamist and ultra-right, but also ultra-left, which will undoubtedly try to speculate on the socio-economic problems of the lower strata of society in Western countries.

There is still a lot to be done to make the victory over terrorism more lasting both at the international level and at the level of individual States. It is important to understand that the confrontation with terrorism knows no changes and pauses. Otherwise, after some time, the terrorists will take advantage of the loss of vigilance and strike again. As practice shows, terrorism often takes governments and international organizations by surprise, goes on the offensive, seizes the initiative.

In the late 1980s, when terrorists in Western Europe were defeated, Western states reduced their anti-terrorist activity and were not ready for a new wave of terrorism. Added to this was the "vertigo" from the victory of the United States and its allies in the Gulf War, which instilled confidence in the Western world that Islamic extremism is over. However, as subsequent events have shown, this confidence was illusory. Hopefully,this time the world will not repeat the mistakes of the past.

## BIBLIOGRAPHY:

*1. Allen, Greg; Chan, Taniel (2017, July): Artificial Intelligence and National Security. (Belfer Center Study)*

*2. Beesley, Julie Patricia (2017, July): Organised Chaos: Bringing Complexity to Criminology and the Study of Organised Crime, Terrorism and the Crime-Terror Nexus. (Doctoral Thesis, University of Sydney, Sydney, Australia). URL: http://hdl.handle.net/2123/17067*

*3. Berger, J. M. (2017, June): Deconstruction of Identity Concepts in Islamic State Propaganda: A Linkage-Based Approach to Counter-Terrorism Strategic Communications. (Conference Paper; Europol, ECTC Advisory Group). URL: https://www.europol.europa.eu/publications-documents/deconstruction-of-identity-conceptsin-islamic-state-propaganda*

*4. Berkebile, Richard E. (2017): What Is Domestic Terrorism? A Method for Classifying Events from the Global Terrorism Database. Terrorism and Political Violence, 29(1), 1-26. DOI: https://doi.org/10.1080/09546553.201 4.985378*

*5. Institute for Economics & Peace. Global Terrorism Index 2019: Measuring the Impact of Terrorism. Sydney, 2019. 97 p.*

*6. Marret, Jean-Luc et al. (2017, June): Innovative Methods and Procedures to Assess Counter-Violent-Radicalisation Techniques in Europe. (IMPACT Europe Report). URL: http://impacteurope.eu/portfolio/final-projectsynthesis-report*

*7. Ravndal, Jacob Aasland (2016, June): Right-Wing Terrorism and Violence in Western Europe: Introducing the RTV Dataset. Perspectives on Terrorism, 10(3), 2-15.*

*8. Silva, Derek M. D. (2018, April-June): "Radicalisation: The Journey of a Concept", Revisited. Race & Class, 59(4), 34-53. DOI: https://doi.org/10.1177/0306396817750778*

*9. Simpson, Matthew Aaron (2014, August): Reanchoring Terrorism Studies: An Application of Social Movement T heory to the Concept of Domestic Terrorism. (Doctoral Thesis, University of Utah,*

*Salt Lake City, United States). URL: https://collections.lib.utah.edu/details?id=196775*

*10. Van Dongen, Teun Walter (2014): The Science of Fighting Terrorism: The Relation between Terrorist Actor Type and Counterterrorism Effectiveness. (Doctoral Thesis, Leiden University, Leiden, The Netherlands). URL: http:// hdl.handle.net/1887/29742*

### ABSTRACT

Analysis is done on the global situation following ISIL's military defeat in Syria and Iraq. It is demonstrated how the weakening of the main Islamic terrorist group has paradoxical effects. The argument is supported that the downfall of ISIL does not herald the end of global terrorism. The causes of a new rise in terrorist activity in various forms are investigated. As a top priority in the fight against it, the prevention of terrorism is given a special consideration.

**Key words:** *international terrorism, ISIS, Islamic extremist terrorist activities, causes of terrorism, terrorism prevention*

**Мамедова Фарах**

## МЕЖДУНАРОДНЫЙ ТЕРРОРИЗМ ПОСЛЕ ПОРАЖЕНИЯ ИГИЛ: ТЕНДЕНЦИИ И ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

В данной статье анализируется ситуация которая сложилась в мире после громкого поражения ИГИЛ в Сирии и Ираке и показаны противоречивые последствия ослабления ведущей террористической организации исламистов. Поражение ИГИЛ не означает победу над международным терроризмом, организация ослабла, но не побеждена и этот вывод обоснован. Также исследованы причины нового подъема террористической активности в различных формах. Особое внимание уделено профилактике терроризма как приоритетному направлению борьбы с ним.

**Ключевые слова:** *международный терроризм, ИГИЛ, террористическая деятельность исламских экстремистов, причины терроризма, профилактика терроризма.*

**Fərəh Məmmədova**

## İŞİD-İN MƏĞLUBİYYƏTİNDƏN SONRA BEYNƏLXALQ TERRORİZM: TENDENSİYALAR VƏ PERSPEKTİVLƏR

### XÜLASƏ

Bu məqalədə İŞİD-in Suriya və İraqda güclü məğlubiyyətindən sonra dünyada yaranmış vəziyyət təhlil edilir və aparıcı islamçı terror təşkilatının zəifləməsinin ziddiyyətli nəticələri göstərilir. İŞİD-in məğlubiyyəti beynəlxalq terrorizm üzərində qələbə demək deyil, təşkilat zəifləyib, amma məğlub olmayıb və bu nəticə əsaslandırılmışdır. Əlavə olaraq müxtəlif formalarda terror fəaliyyətinin yeni yüksəlişinin səbəbləri də araşdırılmışdır. Terrorçuluğa qarşı mübarizədə prioritet istiqamət kimi onun qarşısının alınmasına xüsusi diqqət yetirilmişdir.

**Açar sözlər:** *beynəlxalq terrorizm, İŞİD, islam ekstremistlərinin terror fəaliyyəti, terrorizmin səbəbləri, terrorizmin qarşısının alınması.*

UOT 94(479.24)

# XIX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ ALBAN KİLSƏSİNİN TARİXİNDƏN

**HƏSƏNOV H.N.**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, dosent*
*E-mail: hacihasanov@mail.ru*

**NİFTƏLİYEV R.Y.**
*AMEA A.A.Bakıxanov adma Tarix İnstitutunun aparıcı elmi işçisi, dosent*
*E-mail: ramilniftali@rambler.ru*

Əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrin əvvəllərində də Gəncəsər kilsəsi öz müstəqilliyini qorumaq uğrunda mübarizəni davam etdirirdi. XVIII əsrin ikinci yarısında Gəncəsər kilsəsinin nüfuzu güclənməyə başladı. Gəncəsər patriarxının fəaliyyətinin nəticəsi idi ki, hətta Həştərxan yeparxiyası Üçkilsə yurisdiksiyasından çıxmışdı. Həştərxan yeparxiyasının Gəncəsər katolikosunun tabeliyini qəbul etməsi Üçkilsənin narazılığı ilə qarşılandı. Təşviş keçirən katolikos Simeon (1763-1780-ci illərdə taxtda olmuşdur) yepiskopların iclasını çağırmaqla bu məsələni müzakirə etmiş və arximandrit Davidi Peterburq sarayına göndərməyi qərara almışdı. Məhz həmin vaxtdan Üçkilsənin Rusiya ilə ilk əlaqələri daha da güclənməyə başlamışdı: II Yekaterina Həştərxan yeparxiyasını Simeonun xahişi ilə Gəncəsər katolikosluğuna deyil, Üçkilsəyə birləşdirdi 14, s. 104].

XVIII əsrin sonlarında Üçkilsə ermənilərinə nisbətən Qarabağ qriqorian albanların Rusiyaya münasibətdə təsirli üstünlüyü hiss olunacaq dərəcədə yuxarı olması, hətta Üçkilsə patriarxlığına alban əsilli arxiyepiskopun keçməsi reallığı da yaratmışdı. G.A. Ezovun “Üçkilsənin rus hökuməti ilə münasibətləri” adlı broşurasına istinad edən V.L. Veliçko yazırdı: “XVIII əsrin sonlarında Üçkilsə katolikosunun ümumxalq seçkisi prinsipinin əksinə olaraq, bu kafedraya yalnız Üçkilsə ruhaniləri tərəfindən seçilmiş arxiyepiskop Qukas (Lukas) oturdu. Konstantinopol erməni patriarxı Zaxariya buna etiraz etdi. Qukas ona mehriban məktub yazdı, bu zaman isə Konstantinopol erməni icması türk hökumətindən Zaxariyanın vəzifəsindən götürülməsini xahiş etdi. Cənab Ezovun göylərədək mədh etdiyi Qukasın tələskənliyi onunla izah edilir ki, Üçkilsə taxtına Aqvan (Şuşa şəhəri yaxdığında Qanzasar monastırı) patriarxı İsraelin seçilməsindən yaxa qurtarmaq lazım gəlmişdi. Söhbət müstəqilləşən Aqvan patriarxlığına zərbə vurmaq və teokratik mütləqiyyət yaratmaqdan gedirdi” [3, s.79].

XVIII əsrin 80-ci illərində Rusiyanın şərq siyasətinin tərkib hissəsi olaraq, 1787-cı ildə Cənubi Qafqazda Albaniya dövlətinin yaradılması ilə bağlı xüsusi layihə hazırlanmışdı. G.A. Potyomkinin hazırladığı həmin layihədə İrandakı qarışıqlıqdan istifadə edərək Bakı, Dərbənd, digər torpaqları tutmaqla, Gilanı birləşdirməklə ələ keçirilmiş torpaqları Albaniya adlandırmaq nəzərdə tutulurdu [6, s. 46].

II Yekaterinanın ölümündən sonra imperator taxtına çıxan Rusiya imperatoru I Pavelin rus qoşunlarını Cənubi Qafqazdan geri çağırması, habelə onun 1799-cu ildə Qarabağ məliklərinin adma imzaladığı fərman [15, s. 457] onlar üçün gözlənilməz oldu. Fərmanda imperator Qarabağ məlikləri üçün ayrıca dövlətin yaradılması deyil, “Rusiyanın tabeliyindəki Kartli-Kaxetiyanın Qazax torpaqlarına köçməsini" tövsiyə edirdi.

Rusiya Cənubi Qafqazda albanlardan və gürcülərdən yararlanaraq “xristianları müsəlmanların zülmündən xilas etmək” şüarından çıxış etməklə buraya soxulmaq üçün bəhanə əldə etmək istədiyi kimi, İstanbulu öz imperiyasının paytaxtı görmək istəyən Rusiya çarları da Osmanlı imperiyasına da soxulmaq üçün burada yaşayan ermənilərdən istifadə etməyə başladılar. Bununla da imperiyanın bu yönümdəki fəaliyyəti bəhrəsini verməyə başlamışdı. Belə ki, Rusiyanın İstanbuldakı elçisi Tomar 1801-ci ildə mərhəmət hissilə Üçkilsənin başçısı Qukasın Rusiyanın köməyi ilə öz millətini bərpa etməyə çalışdığını qeyd edirdi [3, s.80].

Cənubi Qafqazda baş verən siyasi hadisələr, Gəncənin işğal edilməsi, Qarabağ, Şəki və Şamaxı xanları ilə “ilhaq” müqavilələrinin bağlanması nəticəsində Alban kilsəsinin və məliklərin müstəqil siyasi qüvvə rolunu faktiki olaraq heçə endirmişdi. İrəvan xanlığına Rusiya yürüşləri isə Üçkilsəyə diqqəti yenidən

artırdı. İlk üç yürüşün uğursuz olması gələcəkdə İrəvan ermənilərindən daha geniş istifadə edilməsini zəruri etməyə başladı. Rusiyanı Cənubi Qafqazın qriqorian alban əhalisi deyil, ermənilər maraqlandırırdı. Belə vəziyyət Qarabağ albanları üzərində ermənilərin təsirinin daha da artmasına şərait yaradırdı. XIX əsrin əvvəllərinədək Üçkilsə katolikosu ilə rəqabət aparan və əksər hallarda isə tamamilə ondan asılı olmayan, ayrıca mövcud olan Aqvan patriarxlığı xarici katolikosun nəfinə əvvəlcə sıxışdırıldı, sonra isə faktiki olaraq xəlvəti, üstüörtülü şəkildə ləğv edildi, eskomasiva (məharətlə mənimsəmək və ya xəlvəti dəyişmək) olundu [3, s.79].

Xristian alban liderləri yeni yaranmış bu situasiyanı kifayət qədər qiymətləndirə bilmədilər və əvvəlki kimi hərəkət etməkdə davam etdilər. Cənubi Qafqazda Gürcüstan dövlətini yaratmağa çalışan P.D. Sisianov tərəfindən Yelizavetpol xristian icmasına rəhbərliyinin Tiflis apxiyepiskopuna verilməsi [29, s. 672] patıiarx İsrailin narazılığına səbəb olmuşdu. Həm də erməni katolikoslarının xeyrinə sıxışdırılan Alban patriarxı İsrail 1806-cı il 19 avqust tarixli məktubunda Qudoviçə yazırdı: “Ağvan vilayəti (Qarabağ, Yelizavetpol, Şəki və Şirvan) onun eparxiyasına daxildir və həmişə tamamilə onun xüsusi səlahiyyətində olmuşdur. Amar (“Amaras” nəzərdə tutulurdu - müəl.) patriarxlığından asılı olan keçmiş Ararat patriarxlığının ona heç bir aidiyyəti yoxdur. Qaydalara görə Yelizavetpol (xristian) icmasının xahişi ilə indi də onların yanındayam və 40 üdən çoxdur ki, onların monastr və eparxiyalarına layiqincə patriarxlıq etmişəm. Lakin indi rəhbərliyin əmrinə əsasən guya onlar (Yelizavetpol xristian icması nəzərdə tutulur) Sisianov tərəfindən Tiflis apxiyepiskopu İoarnn idarəçiliyinə verilmişdir. Ona görə də xahiş edirəm ki, həmin əraziyə rəhbərliyi mənə qaytarasınız” [16, s. 79-80].

Qarabağ patriarxı İsrail onun xahişi yerə salındığı üçün [23, dok. 323] ruslara qarşı sərt mövqeyə keçərək, Yelizavetpol albanlarını vergi yığanlara qarşı çıxmağa çağırmışdı. Belə ki, onun çağırışına əsasən 500 yüzə yaxın yerli alban vergi yığmağa göndərilmiş yepiskop Minası daşa tutmuşdu. Buna görə də İsrail Yelizavetpoldan qovulmuş və ona geri qayıtmağa icazə verilməmişdi [19, c. 80-81].

Patriarx İsrailin ölümündən sonra Gəncəsərin Üçkilsəyə birləşdirmək xahişi ilə Üçkilsə apxiyepiskopu İoannes Qudoviçə müraciət etmişdi. Onun təqdim etdiyi məktubunda yazılırdı: “... Ağvan patriarxı İsrailin ölümündən sonra bizim dünyasını dəyişmiş Danilin arzusu nəzərə alınaraq, diyarda yaşayan bütün erməniləri mənim tabeliyimdə birləşdirməyi imperatordan rica etməyinizi xahiş edirəm” [7, c. 81].

İsrailin ölümünün xəbərini alan Sərkis qardaşı vardapet Bağdasanı Gəncəsərə yola salmışdır. Bağdasar qısa müddətdə Gəncəsər monastırını qaydaya salmışdı. İbrahimxəlil xanın hədələrindən ehtiyat edərək ruslar tərəfindən işğal olunmuş ərazidəki Ağpad monastırında yeparxiya yepiskonu olan Sərkis Həsəncalalyan burada alçaldılmışdı. O, bununla bağlı Qudoviçə yazdığı məktubunda məlumat verirdi [24, Док. 343]. Qudoviçdən mənfi cavab alan arxiyepiskop Sərkis ruslara qarşı itaətsizlik göstərməyə başlamışdı [25, Док. 375]. Həm də Yelizavetpol “erməniləri” alçaldılırdı. Belə ki, Yelizavetpolun “erməni əhalisi”nin kovxa Bədəl Apriyumovun vəzifəsinin əlindən alınması haqqındakı şikayətinə [26, Док. 392] cavab olaraq Qudoviç onu çalışqan xidmətinə görə gümüş qılıncla təltif etmişdi [27, Док. № 393].

Ağpad monastrında qalan katolikos Sərkis Həsəncalalyan 1812-ci ildə Gəncəsərə qayıdaraq Alban katolikos taxtını ələ keçirə bildi. Qarabağa qayıdandan sonra Sərkis dərhal özünü Alban katolikosu adlandlrdı və katolikosluq hüquqlarından istifadə etməyə başladı. Katolikos Sərkis Gəncəsərə qayıdandan sonra onunla Üçkilsə arasında yeni bir mübahisə başladı. Bunun səbəblərindən biri o idi ki, katolikos Sərkis Gürcüstanda ikən Üçkilsəyə gedərək, kömək istədiyini bildirəndə katolikos möhüründən əl çəkəcəyi təqdirdə ona köməyin göstəriləcəyi barədə cavab almışdı. Məcburi şəkildə buna gedən Sərkis Üçkilsənin şərti ilə razılaşmalı olmuşdu. Bundan sonra o, Ağpad monastrına apxiyepiskop təyin edilmişdi [21]. Sərkis həmçinin P.D. Sisianova da müraciət edərək onu Ağpad monastrının arxiyepiskopu kimi təsdiq etməyini xahiş etmişdi [22, Док. 204]. Üçkilsənin şərtləri ilə razılaşmasına baxmayaraq arxiyepiskop Sərkisin Tiflisdəki Üçkilsə nümayəndəsi isə ziddiyətləri tamamilə aradan qaldırılmamışdı.

Alban katolikosluğunun müstəqilliyini hər şeydən yüksək tutan Sərkis Üçkilsəyə verdiyi vədi pozmalı oldu. “Üçkilsədən asılı olmadan yaşamağa öyrəşmiş bu xalqın özünün əsrlər boyu xüsusi dini idarəsi olan Alban katolikosluğu olmuşdur” fikrinin müəllifi olan Rafifi Sərkisin bu katolikosluğun nümayəndələrindən biri olduğunu yazırdı [21, c.20].

Sərkis Qarabağa qayıdan kimi bir çox xanlara məktublar yazaraq, hətta onların yanına gedərək,

onların razılığı ilə özünə Qarabağ patriarxı rütbəsini almışdı. Mehdiqulu xan hətta Üçkilsənin Qaradağda təsirini zəiflətmək üçün özünün hicri təqvimi üzrə 1227-ci ilin şəvval ayında (1812-ci ü noyabr-oktyabr) imzaladığı xüsusi fərmanı ilə onun Gəncəsər katolikosu hüququnu təsdiq etmişdi [9, s. 74-90].

Gülüstan müqaviləsinin bağlanması erməni katolikoslarının fəallığını daha da gücləndirmiş oldu. Mehdiqulu xan tərəfindən Sərkisin Gəncəsər patriarxı kimi tanınılması Yefremi hiddətləndirmişdi. O, hətta Rtişşevi katolikos Sərkisə qarşı tədbirlərin görülməsinə təhrik edə bilmişdi. Üçkilsə patriarxı Yefremdən şikayət alan Rtişşev özünün Orbelianiyə ünvanladığı məktubunda bu hadisəyə münasibətini bildirərək yazırdı: "Əlahəzrət imperatorun qanununa [Burada 1809-cu il 30 oktyabr qanunu nəzərdə tutulur (bax: 13, s. 1178-1179)] məhəl qoyulmadan patriarx adını almaq həvəsinə düşən arxiyepiskop Sarkis özbaşına Qarabağda ona həvalə edüən yeparxiyada arxiyepiskop adına layiq olmayan hiyləyə əl ataraq, cidd-cəhd və xahiş dolu məktublarla həm də bir sıra xanları öz tərəfinə çəkməklə özünə Qarabağ patriarxı rütbəsini təsdiqləmişdir. Belə ki, əlahəzrət imperator Rusiya imperiyası hüdudlarında yaşayan bütün erməni xalqının vahid patriarxı kimi Üçkilsə monastrında taxtı olan müqəddəs Yefremi layiq görmüş və təsdiq etmişdir. Bunun haqqında çarın fərmanı ... sizə də təqdim edilmişdir. Sizə tezliklə, apxiyepiskop Sərkisi yanına çağıraraq, ona həmin fərmanın gücünü təlqin etməyi və özünü özbaşına Qarabağ patriarxı adlandırmağı ağlına gətirməyi belə qadağan etməyi, bundan sonra ona həvalə edilən dindarlar evini sakit və vicdanla idarə edəcəyi və əks təqdirdə, Rusiya qanunları ilə ciddi cəzalandırılacağını bildirməyi tapşırıram" [18, Док.518.-s. 437].

Üçkilsə patriarxı Yefrem özünün "Qarabağ erməni ruhanilərinə və xalqına müraciəti"ndə yazırdı: "... arxiyepiskop Sərkis göstəriş olmadan özbaşına yerli diyara getmiş, Ümumrusiya İmperatorunun Şahanə hökmünün və mənim yüksək patriarx hakimiyyətimin əksinə olaraq, patriarx kimi qırmızı möhürdən istifadə etmişdir. Lakin nə zaman ki, alihəzrət, qalib baş komandan general Nikolay Fyodoroviç Rtişşev Tiflisə gəldi, Əlahəzrətin şahanə hökmünə uyğun olaraq, ona bilmərrə patriarx adlanmağı qadağan etdi və qərara aldı ki, o, Gəncəsər monastrının yeparxial arxiyepiskopu adlanmalıdır, knyaz Dmitri Orbeliani tərəfindən ondan bu barədə iltizam alındı. Lakin o, Əlahəzrətin belə şahanə hökmünə qarşı və müqəddəs Eçmiədzin taxtına və bizim patriarx hakimiyyətimizə qarşı çıxmağa, yeparxiya üzrə özbaşına gəzib və müqəddəs Miro paylamağa və kilsə ... gəlirlərini toplamağa cəsarət etmişdir. Bu səbəblər üzündən arxiyepiskop Sərkis öz iradəsi ilə lənətlənmə altına düşüb ki, bu işdə sizin də iştirakınızı arzu etmir, bununla elan edirəm ki, o, bundan sonra öz dərəcəsindən uzaqlaşdırılır" [15, s. 443].

Beləliklə, Üçkilsə patriarxı Yefrem və arxiyepiskop Nersesin birgə fəaliyyəti nəticəsində 1815-ci ilin dekabrın 18-də Gəncəsər katolikosluğu rəsmi şəkildə ləğv edildi. Sərkis isə Gəncəsər arxiyepiskopu və ya mitropoliti təyin edildi.

1822-ci ildə Qarabağ xanlığının, bununla eyni zamanda məlikliklərin ləğv edilməsi ilə bu məsələnin tamamilə aradan qaldırılması ilə nəticələndi. Alban katolikoslarının hüquqları onların Qafqaza gətirdikləri Rusiya hakim dairələrinin əli ilə erməni katolikosu və arxiyepiskop tərəfindən ləğv edildi. Bununla da Üçkilsə patriarxlığının xristian albanlarının erməniləşdirilməsi prosesini daha da gücləndirmiş oldu.

1822-ci ildə Şuşa şəhərində Bazel Yevangeliya cəmiyyəti fəaliyyətinə başladı. Cəmiyyət hökumətin icazəsi ilə Şuşada özünün məktəbini açdı. Cəmiyyətin fəaliyyətinin məqsədlərinə müsəlmanların protestantlığı qəbul etmələri də daxil idi. Lakin yerli "ermənilər" protestantlığı qəbul etməklə böyük həvəslə Bazel məktəbinə gəlməyə üstünlük verirdilər. Bu baxımdan qriqoryanlıq etiqadına görə onun erməni hesab edildiyi üçün lüteranlığı qəbul etmək icazəsini istəyən alban-xristianın dinini dəyişməyə israr etməsi ilə bağlı rus Sinodunun sənədi maraq doğurur [11]. Qarabağ yeparxiyasının arxiyepiskopu Bağdasar Şuşa "ermənilərinin" mütəmadi olaraq lüteranlığı qəbul etdiyi haqqında məlumat verirdi [20, c. 291-293]. Bazel cəmiyyətinin fəaliyyətinin gələcəkdə gözlənilməz nəticələr verəcəyindən ehtiyat edən hökumət 1835-ci ildə Şuşadakı Bazel missionerləri cəmiyyətinə "erməni" uşaqlarının onların məktəblərinə qəbuluna qadağa qoydu [14, s. 767-769].

Gəncəsər arxiyepiskopu Sərkis nəhayət, 1823-cü ildə Rusiyaya sədaqətli olacağı haqqında A.P. Yermolova məktub yazmalı oldu [28, Док. № 89]. İkinci Rusiya-Qacar müharibəsi başa çatan kimi arxiyepiskop Sərkis satqınlıqda ittiham olunaraq Tiflis həbsxanasına salındı. Onu Abbas Mirzə tərəfindən əsir götürülən "ermənilərin" bir hissəsini azad etdiyinə görə səkkiz aydan sonra həbsdən azad etdilər [7, s. 251-252]. Lakin həbsdə olan za-

man ona verilən işgəncələr onun sağlamlığını əlindən almışdı. Tiflisdən qayıdandan bir müddət sonra o, dünyasım dəyişmişdir.

Arxiyepiskop Sərkisin ölümündən iki il sonra 1830-cu ildə Qarabağ məliklərinin xahişi nəzərə alınaraq Üçkilsə tərəfindən yepiskop Sərkisin qardaşı oğlu yepiskop Bağdasar onun yerinə təyin edilmişdi [21, c. 110].

1836-cı il martın 11-də çar tərəfindən 10 fəsil və 141 maddədən ibarət "Rusiyada erməni-qriqoryan kilsəsinin işinin idarə olunması haqqında əsasnamə" təsdiq edildi [12,. 194-209]. Qanunun 1830-cu ilin martında tərtib edilmiş layihəsi dəfələrlə müzakirə olunduqdan sonra, nəhayət, Üçkilsə patriarxının bəzi qeydləri nəzərə alınmaqla çar tərəfindən təsdiq edilmişdi.

Alban kilsəsinin ləğvi və onun əsasında həyata keçirilən dəyişiklik bu Əsasnamənin IV fəslində əksini tapmışdır. "Erməni-qriqorian kilsəsinin yeparxiya rəisləri haqqında" adlandırılan bu fəsildə erməni-qriqorian kilsəsi həmin etiqadın arxiyepiskopları tərəfindən idarə olunan yeparxiyalara bölündüyü göstərilir (55). Rusiya hüdudlarında erməni-qriqorian kilsəsinin altı yeparxiyasının yerləşdiyi bildirilirdi. Bunlardan dördü - İrəvan, Qarabağ, Şirvan və Gürcüstan yeparxiyaları Cənubi Qafqazın payına düşürdü.

Əsasnaməyə görə, Qarabağ yeparxiyası Qarabağın özündəki, habelə Şəki və Lənkəran əyalətlərindəki "erməni-qriqorian" kilsələrini əhatə edirdi. Tatev mitropoliyası isə Qarabağ yeparxiyasından ayıraraq Üçmüəzzin patriarxının özünün rəisi olduğu İrəvan yeparxiyasına verilmişdi. Beləliklə, elan olunan Azərbaycan ərazisindəki bütün Alban kilsələri erməni-qriqorian kilsəsinin yeparxiyalarına daxil edildi. Tarixi Gəncəsər Alban kilsəsi tam inkar edildi ki, bu da faktiki olaraq Alban kilsəsinin hüquqi baxımdan ləğv edilməsinə bərabər idi.

Üçkilsədə toqqaşdırılan erməni kilsə tarixi ədəbiyyatından fərqli olaraq, keçmiş İstanbul patriarxı Malaxiya Ormanian fransız dilindən rus dilinə tərcümə edilmiş kitabında Alban kilsəsi haqqında yazırdı ki, "Xəzər Albaniyasının taxtı" XIX əsrin əvvəllərində ləğv olunmuşdur, yəni o, Alban kilsəsinin ləğvini etiraf edir [2].

1836-cı ildə Şuşada Qarabağ yeparxiyası təsis edildi. Bağdasar Üçkilsəyə çağırılaraq sədaqət andı içdikdən sonra Qarabağ yeparxiyası konsisteriya mitropoliti təyin edildi. Bir müddət sonra Qarabağ yeparxiyası rəisi təyin olunan Bağdasar 1852-cü ilədək həmin işi icra etmişdir [8, s. 544].

Qarabağ yerarxiyası ruhani idarəsi Şuşa şəhərində yerləşdirildiyinə görə Qarabağ katolikosluq dini-mədəni mərkəzləri fəaliyyətlərini dayandırmış oldu. Belə vəziyyət Gəncəsər monastırının baxımsızlığına gətirib çıxardı. XIX əsrin sonlarında artıq Qarabağın digər monastrlarında olduğu kimi, Gəncəsər monastrında da monastr arxivi və kitabxanası müəmmalı şəkildə yoxa çıxmışdı. " ... Bu ecazkar monastr mənəvi və maddi cəhətdən məhv edilmişdir, daşlar tədricən tökülmüş və dağılmışdır, dam örtüyü zədələnmişdir, hasar ayrı-ayrı yerlərdə çökmüşdür və layiqli qapıları qalmamışdır, çoxlu sayda qiymətli əlyazmalar talan edilmişdir, gördüyümüz kimi qalan əlyazmalar nəm və laqeydliyin qurbanı olmuşdur, savadlı insanların, məktəblərin, rahibələrin və hətta sadə oxucuların yoxluğu ucbatından monastrda aylardır ki, heç bir xidmət göstərilmir" [10, s. 600].

XIX əsrin ikinci yarısında Qarabağda tikilən kilsələrin erməni Qriqorian kilsələri kimi qotik üslubda deyil, qədim alban kilsələri memarlığı üslubunda tikilməsini [1, s. 245] yerli qriqorian albanların itaətsizliyinin nəticəsi kimi qiymətləndirmək olar.

**Açar sözlər:** *Azərbaycan, Qarabağ, kilsə, katolikos, yeparxiya, Rusiya işğalı, erməni məkri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Qarabağnamələr. III kitab. - Bakı: Şərq-Qərb, - 2006. - 248 s.*

*2. Şükürov K. Azərbaycanda Alban kilsəsinin ləğvindən 180 il ötür //*

*3. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, Элм, 1990,224 с.*

*4. Верт П. Глава церкви, подданный императора: Армянский католикос на перекрестке внутренней и внешней политики империи, 1828-1914 // Ab İmperio, №3, 2006. - С. 99-138.*

*5. Грамота императора Павла владетельным Карабахским меликам // Русский архив, 1903 г., № 9-12, с. 498(457).*

*6. Дневник А.В. Храповицского 1792-1797. - Санкт-Петербург: Издание А.Ф. Базунова, 1874. - 610 с.*

*7. Записка Армянского архиепископа Иоанесса, поданная гр. Гудовичу // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Тифлис: 1869. 766 с.*

*8. Карабахская епархия // Кавказский календарь на 1853 год. - Тифлис: Печатано в типографии канцелярии наместника Кавказского, 1852,- 678 с.*

*9. Магалян А.В. Армянский княжеский род Асан-Джалалянов в XVII-XIX веках // Кавказский сборник. - Москва: Аспект Пресс, 2017. - С. 74-90.*

*10. Мамедова Ф. Кавказская Албания и албаны. Баку: 2005. 798 с.*

*11. Мамедова Ф. Об исторической географии Кавказской Албании, Армении и албанском этносе //https://udi.az/articlr: Э0,/. itini*

*12. Марта 11. Высочайше утвержденное положение о управлении делами Армяно-Грегорианской Церкви в Росии // Полное собрание законов Российской Империи. Собрание Вторoе. Том XI. Отделение 1. 1836 г. - Санкт-Петербург: в типографии II отделения собственной е.и.в. канцелярии, 1837. № 8970. - С. 194-209*

*13. Имении сему патриарху в своем ведомстве по духовным и церковным делам армян, в Российской империи находящихся, и об избрании для управлении оными архиепископа // Полное собрание законов Российской империи с 1649 года. Т. XXX. 1808-1809. - Санкт-Петербург: печатано в типографии П отделения собственной его императорского величества канцелярии, 1830. Ст. 23873, с. 1178-1179.*

*14. Мерах к устройству шотландский колоний у Кавказских гор // Полное собрание законов Российской империи. Собрание второе, т. X. Отделение первое. 1835. - Санкт-Петербург: в типографии П отделения собственной е.и.в. канцелярии, 1836. № 8 271. - с. 767-769*

*15. Обвещение патриарха Ефрема всему Карабахскому армянскому духовенству и народу, от 18-го декабря 1815 года. - Эчмиадзин // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. - Тифлис: Типография главного управления наместника кавказского. - 1873. - 1170 с. Док.552. - С. 443*

*16. Письмо Агванского патриарха Израиля к гр. Гудовичу, от 19-го августа 1805 года // Акты собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 149. с. 79-80. Т. 3. Тифлис: 1869.766 с.*

*17. Письмо архиеп. Нерсеса к ген. Паскевичу, от 14-го июня 1827 года, №89 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. УП. - Тифлис: Типография Главного Управления Наместника Кавказского. - 1878. - 1011 с. Док. 204.-С. 251-252*

*18. Предложение ген. Ртищева ген.-л. кн. Орбелиани, от 19-го ноября 1813 года, № 680 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. - Тифлис: Типография главного управления наместника кавказского. - 1873. - 1170 с. Док.518. - С. 437*

*19. Предписание гр. Гудовича ген.-м. Небольсему, от 11-го ноября 1807 года, №603 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 151. с. 80-81*

*20. Рапорт гсн.-адъют Стрекалова, от 4-го сентября 1830 года, №490 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 7. Док. 237. с. 291-293*

*21. Раффи. Меликства Хамсы. Издательство: ЮниПресс СК. 2009.*

*22. 1805 г. январь, — Прошение Ахпатского архиепископа Саркиса П. Д. Цицианову об утверждении его в правах // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 204*

*23. 1806 г. ноября 16. — Письмо И. В. Гудовича архиепископу Исраелу о невозможности восстановить его епархиальным начальником в Елисаветполе // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 323*

*24. 1807 г. марта 11. — Отношение И. В. Гудовича ахпатскому архиепископу Саркису о беспрекословном подчинении его архиепископу Грузии — Иоаннесу // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 343*

*25. 1807 г. ноября 9. — Отношение И. В. Гудовича архиепископу Саркису о даче отчета об употреблении церковных сборов // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 375.*

*26. 1808 г. февраля 10. — Жалоба елисаветпольских жителей армян И. В. Гудовичу на кевха Бадала с просьбой упразднить его должность // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 392.*

*27. 1808 г. февраля 11. — Отношение И. В. Гудовича елисаветпольскому жителю Бадал кевхе Апрюмову о награждении его серебряной саблей*

*за услуги, оказанные русским // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. № 393.*

*28. 1823 г. мая 8 — Письмо митрополита Саркиса Хасан-Джалаляна А.П. Ермолову о приверженности к России // Присоединение восточной Армении к России. Сборник документов. Т. II. (1814-1830). Ереван: АН Армянской ССР.ССР. 1978. Док. № 89*

*29. Шопен И. Исторический памятник состояния Армянской области в эпохи его присоединения к Российской империи. Санкт-Петербург: 1852, с. 672.*

## SUMMARY
## ON THE HISTORY OF THE GARABAKH ALBANIAN CHURCH AT THE BEGINNING OF THE 19TH CENTURY

**Hasanov H.N., Niftaliyev R.Y.**

In this report, based on information from various reliable sources, as well as materials from historical literature, various interesting moments in the history of the Albanian church structures that existed in the Garabagh region of Northern Azerbaijan have been considered.

The presented interesting and versatile materials convincingly prove that during the period under review, especially before the beginning of the Russian occupation in this region and during periods of foreign domination, the Albanian Church retained its autocephaly. And only the reactionary occupation policy of the Russian authorities and the multilateral insidiousness of the Armenian Gregorian Church led to the fact that in the mid-30s of the 19th century, the independence of the Albanian church authorities was destroyed.

**Keywords:** *Azerbaijan, Garabagh, church, catholicos, diocese, Russian occupation, Armenian insidiousness.*

## РЕЗЮМЕ
## ИЗ ИСТОРИИ КАРАБАХСКОЙ АЛБАНСКОЙ ЦЕРКВИ В НАЧАЛЕ XIX СТОЛЕТИЯ

**Гасанов Г.Н., Нифталиев Р.Ю.**

В данном докладе на основе сведений различных достоверных источников, а также материалов исторической литературы, рассмотрены различные интересные моменты истории албанских церковных структур, существовавших в Карабахском регионе Северного Азербайджана.

Приведенные интересные и многосторонние материалы убедительно доказывают, что в рассматриваемый период, особенно до начала российской оккупации в этом регионе и в периоды иноземного господства албанская церковь сохраняла свою автокефальность. И только реакционная оккупационная политика российских властей и многосторонняя коварность армянской григорианской церкви, привели к тому, что в середине 30-х годов XIX века, самостоятельность албанских церковных властей была уничтожена.

**Ключевые слова:** *Азербайджан, Карабаг, церковь, католикос, епархия, российская оккупация, армянская коварность.*

UOT 94 (479.24)

# AZƏRBAYCANDA SƏNAYE VƏ KOMMUNİKASİYANIN İNKİŞAFI (1969-1982-ci illər)

**İLQAR ABDULLAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Əməkdar müəllim*

*E-mail: ilqar.heyderoglu@mail.ru*

Azərbaycan KP MK-nın 1969-cu il iyulun 14-də keçirilən plenumu böyük tarixi hadisə kimi tarixə düşmüşdür. Belə ki, həmin gün Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Bununla da Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyulmuşdur. Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək respublika iqtisadiyatını dərin və hərtərəfli təhlil etmiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu müəyyənləşdirmiş və onları aradan qaldırmaq yollarını göstərmişdi. [1,174]

Aşkar edilən nöqsanlara qarşı dərhal başlanılan qəti və güzəştsiz mübarizə tezliklə öz nəticəsini verməyə başladı. Belə ki, artıq 1976-cı il yanvarın 28-də keçirilmiş Azərbaycan KP-nın XXIX qurultayında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev özünün məruzəsində bildirirdi ki, "yaxın keçmişə qədər Azərbaycan sənayesi uzun müddət bütün texniki-iqtisadi göstəricilərdə İttifaqa aid orta səviyyədən geri qalırdı. Bunun başlıca səbəbləri iqtisadiyyata rəhbərlik səviyyəsinin aşağı olması, respublikada məhsuldar qüvvələrin planlaşdırılmasında və onlardan istifadə edilməsində səhvlərə, qüsurlara və nöqsanlara yol verilməsində idi" [2].

"Azərbaycan SSR xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" Sov. İKP MK- nın və SSRİ Nazirlər Sovetinin 1970-ci il 25 iyul tarixli qərarında göstərilmişdi ki, son illər respublikanın iqtisadiyyatı "qeyri-qənaətbəxş bir sürətlə inkişaf etmişdir, bu isə neft və qaz hasilatının azalmasından, maşınqayırma sənayesinin, yüngül sənayenin və yeyinti məhsulları sənayesinin, habelə kənd təsərrüfatının ləng inkişaf etməsindən, kimya sənayesində və əlvan metallurgiyada yeni qurğuların işlədilməsinin yarıtmaz vəziyyətdə olmasından irəli gəlmişdir" [2]. Eyni zamanda bu mühüm sənəddə respublikanın iqtisadiyyatını sürətlə yüksəltmək, nöqsanları aradan qaldırmaq üçün geniş proqram verilmiş, Azərbaycan sənayesinə böyük maddi-texniki yardım göstərmək üçün əməli tədbirlər kompleksi nəzərdə tutlmuşdu."

Göstərilməlidir ki, Azərbaycan Respublikasının rəhbərliyi o vaxtlar mövcud imkanlardan maksimal səvviyyədə bəhrələnərək respublikada sənayenin inkişafında irəliyə doğru doğrudan da çox böyük, inamlı addımlar atdı. Belə ki, elə XXIX qurultayın materiallarında göstərildiyi kimi, sənaye istehsalı beş il ərzində (1971-1976) Sov. İKP-nin XXIV qurultayının Direktivlərində nəzərdə tutlan 43-46 faiz əvəzinə 50 faiz artmışdı [3]. Burada qeyd etmək yerinə düşərdi ki, ümumiyyətlə götürdükdə Azərbaycan SSR-də sənaye istehsalı o vaxtkı SSRİ respublikaları arasında artım sürətinə görə artıq fərqlənirdi. Belə ki, respublikamızda sənaye istehsalı 1913-cü ilə nisbətən 1940-cı ildə 5,9 dəfə, 1965-ci ildə 24 dəfə, 1970-ci ildə 33 dəfə artmışdırsa, 1975-ci ildə 49, 1976-cı ildə isə 53 dəfə artmışdır [9,98]. Orta illik artım sürəti 1966-1971-ci illərdəkinə nisbətən 29 faiz artmış və əvvəlki 20 il ərzindəkindən çox olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, respublika iqtisadiyyatına sərmayə qoyuluşunun həcmi 1971-1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi [8,81]. Neftayırma və Kimya Sənayesi Nazirliyi, Yüngül Sənaye Nazirliyi, Ət və Süd Sənayesi Nazirliyi, Yerli Sənaye Nazirliyi, Əlvan Metallurgiya Birliyi və İttifaq Neft Maşınqayırma Müəssisələri Birliyi, Elektrotexnika Sənayesi Nazirliyinin müəssisələri, Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi və başqaları istehsalın həcminin artım sürətinə dair tapşırıqları vaxtından əvvəl yerinə yetirmişlər. Məhsul istehsalı Naxçıvan MSSR-də təqribən iki dəfə, Mingəçevirdə 76 %, Gəncədə (Kirovabadda) 68 %, Sumqayıtda 56 % artmışdır [2].

Əmək məhsuldarlığı 1971-1976-cı illər ərzində 31,1% əvəzinə 34 % artmışdır. Sənaye məhsulu buraxılışı artımının təqribən 76 %-i təkcə bunun hesabına əldə edilmişdir. 1971-1976-cı illər ərzində əmək məhsuldarlığının orta illik artım sürəti 1965-1970-ci illər ərzində artdığı 4,8 % əvəzinə 6,1 % artmışdır. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, bütün sənaye istehsalı 1970-ci ildə 1940-cı ilə nisbətən 552 %, 1971-ci ildə isə 585% artmışdır [8,50].

Xalq təsərrüfatı planında nəzərdə tutulduğu kimi, maşınqayırma və metal emalı daha sürətlə inkişaf etmişdir. Burada məhsul istehsalı 1970-ci ildəkinə nisbətən 73 %, kimya və neft kimyası sənayesində 72 %, yeyinti məhsulları sənayesində 71 % artmışdır. Respublika xalq istehlakı malları istehsal edən sahələrin üstün sürətlə artırılmasını təmin etmək kimi mühüm vəzifənin öhdəsindən gəlmişdir. “B” qrupunda istehsal həcmi 1971-1976-cı illər ərzində 51 % artmışdır ki, bu da plan tapşırıqlarında nəzərdə tutulduğundan çoxdur. Lakin eyni zamanda, məhsulu respublikada bütün sənaye istehsalının 73,7 %-ni təşkil edən ağır sənayenin üstün mövqeyi saxlanmışdır. Həmçinin qeyd edilməlidir ki, orta hesabla il ərzində “A” qrupunun artım sürəti 1965-1970-ci illər ərzindəkindən 41 % çox olmuşdur. Sənaye istehsalının ümumi həcmində maşınqayırmanın ümumi həcmində maşınqayırmanın və metal emalının xüsusi çəkisi 1970-ci ildəki 12,7 % əvəzinə təqribən 15%-ə çatdırılmış, həm də müasir sənayenin elektrotexnika kimi perspektivli sahəsində daha böyük irəliləyiş olmuşdur; bu sahədə məhsul buraxılışı 1,7 dəfə artmışdır. Bakı Məişət Kondisioneri Zavodunun işə salınması ilə əlaqədar olaraq elektrotexnika sənaye istehsalının həcmi təqribən 1,5 dəfə artacaqdır. Respublikada maşınqayırmanın yeni, mütərəqqi – elektron, radio, sənayesi sahələri, yüngül və yeyinti məhsulları sənayesi üçün maşınqayırma sahəsi və s. sahələr yaranmışdır.

Kimya və neft kimyası sənayesində irəliyə doğru yeni addım atılmış və bu sənayenin xüsusi çəkisi 1970-ci ildəki 7,5 %-dən 1975-ci ildə 8,4 %-ə çatmışdır. Ən mühüm məhsul növlərinin – mineral gübrələrin, plastik kütlələrin, sintetik qətranların, sintetik kauçukun, sulfanolun istehsalı həmin müddətdə 55-90 %, sulfat turşusu istehsalı 3 dəfə, məişət kimyası malları istehsalı 2 dəfə artmışdır. Sənayenin strukturunda yeyinti məhsulları sənayesinin payı nəzərə çarpacaq dərəcədə artmış – 1970-ci ildəki 23,2 faizdən 1975-ci ildə 26,4 %-ə çatmışdır [2]. Buna iki amil – yeni müəssisələrin işə salınması və Azərbaycanın kolxoz və sovxozlarından kənd təsərrüfatı xammalı alınmasının xeyli artması kimi amillər kömək etmişdir.

Sumqayıt Sintetik Kauçuk Zavodunda, Gəncə (Kirovabad) Alümünium Zavodunda, Kirov adına Neft və Qazçıxarma İdarəsində, Bakı Şin Zavodunda və uzun illər planların öhdəsindən gəlməyən digər iri müəssisələrdə də irəliyə doğru inamlı addımlar atılmış, yüksək nəticələr əldə edilmişdir.

Məlumdur ki, neft kimyası və neftayırma sənayesi bilavasitə neft sənayesinin vəziyyətindən asılıdır. 1971-1975-ci illərdə Azərbaycan neftçiləri yeni müvəffəqiyyətlər qazanmışlar. Azərneft Birliyi və Xəzər Dəniz Neft Birliyi məhsul satışına dair 1971-1975-ci illər üçün tapşırıqları vaxtından əvvəl ödəmiş, qaz çıxarılması planlarını artıqlaması ilə yerinə yetirmişlər [3]. Qaz çıxarılması 1966-1970-ci illərdəkinə nisbətən təqribən bir dəfə yarım artmışdır. Neft hesabı ilə üst-üstə neft və qaz çıxarılması 1975-ci ildə 27,1 milyon ton olmuşdur ki, bu da respublikada 1941-ci ildəki ən yüksək hasilatdan bir milyon ton çoxdur. “Azərneft” birliyi üzrə hasilatın azalması sürəti 1966-1970-ci illərdəki 7,2 %-ə nisbətən 4,3 %-ə enmişdir. Neft sənayesində geoloji – kəşfiyyat işlərinin səmərəsi xeyli artırılmış, 8 yataq, 22 neft və qaz mədəni kəşf edilmişdir. Neftin sənaye ehtiyatlarının artımı 1966-1970-ci illərdəkinə nisbətən üç dəfə, qazın sənaye ehtiyatlarının artımı isə iki dəfə çoxalmışdır. Azərbaycanda milyardıncı ton neft hasil edilmişdir.[2]

Göstərilməlidir ki, 1976-cı ilin yanvarında keçirilmiş XXIX qurultayda 1976-1980-ci illər ərzində neftçilər qarşısında daha mürəkkəb vəzifələrin dayandığı göstərilmişdir. 1980-ci ildə respublikada kondensatla birlikdə 22.150 min ton neft və 11 milyard kubmetr qaz çıxarmaq nəzərdə tutulmuşdur [2].

Tarixən Azərbaycanın əlverişli geostrateji və coğrafi mövqeyi ona həm Şərq – Qərb, həm də Şimal – Cənub əlaqələrində əsas körpü kimi çıxış etməyə imkan verib. Lakin müstəqil dövlətin olmaması və müstəqil siyasətin yürüdülməməsi səbəbindən bu əlverişli mövqedən Azərbaycanın maraqlarına uyğun şəkildə istifadə etmək mümkün olmamışdı [5]. Ümummilli Lider Heydər Əliyev cənablarının bu baxımdan Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olmuşdur. Yalnız bu böyük dövlət xadiminin fəaliyyətindən sonra ölkəmiz bu imkanlardan yararlanmağa başlamışdır. Bu gün ölkənin istər regionda, istərsə də ümumilikdə dünyada tutduğu mövqe və rola nəzər salanda tam əminliklə söyləmək olar ki, Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz tarixi missiyasını yerinə yetirmək imkanı əldə edib. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra respublikada köklü dəyişikliklər baş vermişdir. Məhz onun müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti sayəsində Azərbaycan 1970-1980-cı illərdə keçmiş ittifaqın ən qabaqcıl respub-

likalarından birinə çevrilmişdir. Onun təşəbbüsü ilə həyata keçirilmiş layihələr, tikilmiş müəssisələr bu gün də xalqımıza və dövlətimizə xidmət göstərir. Heydər Əliyevin rəhbərliyi altında o illərdə sosial-iqtisadi həyatın bütün sahələrində sürətli inkişaf və yüksəliş dövrü başlamış, güclü sənaye potensialı yaradılmışdır. Müasir mərhələdə Azərbaycan Respublikasının dinamik inkişafı məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

Respublikada digər sahələrdə olduğu kimi, informasiya və kommunikasiya texnologiyaları sahəsinin müasir dövrün tələblərinə uyğun qurulması da Ümummilli Lider Heydər Əliyevin adı ilə əlaqədardır.

Ötən əsrin 70-ci illərində Heydər Əliyevin respublikamızın inkişaf perspektivlərinin sənaye potensialının gücləndirilməsi, xüsusən də elmtutumlu sahələrinin genişləndirilməsi ilə birbaşa bağlı olduğu qənaətinə gələrək, bu sahəyə böyük diqqət göstərdiyini və bu günkü inkişafın təməlini qoymasının şahidi oluruq.

Ötən əsrin 60-cı illərinin sonunda Azərbaycan sosial-iqtisadi inkişafda ittifaq respublikalarından çox geridə qalırdı. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bu mənzərə sürətlə dəyişməyə başladı. Həmin illərdə respublikanın sosial-iqtisadi sahələrinin inkişafına əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox vəsait qoyulmuşdur. 250-dən çox zavod, fabrik, istehsal sexi və emal müəssisəsi tikilib istifadəyə verilmiş və istehsalat strukturlarına yeni texnologiyalar tətbiq olunmuşdur [6]. Respublikada milli gəlir 2,5 dəfə artmış, adambaşına düşən ictimai məhsul istehsalının artım tempi 2 dəfədən çox olmuşdur.

Onun səyi nəticəsində respublikamızda rabitə, elektronika sənayesi, informasiya texnologiyaları, kosmik tədqiqatlar sahəsi formalaşdırılmışdır. “Nord”, “Ulduz”, EHM kimi elm-istehsalat birlikləri, “Ozon”, “Billur”, “Peyk” və s. elektron və cihazqayırma zavodları işə salınmışdır. Müxtəlif elmi-tədqiqat institutlarının nəzdində “Kristal”, “Reqistr”, “Tellur”, “Kibernetika”, “Biotex”, “Mikroelektronika”, “Kaskad” kimi xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başlamışdır. Qeyd edilməlidir ki, belə innovativ müəssisələr təkcə Bakıda deyil, həmçinin Naxçıvanda, Mingəçevirdə, Gəncədə, Sumqayıtda, indiki Tərtər və Şirvanda da yaradılmışdır.

Ulu Öndərin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını-BESM-6 gətirilmiş və “Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri– “RASU Azərbaycan” və müxtəlif kompüter şəbəkələri quraşdırılmışdır.[7]

Heydər Əliyev həmçinin bu sahədə çalışacaq kadrların yetişdirilməsinə çox ciddi diqqət yetirmişdir. Buna görə də 1970-1980-cı illərdə Elmlər Akademiyasında, universitetlərdə və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıqlar istehsal edən zavodlar tikildi [4]. Kibernetika institutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Kommunikasiya Elm Mərkəzi, “Neftqazavtomatika” və digər elmi tədqiqat müəssisələri yaradıldı [4]. İndiki Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində İKT ixtisasları üzrə mütəxəssislərin hazırlanması üçün maddi-texniki baza yaradılmış, respublikadan kənarda kadrların hazırlanması geniş vüsət almışdır. Beləliklə, indi bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən “Universitet – İqtisadiyyat və Hökumət” üçqat spiral modelinin tətbiqini Heydər Əliyev Azərbaycanda həyata keçirdi.

Təbiidir ki, bütün yuxarıda göstərdiyimiz faktlar bir daha əyani şəkildə göstərir ki, 1969-1982-ci illərdə Ulu Öndərimiz Heydər Əliyev cənablarının rəhbərliyi altında xalqımız sənaye və kommunikasiya sahəsində kifayət qədər böyük nailiyyətlərə imza atmışdır.

**Açar sözlər:** *sənaye, kommunikasiya, neft, qaz, istehsal.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. “Elm”. 2008. 608 səh.*

*2. Azərbaycan KP –nın XXIX qurultayına Azərbaycan KP MK-nın hesabat məruzəsi. H.Əliyevin məruzəsi. “Kommunist” qəzeti, 29 Yanvar, 1976-cı il*

*3. Azərbaycan KP-nin XXX qurultayının materialları. H.Əliyevin məruzəsi.*

*4. “Azərbaycan”, 8 may, 2009-cu il.*

*5. “Xalq qəzeti”, 14 iyun, 2009-cu il*

*6. “Xalq qəzeti”, 1 may, 2013-cü il.*

*7. “Azərbaycan”, 3 may, 2013-cü il.*

*8. Народное хозяйство Азербайджанской ССР*

*к 50-летию СССР. Юбилейный статистический ежегодник. Баку, 1972. 179 стр.*

*9.СССР в цифрах в 1976 году. М. «Статистика», 1977. 128 стр.*

**SUMMARY**

This article deals with the development of Azerbaijan industry and communication in 1969-1982 s years when great nationwide leader Heydar Aliyev was in power Heydar Aliyev"s great role in the measures taken for the training of highly experienced specialists in the field of communication for our republic"s bright future has found its reflection in this article, too.

It is also spoken about the achievements gained in the branches of Azerbaijan industry in this article as well.

**Key words:** *industry, kommunikation, oil, gas, production.*

**РЕЗЮМЕ**

В этой статье говориться о развитии промышленности и коммуникации в Азербайджане во время руководства Гейдара Алиева в 1969-1982 годах.

А также говорится о подготовке высококвалифицированных кадров в области коммуникаций, которой Гейдар Алиев уделял большое внимание, учитывая их важность для будущего страны.

В упомянутой статье говориться также об успехах Азербайджана в области промышленности.

**Ключевые слова:** *промышленность, коммуникация, нефть, газ, производство.*

UOT 94 (479.24)

# AZƏRBAYCAN SSR-DƏ SOVET HAKİMİYYƏTİNİN XALQ TƏHSİLİ SİSTEMİ SAHƏSİNDƏ HƏYATA KEÇİRDİYİ SİYASƏT (1920-1930-CU İLLƏR)

**SEVDA İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: sevdaismayilova@rambler.ru*

## Giriş

Azərbaycanın XX əsr tarixinin problemlərindən biri də sovet hakimiyyətinin təhsil sahəsində həyata keçirdiyi siyasət olmuşdu. Aprel işğalından keçən bir il ərzində bolşeviklərin qanlı qırğınlarla müşayiət olunan zorakı tədbirləri nəticəsində Şimali Azərbaycanda, guya konstitusiyaya əsaslanan hakimiyyət orqanları formalaşdırıldı, sovet sosialist demokratiyası bərqərar oldu. Əslində isə, Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti ilə müqayisədə, yeni yaradılan demokratiya formal demokratiya idi, sözün əsl mənasında kommunist diktaturası idi. Azərbaycanın bolşevikləşdirilməsi Moskvanın "vahid və bölünməz" imperiyanı bərpa etmək səylərinin nəticəsi idi. Azərbaycanın növbəti, son yüz ildə ikinci dəfə Rusiya tərəfindən işğalının bir neçə səbəbi var idi. Birincisi, Azərbaycanın təbii sərvətləri və ilk növbədə nefti. İkincisi, Azərbaycanın geostrateji əhəmiyyəti. Onun ələ keçirilməsi Sovet Rusiyasına sonradan Ermənistan və Gürcüstanı işğal etməyə imkan verəcəkdi [12,s.203]. Beləliklə, bolşeviklər Azərbaycana qoşun yeridərək hakimiyyəti yerli kommunistlərə verməklə nəinki milli istiqlaliyyətə qarşı çıxmadılar, əksinə onun təminatının qarantı olduqlarını hər cür sübut etməyə çalışdılar. Bu, dərin düşünülmüş ssenariyə uyğun olaraq 1920-ci il aprelin 28-də Azərbaycan İnqilab Komitəsi Bakı və Azərbaycan əhalisinə müraciətində müstəqil Azərbaycan Sovet Respublikasının yaradıldığını elan etdi. Sovet dövründə bolşevik elitası Azərbaycanda yeni sovet mədəniyyəti formalaşdırmaq məqsədilə "mədəni inqilab" həyata keçirməyə başladı.1) İslam dini sıxışdırıldı. 2) Milli-mənəvi dəyərlər özəlləşdirildi. 3) Məzmunca milli, formaca sosialist mədəniyyəti yarandı. 4) Yeni sovet təhsili yaradıldı. 5) Yeni istiqamətli elm, ədəbiyyat və KİV formalaşdırıldı.1920-ci il mayın 15-dən vicdan azadlığı haqqında dekret qəbul olundu [11,s.14]. Ümummilli Lider Heydər Əliyev 1997-ci ilin 31 yanvarında Azərbaycan Elmlər Akademiyasinin rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdəki nitqində qeyd edirdi ki, XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Belə subyektivliyə və tariximizin bundan sonra da təhrif edilməsinə yol verməmək üçün mən bir neçə dəfə təklif verdim ki, XX əsrin tarixi necə var, elə də yazılsın [9,s. 187].

## Sovet hakimiyyətinin xalq təhsili sistemi sahəsində həyata keçirdiyi siyasət

XX əsrin 20-30-cu illərində bütün Sovet İttifaqında olduğu kimi, Azərbaycanda da totalitar rejim, dövlət idarəçiliyində inzibati-amirlik sistemi təşəkkül tapdı. 28 aprel 1920-ci ilə qədər Azərbaycanda mövcud olan təhsil sistemindən imtina edən bolşevik rejimi yeni sovet təhsil sisteminin yaradılmasını əsas məqsədlərdən biri kimi ön plana çəkdi. Azərbaycan SSR Xalq Maarif Komissarlığının dekretinə əsasən "köhnə, eybəcər burjua məktəbləri" tam professional təhsil verən politexnik məktəblərlə əvəz olunmalı idi. Azərbaycanda "kommunist ideologiyasını" əsas tutaraq sovet hakimiyyəti mədəni yeniliklərə başlamışdı. Bu yeniliklər mərkəzdən inqilabi metodlarla aparılmalı idi. Xalqın mədəni yaşayış şəraitinin yaxşılaşdırılması, insanların həyatının demokratikləşdirilməsi sahəsində fəaliyyəti partiya xarakterli idi. Partiyanın rəhbərliyi olmadan heç bir məsələ həll edilmirdi. Partiyanın əsas vəzifəsi mədəniyyəti öz "ideologiyası" ruhunda xalqın sərvətinə çevirmək, standart mədəniyyət yaratmaq, zəhmətkeş kütlələri bu yöndə mədəni-tarixi quruculuğa cəlb etmək idi [13, s.51]. Kütlələrdə avtoritar şüur proletar sinfinin və partiyanın xeyrinə hər şeyin həll edilməsi ilə formalaşdırılırdı. Azərbaycanda yeni sosialist mədəniyyətinin yaradılması zamanı partiya və hökumət qeyd etdiyimiz şərtləri əsas tuturdu. Azərbaycanda sovetlərin mədəniyyət quruculuğu, sosial-iqtisadi və ictimai-siyasi həyatında olduğu kimi partiya direktivləri, onun qərar və göstərişləri ilə idarə edilirdi. Mədəni quruculuğa rəhbərlik Xalq Maarif Komissarlığının əlində toplaşmışdı. Yeni qurulan cəmiyyətin mənəvi həyatının əsas sahələri - təhsil, elm, ədəbiyyat və incəsənət faktiki olaraq partiya, dövlət rəhbərliyinin nəzarəti altına alınırdı, "mədəni inqilabın" bütün gedişində "kommunist ideologiyası" həyata keçirilməli və sovet hakimiyyətinin əsas məqsədi olmalı idi. Tədris müəssisələrində təlim prosesini yeniləşdirmək, köhnə

dövrün ziyalılarını təhsil şəbəkəsində sovet hakimiyyəti ilə əməkdaşlığa geniş cəlb etmək üçün cəhdlər göstərmək, milli müəllim kadrları hazırlamaq, yeni tədris vəsait və proqramları, mütərəqqi dərs metodikası tətbiq etmək tələb olunurdu [8, s.181-182]. 1920-ci ildə Xalq Maarif Nazirliyinin köhnə sistemi ləğv edildi, D.Bünyadzadənin sədr təyin edildiyi yeni Xalq Maarif Komissarlığı yaradıldı. Sovet dərslikləri, tədris planlarının hazırlanmasından ötrü 1920-ci ildə komissiya yaradıldı. Azərbaycanda formalaşdırılmış vahid təhsil sistemi dövlət və partiya nəzarətində idi. Savadlı müəllim heyətinin çatışmazlığı, xüsusilə qadın müəllimlərin azlığı azərbaycanlı qızların təhsil müəssisələrinə cəlb edilməsinə mane olurdu. Xalq təhsili orqanları qadınların vəziyyətinin spesifik xüsusiyyətləri ilə bağlı olan çətinlikləri aradan qaldırırdı. Azərbaycanda təhsilin tətbiqi kənd yerlərində düşmənçiliklə qarşılanırdı. Bəzi bölgələrdə kəndlilər övladlarının təhsil almasına mane olurdu. Sovet hakimiyyəti Azərbaycan xalqını öz mənəvi köklərindən uzaqlaşdırmaq üçün təhsil siyasətini bəhanə gətirərək ibtidai məktəbləri ilk növbədə dini məktəblərin mövcud olduğu kəndlərdə inşa etməyi vacib sayırdı [7, s.340]. Kənd məktəbləri nəzdində gənclər üçün axşam kurslarının açılması haqqında 1927-ci il oktyabrın 24-də qərar qəbul edildi [5, s.1]. Sonrakı dövrdə Azərbaycanda ibtidai təhsil geniş miqyas aldı. Müəllimlərin sayı 1920/21-ci tədris ilindəki 2611 nəfərdən 1925/26-ci tədris ilində 5232 nəfərə çatmışdı. Sovet hakimiyyəti ibtidai və orta məktəb şəbəkəsinin genişləndirilməsinə 1930-cu illərdə başladı. Azərbaycan XKS 1930-cu il avqustun 29-da "1930/31-ci tədris ilində ümumi ibtidai təhsilin tətbiq edilməsi haqqında" qərar qəbul etdi. 1935-ci ildə qəbul olunmuş "Ümumtəhsil məktəbləri haqqında Əsasnamə"yə görə, Azərbaycanda ümumi təhsil üç pilləyə bölünürdü. 1932-ci ildə "İbtidai və orta məktəb tədris proqramları haqqında", 12 fevral 1933-cü ildə "İbtidai və orta məktəb dərslikləri haqqında" qərarlar verilmişdi. Ümumtəhsil məktəbləri üçün proqram və dərsliklər hazırlanarkən milli-mənəvi dəyər və xüsusiyyətlərimiz nəzərə alınmırdı. "Siyasi fənlər" hesab edilən tarix və coğrafiya Kommunist Partiyasının tam nəzarəti altında idi. Bu fənlərdən sosializm cəmiyyətinin qurucusu olacaq "yeni insan"ın, əslində isə sovet vətəndaşının formalaşdırılmasında əsas ideoloji silah kimi istifadə edilirdi. Müəllimlərin ümumi təhsil səviyyəsinin artırılmasına, ən başlıcası isə onların "ideoloji" tərbiyəsinə xüsusi fikir verilirdi. 1936-cı ildən başlayaraq müəllimlərin attestasiyası keçirilirdi. Bu qərar ilə partiyaya sadiq müəllimlər müəyyənləşdirilirdi, qohumları arasında "xalq düşməni" adını almış şəxslər isə məktəblərdən uzaqlaşdırılmalı idi.

### Sovet hakimiyyətinin savadsızlığın ləğvi sahəsində həyata keçirdiyi siyasət

Əsas məqsəd sosialist ideologiyasına sahib olan, sovet rejiminə və mövcud quruluşa sədaqətli yeni gənc nəsil yetişdirməkdən və SSRİ-nin iqtisadi mənafeyinə tabe edilən və mərkəzdən planlaşdırılan sənaye və kənd təsərrüfatı sahələri üçün savadlı yerli kadrlar hazırlamaqdan ibarət idi. 1920-ci illərdə bolşevik hökumətinin irəli sürdüyü yanlış tezisə görə Azərbaycan "başdan - başa savadsızlar ölkəsi"idi, buna görə də Azərbaycanda xalq maarifinin birinci dərəcəli vəzifəsi əhalinin savadsızlığını ləğv etmək hesab olunurdu. Əslində isə, əhalinin bir hissəsi dini məktəblərdə, xeyli hissəsi isə çar hökumətinin dövründə açılmış müxtəlif tipli ibtidai və orta məktəblərdə təhsil almışdı. XKS-nin qərarına əsasən 1921-ci ildən yaradılmış Mərkəzi Maarif İdarəsinin savadzılığın ləğv edilməsi sahəsində təxirə salınmaz öhdəlikləri var idi. Əhalini hamısını əhatə edən savadsızlığı ləğv etmə məktəbləri fəaliyyətə başladı. 1922-23-cü dərs ilində savadsızlığı ləğvetmə kurs və məktəblərində 14336 nəfər çalışırdı. Kəndlilərin savadsız əhalisini təhsilə cəlb etmək üçün qəzalarda səyyar məktəblər yaradılırdı. Savadsızlığın ləğvi işini vahid orqanda mərkəzləşdirdilər. XKS-nin sədri Q. Musabəyovun rəhbərliyi ilə 1923-cü ilin dekabrın 17-də "Savadsızlıqla mübarizə komitəsi" təşkil edildi [1,s.199]. Savad məktəblərində oxuyan zəhmətkeşlər üçün iş vaxtı iki saat azaldıldı. "Rədd olsun savadsızlıq cəmiyyəti" 1924-cü il iyulun 17-dən fəaliyyətə başladı. Daxili işlər komissarı H.Sultanov savadsızlığın əleyhinə yaradılmış cəmiyyətin sədri seçilmişdi. Kəndlilər və fəhlələr arasında savadsızlığın ləğvi təbliğ olunur, bunun üçün kampaniyalar, yığıncaqlar təşkil edilirdi. Yeniyetmələrin,16-35 yaş arası insanların bu kurslara cəlb edilməsinə diqqət yetirilirdi [3, s.49-50]. Kənd əməkçiləri içərisində savadsızlığı ləğvetmə kurs və məktəblərinin təşkilinə Torpaq və meşə işçiləri Həmkarlar İttifaqı yardım edirdilər. Təkcə 1925- ci ildə bu İttifaq klub və qırmızı guşələrdə muzdurlar üçün 24 savadsızlığı ləğvetmə məntəqəsi və 22 savad məktəbi təşkil etmişdi. Çox hallarda savad məntəqələri 20-25 əvəzinə 40-45 nəfərə xidmət edirdi. 1923-1924-cü tədris ilində 21480 nəfər savadsızlığı ləğvetmə məntəqələrində ancaq əlifba savadı qazanmışdı. Onlardan 17008 nəfəri azərbaycanlı, o cümlədən 1287 nəfəri azərbaycanlı qadın idi [2, s.165].

**Əlifba islahatları**

Bolşevik istilasına qədər Azərbaycan xalqı ərəb əlifbasından istifadə etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə əlifba islahatının da əsası qoyulmuş, lakin ölkənin hərbi-siyasi çətinlikləri üzündən bu proses başa çatdırılmamışdı. Aprel işğalından sonra kommunistlər inzibati-amirlik sisteminin iradəsi olaraq yeni türk əlifbasına keçidi sürətləndirdilər. 1922-ci ilin mayında əlifbanın latınlaşdırılması işini aparan Yeni Türk Əlifbası (YTƏ) Daimi Komitəsi yaradıldı. Komitə bütün qəzalarda şöbələrini açdı, hökumətin köməyi ilə (Ali İqtisadi Şura komitənin ehtiyacları üçün üç milyard manat məbləğində valyuta fondu ayırdı) yeni şrift, yeni əlifbada ədəbiyyat, qəzet və jurnallar nəşr etmək üçün lazımi texniki avadanlıq alındı, mütəxəssislər hazırlandı, əhali içərisində geniş izahat kampaniyasına başlandı [8,s.187]. 1923-cü il oktyabrın 20-də Azərbaycan SSR MİK-nın qəbul etdiyi "Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında" dekretinə uyğun olaraq bütün idarə və təşkilatlara kargüzarlığı həm əski, həm də yeni əlifbada aparmaq haqqında göstəriş verildi.1924-cü il 27 iyun "Yeni türk əlifbası haqqında" dekretə əsasən o, "dövlət və məcburi" əlifba kimi elan edildi. Lakin əhalinin əksəriyyəti hələ bu əlifba ilə tanış deyildi. Kommunistlərin məntiqinə görə əlifba islahatı sosializm cəmiyyətinin yeni keyfiyyətli insanını formalaşdırmaqdan, xalqların irəli getməsi üçün öz keçmişləri ilə əlaqələri qətiyyətlə qırmalarından ötrü bir vasitə idi. Əlifba məsələsini müzakirə etmək üçün türkdilli xalqların qurultayını çağırmaq zərurəti meydana çıxdı. Azərbaycan YTƏ Komitəsi "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" ilə birlikdə türkoloji qurultay çağırmaq qərarına gəldi. Qurultay Bakıda 1926-cı ilin fevralında açıldı [4, s.85]. Türkdilli xalqların mədəni həyatında mühüm rol oynamış Birinci Ümumittifaq türkoloji qurultayda ərəb əlifbasının islahatı və latın əlifbasının qəbul edilməsi, milli terminologiyanın yaradılması və türk dilli xalqlar üçün ədəbi dil, ana dilinin tədris metodikası, diyarşünaslıq, türk dillərinin orfoqrafiyası haqqında məsələləri müzakirə edildi, latın əlifbasına keçilməsinin mühüm əhəmiyyəti vurğulandı [13, s.112].

Vahid şəklə salınmış latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi. 1928-ci ildə Türkiyədə latın əlifbasına keçildikdən sonra türk dünyasının mənəvi birliyinin möhkəmlənəcəyindən qorxan sovet hakimiyyətinin göstərişi ilə 30-cu illərin ortalarında Azərbaycanda da rus-kiril yazı qrafikasına keçilməsi sahəsində "hərəkat" başlandı. Azərbaycan yazısının latın əlifbasından rus əlifbasına keçirilməsi haqqında Azərbaycan SSR Ali Soveti 1939-cu il iyulun 11-də qanun qəbul etdi. Qanunda göstərilirdi ki, Azərbaycan yazısı 1940-cı il yanvarın 1-dən başlayaraq latın əlifbasından rus əlifbasına keçirilsin. Kütləvi məktəblərdə yeni əlifbada dərs keçilməsinə və təlim verilməsinə 1940-cı il sentyabrın 1-dən etibarən ilk növbədə aşağı siniflərdə başlanılsın; bunun üçün qabaqcadan müəllim kadrları hazırlansın və məktəblər üçün yeni əlifbada lazımi dərsliklər nəşr olunsun. Dövlət idarələrinin, ictimai təşkilatların kargüzarlıq işləri və dövri mətbuat 1940-cı il yanvarın 1-dən etibarən tədricən yeni əlifbaya keçirilsin [6, s.1].

Göründüyü kimi, iki onillikdə iki dəfə əlifba dəyişdi. SSRİ rəhbərliyi heç bir zərurət olmadan, sırf siyasi məqsəd güdərək əlifbanı yenidən dəyişdi. M.Ə. Rəsulzadənin göstərdiyi kimi, mədəniyyətin ruslaşdırılması bu, Azərbaycanın həqiqi bir faciəsi idi. Sovetləşdirmənin ilk dövrlərində bu siyasət mədəniyyətin "formaca milli, məzmunca kommunist" olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı. Sovet hökuməti əvvəlcə ərəb hərfləri ilə yazmağa icazə verirdi. Lakin sonra sovet mədəniyyət xadimləri Azərbaycan ədəbiyyatını dayandığı öz mədəni və tarixi köklərindən qoparıb, onu və onunla bərabər xalqın mədəniyyətinin bütün sistemini yeni sovet yoluna salmaq istədilər [10, s.98].

**Açar sözlər:** *Azərbaycan SSR, sovet hakimiyyəti, xalq təhsili, əlifba islahatları, savadsızlığın ləğvi, kommunist ideologiyası.*

**Nəticə**

Beləliklə, Azərbaycanın XX əsr tarixinin problemlərindən biri də sovet hakimiyyətinin təhsil sahəsində həyata keçirdiyi siyasət olmuşdu. Əhalinin savadlanması üçün məktəb quruculuğu və ibtidai ümumi təhsil, savadsızlığın ləğvi, dil, əlifba sahəsində tədbirlər həyata keçirilmişdi. Azərbaycanda "kommunist ideologiyasını" əsas tutaraq sovet hakimiyyəti mədəni yeniliklərə başlamışdı. Yeni təhsil sisteminin yaradılmasında sovet hakimiyyətinin əsas məqsədi sovet rejiminə və mövcud quruluşa sədaqətli yeni gənc nəsil yetişdirmək, savadlı yerli kadrlar hazırlamaqdan ibarət olmuşdu. Türkiyədə latın əlifbasına keçildikdən sonra türk dünyasının mənəvi birliyinin möhkəmlənəcəyindən qorxan SSRİ rəhbərliyi əlifbanı yenidən dəyişmiş, Azərbaycan yazısının latin əlifbasından rus əlifbasına keçirilməsi haqqında qanun qəbul etmişdi.

## ƏDƏBİYYAT SİYAHISI:


1.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.4, s.v.10.

2. ARPİİİSSA , f.1, siy.5,s.v. 60.

3. ARPİİİSSA , f.1, siy.6,s.v. 201.

4. ARPİİİSSA , f.1, siy.9,s.v. 358.

5. ARPİİİSSA , f.1, siy.10,s.v. 21.

6. ARPİİİSSA , f.1, siy.32,s.v. 694.

7. ARPİİİSSA, f.1, siy.74,s.v. 256-260.

8.Azərbaycan tarixi. 7 cilddə. VI cild. Bakı: "Elm", 2008, 568 s.

9.Əliyev H. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Noyabr, 1996 - mart, 1997. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: Azərnəşr, 1998, 488 s.

10.Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991,112 s.

11.Vahid Ömərov. Səs. 2012. 27noyabr. S.14. http://www.anl.az/down/meqale/ses/2012/noyabr/279755.htm

12.Исмаилов Э.Р. Очерки по истории Азербайджана . Москва: Флинта, 2010, 424 с.

13.Мусаева Т.А. Культура Азербайджана на рубеже эпох (20-30-е годы XX столетия), Bakı: "Elm və təhsil", 2015, 376 с.



**SEVDA ISMAYILOVA**
**Associate Professor of Baku State University**
**Doctor of Philosophy in History**


## THE POLICY IMPLEMENTED BY THE SOVIET GOVERNMENT IN THE FIELD OF PUBLIC EDUCATION SYSTEM IN THE AZERBAIJAN SSR (1920-1930 YEARS)

### SUMMARY


The presented article examines the measures taken by the Soviet government in the Azerbaijan SSR in 1920-1930 to establish the Soviet system of public education and their essence. The main purpose of the study is to show the main policy of the Soviet government in creating a new education system in Azerbaijan, to raise a new generation of young people loyal to the Soviet regime and the existing system, to train educated local staff. It was emphasized that history and geography, which are considered "political subjects", are under the complete control of the Communist Party, and that these subjects are used as the main ideological weapon in the formation of the "new man" who will be the founder of the socialist society, and in fact, the Soviet citizen. The article also examines the essence of the Soviet government's policy in the elimination of illiteracy, alphabet reforms in Azerbaijan.



**Keywords:** *Azerbaijan SSR, Soviet power, public education, alphabet reforms, elimination of illiteracy, communist ideology.*



**СЕВДА ИСМАИЛОВА**
**доцент Бакинского Государственного Университета**
**доктор философии по истории**


## ПОЛИТИКА, ОСУЩЕСТВЛЯЕМАЯ СОВЕТСКИМ ПРАВИТЕЛЬСТВОМ В ОБЛАСТИ СИСТЕМЫ НАРОДНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1920-1930-Е ГОДЫ)

### РЕЗЮМЕ


В представленной статье рассматриваются меры, предпринятые советским правительством в Азербайджанской ССР в 1920-1930-е годы по созданию системы народного образования и их сущность. Основная цель исследования - показать основную политику советского правительства в создании новой системы образования в Азербайджане, воспитать новое поколение молодых людей, лояльных советскому режиму и существующей системе, подготовить образованные местные кадры. Подчеркивается, что история и география, считающиеся «политическими предметами», находился под полным контролем Коммунистической партии, что из этих предметов использовался в качестве главного идеологического оружия в формировании «нового человека» - основателем социалистического общества, советского гражданина. В статье рассматриваются также, сущность политики советского правительства в Азербайджане, в области народного образования, ликвидации неграмотности, реформа алфавита.



**Ключевые слова:** *Азербайджанская ССР, советская власть, народное образование, алфавитная реформа, ликвидация неграмотности, коммунистическая идеология.*

UOT 94 (479.24)

# NADİR ŞAH ƏFŞARIN 1726-1736-CI İLLƏR FƏALİYYƏTİ TARİXİ TƏDQİQATLARDA

**SƏBİNƏ ALIYEVA**
*Bakı Dövlət Universiteti. Tarix fakültəsi, "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının əyani doktorantı*

*E-mail: sabinalyeva@mail.ru*

Nadir şah Əfşar Asiyanın son sərkərdəsi adlandırılaraq dünya tarixində özünəməxsus yeri olan şəxsiyyətlərdən biridir. Belə bir şəxsiyyətin araşdırılması, təbii ki, hər zaman diqqət mərkəzində olmasına baxmayaraq, obyektiv aparılmamışdır. Çünki tədqiqatçının yaşadığı mühit və hakim sinfin ideologiyası hər zaman araşdırılan mövzuya təsirsiz ötüşmür.

Nadir şahın araşdırılması zamanı da bu hallar özünü göstərmişdir. Sovet dövründə aparılan tədqiqat işləri öz əhatə dairəsinə, akademik səviyyəsinə, orijinallığına görə tamamilə fərqlənir. Sovet dövrü tarixçiləri Əfşar şahı uğurları ilə deyil, uğursuzluqları ilə göstərməyə çalışmış, onun dünya hərb tarixinə gətirdiyi yenilikləri qabarıq göstərməmişlər. Buna rəğmən sovet tarixçiləri də Nadirin danılmaz zəkası haqqında mənfi fikir söyləməmişlər. Əslində, Nadir şah şəxsiyyəti ilə bağlı sovet dönəmində mənfi fikirlərin söylənilməsi dövrün tələblərini nəzərə alsaq normal qarşılanmalıdır. Həmin dövrdə Nadiri qəddar, acımasız, həmçinin, Azərbaycanın sərkərdəsi, hökmdarı kimi deyil, düşməni kimi göstərməyə çalışmışlar. Çünki Nadir şah rusların Qafqazla bağlı planlarını alt-üst etmiş, onları Şimali Qafqazdan və Azərbaycanın şərqindən qovub çıxartmışdı. O, rusların canına qorxu salaraq, onları XIX əsrin əvvəllərinə qədər Azərbaycana tərəf gəlmələrinə mane olduğundan, yalnız Nadir şahın öldürülməsindən və Azərbaycanın xanlıqlara bölünməsindən istifadə edərək onlar işğal prosesini həyata keçirə bilmişlər. Nadir şah Əfşar imperiyası Azərbaycanın növbəti müstəqilliyindən sonra Vətən tarixşünaslığında yenidən obyektiv araşdırılmağa başlanılmışdı. Məhz bu dövrdən Əfşar imperiyasının qurucusuna layiq olduğu qiymət verilməyə başlanıldı.

Bildiyimiz kimi, Nadirqulunun siyasi meydana çıxdığı zamanlarda Səfəvi imperiyası artıq süqutun astanasında olan bir dövlət idi. Rəhimə Dadaşova "Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda)" əsərində həmin dövr haqqında qeyd edir ki, XVIII əsrin birinci yarısında Səfəvi imperiyası tarix səhnəsindəki ən ağır illərini keçirirdi. Çünki XVIII əsrin 20-ci illərində istər Rusiya, istər Osmanlı Səfəvilər dövlətinin tənəzzülündən istifadə edərək Azərbaycanı ələ keçirmək üçün açıq-aşkar müdaxiləyə başlamış, 1722-1725-ci illər arasında Azərbaycan uğrunda mübarizənin sonunda Rusiya və Osmanlı Azərbaycanı öz aralarında bölüşdürmüşlər. Eyni zamanda əfqanlar Şah Hüseyni taxtdan salıb hakimiyyəti ələ almışdılar (Dadaşova, 2003).

Fikrimizcə, bütün bunlar artıq tarix səhnəsinə güclü bir liderin gəlməsini labüd edən səbəblər idi. Araşdırmamıza əsasən göstərilir ki, Nadirqulu ağıllı, uzaqgörən olduğu üçün əfqanların əlində oyuncaq olmuş Səfəvi dövlətini xilas etməyə müvəffəq olmuşdu. Nadirqulu siyasi səhnəyə çıxıb, şahzadə Təhmasib Mirzəyə yardım edərək taxt-tacını bərpa etmək sözünü də verir. Lakin Nadirqulunun şahzadə Təhmasib Mirzə ilə əlaqə qurması haqqında tarixi mənbələrdə müxtəlif fikirlər mövcuddur.

Mehman Süleymanov "Nadir Şah" əsərində Məhəmməd Kazım Mərvin "Aləm Ara-ye Naderi"yə əsərinə istinadən yazır ki, Təhmasib Mirzə Fətəli xan Qacar ilə birlikdə qoşun toplayan zaman Nadirin igidliyi, qoçaqlığı haqqında fikirlər şimal əyalətlərə də yayılmışdı. Təhmasib Mirzə əyanı Həsənəli bəyi Nadirqulunun yanına göndərib, xidmət üçün dəvət edir. Şahzadə Təhmasib Qacarla birlikdə güclü qoşun yaradıb Xorasan vilayətini azad etmək istəyirdi. Deməyə ehtiyac yoxdur ki, Nadirin Xorasan hakimi Məlik Mahmudla gərgin münasibəti Təhmasib Mirzəyə də məlum idi. Nadir Təhmasib Mirzənin təklifinə müsbət cavab verir, hədiyyələr ilə onu geri göndərir. Amma Nadir ilə Təhmasib Mirzənin qoşunlarının birləşməsi bəzi tayfaların Xorasanın şimal-şərqində qiyam qaldırması səbəbindən bir qədər ləngiyir (Süleymanov, 2010).

Lawrence Lockhart isə "Nadir Şah" əsərində bu hadisəni belə göstərir ki, Təhmasib 1726-cı ilin əvvəllərində Nadirin cəsurluğundan xəbər tutdu. Hərfi mənası dövlətin yoxlayıcısı olan müafirül-məmalik Həsənəli bəyi göndərir ki, Nadir haqqında məlumat toplasın. Görünür Nadir ona yaxşı təsir bağışlayır ki, Nadiri Təhmasib Mirzənin Əbivərddəki nümayəndəsi təyin edir (Lockhart, 2018).

Elnur Hüseynov isə "Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə" adlı namizədlik işində qeyd edir ki, Hüseyn Şah Səfəvi əfqanlara təslim olduqdan sonra oğlu Təhmasib Mirzə atasının yerinə özünü şah elan etmək arzusunda olmuşdu. Lakin Təhmasib Mirzənin sərkərdəlik məharəti olmadığı üçün özünə müttəfiq axtarıb və Astrabad hakimi Fətəli xan Qacarı tapmışdı. Lakin tezliklə onun təsiri altına düşdüyü üçün yeni müttəfiq axtardığı zaman Nadirqulunun təklifinə müsbət yanaşmışdır. Həmin dövrün mənbələrində göstərilir ki, Nadirqulu o dövrdə Qulu xan adlanırdı. 6 minlik qoşunu yaxşı silahlanmış, təlim görmüş və döyüş təcrübəsindən keçmişdi. Təhmasib Mirzəyə Xəzərboyunda, Tabasaran əyalətində və Astrabadda olan qoşun rəhbərləri kömək üçün gəlirdilər. Nadirqulu Təhmasib Mirzəyə öz xidmətini təklif edib, and içdi ki, əgər ki şahzadə ona birinci vəzir vəzifəsinə verərsə, qarşılığında taxtını bərpa edib, əfqanları ölkədən çıxaracaqdır. Şahzadə Təhmasib sevincək bu təklifi qəbul edir, hətta Nadiri özündən sonra ikinci şəxs hesab etdiyini göstərmək üçün Nadirin adını öz adı ilə əvəz edərək ona "Təhmasib Qulu" xan adını verir. Nadirqulu həmin gündən sonra Təhmasib Qulu xan adlandırılır (Hüseynov, 2006).

Məşhəd şəhərinə Təhmasib Mirzənin birləşmiş qoşunu ilə daxil olması haqqında Məhəmməd Hüseyn Qüddüsi "Nadir-Namə (Nadir şah Əfşarın həyatı)" əsərində yazır ki, Təhmasib Mirzə iki qüvvəli həmkarı (Fətəli xan və Nadir – A.S) ilə 1139-cu il məhərrəm ayının 22-də (19 sentyabr 1726-cı il - A.S) Xəbuşandan Məşhədə yola düşdülər. Fətəli xan ilə Nadir arasında yolda rəqabət yarandı. Nəticədə Nadir Təhmasib Mirzənin inandıra bildi ki, Məşhədi ələ keçirə biləcəkdir. Lakin, Nadir istəyinə nail ola bilmədi. O düşünürdü ki, qoşunu ilə gedib Məlik Mahmudun ordusunun bir hissəsi məhv edə biləcəkdir. Amma Nadir nə özünün topxanasının olmamasını, nə də Məşhəd qala divarlarının qalınlığını və möhkəmliyini nəzərə almadığı üçün, sadəcə Məşhədi mühasirəyə almaqla kifayətlənmişdi. Xavər Təbii məqbərəsi yaxınlığında isə artıq Fətəli xanla Nadir arasındakı mübarizə qanlı mübarizəyə çevrilmişdi (Quddusi, 2017).

L.Lockhartın göstərilən əsərində yazdığına görə, Nadir Təhmasib Mirzəni inandıra bilir ki, Fətəli xan Məlik Mahmudla birlikdə səfər ayın 14-də (1726-cı il oktyabr ayının 11-də - A.S) onu (Təhmasibi - A.S) sui-qəsdlə öldürəcəklər. Bundan sonra, Şahzadə Təhmasib Fətəli xanı öldürmək istəsə də, Nadir zindana salınmasının kifayət olduğunu söyləyir. Şahzadə Təhmasib isə Nadirin fikri ilə razılaşsa belə, Fətəli xanın ölüm hökmünü verir. Buradan aydın olur ki, Nadirin razılığı olmadan ölüm hökmü həyata keçirilir.

M.H.Quddusi isə göstərilən əsərində bu hadisəni bu cür göstərib ki, Fətəli xan Nadirlə Təhmasib Mirzəyə təsir etmək uğrunda savaşırdılar. Kim bu savaşda qalib gəlsə, Təhmasibi öz təsiri altına alacaqdı. Bunun üçün də Fətəli xan Təhmasib Mirzənin Nadirlə görüşməsindən əvvəl ondan icazə istəmişdi ki, Gürgana gedib qoşun toplayıb gəlsin. Əslində o, bu üsulla müharibədən yaxasını qurtarmaq istəmişdi. Təhmasib onun bu əməlindən şübhələnib Nadirə əmr verdi ki, onu öldürsün. Nadir isə onun öldürüldüyü halda qacarlıların qiyam edəcəyini nəzərə alaraq sadəcə Kəlatda zindana atılmasını söylədi. Təhmasib Mirzə razılaşsa da, gizlin əmr verib Fətəli xanı öldürtdü. Qacar eli qiyam etməsin deyə də, bir sıra ordu başçılarını da həbs etdirdi. Ordunun baş komandanlığını Nadir xana tapşırdı (Quddusi, 2017).

M.Süleymanov göstərilən əsərində mənbələrə istinadən yazır ki, Nadir Fətəli xanın öldürülməsindən sonra özünü ondan daha üstün göstərmək üçün bütün bacarıqlarını göstərməyə çalışmışdı. Məlik Mahmud isə şah qoşunlarını məğlub etmək üçün Fətəli xanın öldürülməsini fürsət bilmişdi. Onun qoşununu qaladan çıxardıb şah qoşunları üstünə göndərməsi qərarı Nadiri çox sevindirmişdi. Nadir bütün qoşunlarını qruplaşdıraraq döyüşə hazır vəziyyətə gətirmişdi. Nadirin düzgün strategiyası nəticəsində Məlik Mahmudun topları belə aciz qalmışdı. Nadir Məlik Mahmudun ordusuna ciddi ziyan vuraraq bir neçə təcrübəli sərkərdəsinin öldürülməsinə, Məlik Mahmudun qalaya geri çəkilməsinə nail olmuşdu. Artıq Məlik Mahmudun adamları belə Nadirlə döyüşün asan olmayacağını anladıqları üçün, bir neçə şəxs Nadirlə əlaqə yaratmağa çalışmışdılar. Onlardan biri də Məlik Mahmudun sərkərdələrindən olan Pir Məhəmməd olmuşdu. O, Nadirlə olan razılığına görə, gecə Mirəli darvazasının mühafizəçilərini zərərsizləşdirib, qapıları Nadirin qoşunları üçün açmalı idi. Pir Məhəmməd razılaşmaya əməl etmiş və Nadir 12 minlik qoşun ilə qalaya daxil olmuşdu. Mənbələrə görə, döyüş zamanı Nadir özü də əlində qılınc düşmən ilə döyüşmüşdü (Süleymanov, 2010).

Tez bir zamanda Məşhəddə Məlik Mahmud hakimiyyətinə tamamilə son qoyuldu. Təhmasib Mirzə Məşhədə gələrək İmam Rzanın qəbrini ziyarət etmişdi. Məlik Mahmud hakimiyyətini istəməyən əhali də

Təhmasib Mirzənin gəlişini, sevinclə qarşılamışdılar. Təhmasib Mirzə Məşhədin alınmasına çox sevinmiş, lakin taxt tacı olmadığı üçün Nadirə Təhmasibqulu adını verməklə kifayətlənmişdi (Süleymanov, 2010).

Nadirin "Təhmasibqulu" adını alması ilə bağlı müxtəlif fikirlər söylənilir. L.Lockharta görə, Fətəli xanın öldürülməsindən sonra Nadir fəaliyyətsiz Təhmasib Mirzəni inandırır ki, rəhbərlik işlərini ona verməli, bir sıra təyinatlar həyata keçirilməlidir. Təhmasib Mirzə bu zaman Nadiri həm qorçubaşı təyin edir, həm də ona Təhmasibqulu adını verir (Lockhart, 2018). L.Lockhartın bu fikirlərini M.H.Quddusi də öz əsərində təsdiqləyir. O, da Nadirin Təhmasibqulu adını almasını Fətəli xanın öldürülməsindən sonra olduğunu yazır. Lakin bəzi tarixçilər lap elə ilk görüşlərində Təhmasib Mirzənin bu adı Nadirə verdiyini söyləyirlər.

1743-1744-cü illərdə Azərbaycanda olmuş Conas Hanvey Təhmasibqulu adının verilməsinin Nadirin Məşhəd şəhərini azad etməsi ilə əlaqəli olduğunu məlumat vermişdi. Əslində bizim fikrimizcə də C. Hanveyin məlumatı həqiqətə daha uyğundur.

M.Süleymanov göstərilən əsərində qeyd edir ki, Nadir və Təhmasib Mirzə Məşhəddə olduqları zaman, Sarılı, Yumurlu və Təkə türkmənlərin qiyam etdikləri xəbərini alırlar. Nadir əfqanlara yürüş hazırlığında olduğu üçün, qiyamı yatırmağa qardaşı İbrahim xanı göndərmiş, amma İbrahim uğursuz olduğu üçün özü gedib qiyamı yatırmış, sabitliyi bərpa etmişdi. 1729-cu ildə növbəti dəfə Məşhədə gələn Nadir əfqanlara qarşı döyüş hazırlıqlarına qaldığı yerdən davam etmişdi (Süleymanov, 2010).

Mənbələrin verdiyi məlumata görə, Nadirin əfqanlarla döyüşü zamanı, onun qoşunu əfqanların qoşunundan say baxımından azlıq təşkil etsə də, Nadirin qoşunu qalib gəlmiş, 1729-cu ilin dekabr ayına qədər düşməni ölkədən qova bilmişdi. (Süleymanov, 2010). Qeyd edə bilərik ki, heç şübhəsiz, uğurun əsas səbəbi Nadirin düzgün strategiyası, qorxmazlığı və ağlı olmuşdu.

Cahangir Hüseyn Əfşar "Azərbaycan Nadir Əfşar dövləti" əsərində yazır ki, Təhmasib Mirzə şah olduqdan sonra qonşu dövlətlər tərəfindən işğal olunmuş torpaqları geri qaytarmağa çalışır ki, ilk olaraq Osmanlılardan işğal etdikləri əraziləri tərk etmələrini tələb edir. Qarşılığında rədd cavabı alır ki, bu da Nadirin osmanlılara qarşı fəal hərbi əməliyyatlara başlamasına səbəb olur. Amma Nadir əfqanların Xorasana hücum xəbərini eşidən kimi Xorasana gedir. Şah II Təhmasib öz itirilmiş nüfuzunu bərpa etmək üçün osmanlılar ilə müharibəni özü davam etdirir, lakin məğlub olaraq 1732-ci ildə Kirmanşah sülhünü imzalamağa məcbur olur (Əfşar, 2014). Müqavilənin şərtləri 7 cildlik Azərbaycan tarixinin III cildində göstərilmişdir ki, İrəvan, Gəncə, Şamaxı və Tiflis şəhərləri ilə birlikdə Şirvan vilayəti, həmçinin Dağıstan Türkiyə (Osmanlıya - A.S.), Təbriz və Kirmanşah şəhərləri İrana (Səfəvilərə - A.S.) qaytarılmışdı. (Azərbaycan Tarixi, III cild, 2007).

Türk tarixçi Sertaş Sarıçiçek "Safeviler döneminde İran'da Avşarlar" adlı yüksek lisanz tezində qeyd edir ki, Xorasandan geri dönən Nadir xan Şah II Təhmasibin osmanlılar ilə rüsvayçı sülh bağlamasınına görə onu xalqın gözündən salmaq üçün, əyyaşlığını, hakimiyyəti idarə edə bilməməsini rəhbər tutaraq hakimiyyətdən uzaqlaşdırıb, 8 aylıq Abbası taxta çıxarır, özünü isə onun naibi elan edir (Sarıçiçek, 2016).

II Şah Təhmasibin taxtdan endirilməsi ilə əlaqəli isə C.H.Əfşar E.A.Belyayevin "Orta əsrlərdə İran" əsərinə istinad edərək yazır ki, Kirmanşah sülhü II Şah Təhmasibin tacını itirməsinə səbəb oldu ki, onsuz da tac onun ağılsız başında çox zəif görünürdü (Əfşar, 2014).

1732-ci il avqust ayının 22-də taxtdan endirilən II Şah Təhmasibin yerinə, III Şah Abbas adı ilə M.Süleymanova görə 7 aylıq, L.Lockhart və M.H.Quddusiyə görə isə 8 aylıq oğlu Abbas şah elan edildi. Tac qoyma mərasimi M.H.Quddusinin əsərində göstərilir ki, hicri tarix ilə 1145-ci il rəbiüləvvəl ayının 17-də (1732-ci il sentyabr ayının 7-də - A.S.) baş tutmuşdu. Belə ki, kiçik şəhzadənin beşiyi taxt otağına gətirilmiş, Nadir xan Əfşar tərəfindən onun başına tac, yanına isə şahlıq qılıncı qoyulmuşdu (Quddusi, 2017). Hakimiyyəti tamamilə öz əlinə keçirən Nadir xan artıq Təhmasibqulu adından imtina etmiş, naibüssəltənə (səltənət vəkili - A.S.) və vəkilüddövlə (dövlətin vəkili - A.S.) adlarını qəbul etmişdi. Naibüssəltənə Nadir xan osmanlılar ilə bağlanmış Kirmanşah sülhünü ləğv etmiş, 1723-cü ildən ələ keçirilən torpaqların geri qaytarılmasını Osmanlı Sultanı I Mahmuddan tələb etmişdi. Lakin Osmanlı Sultanı I Mahmud rədd cavabı, müharibənin başlamasına səbəb olsa da, müharibə Nadir xanın qələbəsi ilə bitmiş, Bağdad sülh müqaviləsi imzalanmışdı. Lakin müqavilənin şərtlərinə də razılığa gələ bilmədikləri üçün müharibə yenidən alovlanmışdı (Əfşar, 2014).

C.H.Əfşar göstərilən əsərində Tofiq Mustafazadənin "XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində

Osmanlı Azərbaycan münasibətləri" əsərinə istinadən yazır ki, Nadir Osmanlı dövlətinin zəbt etdiyi Şirvan ərazisinə hücum etmiş, müqavimətsiz 1734-cü il avqust ayının 24-də Şamaxını ələ keçirmiş, şəhərin dağıdılmasını əmr etmişdi (Əfşar, 2014). Nadir xanın bu addımı atmasına səbəb əslində Şamaxının XVIII əsrin əvvəllərindən etibarən hər zaman üsyanların baş şəhəri olması olmuşdu. Tahirə Həsənzadə "XVIII – XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri" əsərində göstərir ki, Şamaxı Təhmasibqulunun qoşunu tərəfindən dağıdıldığından o, Yeni Şamaxı adlandırılan Ağsu şəhərini saldırıb, əhalini oraya köçürtmüşdü (Həsənzadə, 2013). Bundan sonra Nadir 1734-cü ildə Şimali Azərbaycan torpaqlarında Osmanlı dövlətinin əsas dayaq nöqtəsi olan Gəncə şəhəri ətrafına yaxınlaşmış və təslim olmaları üçün təhdid məktubları göndərmişdi. Lakin məktubu alan şəxslər yalnız padşahın əmrdən sonra təslim ola biləcəklərini söyləmişdilər. C.H.Əfşar M.K.Mərvin "Aləm Ara-ye Naderi" əsərinə istinadan yazır ki, Nadir xan cavab məktubunu gözlədiyi zaman, Gəncəli paşa şəhərə çoxlu azuqə toplayaraq, şəhərin möhkəmləndirilməsi ilə məşğul olmuşdu. Belə olduqda Nadir xan şəhərə aramsız hücum etməyə başlamışdı. Şəhərin paşası isə İrəvan və Qars şəhərlərindən kömək gələcəyinə arxayn olsalar da, istəkləri baş tutmamışdı. Nadir xan Əfşar Gəncə ətrafında kiçik bir dəstə qoyaraq 1735-ci ildə Qarsa hücum etmiş, Osmanlı paşası Abdulla paşanın ordusunu darmadağın etmiş, Qarsı ələ keçirmişdi. Bu qələbədən sonra döyüşün mənasız olduğunu başa düşən Tiflis, Gəncə, İrəvan şəhərləri təslim olmuşdu (Əfşar, 2014).

M.Süleymanovun yazdığı kimi, Nadir ağlı və sərkərdəlik məharəti ilə Şərqin böyük imperiyalarından biri olan Osmanlı imperiyasını Cənubi Qafqazdan çıxartmış, Səfəvi dövlətinin mütləq hakimiyyətini gücləndirmişdi (Süleymanov, 2010).

T.Həsənzadə göstərilən əsərində qeyd edir ki, Təhmasibqulu xan Qafqazda apardığı döyüşlər nəticəsində Azərbaycan, Gürcüstan və Dağıstanda əraziləri düşmən əlindən azad etmiş, ərazidə nizam-intizam yaratmışdı. Bu zaman Bakı və Dərbənd şəhərləri ruslar tərəfindən boşaldılmış, 1735-ci ildə Azərbaycan Səfəvilər dövləti ilə Rusiya arasında Gəncə müqaviləsi imzalanmışdı. (Həsənzadə, 2013).

L.Lockhart "Nadir Şah" əsərində qeyd edir ki, Gəncə müqaviləsinin imzalanmasından sonra ruslar iki həftə ərzində Bakını, iki ay ərzində isə Dərbəndi boşaltmaq öhdəliyini götürmüş, Səfəvilər isə bunun qarşılığında Rusiya ilə əbədi müttəfiq olmağı, Bakı və Dərbəndi heç kimə güzəştə getməməyi vəd etmişdilər (Lockhart, 2018).

Nadir xan Əfşar həm osmanlıları, həm də rusları Azərbaycan Səfəvi dövlətinin sərhədlərindən çıxartdıqdan sonra mərkəzi hakimiyyəti gücləndirməyə, iri feodalların gücünü zəiflətməyə başlamışdı. Bu səbəbdən 1735-1736-cı illərdə Dağıstanda ona qarşı itaətsizlik göstərən dəstələri çoxsaylı qurbanlar hesabına belə olsa məhv edib, 1736-cı ildə çağırdığı Muğan qurultayında öz hakimiyyətini bərqərar etmişdi.

Nəticədə qeyd edə bilərik ki, araşdırmamızda Nadirin 1726-1736-cı illərdəki fəaliyyəti ilə əlaqəli ayrı-ayrı tədqiqatçıların əsərlərinə istinad edərək, Nadirqulu ilə Təhmasib Mirzənin müttəfiqliyinin Azərbaycan Səfəvilər dövlətinin taxtı üçün müsbət nəticələrini göstərdik, Nadir Əfşarın süqutun astanasında olan Azərbaycan Səfəvilər dövlətini düşmən əlindən xilas etməsini, Təhmasibqulu xanın Rusiya və Osmanlı qoşunlarını Qafqazdan çıxartmasını dövrün mənbələrinə və tədqiqatçıların əsərlərinə istinad edərək araşdıra bildik. Sonda qeyd edə bilərik ki, Nadir xan Əfşar olmasa bəlkə də, Azərbaycan Səfəvilər dövlətinin mövcudluğu daha qısa olacaq, ölkə əfqanların, rusların və osmanlıların əlində oyuncağa çevriləcəkdi.


## XÜLASƏ

Nadir şah Əfşar orta əsrlər tarixinin sonuncu ən parlaq şəxsiyyətidir. Məhz elə bu səbəbdən, Şərqin sonuncu Fatehi adlanır. Ağlı və cəsarəti hər zaman onu irəliyə aparmışdı. Süqutun astanasında olan Səfəvilər dövlətini işğaldan qurtarmış və Təhmasib Mirzəyə haqqı olan şahlıq taxtını vermişdi. Nadir Əfşar Şah II Təhmasib zamanından başlayaraq 1736-cı ilə kimi Səfəvilər dövlətinə xidmət etmiş, ölkəni xarici düşmənlərdən təmizləmiş, dövlətin itirilmiş nüfuzunu bərpa etməyə çalışmışdır.


**Açar sözlər:** *Nadir xan, Səfəvilər dövləti, Şah II Təhmasib*


## SUMMARY

Nadir Shah Afshar is the last most brilliant personality of medieval history. It is for this reason that he is called the last Conqueror of the East. His mind and courage always carried him forward. The Safavids, which were on the verge of collapse, saved their state from occupation and gave rightful royal throne

to Tahmasib Mirza. Nadir Afshar served the Safavid state from the time of Shah Tahmasib II until 1736, cleansed the country of foreign enemies, and tried to restore the lost influence of the state.

**Keywords:** *Nadir khan, Safavid state, Shah Tahmasib II.*

## РЕЗЮМЕ

Надир Шах Афшар — последняя ярчайшая личность средневековой истории. Именно по этой причине его называют последним завоевателем Востока. Его разум и тело всегда несли его вперед. Сефевиды, находившиеся на грани краха, спасли свое государство от оккупации и отдали законный царский престол Тахмасибу мирзе. Надир Афшар служил государству Сефевидов со времен шаха Тахмасиба II до 1736 года, очищал страну от внешних врагов и пытался восстановить утраченное влияние государства.

**Ключевые слова:** *Надир-хан, государство Сефевидов, шах Тахмасиб II.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Cahangir Hüseyn Əfşar (2014). Azərbaycan Nadir Əfşar dövləti. Bakı, n.y., 33, 252, 57-60*

*2. Elnur Hüseynov (2006). Azərbaycan Nadir Şah Əfşarın hakimiyyəti dövründə. Namizədlik dissertasiyası, Bakı. 23, 26*

*3. Tahirə Həsənzadə (2013). XVIII – XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı, Elm və Təhsil nəşriyyatı. 33-34*

*4. Lawrence Lockhart (2018). Nadir Şah. Bakı, Qanun Nəşriyyatı. 32, 33, 37, 365- 368, 373-375*

*5. Mehman Süleymanov (2010). Nadir Şah. Tehran, Neqare Endişe. 5, 126-129, 271-278*

*6. Məhəmməd Hüseyn Quddusi (2017). Nadir-Namə/Nadir Şah: Nadir Şah Əfşarın həyatı. Bakı, Kitab Klubu MMC. 20-26, 38-39*

*7. Rəhimə Dadaşova (2003). Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı, Nurlan nəşriyyat. 213-223*

*8. Sertaş Sarıçiçek (2016). Safeviler döneminde İran'da Avşarlar. Yüksek lisans tezi, Ankara. 136-137*

UOT 94 (479.24)

# QARABAĞIN ORTA ƏSR AZƏRBAYCAN DÖVLƏTLƏRİNİN SİYASİ HƏYATINDA ROLU

**AYNUR HƏŞİMOVA**
*Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının doktorantı*

*E-mail: aynur.hashimova@arti.edu.az*

Qarabağ Azərbaycanın qədim tarixi ərazisi olmuş, Kiçik Qafqaz dağlarından tutmuş Kür və Araz çayları arasındakı əraziləri əhatə etmişdir. Tarixi mənbələr sübut edir ki, bu ərazi qədim insan məskənlərindən biri olmuşdur.

Məlumdur ki, Qarabağ orta əsrlər dövründə Araz çayından Sınıq körpüyə qədər, bütövlükdə Kür-Araz hövzəsini əhatə etmişdir. Buna görə də yazılı mənbələrdə orta əsrlər dövrü Qarabağından bəhs olunarkən "Arran Qarabağı" ifadəsi işlənilmişdir [1].

Qarabağ qədim dövrlərdən əsasən türk və Qafqaz qəbilələrinin yaşadığı Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tərkib hissəsi olmuşdur. Yuxarı Qarabağın Xankəndi, Ağdərə, Xocavənd, Şuşa, Aran Qarabağın isə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan, həmçinin Laçın və Kəlbəcər ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri, numizmatik dəlillər Qarabağın qədim maddi mədəniyyətini, etno-mədəni vəziyyətini, əhalinin sosial-iqtisadi səviyyəsini, məişət şəraitini, ümumiyyətlə, Azərbaycanın bu bölgəsinin iqtisadi, ictimai və mədəni tarixini hərtərəfli əks etdirir.

Qarabağ ərazisinin müəyyən hissəsi vaxtilə həmin ərazidə alban tayfalarından olan utilərin yaşaması ilə əlaqədar Uti adlandırılırdı. Utilər də, qarqarlar da Qarabağda yaşayan əsas və qədim tayfalardan olmuşlar. Buna görə də Qarabağın bir hissəsi Qarqarlar ölkəsi adlandırılmışdır [5, s.20]. Albaniyanın tarixi və böyük əyaləti olan Uti əyaləti Kürün sağ sahilində yerləşirdi. Uti əyaləti öz növbəsində ayrı-ayrı inzibati vahidlərə (havarlara) bölünmüşdü ki, bunlardan da ən əsası Sakasena idi. Sakasena Kür çayı ilə Arsak əyaləti arasındakı ərazini əhatə edirdi. İnzibati cəhətdən yeddi vilayətə bölünmüş Utinin ən iri vilayəti "Xüsusi Uti" məhz Qarabağda olmuşdur. Belə hesab olunur ki, Qarabağda yerləşən "Xüsusi Uti"nin ərazisi Sakasena vilayətinin ərazisi ilə eynilik təşkil edir və paytaxt Bərdə şəhəri də məhz bu vilayətdə yerləşirdi. Uti əyalətinin Sakasena vilayətinin "Mərkəzi Uti" və ya "Xüsusi Uti" adlandırılmasının səbəbi Albaniyanın siyasi, dini mərkəzinin Utinin bu hissəsində, başqa sözlə Sakasenada yerləşməsi olmuşdur. Beləliklə, paytaxt Bərdə şəhəri daxil olmaqla Aran Qarabağın əsas hissəsi, Kür çayı ilə Dağlıq Qarabağ arasındakı ərazi Mərkəzi Utini – Sakasenanı əhatə edirdi. Qarabağın əsas hissəsini isə tarixi Arsak əyalətinin ərazisi təşkil edirdi [1]. R.B.Göyüşov yazırdı ki, III-IV əsrlərdən etibarən Qarabağın dağlıq hissəsi Arsak adlanmışdır [3, s.7].

Beləliklə, Qarabağın müasir Bərdə, Tərtər rayonlarının ərazisi, Ağdərə, Kəlbəcər, Ağdam və Ağcabədi rayonlarının ərazisinin bir hissəsi tarixi Uti əyalətinin, həmin rayonların digər hissəsi, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın rayonlarının ərazisi, eləcə də Dağlıq Qarabağ ərazisi Arsak əyalətinin hüdudlarına daxil idi. Müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən və Bərdə rayonuna yaxın ərazisi də Uti vilayətinə daxil olmuşdur [1].

Bu regionun əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarı ilə min illərlə Böyük Qafqaz dağları ilə Araz çayı arasında yaşamış türk mənşəli və Qafqaz dil qrupuna mənsub olan etnik qruplardan ibarət olmuşdur.

Zaman və dövrün təsirindən asılı olaraq, müxtəlif həyat tərzi və dini ideologiya mövcud olmuş, mənəvi mədəniyyətin fərqli xüsusiyyətləri meydana çıxmışdır. Azərbaycanın digər ərazilərindən fərqli olaraq, Qarabağda dini ayrılığın davam etməsi bölgədə sonralar böyük dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Albaniyada Qarabağın dağlıq ərazisində yaşayan və xristianlığa etiqad etməkdə davam edən avtoxton albanların xristian olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülmüşdür. Onlar yerli xristian albanları qriqoryanlaşdıraraq, assimilyasiya etmiş, hayklar adlandırmış, ərazini isə "hayk ölkəsinin bir hissəsi" kimi qələmə vermişlər [6].

Qarabağ ərazisi (Uti və Arsax vilayəti) erkən orta əsrlər dövründə Albaniya dövlətinin tərkib hissəsi olmuşdur. Kür və Araz çayları arasında yerləşən Qarabağ ərazisində əsasən yerli tayfalar

albanlar, utilər, qarqarlar və savdeylərdən savayı, həmçinin gəlmə tayfalar maskutlar, saklar, gellər və ballar yaşamışlar [7, s.22].

Ərəblərin işğalından sonra Uti Arran, Arsax isə Agvan adlandırılmağa başlandı. Albaniyanın Kür çayından cənubdakı ərazisi dörd vilayətə - Arsax, Uti, Paytakaran və Sünik vilayətlərinə bölünürdü. Burada göstərilən Arsax Qarabağın Dağlıq və Mil düzünün bir hissəsini əhatə edirdi. Alban tarixçisi M.Kalankatlı və VII əsr coğrafiyaşünaslarının da təsdiq etdiyi kimi, Arsax 12 əyalətə bölünürdü və onun əhalisi birmənalı olaraq albanlardan ibarət olmuşdur. Arsax I-VI əsrlərdə Albaniya Arşagirdlərinin, VI-VIII əsrlərdə isə Mehranilərin hakimiyyəti altında olmuşdur. IX əsrdə ərəblər Mehranilərin hakimiyyətinə son qoyaraq Arsaxı – Qarabağı Xilafətin tərkibinə daxil etdilər [5, s.20].

Qafqaz Albaniyası ərazisinə qarşı ermənilər tarixən iddialar irəli sürmüşlər. Ermənilərin iddialarına görə Albaniya ərazisinin Kür və Araz çayları arasındakı torpaqları ermənilərə məxsus olmuşdur. Ermənilərin başqa iddiasına görə isə bütün Albaniya ərazisi ermənilərin olmuş və onlar bu torpaqları Şərqi Ermənistan adlandırmışlar. VII əsr müəllifi olan Ananiy Şirakli özünün "Coğrafiya" əsərində yazırdı ki, Kür və Araz çayları arasındakı ərazilər, yəni Arsax, Paytakaran və Uti vilayətləri hələ qədim zamanlardan ermənilərə məxsus olmuş, yalnız 387-ci ildə Ermənistan İran və Bizans arasında bölüşdürülərkən həmin ərazilər Albaniyaya, Quqark isə Gürcüstana birləşdirilmişdir. Ermənilərin digər iddiası isə Böyük Ermənistan yaratmaqla bağlı olmuşdur. Ermənilər üç dənizin arasındakı torpaqlara yiyələnməyə can ataraq bütün Albaniya ərazisinin onlara məxsus olduğunu iddia edir, Xəzər dənizinə çatmağı düşünürdülər.

XX əsrin sonlarında çəkilmiş S. Yeremyanın xəritəsində göstərilmişdir ki, guya ərəblərin Cənubi Qafqaza yürüşü və Qafqaz Albaniyasının süquta uğraması ilə onun ərazisi Ərminiyə ərəb inzibati bölgüsünə qatılaraq erməni torpağına çevrilmişdir. Lakin Ərminiyə ərəb inzibati bölgüsündə olan torpaqlar heç də Ermənistan əraziləri hesab olunmurdu. Ananiy Şiraklinin və V əsr müəllifi Favst Buzandlının Kür-Araz çayları arasındakı torpaqların ermənilərə məxsus olması barəsindəki qeydləri dövrün müəlliflərindən olan Movses Xorenskinin, Musa Kalankatlının məlumatlarında təkzib olunmuşdur. Bu müəlliflərə görə qədim Albaniyanın cənub sərhədləri bizim eranın I əsrində Araz çayı boyunca uzanırdı [8, s.18].

Bizim eranın I əsrində bütpərəst olan Qafqaz Albaniyasında xristianlıq yayılmağa başlamışdır. Həmin dövrdə Fələstində meydana gəlmiş xristianlıq Yerusəlimdən gəlmiş apostol Faddey tərəfindən təbliğ olunsa da, bu din Albaniyada möhkəmlənə bilməmişdir. Alban hökmdarı Urnayr 313-cü ildə xristianlığı dövlət dini elan etmiş, V-VI əsrlərdə isə Albaniyanın əhalisi zorla xristianlaşdırılmışdır. Xristianlıq Arsax və nisbətən Kambisena vilayətində daha çox kök salmış, 552-ci ildə xristianlığın mərkəzi Çoladan Bərdəyə, VIII əsrdən isə Bərdədən Arsaxa keçmişdir [8, s.24].

VII əsrdən başlayan ərəb yürüşləri nəticəsində Albaniya dövləti süqut etdi və VIII əsrdən etibarən Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da yeni dövr başlandı. Qarabağ Xilafətin şimaldakı mərkəzinə çevrildi [9, s.58]. Bu, Azərbaycanın tarixi-siyasi coğrafiyasına təsir etdi. Qafqaz Albaniyasının ərazisi ərəb müəllifləri tərəfindən Arran adlandırılmağa başlandı.

Ərəb xilafəti və IX-XI əsr feodal dövlətləri dövründə Qarabağ Arranın tərkib hissəsi olaraq qalmış və həmin dövlətlərin siyasi, ictimai-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Sonralar Qarabağ Arranla birlikdə əvvəl Səlcuqlu dövlətinin, sonra isə Azərbaycan Atabəylər dövlətinin idarəsinə keçmişdir. Monqolların işğalından sonra Qarabağ bölgəsi monqol əmirlərinin nəzarətində olmuş, bu ərazi Xarəzmşah Cəlaləddinin, sonra isə Hülaki hökmdarlarının siyasi mərkəzlərindən biri olmuşdur [4, s.451]. Monqol yürüşləri dövründə Azərbaycana bir sıra monqol-türk qəbilələri gəlmiş, Qarabağın Hülakilərin istirahət mərkəzinə çevrilməsi gəlmələrin əksəriyyətinin bu bölgəyə axışmasına səbəb olmuşdu [8, s.32].

XIV əsrin sonlarında Qarabağ Teymurun, XV əsrdə isə Teymurilər və Qaraqoyunluların müharibə meydanına çevrildi. 1410-cu ildən etibarən Qarabağ da daxil olmaqla Kürdən cənubda yerləşən Azərbaycan torpaqları Qaraqoyunluların hakimiyyəti altına düşdü. 1467-ci ildə Qaraqoyunlular dövlətinin süqutundan sonra Qarabağ Ağqoyunlu dövlətinin tərkibinə keçdi.

XV əsrdə Qarabağ bölgəsi Azərbaycanın vilayətlərindən biri kimi Ağqoyunlu və Qaraqoyunlu hökmdarlarının təyin etdiyi hakimlər tərəfindən idarə olunmuşdur [4, s.451].

Azərbaycan ərazisi Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə monqollar dövründəki hüdudla-

rında qalırdı və əsaslı dəyişikliyə məruz qalmamışdı. İnzibati ərazi bölgüsü baxımından ölkə Azərbaycan, Arran, Muğan, Şirvan və Şəki əyalətlərinə ayrılırdı. Bu əyalətlərin tərkibinə Qaradağ, Qarabağ, Şərur, Çuxursəəd, Güştafti mahalları daxil idi. Beləliklə, həmin dövrdə Arran əyaləti ərəb dövrü Arranından fərqli olaraq, Kür ilə Arazın qovuşduğu yerdən Göyçə gölünə kimi əraziləri əhatə edirdi və buraya Qarabağ, Güştasfi, Arasbar mahalları daxil idi [8, s.32].

Səfəvilər dövründə Azərbaycanın Qarabağ bölgəsinin bir hissəsi Gəncə bəylərbəyliyinin, bir hissəsi isə Çuxursəəd bəylərbəyliyinin idarəsi altında olmuş və Qacar tayfa əmirləri tərəfindən idarə edilmişdi.

XVI əsrin əvvəllərində Azərbaycan Səfəvilər dövlətinin yaratdığı inzibati ərazilərdən biri olan Qarabağ bəylərbəyliyinin tərkibinə XVII əsrdən XVIII əsrin əvvəlinə qədər Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil daxil idi [2, s.33].

Məlumdur ki, Qacarlar hələ Ağqoyunlu dövründən Qarabağda fəaliyyət göstərmişlər. Beləliklə, aydın olur ki, I Şah İsmayıl dövrünün əvvəllərində yaradılmış Qarabağ bəylərbəyliyi ilk vaxtlar Qara Piri bəy Qacarın nəslinə mənsub olmuş, yalnız 1554-cü ildə bəylərbəylik qacarların digər bir qolu olan ziyadoğlular nəslinə verilmişdi. Onlar, 1590-1606 və 1725-1735-ci illərdəki Osmanlı fəthləri və I Şah Abbas (1587-1629) dövrünün sonları və Şah Səfi (1629-1642) hakimiyyətinin ilk illəri (1632-ci ilədək) istisna olmaqla, Səfəvilər dövlətinin süqutu və Nadir şah Əfşarın hakimiyyətə gəlməsinə qədər Qarabağ bəylərbəyliyini idarə etmişlər. Mənbələrdə bir-birinin ardınca Qarabağ bəylərbəyləri olmuş ziyadoğlulardan Şahverdi sultanın, İbrahim xanın, Yusif xəlifənin, Peykər sultanın, İmamqulu xanın, Məhəmməd xanın, Mürşüdqulu xanın, Məhəmmədqulu xanın, Mürtəzaqulu xanın və başqalarının adları çəkilmişdir. Mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi xeyli geniş əraziləri əhatə edirdi. Səfəvi dövrünün rəsmi dövlət quruluşu və inzibati bölgüsü haqqında ən dəyərli və mötəbər mənbə olan "Təzkirətülmüluk"də Qarabağ ərazisində hər hansı bir xristian məlikliyin mövcud olması qeyd edilməmişdir.

Beləliklə, Səfəvilər dövründə Qarabağ torpaqları bütöv halda Qarabağ və ya Gəncə bəylərbəyliyində birləşdirilmişdir. Səfəvi – Osmanlı müharibələri dövründə (1514-1555, 1578-1590 və s.) Qarabağ əldən-ələ keçdi. Osmanlı dövləti Gəncə - Qarabağ bəylərbəyliyi haqqında iki dəfə 1593 və 1727-ci illərdə müfəssəl dəftərlər tərtib edərək ərazi haqqında ətraflı şərh vermişdir. Məlum olmuşdur ki, XVI əsrin sonu – XVIII əsrin əvvəllərində Gəncə - Qarabağ bəylərbəyliyinin ərazisi dəyişikliyə məruz qalmamışdır. Həmin dövrdə Qafqazda ən böyük inzibati-ərazi vahidi olan Gəncə - Qarabağ əyalətinin əhalisi 121.975 nəfər olmuş, onlardan 65,9%-ni (80.340 nəfər) türklər, 31 faizini ermənilər (37.885 nəfər), 3,1 faizini kürdlər (3.750) təşkil etmişdir [8, s.36].

Həmin məlumata görə, Gəncə - Qarabağ əyaləti 5 sancağa, 36 nahiyəyə bölünürdü. Dini mənsubiyyətinə görə əhalinin 61%-i müsəlman, qalanı isə qeyri-müsəlman idi. Qeyri-müsəlman əhali isə Albaniya dövləti dönəmində V əsrdə xristianlığı qəbul etmiş albanlar idi. XVIII əsrin birinci rübündə Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında bölüşdürüldükdə Qarabağ Osmanlı dövlətinin tərkibində qaldı [4, s.454].

Azərbaycanda Nadir şah hakimiyyətə gəldikdən sonra Azərbaycan torpaqlarının parçalanması prosesinin qarşısını aldı. O, Qarabağın məlikliklərini – Vərənd, Çilaberd, Gülüstan, Dizaq və Xaçın ərazilərini Gəncə bəylərbəyliyinə tabe etdi, Qarabağ, Şirvan, Çuxursəəd və Təbriz bəylərbəyliklərini ləğv edərək Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Nadirin ölümündən sonra isə ölkə 30 hissəyə ayrılmışdı [8, s. 40].

XVIII əsrin 40-cı illəri – XIX əsrin I rübündə Azərbaycan ərazisində 20 xanlıq, 5 sultanlıq və 5 məliklik fəaliyyət göstərirdi. XVIII əsrdə yaranmış xanlıqlardan biri Qarabağ xanlığı idi. Qarabağ xanlığı (1747-1822) fəal xarici siyasət yürüdərək, İranın və qonşu xanlıqların dəfələrlə hücumunun qarşısını almışdı. Ona görə də Qarabağ xanı İbrahimxəlil xan (1763-1806) Kartli-Kaxet çarlığı ilə hərbi ittifaqda idi [10, c. 69].

Qarabağ xanlığı inzibati cəhətdən 21 mahala, o cümlədən 5 xristian məlikliyinə bölünürdü. Mahalları naiblər, məlikləri isə mahal məlikləri idarə edirdilər. Qarabağ xanlığı dövründə Qarabağda 1 şəhər, 638 kənd olmuşdur. Sayı 90 minə çatan Qarabağ əhalisi 18500 ocaqda birləşirdi [7, s. 4]. Qarabağ xanlığı Kür və Araz çayları arasındakı əraziləri əhatə etmiş, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd olmuşdur. Qarabağ xanlığının əsasını Pənahəli xan Cavanşir qoymuşdur. O, xanlığın ərazisində Bayat, Şahbulaq qalalarını tikdirmiş, Əsgəran qalasını möhkəmləndirmiş, Şuşa şəhərinin əsasını qoymuşdur. Qarabağ xanlığı 1805-ci ildə çar Rusiyası tərəfindən işğal

olunmuş və 1822-ci ildə çarın fərmanı ilə ləğv edilmişdir [8, s. 41].

Xanlığın ləğv olduğu dövrdə bu bölgəyə daxil olan 9 kənddə 303 (87-i vergini verən, 116-sı vergi verməyən) ailə yaşayırdı. Qaynağın verdiyi məlumatlardan məlum olur ki, əvvəllər bu bölgədə 2000 ailə yaşamışdır. Xanlıq Rusiya tərəfindən işğal edildikdən sonra və birinci Rusiya – İran müharibəsi ilə əlaqədar olaraq bölgə sakinləri evlərini tərk edib Azərbaycanın müxtəlif yerlərinə və digər ölkələrə köçmüşdülər. Ümumiyyətlə, tədqiqatdan aydın olur ki, Azərbaycanın Qarabağ regionunun siyasi coğrafiyasını XX əsrin əvvəllərində dörd qəzanın ərazisi Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir (1904-cü ildən Qaryagin) təşkil etmişdi. XIX əsr Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra ərazidə imperiyanın siyasətinə uyğun inzibati-ərazi idarəetmə sistemi yaradılmağa başladı [4, s. 455].

Ermənilərin Azərbaycan ərazilərinə, o cümlədən də Dağlıq Qarabağa kütləvi surətdə köçürülməsi 1826-1828-ci illər Rus – İran müharibəsindən sonra baş vermişdir. Rusiya ilə İran arasında imzalanan Türkmənçay sülh müqaviləsi Rusiya imperiyasına geniş siyasi səlahiyyətlər verdi. Bundan istifadə edən Rusiya imperiyası özünə siyasi dayaq yaratmaq üçün İran və Osmanlı Türkiyəsindən erməniləri kütləvi sürətdə Qərbi Azərbaycan ərazisinə, yəni İrəvan xanlığı torpaqlarına və Qarabağa gətirib məskunlaşdırmağa başladı. Ümumiyyətlə,1828-ci il fevralın 10-da imzalanan Türkmənçay sülh müqaviləsindən sonra, 1830-cu ilə kimi Rusiya imperiyası Zaqafqaziyaya İrandan 40 min, Osmanlı Türkiyəsindən isə 84 min erməni ailəsini köçürüb yerləşdirdi [5, s.23].

Məlumdur ki, 1828-ci ildə yaradılan komendant idarə üsulu çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda siyasi dayaqlarının möhkəmləndirilməsinə cavab vermədiyindən 1840-cı ilin aprelin 10-da Cənubi Qafqazda inzibati islahat haqqında qanun verildi. Qanuna görə komendant üsul-idarəsi ləğv olunmuş və burada da Ümumrusiya inzibati sistemi yaradılmışdı. 1868-ci ildən başlayaraq Azərbaycanda Sovet inzibati idarəetmə sisteminin yaranmasına qədər Qarabağ regionu mərkəzi Yelizavetpol şəhəri olan Yelizavetpol quberniyasının tərkibində olmuşdu. 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti dövründə də ərazidə dəyişiklik edilməmişdir [5, s.96].

Beləliklə, tədqiqatdan aydın olur ki, Qarabağ bölgəsi qədim Azərbaycan dövləti olan Albaniyanın tərkib hissəsində olmuş, müxtəlif dövrlərdə Azərbaycan ərazisində yaradılmış dövlətlərin siyasi və mədəni mərkəzinə çevrilmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Bağırzadə, C. Azərbaycanın Qarabağ bölgəsinin ilk orta əsrlər dövrü tarixi coğrafiyası haqqında: [Elektron resurs] / URL: https:// fedai.az/?p=21161.

2. Əfəndiyev, O. Azərbaycan Səfəvilər dövləti / O. Əfəndiyev. – Bakı: Şərq-Qərb, – 2007. – 344 s.

3. Göyüşov, R.B. Qarabağın keçmişinə səyahət / R.B.Göyüşov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1993. – 83 s.

4. Həsənov, B. Şimali Azərbaycanın Qarabağ regionunun tarixi coğrafiyası // – Bakı: Atatürk Araştırma Merkezi Dergisi, – 2018. – № 34 (2), – s.445-468.

5. Hüseynov, Y. Qarabağ tarixi mənbələrdə / Y. Hüseynov. – Bakı: "Şuşa" nəşriyyatı, – 2012. – 248 s.

6. Qarabağın xristianlıq tarixi: [Elektron resurs] / URL: https://www.virtualkarabakh.az/az/post-item/22/37/qarabagin-xristianliq-tarixi.html

7. Mustafazadə, T. Qarabağ xanlığı / T. Mustafazadə. – Bakı: Sabah, – 2010. – 333 s.

8. Piriyev, V. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V. Piriyev. – Bakı: "Müəllim" nəşriyyatı, – 2006. – 148 s.

9. Vəlixanlı, N. Ərəb Xilafəti və Azərbaycan / N. Vəlixanlı. – Bakı: Azərnəşr, – 1993. – 157 s.

10. Марджанлы, М. Армянство. Россия. Кавказ / М. Марджанлы. – Москва: Издательство «Флинта», – 2011. – 96 с.

**XÜLASƏ**

**Qarabağın orta əsr Azərbaycan dövlətlərinin siyasi həyatında rolu**

Məqalədə erkən orta əsrlər dövründən tutmuş son orta əsrlərədək Qarabağ bölgəsinin müxtəlif vaxtlarda mövcud olmuş Azərbaycan dövlətlərinin siyasi həyatında rolu araşdırılmışdır. Kür-Araz çayları ərazisini əhatə edən Qarabağda müxtəlif türk tayfaları – utilər, qarqarlar, qıpçaqlar yaşamışdır. Qarabağ bölgəsində Pənahəli xan tərəfindən əsası qoyulmuş Qarabağ xanlığı mühüm siyasi və mədəni mərkəz olmuş, müstəqil siyasət yürütmüş və xarici düşmənlərdən özünü qorumuşdur. Çar Rusiyası Qarabağ xanlığını işğal etdikdən sonra buraya müxtəlif ölkələrdən, o cümlədən İran və Türkiyədən minlərlə ermənini köçürərək, etnik mənzərəni dəyişməyə çalışmışdır.

**Açar sözlər:** *Qarabağ, türklər, ermənilər, Qafqaz Albaniyası, Türkmənçay müqaviləsi, köçürmə siyasəti, işğal*

**Роль Карабаха в политической жизни средневековых азербайджанских государств**

**Айнур Гашимова**
**Докторант кафедры источниковедения, историографии и методики Бакинского Государственного Университета**

**РЕЗЮМЕ**

В статье исследуется роль Карабахского региона в политической жизни азербайджанских государств, существовавших в разное время, от периода раннего средневековья до периода позднего средневековья. В Карабахе, охватывающем территорию рек Кура – Араз, жили различные тюркские племена – ути, гаргары, кипчаки. Карабахское ханство, основанное Панахали Ханом в Карабахском регионе, было важным политическим и культурным центром, проводило независимую политику и защищало себя от внешних врагов. После того, как царская Россия оккупировала Карабахское ханство, она попыталась изменить этнический ландшафт, переселив сюда тысячи армян из разных стран, в том числе из Ирана и Турции.

**Ключевые слова:** *Карабах, турки, армяне, Кавказская Албания, Туркменчайский договор, переселенческая политика, оккупация.*

**The role of Karabakh in the political life of medieval Azerbaijani states**

**Aynur Hashimova**
**Doctoral student of the Department of Source Studies, Historiography and Methodology of Baku State University**

**SUMMARY**

In the article, the role of the Karabakh region in the political life of the Azerbaijani states that existed at different times, from the early medieval period to the late medieval period, was investigated. Various Turkic tribes – utis, gargars, kipchaks lived in Karabakh, which covered the territory of the Kura-Araz rivers. The Karabakh Khanate, founded by Panahali Khan in the Karabakh region, was an important political and cultural center, pursued an independent policy and protected itself from external enemies. After the occupation of the Karabakh Khanate, Tsarist Russia resettled thousands of Armenians from different countries, including Iran and Turkey, and tried to change the ethnic landscape.

**Key words:** *Karabakh, turks, armenians, Caucasian Albania, Turkmenchay treaty, resettlement policy, occupation*

UOT 94"19/..."

# BİR DAHA KİPR BARIŞ HƏRƏKATININ TARİXİNDƏN (1967-1974-CÜ İLLƏR)

**LƏMAN ZÜLQƏDƏROVA**
*Gəncə Dövlət Universitetinin doktorantı*

*E-mail: l.zulgadarova@mail.ru*

1967-ci ilin aprel ayının 21-də Yunanıstanda general Yorqas Papadopulosun rəhbərliyi ilə hərbi çevriliş oldu və hakimiyyətə hərbi Xunta gəldi. Yunanıstanda Hərbi Xuntanın hakimiyyətə gəlişi ilə Enosis planları yenidən işə salındı. Yunan hakimiyyəti Qərbi Trakyada türklərə qarşı mürtəce siyasət xəttini daha da gücləndirdi. 1967-ci ilin 26 iyununda Kiprin Təmsilçilər Məclisində türk millət vəkillərinin iştirakı olmadan rum vəkillər Enosis qərarını qəbul etdilər [7, s. 449].

1967-ci ilin 10 sentyabrında Keşanda (Dədəağac) Yunanıstanın Baş naziri Konstantin Kollias ilə Türkiyənin Baş naziri Süleyman Dəmirəl arasında görüşdə, Kiprin Yunanıstana birləşdirilməsi əvəzində Qərbi Trakya sərhəddində Türkiyənin lehinə dəyişiklik etməyi təklif etdi. Həmçinin Enosis qəbul olunacağı təqdirdə Türk hökumətinə Kiprdə bir hərbi baza qurmağa etiraz etməyəcəyini bəyan etdi. Türkiyə tərəfindən bu təkliflər dərhal rədd edildi [7, s. 449].

Bunun ardından yunan xunta rejimi 1967-ci ilin 15 noyabrında Kiprin türklər yaşayan Boğaziçi və Keçitqala kəndlərinə yunan hərbçisi Qrivasın komandanlığı ilə tank və toplarla hücum etdi. Kənd sakinlərinin ciddi müqavimətinə baxmayaraq yunanlar BMT sülhməramlılarının gözü qarşısında 23 türkü qətlə yetirdi, kəndlərə daxil olaraq bütün evləri yandırdılar [12, s. 227].

Bu qanlı hadisələr Türkiyəni və hökuməti ayağa qaldırdı. Türkiyənin sərt təpkisi nəticəsində yunan-rum hərbi birləşmələri kəndləri tərk etdi və qətliamlar dayandı. Bu qanlı faciələrdən sonra Kipr türk lideri Doktor Fazil Küçük Türkiyə hökumətinə məktub göndərərək adaya hərbi müdaxilə tələbi ilə müraciət etdi. Həmin gün TBMM bütün siyasi partiyaların səs birliyi ilə hökumətə Kipr adasına müdaxilə səlahiyyəti verdi. Bu qərarın ardınca Türk Silahlı Qüvvələri Adana-Mersin bölgəsində çox sayda hərbi qüvvələr topladı [3, s. 72].

Belə bir gərgin siyasi şəraitdə ABŞ hökuməti hər iki NATO üzvünün açıq müharibəyə girməsindən ehtiyat edərək Türkiyənin adaya hərbi müdaxiləsinə maneə oldu. ABŞ hökuməti diplomat Cyrus Vanceni hər iki tərəflə danışıqlar aparmaq üçün səlahiyyətləndirdi. Danışıqlar nəticəsində sonda Yunanıstanın Xunta hökuməti Türkiyə ilə hesablaşmağa məcbur oldu və Türk hökumətinin tələblərini qəbul etdi. Bu tələblər sırasında yunan generalları və hərbçilərinin adanı tərk etməsi, kiprli yunanların tərksilah edilməsi, türklərə qarşı embarqonun götürülməsi və digər tələblər yer almışdır [14, s.194].

Makarios hökuməti tərəfindən adanın idarəçilik sistemindən faktiki olaraq uzaqlaşdırılan türk kəsimini təmsil edən adanın türk liderləri 1967-ci ilin 27 dekabrında Müvəqqəti Türk İdarəçiliyini elan edərək, 1960-cı il Konstitusiyası tam qüvvəsi ilə bərpa olunana qədər türk bölgələri adından qanuni fəaliyyətlərini davam etdirəcəklərini bəyan etdilər. Müvəqqəti Türk İdarəçiliyinə Təmsilçilər Məclisinin türk vəkilləri və Kipr Türk Camaat Məclisinin üzvləri daxildi [7, s. 450].

Makarios hökuməti 1968-ci ilin yanvar ayında Konstitusiyanın yenidən yazılması üçün türk tərəfi ilə sülh danışıqlarına başlayacağını elan etdi və "arzu edilən hər zaman mümkün olanın daxilində olmur" deyərək artıq Enosis deyil, müstəqillik siyasəti həyata keçirəcəyini elan etdi. Makariosun bu açıqlaması yunan cəmiyyəti və mətbuatında Enosisə və Ellinizmə xəyanət kimi dəyərləndirildi. Makarios, 1968-ci ilin fevralında yenidən Kiprin Prezidenti seçildi [8, s. 146].

1968-ci ilin 3 iyununda Kipr problemi ilə bağlı Livanda hər iki toplum arasında danışıqlar başladı. Danışıqlarda kiprli rumları Kliridis, kiprli türkləri isə Rauf Denktaş təmsil edirdi. Bu görüşdə tərəflər arasında vasitəçiliyi BMT təmsilçisi Osoria Taffal həyata keçirirdi. 25 iyun 1968-ci ildə Kliridis və Denktaş Lefkoşada yenidən görüşərək danışıqlar apardılar. Müzakirələrin ilk mərhələsi 28 avqust 1968-ci ildə yekunlaşdı. Danışıqlar nəticəsində Kipr türk tərəfi Makariosun 1963-cü ildə tələb etdiyi Konstitusiya dəyişikliyi arasında olan veto haqlarının ləğv edilməsini və hakimiyyətdə təmsil olunan türklərin kvotasının 30 faizdən 20 faizə endirilməsini qəbul etdi. Lakin Denktaş kiprli türklərin yerli idarəçilikdə muxtariyyat hüququnun olmasını tələb

etdi. Kipr rum tərəfi bu təklifə müsbət yanaşmadığı üçün danışıqların ilk mərhələsi nəticəsiz qaldı. 1974-cü ilə qədər müxtəlif dövrlərdə Türk kəsiminin yerli muxtariyyət tələb etməsi danışıqların nəticəsiz qalması ilə nəticələndi [7, s. 451].

1969-cu ilin oktyabr ayında Makariosun həyata keçirdiyi anti-Enosis siyasətinə qarşı kiprli rumlardan formalaşan Afinaya bağlı Milli Cəbhə adlı terror təşkilatı yaradıldı. Bu təşkilat Makariosun Sovet İttifaqı, AKEL-lə olan əməkdaşlığını qınayan, kiprli türklərə Qərbi Trakyadakı türk azlığına verilən hüquqlardan daha artıq hüquqlar verilməyəcəyini ifadə edən, Kipr probleminin Enosis xaric başqa bir yolla həll edilməyəcəyini elan edən məlumatlar yaydılar. Bu təşkilat 1970-ci ilin 8 martında Makariosa qarşı sui-qəsd təşkil etdi. Lakin sui-qəsd baş tutmadı [7, s. 451].

1971-ci ilin sonlarında Qrivas gizlicə Kiprə gələrək adada EOKA B adlı bir terror təşkilatı yaratdı. Təşkilatın məqsədi Makariosu devirərək yenidən Enosis siyasətini davam etdirmək idi. 1972-ci ilin 11 fevralında yunan hökuməti Lefkoşa səfirliyi vasitəsilə Makariosu istefa verməyə çağırdı. Bunun müqabilində Makarios Qlafkos Kliridisi ABŞ-ın Kipr səfirliyinə göndərərək Vaşinqtonun hadisəyə müdaxilə etməsini istədi. Təcili olaraq ABŞ səfiri Henri Taskanın yunan hökuməti ilə apardığı danışıqlar nəticəsində Yunan hökuməti qərarından geri çəkildi. 16 fevral 1972-ci ildə Afina-Lefkoşa gərginliyinin bəzi detalları ictimaiyyətə məlum olunca 3000 nəfər kiprli yunan mitinq keçirərək yunan hökumətinə etiraz etdi. Makarios həmin gün xalqa müraciət edərək “Kipr məsələsində son sözü kiprlilər deyəcək” ifadəsini bəyan etdi [7, s. 452].

Beləliklə, bu dövrdən başlayaraq Qrivas cəbhəsi ilə Makarios cəbhəsi arasında qarşıdurmalar daha da gərginləşərək açıq müstəviyə keçdi.

27 yanvar 1974-cü ildə EOKA-B-nin lideri Qrivas vəfat etdi. Makarios silahlarını təslim etmək şərtilə EOKA-B təşkilatının üzvlərini əfv edəcəyini elan etdi. Lakin Afina hökumətindən dəstək alan bu təşkilat öz terror hərəkətlərini davam etdirdi. Qrivasın ölümündən sonra EOKA-B-nin başına Qrivasınköməkçisi Georgios Karusos keçdi. Terror təşkilatının yeni rəhbərinin siyasəti təşkilat daxilində parçalanmalara səbəb oldu və bundan istifadə edən Makarios 25 aprel 1974-cü ildə EOKA-B təşkilatının fəaliyyətini qadağan etdi [9, s. 270].

Makarios 1974-cü ilin 2 iyulunda Afinaya bir məktub göndərərək Xunta rejiminin EOKA B-yə etdiyi dəstəyi dayandırmasını və Kiprdəki yunan hərbi komandirləri geri çağırmasını tələb etdi. Makariosun məktubu Afina-Lefkoşa münasibətlərini daha da gərginləşdirdi [5, s.1].

1974-cü ilin 15 iyulunda EOKA təşkilatının aparıcı şəxslərindən olan Nikos Sampson RUM Milli Mühafizə Təşkilatının (RMMT) təşkilatçılığı, yunan komandirlərinin rəhbərliyi ilə rum ordusu və Kiprdə olan yunan alayı Prezident sarayına daxil olaraq hərbi çevriliş edərək hakimiyyəti ələ keçirdi. Makarios saraydan çıxmağı bacararaq, radio vasitəsilə xalqa müraciət edərək çevrilişə qarşı müqavimət göstərmələrini istədi. Kənardan Yunanıstanın dəstəyi ilə həyata keçirilən bu çevriliş Kiprin Yunanıstana ilhaqı anlamına gəlirdi [1, s. 802].

Hərbi çevrilişdən sonra Yunanıstanın Xunta hökuməti Nikos Sampsonu Kiprə Prezident təyin etdi. Hərbi çevrilişdən sonra hökumətdə çalışan, həmçinin güc strukturlarında işləyən minlərlə sol təmayüllü Makarios tərəfdarı həbs olundu. 16 iyulda Makarios ingilis hərbçilərinin köməyi ilə Kiprdən ayrıldı. əvvəlcə SSRİ-yə, sonra isə ABŞ-a getdi [11, s.10].

Türkiyə adadakı türk əhalisinin təhlükədə olmasından və Kipr Cümhuriyyətinin əsaslarını formalaşdıran andlaşmaların pozularaq hərbi yolla hakimiyyətin ələ keçirilməsi səbəbindən ciddi addımlar atmağa qərar verdi. 17 iyulda türk baş naziri Bülənt Ecevit Londona gedərək ingilis həmkarı Harold Vilsona Qarant Andlaşmasına əsasən adaya türk-ingilis hərbi müdaxiləsinin edilməsi təklifini verdi. İngilis Baş naziri bu təklifi rədd etdi [10, s.1].

Kiprdə baş verən gərgin siyasi hadisələri müzakirə etmək üçün 19 iyul 1974-cü ildə BMT Təhlükəsizlik Şurası təcili iclasını çağırdı. İclasda çıxış edən Makarios “Kiprin Yunanıstan tərəfindən işğal edildiyini, bu vəziyyətin adadakı hər iki topluma zərər verdiyini ifadə edərək Təhlükəsizlik Şurasından Afinanı adada çevriliş hərəkətlərinə son qoymağa və yunan hərbi generallarının adadan çıxarılmasını tələb etdi [7, s. 454].

BMT Təhlükəsizlik Şurasının keçirdiyi bu iclasda baş verən hadisələrlə bağlı hər hansı bir ciddi nəticə əldə olunmadı. Beynəlxalq hüquq normalarını və Sürix-London müqavilələrini önə çəkərək Kiprdə həyata keçirilən çevrilişi hüquqazidd və qanundankənar hesab edən Türkiyənin haqlı etirazları beynəlxalq müstəvidə dəstək qazanmadı.

Buna görə də, Türkiyə Kipr türklərinin təhlükəsizliyi, adanın siyasi sisteminin qorunması və Enosisin qarşısını almaq üçün qarantor ölkə olaraq 1974-cü ilin 20 iyulunda adaya qoşun yeritdi [13, s. 25].

Türkiyənin Baş naziri Bülənt Ecevit 20 iyul səhər saat 06.15-də radio vasitəsilə Kipr Barış Hərəkatının başlandığını elan etdi. Türk Silahlı Qüvvələri havadan və dənizdən Girnə istiqamətində hərəkət edərək adaya daxil oldu [2, s.110].

Birinci Kipr Hərəkatının başlanmasından bir neçə gün sonra, artıq 25 iyulda Türk Silahlı Qüvvələri Girnədən paytaxt Lefkoşaya qədər uzanan adanın bir hissəsinə nəzarəti ələ götürmüşdür. 21 iyul 1974-cü ildə toplanan BMT, 22 iyul saat 17.00-dan atəşkəs qərarı elan etdi [2, s.369-370].

Makariosu devirərək Kiprin prezidenti olmuş Nikos Sampson 23 iyul tarixində istefa vermək məcburiyyətində qaldı. Yerinə isə müvəqqəti olaraq Qlafos Kleridis gətirildi. Həmin gün siyasi böhran vəziyyətində olan Yunanıstanın Xunta hökuməti də istefa verdi və yeni Baş nazir Karamanlis vəzifəyə başladı [3, s.189].

Qeyd olunduğu kimi, Türkiyənin Kipr Hərəkatı qarşısında çıxılmaz vəziyyətdə qalan Yunanıstan hakimiyyəti adada idarəçiliyi mülki idarəçilərə təhvil vermək məcburiyyətində qaldı və Kiprdəki Sampson rejimi çökdü. Lakin türklərin yaşadığı bölgələrin böyük bir qismi hələ də türk əsgərlərinin nəzarətindən kənarda idi. Adanın çox sayda türk əhalisi EOKA B təşkilatının gözlənilən hücumları qarşısında təhlükə qarşısında idi. Eyni zamanda türk hərbi birliklərinin adada tutduğu mövqe hərbi – strateji baxımdan təhlükəli idi. Türk hökuməti belə bir vəziyyətdə 9 avqust 1974-cü ildə Cenevrədə başlayacaq sülh danışıqlarında ciddi bir siyasi nəticəyə nail olmağa, əks təqdirdə təkrarən hərbi əməliyyatları davam etdirməyi planlaşdırırdı [4, s. 747-749].

25-30 iyul arası Cenevrədə davam edən müzakirələrdə Türkiyənin demək olar ki, bütün tələbləri qəbul edilmişdi. İlkin razılaşma 30 iyul tarixində Cenevrədə BMT-nin iqamətgahında üç dövlətin – türk, yunan, ingilis xarici işlər nazirləri tərəfindən imzalanmışdır. Razılaşmaya görə, avqust ayının 8-də üç ölkənin xarici işlər nazirləri bir araya gələrək adanın yeni statusunu təsbit edəcəkdilər [2, s.370].

8 avqust 1974-cü ildə İkinci Cenevrə Konfransı başladı. Konfransda iştirak edən Kipr türk lideri Rauf Denktaşın adanın statusu ilə bağlı iki federal subyektdən formalaşan müstəqil Cümhuriyyət formulunu yunan tərəfi rədd etdi. Türkiyə hakimiyyətinin təklif etdiyi, adanın 34 faizinin türklərin nəzarətinə verilərək “kanton” bölgə statusu verilməsi də qəbul olunmadı. Yunanların 1960-cı il Kipr Konstitusiyasına qayıdış tələbi, türklərin isə federal dövlət formulu təklifi qəbul edilmədi. Belə bir vəziyyətdə heç bir nəticə əldə olunmadan 14 avqustda İkinci Cenevrə Konfransı dağıldı [3, s. 194-195].

Beynəlxalq müstəvidə Kipr türklərinin problemini siyasi yolla həll edə bilməyən Türkiyə Cümhuriyyəti, məcburiyyət qarşısında qalaraq yenə də hərbi yola əl atdı.

İkinci Cenevrə Konfransının uğursuz bitməsinin ardından, 1974-cü il avqust ayının 14-də gecə saat 02.30-da Cenevrədən Ankaraya “Ayşə tətilə çıxsın”, Ankaradan Kiprə isə “Zəfər kodunu tətbiq edin” adı ilə gizli mesaj göndərildi. Bununla da İkinici Kipr Barış Hərəkatı başladı [6, s.67-72].

Türk Silahlı Qüvvələri uğurlu əməliyyatlar həyata keçirərək 16 avqust günü elan edilən atəşkəsə qədər artıq adanın 37%-nin nəzarətini ələ keçirdi [7, s.455].

Ümumiyyətlə, 1974-cü ilin iyul-avqust aylarında Türkiyə tərəfinin Kipr adasına yönəlik həyata keçirdiyi iki hərbi əməliyyat Kipr məsələsində yeni bir dövrün əsasını qoydu. Türkiyənin həyata keçirdiyi Kipr Barış Hərəkatlarından sonra, adanın türk əhalisinin təhlükəsizliyi təmin olunmuş, Türkiyə adada özünün siyasi və strateji məqsədlərinə nail olmuşdur. Bununla da, faktiki olaraq ikiyə bölünmüş adada Türkiyənin problemi həll olunmuşdur. Lakin adadakı mövcud siyasi təsisatlar və adanın statusu hüquqi baxımdan öz həllini tapmadığına görə Kipr məsələsi bu gün də beynəlxalq müstəvidə problem olaraq mövcuddur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Armaoğlu Fahir. 20’nci Yüzyıl siyasi tarihi (I cilt, 1914-1980) 9 baskı, Ankara, TİBKY, 1993, 1224 s.*

*2. Denizli Ali. Kıbrıs barış Harekatı. Ankara, 2014, 465 s.*

*3. Evcil Cumhur Kıbrısta zafer ve 40 yıl. Kaştay yayınevi, İstanbul, 2014, 352 s.*

*4. Fırat M. Göreli özerklik-3 Yunanistan’la ilişkiler: 1960-1980. Türk dış politikası: Kurtuluş Savaşından bugüne olgular, belgeler, yorumlar 1919-1980. Cilt I. İstanbul, 2008, s. 747-749.*

*5. “Haravgi” qəzeti, 15 Temmuz 1975.*

*6. Kalelioğlu Oğuz. Kıbrıs Barış Harekatı ve Gazimagosa Savunması. Ankara, 2011. S.67-72.*

*7. Kıralp Sevki. 1967-1974 Döneminde Kıbrıs Sorunu ve Türkiye ile Yunanistan'ın Kıbrıs Politikaları. Tarih Kültür ve Sanat Araştırmaları Dergisi Vol. 7, No. 2, June 2018, 444-460 s.*

*8. Kızılyürek N. Birleşik Kıbrıs Cumhuriyeti: Doğmamış bir devletin tarihi. İstanbul: İletişim. 2005.*

*9. Kürşat F., AItan M.H., Ergeli S. Kıbrıs'ta Yunan emperyalizmi. İstanbul, 1978.*

*10. Milliyet, 18 Temmuz 1974.*

*11. Milliyet, 19 Temmuz 1974.*

*12. Serter Vehbi Zeki, s. 227.*

*13. Zeynel Levent. Avrupa Birliği üyeliği yolunda Kıbrıs sorunsalı. Detay Yayıncılık, Ankara, 2014, 219 s.*

*14. Uslu N. The Turkish-American relationship between 1947 and 2003: The history of a distinctive alliance. New York: Nova.*

## XÜLASƏ

Mövcud məqalədə müəllif Kipr probleminin həllinə yönəldilmiş müxtəlif proseslərin gedişini şərh edir. Gətirilmiş çoxsaylı materiallar inandırıcı şəkildə göstərir ki, məhz yunan tərəfinin adanın tamamilə yunanlaşdırmağa və Kiprin türk icmasının heç bir mənafeyi ilə hesablaşmayan siyasəti, adanın türk əhalisinin real qırılması təhlükəsi Türkiyə Respublikasının Kiprdəki soydaşların dinc və təhlükəsiz həyatını təmin etmək üçün türk hərbi qüvvələrinin yeridilməsi də daxil olmaqla ən qəti və təxirəsalınmaz tədbirlər görməyə vadar etdi.

**Açar sözlər:** *Afina, xunta, hərbi çevriliş, Kipr, Türkiyə, Yunanıstan.*

## Еще раз из истории кипрского примирительного движения (1967-1974 годы)

## РЕЗЮМЕ

В данной статье автор излагает ход различных процессов, направленных к разрешению кипрской проблемы. Приведенные многочисленные материалы убедительно показывают, что именно агрессивная политика греческой стороны, направленная к полной гречизации острова, и не считавшегося с никакими интересами турецкой общины Кипра, реальная опасность истребления турецкого населения острова, заставила Турецкую Республику принять самые крайние и неотложные меры, вплоть до введения турецких военных сил, для обеспечения мирной и безопасной жизни соотечественников на Кипре.

**Ключевые слова:** *Афины, хунта, военный переворот, Кипр, Турция, Греция.*

## Once again from the history of the Cypriot reconciliation movement (1967-1974)

## SUMMARY

In this article, the author outlines the course of various processes aimed at resolving the Cyprus problem. The numerous materials cited convincingly show that it was precisely the aggressive policy of the Greek side, aimed at the complete Greekization of the island, which did not take into account any interests of the Turkish community of Cyprus, the real danger of extermination of the Turkish population of the island, forced the Republic of Turkey to take the most extreme and urgent measures, up to the introduction of Turkish military forces, to ensure the peaceful and secure life of compatriots in Cyprus.

**Keywords:** *Athens, junta, military coup, Cyprus, Turkey, Greece.*

UOT 94 (479.24)

# BAHARLI DÖVLƏTİNİN TEYMURİLƏRLƏ MÜBARİZƏSİ

**ƏSMƏR LƏTİFOVA**
*Azərbaycan Universiteti, magistrant*
*E-mail: asmarr.latiff@mail.ru*

Yusif padşah 1410-cü ildən etibarən artıq Baharlı bəyliyini dövlətə çevirir. Dövlət yaranandan sonra da Teymurilərlə münasibətlər davam edir. Sözügedən illərdə Teymuri dövlətində hakimiyyət uğrunda mübarizə gedirdi. Bu zaman Şahrux atasının mirasını Azərbaycan və İraq-Əcəmindən almaq üçün Miranşahın oğlu Xəlil bəyi həmin ərazilərə göndərir. Xəlil sultan Reyə gələndə Fars hakimi İsgəndər və qardaşı Mirzə Rüstəm arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Xəlil sultanın Reydə olması xəbərini alan Rüstəm Mirzə ondan qardaşına qarşı mübarizədə yardım istədi. Lakin Rüstəm Mirzə uzun müddət İsgəndər bəyə qarşı mübarizə apara bilməyib Baharlı dövlətinə gəlir (1, s. 430).

Baharlı dövlətinə sığınan Rüstəmi Yusif padşah yaxşı şəkildə qarşılayıb, onun gəlişinə məclis qurdu. Bundan sonra Rüstəm Mirzə ilə birlikdə Marağaya doğru getdi. 14 noyabrda isə Teymuri sərkərdəsini kiçik bir ordu və atlarla bərabər İsfahana yola salan Yusif padşah Bağdad səfərinə hazırlaşdı. Əbu Cəfəri isə qeyd edir ki, Yusifin yanına yardım tələbi ilə gələn Rüstəm istədiyini ala bilmədiyi üçün yenidən İsfahana qayıtmaq məcburiyyətində qalır (2, s.71).

Mirzə İsgəndər İsfahanda hakimiyyəti ələ keçirəndən sonra burada tikinti işləri apardı. Az sonra isə Kirman və Luristan üzərinə yürüşlər təşkil etdi. Buradan isə Azərbaycana yürüş təşkil etmək qərarına gələn İsgəndər Nihavənddə məskunlaşır. Yusifin yanına sığınan Teymuri sərkərdəsi Məhəmmədin dəstəyi ilə Türkmən hökmdarı 1413-cü ildə Teymuri dövləti üzərinə yeni bir yürüş təşkil etmək qərarına gəlir. Hazırlıqlara başlayan Yusif ordu toplayıb Həmədana gəlir. Həsən bəy Rumlu qeyd edir ki, Teymuri əsgərləri türkmənlərdən həddindən çox qorxurdu. Lakin Yusif yürüş ərəfəsində xəstələndiyi üçün döyüşü təxirə salır. Mirzə İsgəndər məsələdən xəbərdar olandan sonra xeyli rahatlaşıb türkmənləri izləmiş və onların bəzilərini əsir almışdır (3, s.92). Lakin İsmayıl Aka belə bir hadisənin mümkün olmadığını, ancaq ola bilsin ki, Teymuri əsgərlərinin baharlıları uzaqdan izlədiklərini qeyd edir (4).

Yusif padşah daha əvvəl ona tabe olmayan Gavur qalasına 1413-cü ildə yenidən bir yürüş təşkil edir. Qala son dərəcə yaxşı müdafiə olunmasına baxmayaraq, qala hakimi Əmir Baba Hacı Yusifi ehtiramla qarşılayıb, ona qiymətli hədiyyələr bəxş etdi. Bu hərəkəti bəyənən Yusif qalaya toxunmadı, idarəsini Baba Hacıya tapşırıb Təbrizə geri döndü (4, s.100). Göründüyü kimi, Yusif Teymurilər üzərində mühüm bir qələbə əldə etməsə də, Baharlıların Azərbaycanda olan hakimiyyətini qoruyub saxladı.

Teymuri Şahrux sultan eynilə atası Teymur kimi Azərbaycanı öz torpaqları kimi görürdü. O, Azərbaycanı ələ keçirib Baharlıların Anadoluda yayılmasının qarşısını almağa çalışırdı. Yuxarıda qeyd etdiyim kimi, bu məqsədlə Xəlil Sultanı İsfahana göndərmiş, Xəlil isə qıtlıq səbəbi ilə uzun müddət orada qala bilməyib Reyə geri dönmüşdür. Lakin Xəlil sultan 1411-ci ildə Reydə vəfat edir (5).

Lakin baş verən hadisələr Şahruxun Azərbaycanı ələ keçirmək istəyini zəiflədə bilmədi. Müəyyən hazırlıqları görəndən sonra Nişapura doğru yola çıxdı. Yolda olarkən öz nümayəndəsini Mirzə İsgəndərin yanına göndərərək, qışı Mazandaranda keçirəcəyini, havalar isinən kimi Qara Yusif üzərinə yeni yürüş təşkil edəcəyini bildirir. Həmçinin, Həsən Bəy Rumlu yazır ki, ondan öz ordusu ilə onlara qoşulmasını tələb edir (2, s. 102-103).

Mirzə İsgəndər qardaşlarından sonra ən böyük rəqibi Şahrux olduğu üçün məktubu gətirən elçiyə pis davranıb onu geri qaytardı. Elçi gedər-getməz Şahruxun yürüş edəcəyini təxmin edib hazırlıqlara başladı. Yolları bağlayıb, Sistan və Qəndəhar əmirlərinə məktub yazıb onlardan dəstək istədi. Bunlardan xəbər tutan Şahrux bir müddətlik Azərbaycan üzərinə yürüşünü təxirə salıb İsfahana yürüş etmək qərarına gəlir (6).

Yusif padşah isə yaranmış şəraitdən istifadə edərək Şahruxla olan münasibəti diplomatiya vasitəsi ilə həll etməyə çalışırdı. İsmayıl Aka qeyd edir ki, Şahruxun yanına sonuncu elçilik 1415-ci ildə göndərilmiş və Yusifin nümayəndəsi tanınmış şairlərdən Mərdanşah idi. Mərdanşah 1415-ci ilin aprelində Herata gələrək Türkmən hökmdarının məktubunu Şahruxa təqdim etdi. Məktubda Yusif Şahruxun Sultaniyyəni Baharlılara vermə şərtilə digər ərazilərdən imtina etdiyi qeyd edilir. Lakin burada belə bir haşiyəyə çıxmaq lazımdır ki, Qara Yusif Şahruxun hakimiyyətini heç bir zaman qəbul etmir, onun

məqsədi ticari əhəmiyyətdə Təbriz üçün önəmli olan Sultaniyyəni əldə saxlamaq idi. Şahrux bu məktuba qarşı Teymurilərə dost olana heç bir zaman düşmən olmadıqlarını, şərtlərə əməl edərsə, sözügedən ərazini türkmənlərə bağışlayacağını bildirir (3, s. 94-95).

Bilindiyi kimi Xəlil Sultanın ölümündən sonra Reyin idarəsini Şahrux Miranşahın oğlu Mirzə İcilə tapşırmışdır. İcilin ölümündən sonra isə bölgəyə daha güclü əmirlər göndərdi (5). Rey hakiminin ölüm xəbərini eşidən Yusif yaranmış qarışıqlıqdan istifadə edərək ordusunu Sultaniyyə üzərinə göndərdi. Bu xəbəri alan Şahrux İlyas Xocanı Mazandarana, ona dəstək olması üçün Əmir İbrahimi də Rey ətrafına göndərdi (4, s.105).

Qeyd edim ki, bu zaman İraqı-Əcəmdə də şərait Yusifin xeyrinə irəliləyirdi. Belə ki, Sultaniyyədən qaçıb Quma sığınan Bistam Çakir Qum əmiri tərəfindən həbs olunmuşdur. Bu xəbər Çağatay hökmdarına çatanda çox əsəbləşmiş, vəziyyəti düzəltmək üçün Quma öz elçilərini göndərdi. Qum hakimi Mirzə Səd Vakkas isə bütün İraqı-Əcəmdə hakim olmaq üçün Yusif padşahla ittifaq yaratmaq niyyətinə düşdü. Bunun üçün Rüstəm Mirzə ilə birgə onun hüzuruna gəldi. Yusif padşah isə onları hörmətlə qarşılayıb, Bistam bəyi isə azad elədi (3, s. 96).

Yaranmış şəraitdən istifadə edən Yusif padşah Sultaniyyə və Qəzvini yenidən Baharlılara birləşdirdi. Şahrux isə Türkmən hökmdarına qarşı mübarizəni davam etdirirdi. Belə ki, 1415-ci ilin yayında Şiraza hücum etdi. Bu yürüşü gözləməyən Şiraz hökmdarı Mirzə Bayqara Şahruxun hüzuruna gəlib ona tabe oldu. Çağatay hökmdarı Qum, Kaşan, Rey və Gilan daxil olmaqla İraqı-Əcəmin idarəsini əmirlərindən İlyas Xocaya, Farsın idarəsini isə oğlu İbrahim Mirzəyə verib Herata geri döndü (7).

Teymuri hökmdarı Şahrux sultan 1419-cu ildə artıq Reydən başlayaraq İraqı-Əcəm, Kirman, Yəzd, Sistan, Mazandaran, Xorasan, Xarəzmi öz hakimiyyəti altında birləşdirmişdir. Lakin hələ də Anadoluda, o cümlədən Yusif üzərində parlaq bir qələbə qazana bilməmişdir. Şahruxun Baharlı üzərinə yürüş etməkdə bir neçə məqsədi var idi. Belə ki, Azərbaycan, Əcəm İraqını və İraqı ələ keçirərək Yusifi öz tabeliyinə salmaq və ticarət əhəmiyyətli olan Sultaniyyə və Qəzvini geri qaytarmaq idi. Bu məqsədlə Şahrux öz elçisi Sadıq bəyi bir sıra tələblərlə Yusifin yanına göndərdi. Belə ki, Qəzvin və Sultaniyyəni geri istəyən Şahrux, həmçinin, Yusifdən onun adına sikkə kəsdirməsini və xütbə oxutmasını tələb edirdi. Məktubu alan Yusif isə ona məhəl qoymamış, əsla tabe olmaq fikri də olmamışdır (2, s.107).

Belə bir cavab gözləməyən Şahrux dərhal döyüş hazırlıqlarına başlayır. 1420-ci ilin 25 avqustunda Heratdan Muğana gəldi. Bir müddət Muğanda qalmaq qərarına gələn Şahruxun ordusuna Xarəzm əmiri Şah Məlik qatıldı. 7 oktyabrda başda Mirzə Baysunqur olmaqla Nişapura doğru yol aldı. Tarixi mənbələrdə Teymuri hökmdarının dinə çox bağlı olduğu, döyüş hazırlıqları görünən zamanı bir çox türbələri ziyarət etməsi haqqında məlumatlara rast gəlirik (6, s. 194).

Nafiz Şahinoğlu qeyd edir ki, artıq 18 oktyabrda Şahrux özü əsas orduya qatıldı. Həmçinin, Sistan, Qəndəhar və Əfqanıstandan da bir qrup əsgərlər Teymuri ordusuna qatıldı. Əmir İlyas Xoca Qum və Kaşandan bir qrup əsgərlərlə, həmçinin, Fars hökmdarı Mirzə İbrahim, Kirman valisi Əmir Çaqmaq, İsfəhan valisi Rüstəm Mirzə də öz orduları ilə birgə döyüşə qatıldılar. Mənbələrdə rast gəlinir ki, bu zaman Teymuri ordusu 200 minə yaxın idi. Lakin orduda yeni bir inamsızlıq hökm sürür, qələbə çalacaqlarına güvənmirdilər (4, s. 107). Bir qrup tarixçilər məlumat verir ki, Teymurun ordusunun çox hissəsi uşaqlardan ibarət idi və uzunsürən müharibələrdə həddindən çox yorulduqları üçün Baharlılara qarşı qələbə çalacaqlarına inanmırdılar.

Hətta Şahrux göndərdiyi elçi vasitəsilə Qəzvin və Sultaniyyəni Teymurilərə verilməsini tələb edir, qalan ərazilərin-Azərbaycan, Rum və Şam daxil olmaqla İraq-Ərəbini Yusifə verəcəyini bildirirdi. Qeyd olunur ki, əvvəl tələb etdiyi istəklərdən indi isə sadəcə Yusifdən onun hakimiyyətini qəbul etməsi qalmışdır. Baharlıların siyasi gücünü dərk edən hökmdar münasibətləri diplomatik yolla həll etməyə çalışırdı. Yuxarıda qeyd olunanlar, şübhəsiz ki, Şahruxun dinə bağlı olmasından əlavə qələbə qazanmağı yalnız Haqq yolunda görməsindən doğan hərəkətlər idi. Təsadüfi deyil ki, Şahrux günbəgün Quranın surələrini hafizlərə 12 min dəfə oxutdurub, Yusifi hücum etmək fikrindən daşındırmaq üçün Allaha yalvarırdı (8, s. 332).

Yusif padşah tərəfindən Sultaniyyəyə vali təyin olunmuş Cahanşah burada hazırlıqları davam etdirir, qalanı möhkəmləndirirdi. Lakin artıq məlumat verdiyim kimi Yusifin ölüm xəbəri bütün Anadoluda eşidilməyə başlayır. Xəbəri alan Teymuri ordusu görünməmiş bir sevinc yaşayır (1).

Əbu Bəkr Tehrani qeyd edir ki, Yusif padşah müharibəyə hazırlaşdığı zamanı iki oğlu-İspənd Mirzə və Bağdad valisi Məhməd bəy Baharlılara yardıma gəlməmiş, hətta "atamızda ağıl qalmamışdır" demişdilər (2).

Əbdürrəzzaq Səmərqəndi Yusifin ordusunun sayını şişirdərək "günəşin şüaları qədər çox, buludun damlaları qədər sayısız" olduğunu qeyd etsə də, mənbələrdə

ordunun sayının 50 mindən çox olmadığı yazılır (1, s.409). Lakin Yusifin ordusu özlərinə yetəri qədər güvənir və silahları da son dərəcə mükəmməl idi.

Yusif padşah Təbrizdən ayrılarkən dəyərli əşyaları və qızılları yaxın əmirlərinə paylamışdır. Lakin o Saidabad kəndində ağır xəstəliyin ucbatından vəfat etdi və Teymurilərlə mübarizə bir müddətlik təxirə salındı.

Yusifin ölümündən sonra ölkəni İsgəndər padşah idarə etməyə başladı. Atasının ölümündən sonra sədlulara arxalanaraq özünü onun xələfi elan etmiş və Bəyazid qalasındakı xəzinəni ələ keçirmişdir. Cahan şah isə Sultaniyyədən ayrılaraq atasının nəşini Ərçişə gətirmiş, digər oğlu isə Əbu Səid Ərzincandan yerli əhalinin tələbi ilə çıxarılmışdı ( 2, s.75).

Qışı Qarabağda keçirən Şahruxun ordusu daha da gücləndi. Belə ki, İraq əmirlərindən Hacı Müsafir, Əmir Hüseyn, Şirvanşah Xəlillulah, Şeyx İbrahim, Şəki hakimi Seyid Əhməd, Qara Yusifin əmirlərindən Əmir Cəfər, Əmir Mənsur, Bayram bəy, Oyrat bəyi Çoban Əli və Bayandurlu bəyi Qara Yuluq Osman bəy və digərləri Şahruxun hüzuruna gəlib onun hakimiyyətini qəbul etdilər (2).

Çağatay hökmdarı 1421- ci ilin yazında Qarabağdan ayrılaraq Təbrizə gəldi. Gəncə-Bərdə bölgəsində Qaramanlı bəyi Yar Əhməd Teymuri ordusuna hücum çəkdi. Şahruxun hüzuruna gətirilən Qaraman bəy əfv edildi (1, s. 438-444).

Belə ki, Qara Yuluq atasının ölümündən sonra Mardin üzərinə hücum təşkil etmişdir. Bu xəbəri alan İsgəndər padşah Kərkükdə savaşa hazırlaşdı. Əbu Bəkr Tehraninin də qeyd etdiyi kimi, eyni boya mənsub olan, lakin eyni zamanda bir-birlərinə qəti düşmən olan iki Türkmən bəyi - Bayandurlu və Baharlı arasında 1421-ci ilin martında şiddətli döyüş baş verdi. Bu döyüş Baharlıların üstünlüyü ilə nəticələndi (2, s.77-82).

Bu qələbədən sonra Baharlıların mənəvi gücü qüvvətləndi. Şahrux isə 26 mayda Bəyazid qalasını mühasirəyə alıb, şiddətli hücumla qalanı ələ keçirmişdir. Bunun ardınca Van gölü hövzəsinə gələn Şahrux bir-bir Əhlət və Ərçiş qalalarını da ələ keçirdi. Bundan sonra ölkəsinə qayıtmaq niyyətində olan Şahrux İsgəndər padşahın və İspənd Mirzənin Əhlət qalasına doğru gəldikləri xəbərini aldı. Əbu Bəkr Tehrani qeyd edir ki, bu əsnada Şahruxun yanında olan Bayandurlu bəyi Osman bəy “ Qara Yusifin oğulları yox edilməyənə qədər Anadoluda tam hakimiyyəti ələ keçirmək mümkün olmayacaq” deyərək Baharlılarla müharibəyə başladılar. Sözügedən zamanda dəfələrlə türkmən bəyləri barışıq əldə etmək üçün elçilərini Teymuri dövlətinə göndərsələr də, hər dəfə rədd cavabı aldılar ( 8, s.452-453). Artıq görünür ki, Çağataylar siyasi güclərini bərpa etmiş, Yusif zamanından fərqli olaraq tərəddüdləri tamamilə yox olmuşdur.

Barışıq təklifləri rədd edilən Türkmən bəyləri Ələşgirdə döyüş hazırlıqlarına başladılar. Mənbələrdə qeyd olunur ki, baharlıların ən çox çəkindiyi teymurilərin ordusundakı fillər idi. Çünki indiyə qədər heç bir savaşda onların atları fillərlə qarşılaşmamışdılar. Beləliklə, Teymuri və Baharlı əsgərləri 1421-ci ilin yayında Ələşgirddə qarşılaşdılar. Baharlı ordusu təxminən 35 min olduğu halda, Şahruxun ordusu bundan 4 qat çox idi. Baharlı ordusunun sağ qoluna Pir Hüseyn bəy, sol qoluna isə İspənd Mirzə rəhbərlik edirdi. Mərkəzdə isə İsgəndər padşah özü dururdu. Fəqət Teymuri ordusunun sayca üstünlüyü baharlıların məğlubiyyətini labüd edirdi. İspənd Mirzə Əmir Məlik tərəfindən ələ keçirildi. Sayca az olan Baharlı ordusunun daxilində çaxnaşmalar baş verdi və bütün bu baş verənlər İsgəndəri savaş meydanını tərk etmək məcburiyyətində qoydu. Mənbələrdə göstərilir ki, Şahrux bu qələbədən sonra Qara Yuluq, Pir Məhmd və Əli bəyi əsir almışdır. Az sonra Təbrizə doğru irəliləyən Çağatay hökmdarı payızda Sultaniyyəyə doğru getdi (1, s.458-463).

Ələşgird savaşından sonra İsgəndər Kərkükə getmiş, İspənd isə Anadoluda qalmışdır. Şahruxun Azərbaycanı tərk etdiyi xəbərini alan İspənd Mirzə Təbrizə gəlmişdir. Bu zaman Təbrizi idarə edən Qara Yuluq bəyin oğlu Əli bəy Diyarbəkirə çəkilmişdir. Lakin İspənd qardaşı İsgəndərin gəlişi ilə əlaqədər Təbrizi tərk edərək Ərzuruma, az sonra isə Bağdada gəldi (2, s. 88).

Teymuri-Baharlı qarşıdurması yenə iki ay sonra Dəli Əhmədin rəhbərliyi ilə Sultaniyyə ətrafında baş vermişdir. Şahrux dərhal İlyas Xocaya yardım etmələri üçün Yusif və Seyid Əmirin rəhbərliyi ilə 3 min atlı qoşun göndərdi. Dəli Əhməd məğlub olaraq Təbrizə doğru çəkildi (1, s. 98).

İsgəndər padşah 1428-ci ildə Sultaniyyə, Əbhər, Qəzvin və Zəncanı ələ keçirib idarəsini Dəli Əhmədə verdi. Baharlı hökmdarı çox yaxşı başa düşürdü ki, bu hərəkəti ilə Teymuri hökmdarı yeni bir savaş başladacaq. Düşündüyü kimi sultan Şahrux 1429-cu ilin yazında Heratdan ayrılıb, Reyə gəldi. Az sonra Sultaniyyəyə gələn hökmdar, yayda Təbrizin Şənbi-Qazan məhəlləsinə yan aldı. Bu zaman İsgəndər padşah və ordusu Şahruxu Səlmasda gözləyirdi. Belə ki, Baharlı ordusuna Cahan şah rəhbərlik edirdi. Təxminən 50 minlik əsgərlə savaşa girən baharlılar 1429-cu ilin sentyabrında Teymuri ordusu ilə qarşılaşdılar. Əbdürrəzzaq Səmərqəndi qeyd edir ki, Səlmas savaşı 2 gün çəkmiş, şiddətli döyüş Teymurilərin qələbəsi ilə nəticələnmişdir. Şahrux ardınca Əlincə qalasına getdi.

Qalada İsgəndər padşahın oğulları və digər yaxınları var idi. Lakin onlar Şahruxa hədiyyə verərək azad olundular və Çağatay hökmdarı 7 noyabrda Qarabağa getdi (1, s. 123-124).

Şahrux qazandığı qələbələrə baxmayaraq artıq başa düşürdü ki, Baharlı dövlətini tamamilə məhv etmək olmayacaq. Ona görə də İsgəndər və qardaşları, ümumən Türkmən bəyləri arasındakı ixtilaflardan istifadə etmək qərarına gəlir. Belə ki, Yusifin kiçik oğlu Əbu Səid 1430-cu ildə Qarabağa Şahruxun hüzuruna gəlir və Çağatay hökmdarı Azərbaycanın idarəsini ona tapşırdı. Lakin Əbu-Səid Azərbaycanı 6 aydan artıq idarə edə bilmədi, çünki İsgəndər padşah onu ələ keçirərək öldürtdü (8, s. 644).

Motaslı Tomasın yazdığına görə, bu zaman Vanı idarə edən İsgəndərin oğullarından Yar Əli qəddarlığı ilə ad salmışdır. Van əhalisi padşaha şikayətlər etməyə başlayanda, bu şikayətləri nəzərə alan İsgəndər oğlunu yanına çağırır. Lakin atasından qorxan Yar Əli Şirvanşaha sığındı (8, s. 644 ).

Şirvanşah hökmdarı isə Yar Əlini teymurilərə təhvil verdi. Bir müddət Şahruxun yanında qalan Yar Əli sonradan onun əmri ilə Səmərqəndə göndərildi. Uluqbəy isə onu burada qalaya həbs etdi. Bir müddət sonra qaladan qaçan Yar Əli Herat şəhərini ələ keçirdi. Lakin 1449-cu ildə Babur Mirzə tərəfindən həyatına son qoyuldu (2, s. 107-108).

Teymuri hökmdarı 1434-cü ilin sonunda Heratdan ayrılaraq Reyə gəldi. Reydə olarkən hökmdarın yanına bir sıra Baharlı əmirləri gəlib ona itaətini bildirdilər. Bundan sonra Şahrux əmirlərini göndərərək Cahanşahı yanına dəvət elədi. Bu dəvət Cahan şahın bir müddət (1434-1444) Şahruxun hakimiyyətini tanımasından irəli gəlirdi. Avqust ayında Cahan şah Şahruxun hüzuruna gəldi. Çağatay hökmdarı Cahan şaha İsgəndərin əlində olan torpaqlara hücum etmək əmri verib, həmçinin, Şirvanşah Xəlilulahı da baharlılar üzərinə göndərdi (2, s. 47).

Çətin vəziyyətə düşən İsgəndər Təbrizdən ayrılaraq Osmanlı dövlətinə qaçdı. Vəziyyəti əvvəlcədən təxmin edən Şahrux Qara Yuluq Osman bəyə Ərzurum tərəflərdə İsgəndərin yolunu kəsməyi tapşırmışdır. Bu hadisə iki Türkmən bəyi arasında döyüşə səbəb oldu. Belə ki, baş vermiş döyüşdə Bayandurlu bəy ağır şəkildə yaralanıb Ərzurumda vəfat etdi (2, s. 133).

Bu hadisədən sonra erməni mənbələrdə göstərilir ki, Çağatay əsgərləri baharlıları yaxından izləmək istəməmişdilər. Şahrux isə Osmanlı ərazisinə gəlib II Murada əgər İsgəndər onun yanına gələrsə, teymurilərə təhvil verməsini tələb etmişdir. Digər tərəfdən isə Teymuri hökmdarı Cahan şahı yanına çağırıb, onu ordu ilə təhvil edib İsgəndərin ailəsi olan qalanı almağı tapşırdı. 2 mayda Qarabağdan Ucana gələn Şahrux qalanı alan Cahan şaha Azərbaycanın idarəsini verdi. Və nəhayət ki, bundan sonra Şahrux bir daha gəlməmək qərarı ilə Azərbaycanı tərk edib Xorasana hərəkət etdi (2, s. 49).

Geri qayıdan İsgəndər padşah yenidən hakimiyyəti ələ keçirməyə çalışsa da, buna müvəffəq olmadı. Şirvanşah əmirləri ilə ittifaqa girən Cahan şahın hücumu ilə Əlincə qalasına salındı və sonra oğlu Şahbudaqın xəyanəti nəticəsində öldürüldü. Cahan şah isə bu sürətlə Baharlı hökmdarı oldu və dövlət ən parlaq dövrünü yaşadı (3, s. 142).

1447-ci ildən etibarən, yeni sultan Şahruxun ölümündən sonra Cahan şah dövləti müstəqil şəkildə idarə etməyə başladı. 1458-ci ildə Heratı ələ keçirən Cahan şah oğlu Həsən Əlinin baş qaldırdığı üsyan ilə əlaqədər sultan Əbu Səidlə müqavilə imzalayıb Herat və Xorasan üzərindəki hakimiyyətindən əl çəkib Azərbaycana qayıtdı (8)

## ƏDƏBİYYAT SİYAHISI:


***Azərbaycan dilində***

*1. Əliyarlı S. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər (Ali məktəblərin tarix fakültələri və tarix üzrə yenidənhazırlanma kursları üzrə dərs vəsaiti). Bakı, 2019, 872 s.*

*2. Əfəndiyev O., Musalı N. Həsən bəy Rumlu Əhsənüt-təvarix əsəri. İstanbul, 2017, 661 s.*

*3. Nəcəfli T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında. Bakı, 2000, 198 s.*

*4. Şükürov R. Əbu Bəkr Tehrani və onun "Kitab-i Diyarbəkriyyə" əsəri. Bakı, 2006, 114 s.*

***Türk dilində***

*5. Aka İ. Şahruhun Karakoyunlular üzerine seferi. IV cild. İstanbul, 1989.*

*6. Kazanazmaz M. Kara Koyunlu Kara Yusuf ve zamanı. Atatürk Üniversitetisi Türkiye Araştırmaları Ensitüsü. 2019, 207 s.*

*7. Korkmaz F. Sultan Ahmed Celayir dönemi ve Celayirli-Timuru ilişkileri. Atatürk Üniversitetisi Türkiye Araştırmaları Ensitüsü ( Yayınlanmış Yüksek Lisans Tezi). Ərzurum, 2017.*

*8. Sümer F. Kara Koyunlular (başlangıçtan Cihan şaha kadar) I cild. Türk Tarih Kurumu Yayınları. Ankara, 1992, 184 s*

*9. Uzunçarşılı İ. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri . Türk Tarih Kurumu yayınları. Ankara, 2017, 345 s.*

UOT: 338.2: 338.24.021.8

# ŞUŞA ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN TARİXİ ROLU

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru,*
*UNEC Qarabağ İqtisadi Araşdırmalar*
*Mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru*
*E-mail: garabagh.iam@unec.edu.az*

2023-cü il Azərbaycan xalqının həyatında əlamətdar bir ildir və bütün dünya Azərbaycanlıları Ümummilli Liderimiz Heydər Əliyevin 100 illiyini qeyd edirlər. Heydər Əliyev dühası və zəkası Azərbaycan xalqının önündə bir mayak və işıq kimi saçır. Heydər Əliyev dövlətçiliyimizin inkişafında tarixi izlər buraxmış və xidmətləri ilə yadda qalmışdır. Bu amillər nəzərə alınmaqla ölkə Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir [1].

Qeyd edək ki, Heydər Əliyevin tarixi xidmətlərindən biri də Qarabağın sosial-iqtisadi inkişafının təmin edilməsi və xüsusilə Şuşa şəhərinin Qarabağın mərkəzi kimi inkişaf etməsində rolu ilə bağlıdır [2]. Son 100 il ərzində erməni işğalçıları xarici havadarlarının köməyi və fəal dəstəyi ilə Qarabağ torpaqlarını zaman-zaman işğal etmişlər. Keçmiş SSRİ-nin süqutundan sonra isə Qarabağ tamamilə işğal olunmuşdur. Məhz Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycanda dövlətçilik atributlarını gücləndirmiş, milli ordu quruculuğunun əsasını qoymuş və Qarabağ həqiqətlərini bütün dünyaya çatdırmaqda tarixi işlər görmüşdür. Heydər Əliyevin əsasını qoyduğu bu milli strategiya Ali Baş Komandan İlham Əliyev tərəfindən daha da təkmilləşdirilmiş və 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Böyük Qarabağ Zəfərində torpaqlarımız işğaldan azad olunmuşdur.

Hazırda strateji prioritet vəzifələr kimi Qarabağda yeni iqtisadiyyat quruculuğunun və sosial-iqtisadi inkişaf proseslərinin Azərbaycanın davamlı inkişafına təsirinin obyektiv olaraq baxılması, araşdırılması, qiymətləndirilməsi və reallaşdırlmasından ibarətdir. Belə ki, ölkəmizin son 10 illiklərdə apardığı sosial-iqtisadi siyasət nəticəsində müəyyən nəticələr əldə olunmuş, iqtisadiyyatın dayanıqlılığı təmin edilmiş, regionların sosial-iqtisadi inkişaf prosesləri sürətləndirilmiş və demək olar ki, regionların siması tamamilə dəyişilmişdir. Hazırda Qarabağda yeni iqtisadiyyat quruculuğu prosesləri gedir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra başlanan iqtisadiyyat quruculuğu minaların təmizlənməsi proseslərinin çətinliyi ilə fərqlənir, amma bu istiqamətdə də intensiv tədbirlər görülməkdədir. Minaların təmizlənməsi işləri sürətləndikcə sosial-iqtisadi inkişaf layihələrinin həyata keçirilməsi, xüsusilə Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin genişmiqyaslı və intensiv olaraq yerinə yetirilməsi imkanları artacaqdır [3].

Qeyd edək ki, artıq işğaldan azad olunmuş ərazilər də nəzərə alınmaqla ölkəmizdə iqtisadi rayonlaşdırmanın yeni modeli işlənilmiş və bu qəbildən olan iqtisadi rayonların sayı 12-dən 14-ə qaldırılmış, nəticədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır [4]. Eyni zamanda, 2030-cu ilədək olan dövrə qədər Milli Prioritetlərin reallaşdırılması məqsədilə 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası təsdiq edilmişdir [5]. Prioritet fəaliyyət istiqamətləri sırasında Qarabağın bərpasının intensivləşdirilməsi, Şuşa şəhərinin iqtisadiyyat quruculuğunda isə daha çox yüksək texnologiyalar əsaslı xidmət sahələrinin formalaşdırılması ön plana çıxarılmışdır.

Yeni iqtisadiyyat quruculuğu, əslində bir çox məsələlərin kompleks və sistemli baxılmasını şərtləndirir. Burada ənənəvi iqtisadiyyat sahələrinin nə dərəcədə aparıcı rol oynayacağı və müasir dövrdə yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin perspektivlərinin qiymətləndirilməsi və bununla bağlı Qarabağda infrastrukturun yaradılması, kadrların hazırlanması, Böyük Qayıdış proseslərində yeni iş yerlərinin formalaşdırılmasında adı qeyd olunan iqtisadiyyat sahələrinin hansı dərəcədə səmərə verə biləcəyi və multipilkativ təsirinin olması məsələləri ciddi şəkildə araşdırılmalı, təhlil edilməli və qiymətləndirilməlidir [6].

Fikrimizcə, Qarabağda sosial-iqtisadi inkişaf proseslərinin yüksək səviyyədə təşkil edilməsi Azərbaycanın davamlı inkişafına əlavə töhfələr verəcəkdir. Uzun illər ərzində işğal altında qalmış ərazilərimizdə sosial və istehsal infrastrukturu ta-

mamilə darmadağın edilmiş, ərazilər şoranlaşmış və demək olar ki, torpağın səthi belə deqradasiyaya uğramışdır. Su hövzələri çirkləndirilmiş, filiz yataqları, qızıl yataqları barbarcasına istismar olunmuş və ekoloji fəlakət mühiti formalaşmışdır. Bütün bunların ardıcıl şəkildə aradan qaldırılması və sosial-iqtisadi inkişaf proseslərinin tələblərinə uyğun şəkildə sosial və istehsal infrastrukturunun, yeni iş yerlərinin, əhalinin rahat yaşaya biləcəyi kənd və qəsəbələrin yaradılması, yaşayış massivlərinin istismara verilməsi və əhalinin qayıdışına imkan verən sosial və istehsal infrastrukturunun formalaşdırılması, xidmət sahələrinin təşkili vacibdir.

Eyni zamanda, Qarabağda yeni iqtisadi inkişaf proseslərinin əsas tərkib hissəsi kimi bu iqtisadi rayona daxil olan inzibati vahidlərin mövcud resurslarından istifadə etməklə emal sənaye sahələrinin yaradılması, onların təsərrüfat və maliyyə dövriyyəsinə cəlb olunmasında ciddi tədbirlərin görülməsi, məhsuldarlığı yüksək olan sahələrin potensialından səmərəli istifadə edilməsi problemləri mövcuddur və onların ardıcıl şəkildə həll edilməsi, zəruri tədbirlərin görülməsi iqtisadi-təşkilati maliyyə mexanizmlərinin işlənərək tətbiq olunması, dövlət dəstəyi mexanizmlərinin hazırda tətbiq olunan imkanlarından daha geniş bəhrələnməsi məsələləri ön plana çıxarılmalıdır.

Məlumdur ki, Böyük Qayıdışla bağlı I Dövlət Proqramı çərçivəsində regionda sahibkarlığın inkişafı və biznes, investisiya mühitinin yaxşılaşdırılmasına xüsusi önəm verir və bu məqsədlər üçün güzəştlər paketi də ortaya qoyulmuşdur. Burada nəzərdə tutulan güzəştlər Qarabağda bütün sahələrdə həm iqtisadiyyatın şaxələndirilməsi, həm sosial müdafiə sisteminin gücləndirilməsi, Qarabağda yaşayan və fəaliyyət göstərən insanların bu regiona inteqrasiya etməsi üçün əlavə imkanlar formalaşdıracaqdır. Digər tərəfdən, müxtəlif istiqamətlərdə fəaliyyət göstərən təsərrüfat subyektlərinin, biznes və investisiya fondları birliklərinin nümayəndələrinin, eyni zamanda iş adamlarının regiona daha çox investisiyalar yatırmaq və bununla əlaqədar olaraq zəruri tədbirlərin görülməsində fəal iştirak etmək niyyətlərinin həyata keçməsində, reallaşdırılmasında lazım olan addımlar atılmalıdır. Qarabağda sosial-iqtisadi inkişaf proseslərinin planlaşdırılması, buna uyğun olaraq resursların dövriyyəyə cəlb edilməsi, emal müəssisələrinin yaradılması, maliyyə təminatı mexanizminin işlənilməsi və tətbiq edilməsi daha çox fayda verə bilər. Belə ki, nəzərdə tutulan layihələrin reallaşdırılması və onların həyata keçirilməsi proseslərində dövlət strukturları nümayəndələrinin fəal iştirak etməsi son nəticədə həmin layihələrin reallaşdırılması baxımından önəmlidir və həlledici amil kimi nəzərə alınmalıdır [7]. Eyni zamanda, Azərbaycanın davamlı inkişaf etdirilməsi vəzifələri bir çox məsələlərlə bağlı əlavə tədbirlərin görülməsini şərtləndirir. Buna görə də, yaxın perspektivdə regionlarda sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi, ölkəmizin davamlı inkişafına əlavə stimullar verməklə bərabər, insanların sosial-iqtisadi problemlərinin həllinə imkan verə biləcək, onların daha yaxşı yaşaması üçün əlavə stimullar formalaşdıracaqdır. Bunlarla yanaşı, sosial-iqtisadi inkişafın mümkün potensialının dövriyyəyə cəlb edilməsi baxımından qeyd olunan tədbirlər və prioritetlər ciddi önəm kəsb edəcəkdir.

Qeyd edək ki, 1970-ci illərin ikinci yarısında Şuşa şəhərinin inkişafı baxımından Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü, tələbkarlığı və rəhbərliyi ilə bir sıra xüsusi qərarlar qəbul edilmiş və həmin qərarlara uyğun şəhərin tarixi abidələri, keçmişdə tikilmiş binaları bərpa edilmiş, iri mehmanxana kompleksləri, yeni yaşayış və ayrıca inzibati binalar tikilib. Şuşanın statusunu yüksəltməklə, ümumittifaq əhəmiyyətli kurort şəhərinə çevrilməsinə nail olunmuşdur [8]. Bu qərarların reallaşdırılmasının böyük tarixi əhəmiyyəti olmuşdur. Belə ki, Şuşada əlavə iş yerləri açıldı, həyat səviyyəsi yüksəldi, Azərbaycanlıların milli ruhu gücləndi. Şuşaya dincəlmək üçün keçmiş SSRİ-nin müxtəlif yerlərindən gələnlər eyni vaxtda Azərbaycanın tarixi, incəsənəti və mədəniyyəti ilə tanış ola bilirdilər [9]. Heyvandarlıq Şuşa rayonunun iqtisadiyyatında əsas yer tuturdu. Ən yüksək iqtisadi göstəricilərlə xarakterizə olunan 1986-cı ildə burada mal-qara 5,2 min baş olmuşdur. Kənd təsərrüfatına yararlı sayılan torpaq sahəsi 20,9 min hektar olmuşdur ki, bunun da 3,8 min hektarını əkin sahələri, 0,1 min hektarını çoxillik bitkilər, 0,3 min hektarını biçənəklər, 16,7 min hektarını otlaqlar təşkil edirdi. Suvarılan torpaq isə 0,1 hektar olmuşdur. 3,4 min hektar əkin sahəsinin 41%-də dənli və paxlalılar (buğda, qarğıdalı, arpa), 6%-də tərəvəz və kartof, 53%-də isə yem bitkiləri əkilmişdir [10].

Müasir dövrdə Şuşanın dirçəldilməsinin strateji əhəmiyyəti kifayət qədər böyükdür. Belə ki, Böyük Qarabağ Zəfərində məhz Şuşa şəhərinin işğaldan

azad edilməsi həlledici rol oynamışdır. Dünyanın hərb dərsliklərinə düşmüş Şuşa Zəfər döyüşünün bir əfsanəyə çevrilməsi, Şuşa fatehlərinin misilsiz igidliyi və qəhrəmanlığı tarixlər boyunca yaşayacaqdır. Məhz bu səbəblərdən Şuşa hazırda Qarabağda və ümumilikdə işğaldan azad olunmuş torpaqların dirçəldilməsi proseslərində əsas mərkəz və istinad məbədi kimi baxılır və qiymətləndirilir. Şuşa dirçəldikcə və inkişaf etdikcə düşmənin gözdağı artır, bağrı çatlayır və beləliklə, Azərbaycan xalqının qəhrəmanlıq simvolu kimi Şuşa bütün dünya azərbaycanlılarını birləşdirən müqəddəs məkana çevrilir. Şuşa şəhərinin sosial-iqtisadi inkişaf prioritetləri artıq əsasən müəyyənləşdirilmişdir və hazırda şəhər geniş tikinti meydançasını xatırladır. Hər tərəfdən qədim abidələr, memarlıq nümunələri təmir edilir, sosial və xidmət infrastrukturu yaradılır, yaşayış binaları tikilir. Bir sözlə, Şuşa şəhərinin dirçəldilməsi prosesləri intensiv xarakter daşıyır.

Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsi və şəhərin sahəvi strukturunun formalaşdırılması, milli ornametlər ənənəvi dəyərlər, məşğulluq sahələri və digər məsələlərin nəzərə alınmaqla, burada iqtisadiyyat quruculuğunun təmin edilməsi strateji əhəmiyyət kəsb edir. Şuşa artıq türk dünyasının mədəniyyət mərkəzi kimi ildən-ilə özünün strateji mövqeyini artırmaqdadır. Eyni zamanda, bütün dünya azərbaycanlılarını birləşdirən, bir yerə toplayan bir dəyərli və qiymətli müqəddəs yer kimi artıq statusa malik olan bir yerdir. Şuşa Cənubi Qafqazın incisi hesab olunur və nəhayət, Şuşa Azərbaycanın ən dəyərli bölgələrindən və qiymətli strateji əhəmiyyət kəsb edən mərkəzlərindən biridir. Buna görə də, Şuşa şəhərinin sosial-iqtisadi dirçəldilməsi, eyni zamanda həm də Qarabağın strateji inkişaf impulsları kimi dəyərləndirilə bilər.

Qeyd edək ki, ölkə Prezidentinin Sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan olunmuşdur və Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar olaraq silsilə tədbirlər keçirilmiş, dünyanın hər yerindən Şuşaya məşhur insanlar, turistlər, siyasi xadimlər, görkəmli şəxslər, ilk növbədə, qardaş respublikalardan, qardaş dövlətlərdən, başda Türkiyə olmaqla, Türkdilli ölkələrdən çoxlu sayda insanlar Şuşa şəhərinə səyahət etmiş, şəhərin qədim incəlikləri, abidələri, görkəmli yerlərini ziyarət etmiş və Şuşada həyata keçirilən dirçəliş prosesləri ilə yerindəcə tanış olmuşlar. Hazırda Şuşa əslində böyük bir tikinti meydançasını xatırladır, burda yüzlərlə abidələrin, görkəmli yerlərin, mədəniyyət və digər baxımdan xüsusi əhəmiyyət kəsb edən binaların, arxitektur binaların bərpası və yenidən qurulması prosesləri gedir [11]. Şuşada infrastruktur yaradılır, sosial infrastruktur şəbəkəsi formalaşdırılır. Şuşada həm də turizm-rekreasiya imkanlarını özündə ehtiva edən iri sanatoriyanın, Şuşa sanatoriyasının təməli qoyulmuşdur. Digər tərəfdən, Şuşada sosial sahələrinin formalaşdırılması, sosial-iqtisadi inkişaf impulslarının təmin edilməsi üçün müvafiq şəraitin yaradılması, kommunal xidmət sahələrinin inkişaf etdirilməsi və xidmət sektorunun genişləndirilməsi istiqamətində önəmli addımlar atılmaqdadır. Təbii ki, şəhər, ilk növbədə, sabit şəkildə elektrik enerjisi və içməli su ilə təmin olunmuşdur.

Yeni infrastruktur obyektlərinin tikintisi və yaxın perspektivdə Şuşada geniş xidmət sektorunun və şəbəkəsinin yaradılması proseslərinin daha da sürətlənməsi gözlənilir. Digər tərəfdən, Şuşa iqtisadiyyatının əsasında hesab edirik ki, mədəniyyət iqtisadiyyatı ilə yaradıcılıq sənayesinin imkanlarının sintezi nəticəsində formalaşdırılacaq fəaliyyət sahələrinin böyük rolu olacaqdır. Artıq bu istiqamətdə işlər başlanıb. Burada söhbət bütün ilboyu müxtəlif festivalların və musiqi tədbirlərinin, yəni yaradıcılıq sənayesi tədbirlərinin keçirilməsi, layihələrin reallaşdırılması nəzərdə tutulur. Eyni zamanda, Şuşa ilə bağlı tədbirlər əsasında, ilk növbədə, şəhərin milli ornamentləri, arxitektura ənənələri, milli dəyərlər və şəhərin özünəməxsus inkişaf xüsusiyyətləri və memarlıq üslubları nəzərə alınmaqla, burada yaşayış massivinin salınması prosesləri sürətləndirilməkdədir.

Şuşa həm də davamlı inkişafın təmin edilməsində, Azərbaycan xalqının qədim adət və ənənələrinin yaşanmasında və bunun dünyaya çatdırılmasında önəmli funksiyaları yerinə yetirən bir mədəniyyət beşiyi və mərkəzi kimi yaxın perspektivdə çox mühüm funksiyaları yerinə yetirəcəkdir. Burada beynəlxaq əhəmiyyət kəsb edən tədbirlərin reallaşdırılması, elmi-praktiki, iqtisadi və digər sahələrdə olan tədbirlərin keçirilməsi, xüsusilə xidmət və mədəniyyət sektoru sahələrinin inkişaf etdirilməsi ilə bağlı mövcud potensialı dəyərləndirilərək beynəlxalq səviyyəyə çıxarılması, investorların bu sahəyə cəlb edilməsi, dünya səviyyəsində formalaşmış təcrübədən daha geniş istifadə etməklə, Şuşa şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə imkan verən layihələrin həyata keçirilməsi ölkəmizdə da-

vamlı inkişafın sürətləndirilməsinə əlavə imkanlar verəcəkdir.

Şuşa şəhərinin dirçəldilməsi həm də hər bir azərbaycanlı və Türk dünyası tərəfindən böyük qürurla qarşılanan sosial-iqtisadi inkişaf impulsu kimi də qəbul olunur. Şuşa həm də Türk dünyasının fəxridir, gözüdür, bəbəyidir və 2023-cu ildə Şuşanın Türk dünyasının mədəniyyət mərkəzi kimi elan edilməsi, bu istiqamətdə daha genişmiqyaslı tədbirlərin görülməsinə və layihələrin həyata keçirilməsinə əlavə imkanlar formalaşdırmışdır. Yəni, bütün ilboyu Türkdilli dövlətlərin iştiraki ilə adət-ənənələrin geniş təbliği, milli dəyərlərimizin aşılanması və dəyərləndirilməsi, burada mövcud resurslardan daha da bəhrələnərək müxtəlif istiqamətlərdə regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanları diqqət çəkir. Digər tərəfdən, Şuşa şəhəri həm də ölkəmizin dayanıqlı və davamlı inkişafında önəmli rol oynaya biləcək amillər baxımından böyük əhəmiyyət kəsb edir.

Şuşa şəhərinin dirçəldilməsi və sürətli inkişafı, ümumilikdə regionun inkişafına müsbət və multiplikativ təsir göstərəcəkdir. Şuşanın inkişafı onun ətrafındakı kənd və qəsəbələrin bərpasını sürətləndirəcək, həmin kəndlərin, qəsəbələrin sosial-iqtisadi inkişafına əlavə stimullar verəcəkdir. Reallaşdırılan layihələr hesabına həmin kənd və qəsəbələrin əhalisinin reinteqrasiyası, həm kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və emal olunması infrastrukturunun yaradılması, kiçik və orta biznes subyektlərinin formalaşdırılması perspektivləri genişlənəcəkdir. Həmçinin Şuşa şəhərində milli brendlərin formalaşdırılması, suvenirlərin hazırlanması, tekstil məhsullarının istehsal edilməsi imkanları artacaqdır.

Bu qeyd edilən tədbirlərin həyata keçirilməsi nəticəsində Şuşa şəhəri Ulu Öndər Heydər Əliyevin görmək istədiyi və vaxtı ilə əsasını qoyduğu dinamik inkişaf edən və Qarabağın mərkəzi funksiyasını yerinə yetirən Şuşa şəhərinin formalaşması və inkişaf etməsi mümkün olacaqdır və s.

## YEKUN

Yaxın perspektivdə Şuşa şəhərinin sosial-iqtisadi inkişafının dirçəldilməsində önəmli hadisələrin baş verəcəyini qeyd edə bilərik. Belə ki:

- Şuşada iqtisadiyyat quruculuğu daha intensiv təmin olunacaq və əsas etibarı ilə xidmət sektoru sahələri prioritetlik təşkil edəcəkdir;
- şəhərdə turizm-rekreasiya imkanlarının reallaşdırılması istiqamətində daha çox işlərin görülməsi qənaətindəyik, hazırda təməli dövlət başçısı tərəfindən qoyulmuş Şuşa turizm-rekreasiya kompleksinin – "Şuşa" sanatoriyasının tikintisi aparılır;
- şəhərdə yaşayış massivlərinin salınması sürətlə gedir və tezliklə Şuşaya Böyük Qayıdış reallaşacaqdır və s.

**Açar sözlər:** *Azərbaycan, Ümummilli Lider Heydər Əliyev, Qarabağ, Şuşa, Qarabağ iqtisadi rayonu, Şuşa şəhərinin sosial-iqtisadi inkişafı, Şuşanın iqtisadiyyat quruculuğu.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 29 sentyabr 2022-ci il.*

*2. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.*

*3. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

*4. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.*

*5. Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası. Bakı, – 22 iyul 2022.*

*6. Əliyev, T.N. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri// AMEA İqtisadiyyat İnstitutu "İqtisadi artım və ictimai rifah" elmi jurnalı – Bakı: "Avropa" – 2021. №1, – s. 11-19.*

*7. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.*

*8. Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər. Bakı, – 2022. – 268 s.*

*9. Şuşa - Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. https://azertag.az/xeber/Susa_Azerbaycanin_tarixi_ve_strateji_ehemiyyetli_medeniyyet_paytaxti-1921706.*

*10. İqtisadiyyat. Şuşa şəhər icra hakimiyyəti. http://www.shusha-ih.gov.az/az/page/14.html.*

*11. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуша в интенсификации социально-экономического развития Карабахского экономического района / Ш.Т. Алиев, Л.А. Меликова // Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации: Сборник материалов VII Международной научно-практической конференции, Москва, 30 июня 2022. – с. 321-329.*

**РЕЗЮМЕ**
**ИСТОРИЧЕСКАЯ РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ОБЕСПЕЧЕНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ГОРОДА ШУША**

В статье рассматривается историческая роль Гейдара Алиева в обеспечении социально-экономического развития города Шуша. Раскрываются значимость и концептуальные основы экономической политики Общенационального лидера Азербайджана. Рассматриваются приоритеты развития и восстановления территорий, освобожденных от оккупации, и пути скорейшей реинтеграции их в национальную экономику. Подготовлены рекомендации и предложения по развитию экономики Азербайджана в контексте целей возрождения Карабаха.

**Ключевые слова:** *Азербайджан, Общенациональный Лидер Гейдар Алиев, Карабах, Шуша, Карабахский экономический район, экономическое возрождение город Шуша.*

**SUMMARY**
**THE HISTORICAL ROLE OF HEYDAR ALIYEV IN THE SOCIAL AND ECONOMIC DEVELOPMENT OF THE CITY OF SHUSHA**

The historical role of Heydar Aliyev in ensuring the socio-economic development of the city of Shusha is analyzed in the article. The importance and conceptual foundations of the economic policy of the National Leader of Azerbaijan are revealed. Priorities for the development and restoration of territories liberated from occupation and ways of their early reintegration into the national economy are considered. Recommendations and proposals on the development of the Azerbaijan economy in the context of the goals of the revival of Karabakh are given.

**Keywords:** *Azerbaijan, National Leader Heydar Aliyev, Karabakh, Shusha, Karabakh economic region, economic revival of the city of Shusha.*

UOT 336.027

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ DAXİLİ RESURS POTENSİALI: TƏHLİL, QİYMƏTLƏNDİRMƏ VƏ REALLAŞDIRMA

**TALE ƏKBƏROV**
*Bakı Biznes Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*
*E-mail: akberovtaleh@yahoo.com*

## GİRİŞ

Məlum olduğu kimi, 2020-ci il Azərbaycanın şanlı tarix səhifələrində zəfər ilinə çevrildi. Ölkə Prezidenti cənab İlham Əliyevin başçılığı ilə xalqımızın birliyi və ordumuzun rəşadətli zəfəri və yenilməz gücü ilə torpaqlarımız işğaldan azad edildi, tarixi ərazi bütövlüyümüz bərpa olundu. Ərazilərimizin bərpası üçün 2030-cu illərə kimi hədəflərimizi nəzərdə tutan Milli Prioritetlər arasında "İşğaldan Azad Olunmuş Ərazilərə Böyük Qayıdış"ın mühüm əhəmiyyəti vardır. Cənubi Qafqaz regionunda yeni beynəlxalq və regional səviyyəli nəqliyyat-logistika dəhlizinin bərpası nəticəsində Azərbaycanın dünya bazarlarına çıxış imkanlarının artması təmin ediləcəkdir. İşğaldan azad edilmiş ərazilərin bərpa olunması prosesində xarici və milli sahibkarlıq subyektlərinin iştirakının mühüm rolu olacaq. Beləliklə də bu ərazilərdə formalaşdırılacaq və yenidən qurulacaq istehsal və xidmət sahələrinin uğurlu fəaliyyəti nəticəsində bütövlükdə ölkə iqtisadiyyatının sürətli artımı təmin ediləcəkdir.

Müasir şəraitdə işğaldan azad olunmuş ərazilərimizdə sahibkarlığın maliyyə təminatında güzəştli maliyyə resurslarına çıxış imkanlarının təkmilləşdirilməsi probleminin elmi-nəzəri və praktiki araşdırılması, bu aspektdə sahibkarlıq subyektlərinin daha təkmil inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi yaxın və orta perspektivdə maliyyə imkanlarının genişləndirilməsi üçün optimal variantın tapılmasına imkan verəcəkdir.

Tədqiqatın işinin aparılmasında əsas məqsəd işğaldan azad olunmuş bölgələrimizdə sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarını təhlil edib qiymətləndirməklə, yerli və beynəlxalq səviyyəli dövlət və özəl maliyyə-kredit qurumlarının rolunu müəyyənləşdirməkdən, bu istiqamətdə müvafiq təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

### 1. İşğaldan azad edilmiş ərazilərdə erməni vandalizminin izləri

Tarixi qələbədən sonra Qarabağ regionunda, həm də ona daxil olan 7 regionda ölkə iqtisadiyyatının əlavə dəyər formalaşdırmaq, həmçinin investisiya potensialının çoxaldılması imkanlarından səmərəli şəkildə istifadə edilməsi strateji vəzifə kimi qarşıda dayanır. Bu rayonlar hələ sovetlər birliyi dövründə respublikamızın iqtisadiyyatında vacib yer tutmuşdur və əsasən də kənd təsərrüfatının, həmçinin aqrar-sənaye kompleksinin inkişaf etdirilməsində, turizm-rekreasiya potensiallarından istifadədə mühüm nailiyyətlər əldə edilmişdir. Bildiyimiz kimi, hər bir müharibənin sonu olur və sülhün bərqərar olunmasından sonra dirçəliş və yaradıcılıq işlərinin reallaşdırılması tələb edilir. İşğaldan azad edilmiş regionlarda dirçəlişin və bərpa işlərinin maksimal formada nizamlı və mütəşəkkil şəkildə reallaşdırılmasının prinsip və meyarları müəyyən edilməli və indiki şəraitə uyğun formada mükəmməlləşdirilməlidir. Artıq qeyd etmək olar ki, respublikamız bu istiqamət üzrə başlıca konseptual yanaşma və konkret fəaliyyət istiqamətinin dairəsinin müəyyən edilməsi və icra olunması fazasına daxil olmuşdur. Bu məsələlərə dünya praktikasından yanaşdıqda başlıca ünsürlərdən biri kimi, postkonflikt regionlarının bərpa olunmasına dövrün tələbi cəhətdən, həmçinin obyektiv reallıq bazasından yanaşılması mühüm şərtlərdən biridir [1]. Məsələ burasındadir ki, erməni vandallarının işğal zamanındakı vəhşiliklərinin və faşist davranışlarının sərhədi olmamışdır. İnsanlığa qarşı cinayətləri ilə xislətini bütün dünyaya göstərən bu cəlladlar Qarabağ, həm də işğal edilən digər 7 rayon ərazisində talançılıq və virançılıqla məşğul olaraq həzz almış və bu ərazilərdə bir salamat belə tikili, həmçinin insan qəbirləri qalmamışdır.

Erməni faşistlərinin hərbi təcavüzü zamanı işğal olunmuş rayonlarımızda 900 yaşayış məntəqəsinin, 150 min evin, 7 min ictimai binanın, 693 məktəbin, 695 tibb müəssisəsinin, 855 uşaq bağçasının, 6 min sənaye və kənd təsərrüfatı müəssisələrinin dağıdılmasının şahidi olmuşuq. Bundan başqa, 2670 km avtomobil yolunun, 160 körpünün, 2,3 min km su xəttinin, 2 min km qaz kommunikasiyasının, 15 min km elektrik xəttinin dağıdılması və sıradan çıxarılmasını, torpaq sahələrinin deqradasiyaya uğradılmasını, su mənbələrinin zəhərlənməsi və meşələrin yandırılmasını tarixi qaynaqlarda görə bilərik. Əkinə faydalı

torpaqlar terrora uğramış, başdan –başa minalanmış, bir sözlə insanlığa sığmayan cinayətin hər üzünü və formasına burada şahidlik etmək olar [2]. Zamanında güclü iqtisadi gücə malik olan Ağdam və Füzuli əraziləri bom-boz biyabana çevrilmiş və demək olar ki, bu ərazilərdə bir dənə salamat tikili və ya infrastruktur obyekti mövcud deyildir. Başqa rayonların da taleyi buna bənzərdir, bina və tikililər, evlər təməlinə qədər məhv edilmiş, təsərrüfat və meşə sahələri əvvəldə vurğuladığımız kimi dağıdılmış, torpaq əraziləri yararsız formaya salınmış, mineral ehtiyatlarının, su mənbələrinin, filiz və qeyri-filiz yataqlarının vəhşicəsinə istismar edilməsinin, yaxud dağıdılmasının şahidi olmuşuq.

Vurğulayaq ki, müasir zamanımızda qlobal problemlər olduqca çoxdur və dünya əhalisi, ölkələri qlobal çətinliklərin təsirini nisbətən aşağı salmaq üçün cəhdlər edirlər. Digər tərəfdən də pandemiyanın yaratdığı yeni şərait çərçivəsində yaranan çətinliklər 100 milyonlarla əhalinin həyatını təhlükəyə atmış olur. Qeyd olunanlar böyük resurslar, həmçinin maliyyə resursları tələb edir, həyat fəaliyyəti və iqtisadi inkişaf prosesləri bərpa edilməli, iflic vəziyyətində olan iqtisadi sahələr canlandırılmalıdır. Böyük ölkələr və güclü iqtisadi imkanlarına, maliyyə vasitələrinə malik ölkələr belə, qlobal çətinliklər qarşısında acizdir, minilliyin qlobal çətinliklərinin həll edilməsindən söhbət belə gedə bilməz, həmçinin iqlim dəyişiklikləri mədəniyyət üçün real çətinliklər yaratmaqdadır, ac və işsiz insanların sayında azalma müşahidə olunmur və bütün bu qeyd olunanlar olduqça qorxulu proseslərdir. Sivilizasiya və dünya ölkələri daha çox əməkdaşlıq etmək, inkişaf və inteqrasiya potensiallarından bəhrələnmək, hər bir regionun inkişaf potensialını dəyərləndirmək üçün calışırlar, əməkdaşlıq üçün addımlar atırlar. Belə bir zamanda ermənilər və onların dayaqları heç cür işğalçılıqdan əl çəkmək istəmir, təslimçilik aktına imza atmaqlarına baxmayaraq, hələ də revanşist xülyalarla yaşayırlar. Bəzi aparıcı dünya ölkələri və beynəlxalq təşkilatlar isə beynəlxalq hüququmuzu tapdalamaqda davam edir və biz bunun açıq nümünəsini 30 ildə Qarabağın işğalı ilə əlaqədar məsələlərdə şahidi olduq.

**2. Qarabağ regionunda bərpa proseslərinin aparılması üçün tələb edilən maliyyə resurslarının miqyasının müəyyən edilməsi**

Bu səbəbdən də, öz torpaqlarımızı geri almaqla yanaşı, onların sürətli formada inkişaf etdirilməsini, infrastrukturunun daha tez bərpa olunmasını, sosial-iqtisadi inkişaf proseslərinin tarazlığının təmin olunmasını həyata keçirməliyik. Bu cəhətdən, respublikamızın regional siyasətində müasir mərhələnin başlanıldığını bu cür vurğulamalıyıq və şübhəsiz, bu zaman ənənəvi regional iqtisadi inkişaf mexanizminin müasirləşdirilməsi, əsasən də Qarabağ zonasının dirçəldilməsi prosesinin müasir hədəfinə uyğun olan fəaliyyət modelləri və mexanizmlərinin işlənib hazırlanaraq reallaşdırılması zərurəti meydana çıxmışdır. Qeyd edildiyi kimi, bunların bəzilərinə və pilot layihələrin icrasına başlanılmışdır. Bu cəhətdən qürurla qeyd edə bilərik ki, respublikamız bu vurğulanan strateji fəaliyyətlərlə müasir zamanda Qarabağın geri alınmasından sonra, özünün başqa bir şərəfli vəzifələrini, postkonflikt zonalarının bərpa olunması və yeniləndirilməsini təmin edərək 700 minə yaxın soydaşımızın öz ata-baba yurduna böyük qayıdışına nail olunmalıdır.

Ərazinin bərpa proseslərinin sürətləndirilməsi, əhalinin yaşayışına rəvac verən şəraitin formalaşdırılması, ilk əvvəl işğaldan azad edilmiş zonalarda infrastruktur obyekt şəbəkəsinin sürətli və daha intensiv formada təşkili, həmin regionlarda elektrik enerjisinin, içməli suyun, təbii qazın təminatının gücləndirilməsi tələb edilir. Bu isə yeni investisiyalarla əlaqədardır və investisiya potensialının çoxaldılması vacib şərt kimi diqqət çəkməkdədir. Hal-hazırda bu regionların bərpa olunmasına külli miqdarda maliyyə mənbələri və investisiya resurları vacibdir, lakin hesab olunur ki, zaman gələcək bu ərazi respublikamızda dinamik və güclü inkişaf edən əraziyə çevriləcək və daimi olaraq investisiya potensialının çoxaldılması imkanlarına malik olacaq. Belə ki, ərazilər daha sürətli bərpa və yenidənqurma imkanları olan resurslarla zəngindir və təbiət bu ərazidən heç nə əsirgəməmişdir. Qeyd olunan ərazilərdə enerji infrastrukturunun təşkil olunması ilə əlaqədar geniş şəkildə işlərin reallaşdırılması, bərpa edilən enerji üzrə əsas potensialın aşkar edilməsi və həyata keçirilməsi imkanları mövcuddur. İşğaldan azad edilən regionların hidroenerji, külək, günəş, bioenerji və geotermal enerji kimi bərpa edilən güclü enerji resursları vardır və onların potensialının müəyyən edilməsi üçün ölçü müşahidə stansiyasının quraşdırılaraq, texniki imkanlar və iqtisadi faydalılığının qiymətləndirilməsi tədbirləri həyata keçirilməkdədir [3]. Bu resursun təsərrüfat və kommersiya dövriyyəsinə cəlb olunması, ümumi

olaraq iqtisadiyyatın investisiya imkanından faydalı istifadənin yaranmış yeni reallıqlara uyğun formada modelləşdirilməsi, əlavə dəyər yaradan iqtisadi sahələrin perspektiv imkanlarından yararlanması mühüm məsələlər kimi qeyd olunurlar. Lakin bu proseslərin maliyyələşməsi, qeyd olunan layihələrin zamanında reallaşdırılması davamlı formada investisiya resurslarını və cəlb edilməsini şərtləndirir. Ərazinin iqtisadi sahələr inkşaf etdikcə, bir tərəfdən artıq məhsuldarlığı olan əlavə dəyər formalaşdıran iqtisadi sahələrin inkişafının tezləşəcəyini gözlədiyimiz kimi, başqa tərəfdən də bu sahə və istiqamətlərdə yeni investisiya resurslu mənbələrin reallaşdırılacağını proqnozlaşdırmaq olar. Bunu ərazidə aparılan bərpa işlərinin gündən-günə artması da göstərir, məsələn, işğaldan azad edilmiş sahələrdə inventarlaşmaların aparılması, minalardan təmizlənərək təftiş olunması, vacib infrastruktur şəbəkələrinin yaradılması, operativ tədbirlərin həyata keçirilməsini bunlara misal kimi göstərmək olar [4].

"Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 20.11.2020-ci il tarixli Sərəncamı"na əsasən dəmiryolu xəttinin inşasına başlanılmış və bu nəqliyyat infrastrukturu ərazidə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsinə, yükdaşıma dövriyyələrinin artırılmasına səbəb olacaqdır [5].

Digər bir mühüm nəqliyyat infrastruktur layihəsini də qeyd etmək olar, bu, Füzuli-Şuşa beynəlxalq magistral avtomobil yoludur və həmin layihənin reallaşdırılması üçün vacib investisiyalar, ilk əvvəl respublikamız tərəfindən istiqamətləndirilib, amma yaxın zamanda digər nəqliyyat-logistika layihələrinə uyğun investisiya mənbələrinin formalaşdırılacağını, daxili investisiyalarla birgə, xarici investisiyalarında cəlb edilməsini proqnozlaşdırmaq olar. Belə ki, ərazinin sosial-iqtisadi inkişafının tezləşdirilməsi ilə bir çox iqtisadi sahələrin, həmçinin beynəlxalq turizmin intensiv inkişaf etdirilməsinə şərait yaradacaqdır. Bundan başqa, aqrar sahənin ərazidə ənənəvi potensialından səmərəli istifadə olunması bərpa edilməklə yanaşı, yüksək texnologiya əsaslı aqrar-sənaye kompleksinin inşa edilməsi, aqroparklar, xüsusi iqtisadi zonalar, sənaye klasterləri, turizm-rekreasiya zonalarının inşası istiqamətində investisiya resursu imkanlarının artacağını və daha fəal xarakter alacağını proqnozlaşdırmaq olar.

**3. Qarabağ zonasında bərpa proqramlarının reallaşdırılması üçün mövcud yerli investisiya potensialından istifadə xüsusiyyətləri**

Qeyd etməliyik ki, investisiya potensialının formalaşdırılması və çoxaldılması, daha çox real sərmayəçilərin regiona gəlməsinin aktivləşdirilməsi, ixtisaslaşdırılan beynəlxalq investisiya və maliyyə şirkətlərinin sərəncamına müəyyən investisiya-innovasiya proyektlərinin əsaslandırılaraq bəyan edilməsi böyük xeyir verə bilər. Bu məqsədlə Qarabağ zonasında mövcud olan böyük və məhsuldar olan təbii və iqtisadi qüvvənin daha obyektiv qiymətləndirməyə uyğun gələn tədbirin görülməsi mühüm hesab olunur. İşğaldan geri qaytarılmış zonaların özünüinkişafetdirmə xüsusiyyətinin dərindən mənimsənilməsi, fundamental araşdırmaların aparılması, mövcud investisiya resurslarının obyektiv olaraq dəyərləndirilməsi, bu resurslardan əlverişli istifadəni təchiz edə biləcək vəziyyətin yaradılması, vacib fəaliyyət mexanizminin və alətlərinin tətbiq olunması vasitələri görülməlidir. Qarabağ zonasında respublikamızın meşə ərazisinin 25 % potensialı, həmçinin su ehtiyatlarımızın yarısı cəmlənmişdir, digər tərəfdən keçmiş SSRİ zamanında ölkəmizin kənd təsərrüfatı məhsullarının təqribən 40 %-i bu zonalarda istehsal olunurdu. Ağdam və Füzuli ərazilərində taxılçılıq və pambıqcılıq, üzümçülük, Cəbrayılda və Zəngilanda üzümçülük, Qubadlıda, Laçın və Kəlbəcərdə isə heyvandarlığın inkişaf etdirilməsi üçün hər bir resurslar olmuşdur. Bu ərazilərdə xeyli kənd təsərrüfatı məhsulu emal edən orta emal şirkətləri fəaliyyət göstərirdi. Çoxlu sayda üzüm məhsulu istehsal edən şərab zavodu və pambıq məhsullarını emal edən pambıq zavodları var idi. Amansız düşmən bunları yer üzündən silmiş və heç nə qalmamışdır. Gözlənilən idi ki, bir çox iqtisadçı alimlər işğaldan azad edilmiş zonalarda yüksək potensialın mövcudluğunu bildirirlər. Bu cür fikir yaranmışdır ki, Qarabağ ərazisində güclü iqtisadi və təbii resursların mövcudluğu, ehtiyatların olması, həm də müvafiq fəaliyyət vəziyyətinin güzəştli şərtlər daxilində və bürokratiyasız olaraq reallaşdırılması yerli və xarici investorlar üçün maksimal dərəcədə cəlbedicilik kəsb edəcəkdir. Tədqiqatçı E.Süleymanova görə: "Bu ərazilərin aqrar istehsal və ixrac potensialı kifayət qədər böyükdür. Xüsusilə, Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan əraziləri böyük turizm potensialına malikdir" [6].

İşğal edilmiş ərazilərin faşist ermənilərdən boşaldılması milli iqtisadiyyatımızın potensialını ar-

tırmaqla bərabər, iqtisadiyyatımızın investisiya gücünün, həm də rəqabətin gücləndirilməsinə, yüksək texnologiyalar əsaslı iqtisadi sahələrin formalaşdırılmasına, möhkəm iqtisadi artım qaynaqlarının formalaşdırılmasına, milli gəlirin artırılmasına, münasib iş yerlərinin yaranmasına, sosial-iqtisadi çətinliklərin həll olunması üçün maliyyə mənbələrinin təşkilinə və qeyd olunduğu kimi əraziyə daha çox maliyyə mənbələrinin cəlb olunmasına şərait yaradacaqdır. İqtisadçı-ekspert V.Qasımlı qeyd edir ki: "Qarabağın inkişaf strategiyasının reallaşdırılması nəticəsində, respublika iqtisadiyyatının investisiya cəlbediciliyi çoxalacaq və yeni iqtisadi artım drayverləri formalaşacaqdır" [7]. Bu isə sahibkarlığın inkişaf etdirilməsi, ərazidə biznes mühütinin səmərəli şərtlərlə reallaşdırılması baxımından mühüm hesab olunur. Ərazinin iqtisadi fəaliyyət strukturunun tədqiqi göstərir ki, burada iqtisadiyyatda çoxşaxəliliyin təmin olunması üçün yetəri qədər güclü resurs potensialı mövcuddur. Professor T.N.Əliyev qeyd edir: "İşğaldan azad edilmiş rayonlarda sahibkarlığın təşkil olunması, idarə olunması və inkişafı üçün müasir dövrün tələbinə cavab verən, qabaqcıl beynəlxalq praktikanı özündə ehtiva edən, sistemli yanaşmalara əsaslanan kompleks xüsusiyyətli hüquqi, təşkilatı-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və reallaşdırılması tələb olunur." [8].

Digər bir tərəfdən, Qarabağ zonasının bərpası proseslərinin tezləşdirilməsi, bununla əlaqədar əraziyə maliyyə və investisiya resurslarının intensivləşdirilməsi nəzərə alınan bərpa proqramlarının daha əlverişli şəkildə reallaşdırılmasına şərait yaradacaqdır. Bu isə özlüyündə işğaldan azad edilmiş torpaqlara yeni ruh verəcək, fəal məşğulluq proqramları icra ediləcək, region iqtisadiyyatının bərpa və yenidənqurulması respublika iqtisadiyyatının inkişafına əlavə imkanlar formalaşdıracaqdır [9]. Lakin qeyd olunduğu kimi, bunların reallaşdırılması üçün respublika iqtisadiyyatının investisiya imkanı möhkəmləndirilməsi və analoji resursun daha fəal formada postkonflikt dövrün tələbinə uyğun olaraq bərpa prosesinin aparıldığı sektorlara cəlb olunması təmin edilməlidir. Qarabağ zonasında dirçəliş tədbirləri və bərpa layihələrində xarici dövlətlər, beynəlxalq qurumlar və təşkilatların ayrı-ayrı istiqamətli yardımlarından, investisiya şirkətlərinin yatırımlarından, səmərəli və güzəştli kredit və qrantlardan istifadə edilməsi məsələsi xüsusi diqqətdə saxlanılmalıdır [9].

Qeyd olunmalıdır ki, işğaldan azad edilmiş zonaların bərpası regional xüsusiyyətlər və yanaşmalar nəzərdə tutulmaqla daha mükəmməl formada öyrənilərək və əsaslandırılaraq, müvafiq layihə, proqram formasında həyata keçirilməlidir. Bu məqsədlə bir çox ünsürlər xüsusi diqqətdə saxlanılaraq, ilk növbədə, respublikanın optimal işğaldan sonra olan siyasəti reallaşdırılmalıdır. Respublika nümunəsində Qarabağ zonasında apardılan sosial-iqtisadi bərpa siyasəti bundan sonra intensiv faza müstəvisinə keçir və hər bir istiqamətdə geniş həcmli işlər həyata keçirilməkdədir. Dövlət və cəmiyyət, məcburi köçkünlərlə respublika rəhbərliyi arasında əlaqənin yaradılması, birliyin təmin olunması işğal olunmuş zonaların daha tez bərpa olunmasında vacib rol oynaya bilər. Bu zaman dövlət və strukturları daha etibarlı və operativ, həm də münbit istifadə üçün mobilizasiya olunmaqda az çətinliklərlə üzləşərlər. Müharibədə həlak olmuş şəhid və mülki əhalinin ailə üzvlərinin sosial müdafiə tədbirlərinin möhkəmləndirilməsi və dövlət qayğısı mexanizmlərinin əhali arasında məmnunluq hissi ilə qarşılanması əsas şərtlərdəndir və Qarabağ zonasının inkişaf etdirilməsində hər bir resursun birləşdirilməsi proseslərində bu ünsürün vacib mənəvi və siyasi dəstəyi mövcuddur.

Məlum olduğu kimi, ərazilərin minalardan təmizlənməsi, habelə Böyük Qayıdışın təmin edilməsi məqsədilə başqa təhlükəsizlik tədbirlərinin hərtərəfli şəkildə həyata keçirilməsi, işğaldan azad edilmiş ərazilərin pasportlaşdırılması, həmin ərazilərin idarəetmə mexanizmlərini yaratmaq və gücləndirmək tədbirləri görülməlidir. Bundan başqa, narahatlıq doğuran məqamlardan biri də işğal və vəhşilikdən dəyən zərərin dəqiqliklə hesablanması və qiymətləndirilməsi prosedurların başa çatdırılması, müvafiq hüquq çərçivəsində beynəlxalq məhkəmələrə çıxışın qarşılanmasıdır.

Bu problemlərlə bərabər, postkonflikt ərazilərin bərpası, eləcə də dirçəldilməsi üzrə layihələrin işlənib hazırlanması, müvafiq dövlət orqanları tərəfindən əlaqələndirilərək razılaşdırılması, ərazilərə məcburi köçkünlərin böyük qayıdışı məqsədilə hazırlıq mərhələlərinin və qrafiklərinin tərtib edilməsi, adekvat tədbirlərin görülməsi, bölgələrdə institusional bazanın formalaşdırılması, həmçinin, regionun sosial-iqtisadi inkişafı məqsədilə maliyyə təminatı mexanizmlərinin, habelə investisiyaların cəlbi mühitinin bərqərar edilməsi vacib şərtlərdən sayılır. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı prosesl-

rinə cəlb edilmiş yerli və xarici şirkətlərin, biznes subyektlərinin fəaliyyətinin təşkili məqsədilə şəffaf və stimullaşdırıcı xarakterli investisiya-innovasiya mühitinin qarşılanması tədbirləri görülməli, bu yönümdə beynəlxalq əməkdaşlıq strategiyasının işlənib hazırlanması, xarici sərmayələrin cəlbi üçün daha effektiv mexanizmlərin tətbiqi vacibdir.

Bundan başqa, Qarabağ bölgəsində və ətraf azad edilmiş rayonlarda böyük miqyaslı layihələrin reallaşdırılması iri məbləğdə maliyyə resursları, habelə investisiya yatırımı tələb edir. Artıq məlum olduğu kimi, 2021-ci il ərzində dövlət büdcəsindən həmin məqsədlərlə bağlı 2,2 mlrd. manat vəsait ayrılıb [10]. Bununla yanaşı, Qarabağ Dirçəliş Fondu təsis edilib və postkonflikt ərazilərdə reallaşdırılacaq önəmli layihələr hazırlanmaqda və reallaşdırılmaqdadır [11]. İnvestisiya potensialından istifadə baxımından yanaşdıqda, birmənalı olaraq qeyd etməyi lazım bilirik ki, Qarabağda böyük imkanlar vardır, xüsusən də təbii ehtiyatlar, o cümlədən də filiz və qeyri-filiz ehtiyatları hesabına geniş emal şəbəkəsi şirkətlərinin yaradılması və əlavə dəyər gətirən mənbələrin formalaşdırılması mümkün sayılır. Kəlbəcər rayonunda ənənəvi heyvandarlıqla yanaşı, dağ-mədən sənayesinin təkamül etdirilməsi məqsədilə güclü filiz, habelə qeyri-filiz yataqları mövcuddur. Kəlbəcər, Şuşa və Laçın inzibati rayonlarında isə çox möhtəşəm turizim-rekreasiya kompleksləri yaratmaq və dünyanın ən cazibədar turizm regionlarından birinə çevirmək potensialı mövcuddur. İnvestisiya potensialının artırılması baxımından yanaşdıqda aydın olur ki, Qarabağ regionunun tamamilə yenidən qurulacağı, bunun üçün "tikinti bumu"nun qaçılmazlığı amilini də diqqətdə saxlamaq gərəkdir. Digər tərəfdən, işğaldan azad edilmiş ərazilərdə "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin önəmliyi intensiv investisiya kanallarının, o cümlədən də xaricdən cəlb olunan investisiya axınlarının olması vacibliyini ön planda saxlamaqdır [12].

### 4. İşğaldan azad olunmuş iqtisadi rayonlarda sosial-iqtisadi inkişafın əsas prioritetləri və onların reallaşdırılması mexanizmləri

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən işğaldan azad olunmuş iqtisadi rayonlarda sosial-iqtisadi inkişafın əsas prioritetləri aşağıdakı kimi müəyyən edilmişdir[13]:

**Qarabağ iqtisadi rayonu üzrə:**

- istehsal, emal və xidmət sahələri yaratmaq və ya genişləndirmək;
- aqrar sektorda emal müəssisələri yaratmaq və mövcud emal müəssisələrini modernləşdirmək və ya genişləndirmək;
- aqropark və fermer təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- ətlik və südlük istiqamətində cins iribuynuzlu və digər heyvandarlıq kompleksləri yaratmaq və ya genişləndirmək;
- müasir suvarma sistemləri və s. müasir texnologiyalar tətbiq etməklə əkinçilik, intensiv bağçılıq, habelə toxumçuluq-tingçilik təsərrüfatları yaratmaq və ya genişləndirmək;
- qurudulmuş və dondurulmuş meyvə-tərəvəzlər istehsalı, qüvvəli yem, habelə ət kəsimi müəssisələri yaratmaq və ya genişləndirmək;
- baramaçılıq və üzümçülük təsərrüfatları yaratmaq;
- baramaqurutma, yun və dəri qəbulunun məntəqələrini yaratmaq və ya genişləndirmək;
- startap layihələrini dəstəkləmək;
- şərabçılıq və mineral su müəssisələri yaratmağı dəstəkləmək;
- turizmin inkişafı üzrə layihələri dəstəkləmək;
- logistik mərkəz, soyuducu və taxıl anbarı kompleksləri, yaşıl market və fermer mağazaları yaratmaq və ya genişləndirmək;
- innovativ texnologiyalara əsaslanan istehsal, emal və xidmət sahələri üzrə (yüngül, yeyinti, kimya, maşınqayırma sənayesi, tibbi, təhsil və məişət xidməti və s.) müəssisələr yaratmaq və ya genişləndirmək;
- dağ-mədən sənayesinin inkişafına yönəlik layihələri dəstəkləmək;
- ənənəvi və milli xarakterli qədim xalq sənətlərini inkişaf etdirmək məqsədilə xalçaçılıq, suvenir istehsalı kimi sahələri dəstəkləmək;
- kütləvi informasiya vasitələrinin inkişafına yönəlik layihələri dəstəkləmək;
- rəqəmsal iqtisadiyyat, internet, telekommunikasiya xidmətləri üzrə inkişaf layihələrini dəstəkləmək;
- bərpa olunan enerjinin tətbiqinə, bu sahədə xidmətlərin göstərilməsinə, avadanlıq və qurğular istehsalının reallaşdırılmasına yönəlik layihələri dəstəkləmək;
- ekoloji tarazlığı təmin edən, eləcə də tullantıların təkrar xammala çevrilməsi layihələrini dəstəkləmək;
- qeyri-neft sektoru üzrə sosial-iqtisadi inkişaf yönümlü biznes layihələrini dəstəkləmək və s..

**Şərqi Zəngəzur iqtisadi rayonu üzrə:**

- istehsal, emal və xidmət sahələri yaratmaq və ya genişləndirmək;

- aqrar sektorda emal müəssisələri yaratmaq və mövcud emal müəssisələrini modernləşdirmək və ya genişləndirmək;

- aqropark və fermer təsərrüfatları yaratmaq və ya genişləndirmək;

- ətlik və südlük istiqamətində cins iribuynuzlu və s. heyvandarlıq kompleksləri yaratmaq və ya genişləndirmək;

- müasir suvarma sistemləri və s. müasir texnologiyalar tətbiq etməklə əkinçilik, toxumçuluq-tingçilik, intensiv bağçılıq təsərrüfatları yaratmaq və ya genişləndirmək;

- qurudulmuş və dondurulmuş meyvə-tərəvəzlər istehsalı, qüvvəli yem, habelə ət kəsimi müəssisələri yaratmaq və ya genişləndirmək;

- baramaçılıq və üzümçülük təsərrüfatları yaratmaq;

- baramaqurutma, yun və dəri qəbulunun məntəqələrini yaratmaq və ya genişləndirmək;

- startap layihələrini dəstəkləmək;

- şərabçılıq və mineral su müəssisələrini yaratmağı dəstəkləmək;

- turizmin inkişafı üzrə layihələri dəstəkləmək;

- logistika mərkəzi, soyuducu və taxıl anbarı komplekslərini, yaşıl market və fermer mağazalarını yaratmaq və ya genişləndirmək;

- innovativ texnologiyalara əsaslanan istehsal, emal və xidmət sahələri üzrə (yüngül, kimya, yeyinti, tibb, maşınqayırma sənayesi, məişət xidməti və təhsil və s.) müəssisələr yaratmaq və ya genişləndirmək;

- dağ-mədən sənayesinin inkişafına yönəlik layihələri dəstəkləmək;

- ənənəvi və milli xarakterli qədim xalq sənətlərini inkişaf etdirmək üçün xalçaçılığı, suvenir istehsalını və s. sahələri dəstəkləmək;

- kütləvi informasiya vasitələri üzrə inkişaf layihələrini dəstəkləmək;

- rəqəmsal iqtisadiyyat, internet, telekommunikasiya xidmətləri üzrə inkişaf layihələrini dəstəkləmək;

- bərpa oluan enerjinin tətbiqinə, bu sahədə xidmətlərin göstərilməsinə, avadanlıq və qurğular istehsalının reallaşdırılmasına yönəlik layihələri dəstəkləmək;

- ekoloji tarazlığı təmin edən, eləcə də tullantıların təkrar xammala çevrilməsi layihələrini dəstəkləmək;

- qeyri-neft sektoru üzrə sosial-iqtisadi inkişaf yönümlü biznes layihələrini dəstəkləmək və s.

İşğaldan azad edilmiş bölgələrimizin bərpası məqsədilə dövlət başçısı tərəfindən 2021-ci ilin 28 mayında verilmiş fərmanla 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı yaradılıb. Sənaye Parkının prioritet istiqamətlərindən biri kimi tikinti materiallarının istehsalı, aqrar sahə məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, yem, gübrə istehsalının və emalının, həmçinin, xidmət sahələrinin inkişafı, soyuducu kameraların və s. bu kimi məsələlərin təşkili müəyyənləşdirilib. Park yaradılandan bəri, orada işlərin görülməsi mərhələli, plana uyğun şəkildə reallaşdırılır.

İlk olaraq Parkın ərazisinin tam olaraq minalardan, habelə hərbi sursatlardan tam təmizlənməsi həyata keçirildi. Rezidentlərin sənaye parkında fəaliyyətə başlaması üçün parkda bütün lazımi şəraitin yaradılmasına yönəlik istiqamətdə işlər görülməkdədir. Belə ki, burada çalışacaq heyətin rahatlılığının təmin edilməsi üçün sənaye parkında səfərbərlik şəhərciyi salınıb. Mobil şəhərciyin ərazisində konteyner tipli 8 ədəddən ibarət yataqxananın (40 nəfərlik), tibb məntəqəsinin, 2 ədəd ofisin, ərzaq və təsərrüfat marketlərinin, aptekin, yeməkxana və camaşırxananın, idman meydançasının və 2 ədəd sanitar qovşağının inşası təmin olunub. Sənaye parkının ərazisində inşaat aparılacaq sahənin su ilə təminatı məqsədilə 350 metr dərinliyində artezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluqda elektrik xətti çəkilmiş və 630 kilovoltluq transformator məntəqəsinin quraşdırıldığı yer alıb. Belə ki, işğaldan azad edildikdən sonra Ağdam şəhəri üzrə ilk elektrik enerjisi, habelə su təchizatı sisteminin Ağdam Sənaye Parkının ərazisində quraşdırılması təqdirəlayiq haldır. Sənaye parkının işıqlandırılması mədsədilə günəş enerjisindən qidalanan panellərin istifadəsi təmin edilib.

Artıq sənaye parkının rezidentlərinin onlar üçün ayrılmış ərazilərdə torpaq işləri aparılır, avqust ayından etibarən inşaat işlərinə başlanması planlaşdırılıb. 190 hektar əraziyə malik Ağdam Sənaye Parkında hazırda 9 rezidenti fəaliyyət göstərir və bu rezidentlərin sənaye parkında 50 milyon manatdan artıq investisiyalaşmanın həyata keçirilməsi və 1000-dən çox daimi iş yerinin yaradılması proqnozlaşdırılır. Bundan əlavə, İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə Ağdam Sənaye Parkının rezidenti kimi fəaliyyət göstərmək üçün sahibkarlar tərəfindən təqdim olunan investisiya dəyərinin 60 milyon manatdan artıq olan 15 layihəsi nəzərdən keçirilir və həmin layihələrin reallaşdırılmasının nəticəsi olaraq 800 nəfərin daimi işlə təmin edilməsi gözlənilir.

Azad edilmiş ərazilərdə yaradılmış Ağdam Sənaye Parkının, eləcə də Cəbrayıl rayonunda “Araz Va-

disi İqtisadi Zonası" Sənaye Parkının tez bir zamanda dolacağı proqnoz edilir.

Qeyd etdiyimiz kimi, Ağdam Sənaye Parkında hazırda 9 rezidenti mövcuddur və qeydiyyatı keçirilmiş bu layihələr üzrə şirkətlərin tikintisinə yaxın vaxtlarda başlanılması planlaşdırılır. İlk şirkətin (ilk istehsala başlanılması) fəaliyyətə başlaması isə 2024-2025-ci illərə təsadüf edəcəkdir.

Dövlət başçısının 2021-ci ilin 4 oktyabrında imzaladığı fərmanla Cəbrayıl rayonunda 200 ha ərazini əhatə edən "Araz Vadisi İqtisadi Zonası" adlı Sənaye Parkı yaradılıb. Sənaye Parkının ərazisində logistika və ticarət mərkəzinin, anbar komplekslərinin, topdan və pərakəndə satış obyektlərinin, TIR parkının, gömrük, yanacaqdoldurma, avtomobil və s. texnikaların təmiri məntəqələrinin inşası planlaşdırılır. Məhz həmin sənaye parkı üzrə Ağdam Sənaye Parkında olduğu tək ilk olaraq ərazi minalardan, habelə partlamamış hərbi sursatlardan tamamilə təmizlənib. Hazırda Sənaye Parkının 1 hektarı rezidentlərin istifadəsi məqsədilə mobil tipli şəhərciyin salınması ilə diqqəti cəlb edir. Yaxın günlər ərzində şəhərciyin salınması işlərinin başa çatdırılacağı nəzərdə tutulub.

Ölkə sahibkarlarının "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına marağı çox böyükdür. Sənaye parkı üzrə artıq bir sahibkarlıq subyekti ("KAMAZ Lizinq Azərbaycan" MMC) rezidentlik statusuna layiq görülüb. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə 10-dan çox layihədə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti olmaq üçün nəzərdən keçirilir. Sözügedən layihələrdə dezinfeksiyaedici, maye yuyucu, ağardıcı məhsullar, dəmir əritmə və dəmir məmulatları, pambıq iplik, beton boru, kirəmit və kərpic istehsalının, texniki xidmət mərkəzinin təşkilinin və yük avtomobillərinin yığımının, TIR parkının və ofisin təşkili layihələri diqqət mərkəzindədir.

Digər sənaye parklarında olduğu kimi, Ağdam, habelə "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları üzrə sahibkarların rahatlıqla və maneəsiz fəaliyyəti məqsədilə əlverişli biznes və investisiya mühiti yaradılıb. Hazırda ölkədə fəaliyyəti təmin edilən sənaye parklarında tətbiq olunan vergi və gömrük güzəştlərinin Ağdam və "Araz Vadisi İqtisadi Zonası"nda tətbiq edilməsi proqnoz edilir. Belə ki, parkların rezidentlərinin qeydiyyata alınması tarixindən 10 il müddətinə onlar əmlak vergisi, torpaq vergisi, gəlir və ya mənfəət vergisi, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular idxal edilərkən ƏDV və 7 il müddətinə gömrük rüsumları ödəməyəcəklər. Həmçinin rezidentlər dövlət vəsaitinin hesabına hazır infrastruktur sistemi ilə təmin olunacaqlar.

Bundan əlavə, qeyd etmək istərdik ki, ölkə başçısı tərəfindən 2021-ci ilin 10 dekabrında işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafı sürətləndirməklə bağlı bəzi tədbirlər barədə imzalanan Sərəncam əsasında bu ərazilərdə özəl təşəbbüsləri stimullaşdırmaq, investisiyaların təşviqi mexanizmlərini təkmilləşdirmək, həmin ərazilərdə təsərrüfat fəaliyyəti həyata keçirən sahibkarlara xammal və materialların idxala görə gömrük və vergi güzəştləri müəyyən etmək, istehsal fəaliyyəti ilə məşğul sahibkarlar üçün kommunal xidmətləri üzrə güzəştlər müəyyənləşdirmək, sahibkarların maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək və bu istiqamətdə lazımi dövlət dəstəyini gücləndirmək və s. kimi əlavə güzəştlər də vermək planlaşdırılır.

Beləliklə, tez bir zamanda işğaldan azad olunmuş ərazilərdə, o cümlədən də Ağdamda sahibkarlara yönəlik əlavə güzəşt mexanizmləri hazırlanacaq və bu ərazilərin investisiya cəzbediciliyi artırılacaqdır.

Artıq bu regionda bir sıra layihələrə start verilib, Füzuli-Şuşa beynəlxalq avtomobil magistralının işə salınması, həm də Füzuli və Zəngilan rayonları üzrə beynəlxalq aeroportların inşası, dəmir yolu xətlərinin bərpası, digər yeni yolların çəkilməsi, infrastruktur obyektləri şəbəkəsinin yaradılması reallaşıb. Bütün bunlar Qarabağ regionunda və Şərqi Zəngəzurda investisiya potensialından səmərəli istifadə səviyyəsini xeyli yüksəltməyə imkan verəcək. Hesab edirik ki, ölkəmizdə strateji əhəmiyyətə malik bu regionların investisiya potensialını artırmaq üçün güclü resurs təminatının və real imkanların mövcudluğu şübhə doğurmur. Yaxın illərdə başlıca prioritet bu cür məsələlər kontekstində sistemli və ardıcıl olaraq yüksək səviyyədə reallaşdırılmasından və ölkəmiz üçün əhəmiyyət kəsb edən Qarabağ və Şərqi Zəngəzur regionlarında sağlam investisiya mühitinin formalaşdırılmasından, sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının təmin edilməsindən və investisiya axınlarının intensivləşdirilməsinə şərait yaratmaqdan ibarət olmalıdır.

## NƏTİCƏ

İşğaldan azad olunmuş bölgələrin sosial-iqtisadi profilinin təhlili nəticəsində müəyyən olundu ki, bu regionların iqtisadiyyatının inkişaf etdirilməsi kontekstində çox böyük potensialı mövcuddur. Azad

olunmuş ərazilərin ənənəvi sosial-iqtisadi inkişaf istiqamətlərini nəzərə almaqla istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi gələcəkdə sahibkarlığın bu yöndə intensiv inkişafını tələb edir. Bunun üçün isə sahibkarlığın daha güzəştli şərtlərlə maliyyələşdirilməsi şərtləri meydana çıxır.

Lakin qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesinin uzun zaman alması həmin ərazilərin potensialından aqrar-sənaye kompleksinin məqsədləri və ixrac potensialını artırmaq məqsədi ilə istifadəsi də uzunmüddətli fəaliyyətin və resursların tələb olunacağı anlamına gəlir. Bu ərazilərdə istehsal və xidmət sahələrinin inkişaf etdirilməsi isə müasir innovativ alətlərdən istifadəni tələb edir ki, bu isə istər-istəməz güzəştli maliyyə resurslarına çıxış imkanlarının tapılmasını gündəmə gətirib.

Bölgələrin iqtisadiyyatının müvafiq sahələrinin inkişaf etdirilməsi prosesində həmin regionlar üzrə "ağıllı kənd" və " ağıllı şəhər" yanaşmalarını nəzərə almaq, istehsalı və xidmət sferasını ən müasir texnologiyalar əsasında formalaşdırmaq və inkişaf etdirmək vacibdir. Qeyri-neft ixracı potensialını artırmaq məqsədilə bu ərazilərdə kiçik ailə-fermer təsərrüfatlarını, iri taxılçılıq, meyvəçilik və tərəvəzçilik təsərrüfatları yaratmaq mümkündür. Həmin bölgələr üzrə ekoloji təmiz xammal potensialı əsasında yun, gön-dəri, konserv və ət emalı müəssisələri yaratmaq da onların ixrac imkanlarını xeyli artıra bilər. Araşdırmaların nəticəsi kimi, mövcud təbii-iqlim şəraiti imkanları nəzərə alınmaqla, regionlarda intensiv arıçılıq təsərrüfatları yaratmaq və yüksək ixrac potensialını təmin edə bilən təbii bal istehsalı və ixracı təşkil etmək təklif olunur.

İşğaldan azad olunmuş ərazilərdə sahibkarların iri, orta və kiçik həcmli investisiya layihələrinin imkanları qiymətləndirilərkən, həyata keçirilən hərrac və tenderlərdə şəffaflığın və hesabatlılığın təmin edilməsi son dərəcə vacibdir.

İşğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə və iqtisadiyyatın yenidən qurulması və bərpasına istər yerli və istərsə də əcnəbi sahibkarların cəlb edilməsi məqsədilə mövcud qanunvericilikdə zəruri stimullaşdırma mexanizmlərinin beynəlxalq standartlara uyğun təsbit olunmasına dövri olaraq yanaşılmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Müzəffərli, N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 2010. - 270 s.*

*2. Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri: [Elektron resurs] / URL: https://mod.gov.az/az/ermenistanin-herbi-tecavuzunun-neticeleri-statistika-412/.*

*3. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji üzrə dəqiq potensialın hesablanması sahəsində görüləcək işlər müzakirə edilib. 08-12-2020. AR Energetika Nazirliyi: [Elektron resurs] / URL: https://minenergy.gov.az/az/xeberler-arxivi/isgaldan-azad-edilmis-erazilerde-berpa-olunan-enerji-uzre-deqiq-potensialin-hesablanmasi-sahesinde-gorulecek-isler-muzakire-edilib.].*

*4. İşğaldan azad olunmuş rayonlarda inventarlaşdırma işləri davam etdirilir. 31.01.2021: [Elektron resurs] / URL: https://www.economy.gov.az/article/i-shgaldan-azad-olunmush-rayonlarda-inventarlashdirma-ishleri-davam-etdirilir/31508*

*5. Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 24 noyabr 2020-ci il.*

*6. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? 31.10.2021: [Elektron resurs] / URL: http://www.iqtisadiislahat.org/news/isgal_olunmus_erazilerin_azad_edilmesi_azerbaycan_iqtisadiyyatina_ne_ved_edir-1059.*

*7. Qasımlı, V. Qarabağ Azərbaycanda iqtisadi artımın yeni drayveri olacaq. 24 noyabr 2020: [Elektron resurs] / URL: https://vergiler.az/news/economy/10954.html.*

*8. Əliyev, T.N. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın inkişaf istiqamətləri. 28.12.2020: [Elektron resurs] / URL: http://economics.com.*

*9. Musayev, A.F. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir: [Elektron resurs] / 27.01.2021. // A.Musayev, M.Zeynalov URL: www.science.gov.az/news/open/15789.*

*10. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il: [Elektron resurs] / URL: https://president.az/articles/49859.*

*11. Qarabağ Dirçəliş Fondunun strateji və fəaliyyət planları hazırlanacaq. 12 Mart 2021: [Elektron resurs] / URL: https://report.az/daxili-siyaset/qara-*

*bag-dircelis-fondunun-strateji-ve-fealiyyet-planla-ri-hazirlanacaq/.*

*12. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. / – Bakı şəhəri, 19 aprel 2021-ci il.*

*13. https://www.economy.gov.az/az*

**XÜLASƏ**

Məqalədə işğaldan azad edilmiş Azərbaycan ərazilərində erməni vandalizminin izləri araşdırılmış, Qarabağ regionunda bərpa proseslərinin aparılması üçün tələb edilən maliyyə resurslarının miqyası müəyyən edilmişdir. Müəllif tərəfindən region ərazisinin bərpa proqramlarının reallaşdırılması üçün mövcud yerli investisiya potensialından istifadə xüsusiyyətləri aşkara çıxarılmış, işğaldan azad olunmuş iqtisadi rayonların sosial-iqtisadi inkişafının əsas prioritetlərinə uyğun olaraq, onların reallaşdırılmasının icra mexanizmləri əsaslandırılmışdır.

**Açar sözlər:** *işğaldan azad edilmiş Azərbaycan əraziləri, Qarabağ regionu, daxili resurs potensialı, bərpa proqramları, sosial-iqtisadi inkişafın əsas prioritetləri*

**Akbarov Tale Balaga oglu,**
**Associate Professor of Baku Business University,**

**Internal resource potential in the liberated territories of Azerbaijan: analysis, evaluation and implementation**

**SUMMARY**

The article examines the traces of Armenian vandalism in the territories of Azerbaijan freed from occupation, and determines the scale of financial resources required for carrying out restoration processes in the Karabakh region. According to the author, the characteristics of using the existing local investment potential for the realization of regional territory restoration programs have been revealed, in accordance with the main priorities of the socio-economic development of the economic regions freed from occupation, the implementation mechanisms of their realization have been substantiated.

**Keywords:** *territories of Azerbaijan freed from occupation, Karabakh region, internal resource potential, recovery programs, main priorities of socio-economic development.*

**Акбаров Тале Балага оглы,**
**Доцент Бакинского Университета Бизнеса,**
**к.э.н.**

**Внутренний ресурсный потенциал на освобожденных территориях Азербайджана: анализ, оценка и реализация**

**РЕЗЮМЕ**

В статье исследуются следы армянского вандализма на освобожденных от оккупации территориях Азербайджана, определяются масштабы финансовых ресурсов, необходимых для проведения восстановительных процессов в Карабахском регионе. Автором выявлены особенности использования имеющегося местного инвестиционного потенциала для реализации региональных программ восстановления территорий, в соответствии с основными приоритетами социально-экономического развития освобожденных от оккупации экономических районов, была обоснована механизмов их реализация.

**Ключевые слова:** *территории Азербайджана, освобожденные от оккупации, Карабахский регион, внутренний ресурсный потенциал, восстановительные программы, основные приоритеты социально-экономического развития.*

UOT: 338.2

# KORPORATİV SOSİAL MƏSULİYYƏT FƏALİYYƏTLƏRİNİN ŞİRKƏT İMİCİNƏ TƏSİRİ

**ÜLKƏR ZEYNALOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: ulker.zeynalova95@gmail.com*

## GİRİŞ

Korporativ sosial məsuliyyət hər hansı bir təşkilatın - mənfəət yönümlü biznesin, ictimai qurumların və qeyri-hökumət təşkilatlarının həm daxildə, həm də xaricdə bütün maraqlı tərəflərə qarşı "etik" və "məsuliyyətli" davranışıdır. Korporativ sosial məsuliyyət adətən özəl təşkilatlar üçün istifadə olunur və ədəbiyyatda adətən "korporativ sosial məsuliyyət" kimi xatırlanır. Şirkətin sosial məsuliyyəti təkcə şirkətlərin biznes fəaliyyətlərində öz şəxsi maraqlarını (mənfəətlərini) maksimuma çatdırmaq deyil, həm də biznes fəaliyyətindən birbaşa və ya dolayı təsirə məruz qalan bütün maraqlı tərəflərin (Steykholder) maraqlarını nəzərə almaq və qorumaq deməkdir [1].

Bu gün kəskin rəqabət mühiti səbəbindən istehlakçının biznesdən və ya markadan gözləntiləri rasional (məhsul performansı) və ya emosional (brend şəxsiyyəti) elementlərə malikdir. İnsanlar hazırda təşkilatların cəmiyyətdəki yerini şübhə altına alır və onların yaxşı "korporativ vətəndaş" olduqlarının göstəricilərini axtarırlar. Korporativ vətəndaşlığı ciddi qəbul edən müəssisələr əhəmiyyətli qazanc əldə edirlər. Araşdırmalar nəticəsində müəyyən edilən faydaları aşağıdakı kimi sıralamaq olar [2]:

- Bu şirkətlərin marka dəyərləri və buna görə də bazar dəyərləri artır,
- Daha ixtisaslı kadrları cəlb etmək, həvəsləndirmək və saxlamaq imkanı,
- Korporativ öyrənmə və yaradıcılıq potensialı artır,
- Xüsusilə bu mövzularda həssas investorlara çatmaq mümkün olduğu üçün həm səhm dəyəri artır, həm də borclanma xərcləri azalır,
- Yeni bazarlara çıxmaq və müştəri loyallığında əhəmiyyətli üstünlüklər əldə etmək,
- Məhsuldarlıq və keyfiyyət artımları yaşanır,
- Risklərin idarə edilməsi daha effektiv olur,
- Cəmiyyətin və siyasətçilərin şirkətin rəylərinə əhəmiyyət verməsi təmin edilir.

## Korporativ Sosial Məsuliyyət anlayışı

Korporativ sosial məsuliyyət dünyadakı bütün şirkətlərin xüsusilə vurğuladığı və vasvasılıqla həyata keçirməyə çalışdığı bir anlayışdır. Korporativ sosial məsuliyyət anlayışlarını araşdırdığımız zaman onların zamanla dəyişdiyini və bu gün bir çox fərqli, lakin yaxın ifadələrdən istifadə edilərək yaradıldığını görürük. Bu təriflərdən bəzilərini incələsək; Korporativ sosial məsuliyyət cəmiyyətə iş və sosial xidmət göstərmək, müxtəlif yardımlar göstərmək və onları könüllü etməkdir [3]. Başqa bir tərifə görə sosial məsuliyyət, ümumilikdə təşkilat; iqtisadi və hüquqi şərtlər, iş etikası, təşkilat və digər qurumlar daxilində və ətrafındakı insanların gözləntilərinə uyğun bir iş strategiyası və siyasəti, insanları məmnun etməkdir [4].

Bu səbəbdən, sosial məsuliyyət qərar qəbul edənlərin cəmiyyətin ümumi maraqlarını, eləcə də öz maraqlarını yaxşılaşdıracaq və qoruyacaq tədbirlər görmək öhdəliyidir [5]. Təriflərdən də göründüyü kimi, cəmiyyətin xeyrinə olan işlər korporativ sosial məsuliyyətə daxildir. Başqa nöqteyi-nəzərdən baxsaq sosial məsuliyyət bir işin yaşamaq, təhlükəsizlik və aidiyyət kimi əsas ehtiyacları qarşılandıqda spontan olaraq ortaya çıxacaq bir anlayışdır. Şirkətlər əsas ehtiyaclarını ödədikdən sonra KSM zəruri davranış olacaq. Öz nöqsanlarını düzəltmədən bu istiqamətdə hərəkət etmək çətindir.

Müəssisələrin sosial məsuliyyəti onlardan qəbul edilən qərarların iqtisadi təsirləri ilə yanaşı, sosial təsirlərinə də həssas yanaşmağı tələb edir [6]. KSM həm siyasi, həm də iş həyatı baxımından getdikcə aktuallaşan bir məsələdir. Bu gün bir çox şirkətlər də bu məsələyə diqqət yetirirlər. KSM-nin yerinə yetirilməsi şirkətlərin qiymətləndirmələrində müsbət təəssürat yaradır.

## Firma, imic və ona təsir edən amillər

Şirkətin malik olduğu və ya olmayan bəzi xüsusiyyətləri korporativ imicinə təsir edə bilər. Bir qurumun imici ilk baxışda göründüyündən daha çox şeyi əhatə edir. İnstitusionallaşma prosesini başa

vurmuş müəssisələrdə şirkət imicinə təsir edən əsas amillər aşağıdakı kimi sıralanır: məhsulun keyfiyyəti, sponsorluq, satışdan sonra xidmət, reklam, sosial məsuliyyət, qurumun fiziki görünüşü, müştərilərlə əlaqələr, ictimaiyyətlə əlaqələr.

Müəssisənin istehsal etdiyi və satdığı mal və xidmətlərin yüksək keyfiyyətli olması istehlakçı üçün həmişə vacibdir. Keyfiyyətsiz məhsul reklam və marketinq fəaliyyəti ilə satıla bilməz [7].

Məhsulun keyfiyyətinin səkkiz ölçüsü var. Bunlar: məhsulun performansı, xüsusiyyətləri, etibarlılığı, uyğunluğu, davamlılığı, xidmət qabiliyyəti, estetikası, qəbul edilən keyfiyyət və görüntü. Bu keyfiyyət standartları məhsulu bazardakı rəqiblərindən fərqləndirmək və rəqabətdən irəliləmək yollarından biridir.

Sponsorluq, müəyyən edilmiş korporativ məqsədlərə çatmaq üçün idman, incəsənət/mədəniyyət və ya sosial sahələrdə fərdlərin və ya təşkilatların pul, alətlər, avadanlıq və ya xidmətlərlə dəstəklənməsi və bütün bu fəaliyyətlərin planlaşdırılması, təşkili, icrası və nəzarətidir. Düzgün seçilmiş sponsorluq tətbiqi biznesin görmə qabiliyyətini artırmaq, onu qorumaq və inkişaf etdirməklə satış fəaliyyətlərinə və biznesin etibarına müsbət təsir göstərir. Sponsorluq fəaliyyətlərində hədəflənən imic formalaşması və onun fəaliyyətlərə əks olunması uzunmüddətli perspektivdə baş verir.

Satış və xidmət amili istehlakçılara satılan mal və xidmətlərin zəmanət altında olması və satış sonrası məhsulda yaranan problemlər zamanı istehlakçıya kömək əli uzadılmasıdır [7]. Müştərinin satın alınan məhsul və ya xidmətdən məmnunluğu zəmanət şərtlərindən və müştərinin məhsuldan maksimum yararlanma qabiliyyətindən asılıdır. Bu səbəbdən qurumlar satış zamanı müştəriləri məlumatlandıraraq, satışdan sonra yarana biləcək problemlərin aradan qaldırılmasına köməklik göstərərək imic yaratmağa töhfə verə bilərlər.

Reklam, bir xidmət və ya məhsulun satışına birbaşa və ya dolayı yolla töhfə vermək məqsədi daşıyan, cəmiyyətə yönəlmiş bütün reklam və bildirişlər kimi müəyyən edilir.

Korporativ reklam, digər tərəfdən, bir şirkət tərəfindən təşkilati və ya maliyyə maraqlarını ictimailəşdirmək üçün özəl reklamdır. Korporativ reklamlara prestij reklamları, sosial media reklamları, birləşmə təklifləri və maliyyə reklamları daxildir. Korporativ reklam təcrübələri korporativ mədəniyyət, korporativ şəxsiyyət və korporativ imic kimi ictimai münasibətlərin tətbiq sahəsinə daxil olan anlayışlar üçün həyata keçirilir [8]. Qurumlar korporativ reklamda imic yaratmağa kömək edən prestijli reklamlarla hədəf auditoriyasına reklam vaxtının məzmununu təyin etdikləri mesajları və ya nəyi, necə, harada və istədikləri zaman qəzet, jurnal, radio, televiziya və açıq media ilə çatdırırlar.

Achenbauma görə, sosial məsuliyyət istehsaldan istehlaka qədər bütün proseslərdə biznesi cəmiyyətə zərərli təsirlər baxımından məhdudlaşdıran, cəmiyyətin rifahını gücləndirən və dəstəkləyən siyasət, prosedur və hərəkətlərin qəbul edilməsidir.

Bu gün cəmiyyətin gözündə biznes üçün sosial məsuliyyət imicinin inkişaf etdirilməsi çox vacibdir. Ətraf mühitə, cəmiyyətə və işçilərə həssas olan, istehlakçı qarşısında sosial məsuliyyətini dərk edən müəssisələr təşkil edilən xeyriyyə tədbirləri ilə güclü korporativ imic yarada bilər.

Müəssisələrin vizual olaraq korporativ imic yaratması üçün təkbaşına xüsusi loqo tərtib etmək kifayət deyil. Vizual identiklik yaradarkən, biznes binasının dekorasiyasından tutmuş işçilərin xarici görünüşünə qədər geniş spektri əhatə edir. Vizual şəxsiyyət yaradarkən hədəf alınacaq elementlər biznesdəki dəyişiklikləri hədəf auditoriyaya əks etdirməkdir. Buna nail olmaq üçün reklam və marketinq kimi fəaliyyətlərin kommunikasiya fəaliyyətləri uğurla həyata keçirilməlidir.

Müştəri xidmətində vacib olan, müştərilər tərəfindən görülən xidmət profilinin yaxşı yönəlmiş aydın xidmət imicinə çevrilməsidir. Buna nail olmaq üçün ediləcək ilk müraciət aydın, qısa, izlənilə bilən və real xidmət standartlarının müəyyən edilməsidir. Qurumun açıqlıq siyasəti ilə hər hansı səbəbdən onunla əlaqə saxlamağa çalışan istehlakçının davranışı korporativ imicinin formalaşmasına mühüm təsir göstərir [9].

İctimaiyyətlə əlaqələr və təbliğat fəaliyyətlərinin effektivliyində qurum daxilində başlanan fəaliyyətlər əvvəlcə qurumdan kənara yayılır və müxtəlif strukturlara, mədəniyyətlərə və gözləntilərə malik böyük kütlələri əhatə edir. İctimaiyyətlə əlaqələr idarəsi; media ilə möhkəm əlaqələrin qurulması, illik hesabatların hazırlanması, müsabiqələrin təşkili, sərgi, yarmarka və təşkilatlarda iştirak, müştərilərin şikayətlərinin operativ həll edilməsi, hədəf auditoriyaya dəqiq məlumatların təqdim edilməsi və s. həyata keçirir. Fəaliyyətini həyata keçirdikdə

cəmiyyətdə qurum haqqında müsbət rəyin formalaşmasına öz töhfəsini verəcək. İctimaiyyətlə əlaqələr təkcə korporativ imicin formalaşmasında deyil, həm də mövcud imicin inkişafı və qorunub saxlanılmasında təsirli olur [9].

**Korporativ Sosial Məsuliyyət və Şirkət İmici arasında əlaqə**

Qurumların obrazları onların dəyərləri ilə müəyyən edilir. Dəyişən dəyərlərlə şəkil də dəyişə bilər. Müəssisələrin həyat dövrlərinin gedişatı ilə müsbət və ya mənfi kurs bir-biri ilə bağlıdır. Məsələn, marketinqdə "istehlakçıya xidmət gətirmək" müsbət qavrayış yaradıb dəyər ifadə etməyə başlayanda bu xidməti göstərən qurumun imicini müsbət kimi xarakterizə etmək olar. Bununla birlikdə, cəmiyyətdəki dəyərlərin prioritetləri arasında ön sıralarda olan bir dəyərlə müqayisədə mal və xidmətlər təklif edən bir iş, imic baxımından daha müsbət görünə bilər [10].

Şirkətin imicini təşkil edən bir çox qeyri-maddi və maddi elementlər var. İndiki vaxtda biznesin vizual və texniki xüsusiyyətləri, endirimli qiymətlər, fərqli və keyfiyyətli məhsul təqdimatı, məlumatların anında əldə edilməsi kimi elementlər rəqabətdə üstünlük təmin edə bilmir, rəqabətə giriş şərti kimi qəbul edilir.

Daha çox və buna bənzər variantları təqdim edilən istehlakçılar qərarlarını verərkən hiss və təcrübələrinə görə hərəkət etməyə başlayıblar. Qərar vermə 85/15 düsturuna görə insanlar 85% duyğularına və 15% məntiqə görə qərar verirlər [11]. İstehlakçı seçimlərinə təsir etmək və üstünlük verilən marka olmaq artıq sosial məsuliyyət fəaliyyətləri ilə sıx bağlıdır. Misal, İngiltərədə istehlakçılar arasında aparılan araşdırmanın nəticələrinə görə, qiymət və keyfiyyət bərabər olduqda, istehlakçının sosial yaxşı səbəblə əlaqəli markalara üstünlük vermə ehtimalı 76% təşkil edir. İstehlakçıların 64%-i sosial məqsədlə əlaqəli bir məhsul üçün bir az daha çox (orta hesabla 5% daha çox) ödəməyə hazır olduğu halda, istehlakçıların 37%-i istehsalçını bəyənmədikləri üçün həmişə məhsulu almaqdan imtina edir [12]. Bu zaman korporativ imic yaradarkən insanların emosional gözləntilərini qarşılamaq lazımdır. Bu kontekstdə müəssisələrin mücərrəd imic yaratmaq səyləri daha çox əhəmiyyət qazanır. Digər tərəfdən, korporativ sosial məsuliyyət anlayışı yalnız istehlakçıların emosional qərarlarında deyil, həm də uzunmüddətli nəticələr gətirən məntiqi qərarlarında təsirli olur. Ölkəmizin biznes qurumları üçün bu maarifləndirmə arzuolunan səviyyədə olmasa da, sosial məsuliyyət yanaşmasının qurumların imicinə və nüfuzuna əhəmiyyətli dərəcədə müsbət təsir göstərdiyinə dair fikirlər ildən-ilə daha çox yayılmaqdadır.

**Nəticə**

XXI əsrin rəqabət şəraitində müəssisələr korporativ imicini mühüm idarəetmə vasitəsi kimi qəbul edirlər. Bununla belə, konsepsiyanın təhlilində istifadə olunan amillərin sayı gündən-günə artsa da, bu gün üçün qəbul edilən fikir müsbət bir korporativ imicinin sosial maraqlı tərəflərin gözləntilərini böyük ölçüdə qarşıladığı dərəcədə reallaşmasıdır. Bu kontekstdə bizneslərin ehtiyatlı, hüquqi, əxlaqi və iqtisadi ölçüləri ilə bütün iş proseslərində sosial məsuliyyət anlayışını mənimsəmələri zəruri hala gəldi. Böhran anlarında işçiləri ixtisar etməmək üçün maksimum səy göstərmək, təbii mühitin tarazlığını pozmamaq üçün hər cür xərcləri öz üzərinə götürmək, tədbirli xeyriyyə layihələrə imza atmaq kimi sosial məsuliyyət anlayışına xidmət edən hər bir dəyərin olması qaçınılmazdır, cəmiyyətin rifahı naminə, müəssisənin imicinə müsbət töhfə verir.

İstər şirkət imicinin əsas elementlərindən biri olan biznesin münasibət və davranışları, istərsə də mücərrəd imic anlayışı kontekstində müəssisələrin sosial məsuliyyət anlayışı birbaşa korporativ imiclə bağlıdır və hər bir iş bu anlayışı öz fəlsəfəsinə və ya strategiyasına daxil edir, onlar da yaxşı bir imic qavrayışı yaratmaq istəyirlər.

Müəssisələr əldə etdiklərini cəmiyyətə verməyə borcludurlar ki, bu da onların mövcudluğuna səbəb olur. Sosial məsuliyyət indi seçimdən çox zərurətə çevrilir. Müəssisələrin müvəffəqiyyəti və uzunmüddətli mövcudluğu güclü şirkət imicindən asılı olsa da, güclü şirkət imicinin mütləq elementi korporativ sosial məsuliyyətin dərk edilməsidir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Aktan, C. ve C., Börü, D. (2007) ''Kurumsal Sosyal Sorumluluk", İgiad Yayınları: İstanbul, ss. 11-36.*

*2. Argüden, Y. (2004) ''Kurumsal Sosyal Sorumluluk", Kal-Der Forum, c.4, s.13, ss.5-7.*

*3. Altman, B. W. 1998. Transformed corporate community relations: A management toll for achieving corporate citizenship. Business and Society Review, 102/103: 43-51.*

4. Mosley. D. C., Pietri, P. H., ve Megginson, L. C. 1996. Management leadership in action. New York. Harper Collins College Publishers.

5. Hill C. W. L., ve Garret J. 1989. Strategic Management. Boston. Haughton Wiftlin Com

6. Aldag, R. J., ve Stearns, T. M. 1991. Management. Cincinatti Ohio: South Western Publishing Com.

7. Zengin, B. ve Gürkan Z. (2009) ''Konaklama Sektöründe Kurumsal İmajın Önemi ve Tüketici Tercihlerine Etkileri", Journal of Azerbaijani Studies, Vol. 12, No. 2, ss.132-157.

8. Meral, P. S. (2008) ''Bankacılık Sektöründe Kurumsal Reklam Uygulamaları: HSBC ve Türkiye İş Bakası Örneği", Kırgızistan Manas Üniversitesi Sosyal Bilimler Dergisi, c. 8, s.20, ss.77-94.

9. Gürkan, Z. (2008) Konaklama İşletmelerinde Kurumsal İmajın Tüketici Tercihlerine Etkileri Üzerine Bir Araştırma, Yüksek Lisans Tezi, Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü: Sakarya.

10. Köktürk, M. S., Yalçın M. ve Çobanoğlu E. (2008) Kurum İmajı, Oluşumu ve Ölçümü (1.Baskı), Beta Basım: İstanbul

11. Özüpek, M. N. (2005) Kurum İmajı ve Sosyal Sorumluluk (Birinci Basım), Tablet Kitabevi: Konya

12. Özmen, S. O. (2009) Kurumsal İmaj ve İtibarın Geliştirilmesinde Sosyal Sorumluluk Kampanyalarının Rolü: Küresel Isınma Üzerine Türkiye'de Bir Örnek ''Doğa İçin Garanti Kampanyası", Yüksek Lisans Tezi, İstanbul üniversitesi Sosyal bilimler Enstitüsü: İstanbul.

## XÜLASƏ

Günümüzdə şüurlu cəmiyyətə xidmət məqsədindən asılı olmayaraq yalnız qazanc əldə etmək məqsədi daşıyan bizneslərin uğur şansları son dərəcə aşağıdır. Belə ki, bizneslərin cəmiyyətdə baş verəcək dəyişikliklərə uyğunlaşması və uzunmüddətli maraqlar baxımından sosial məsuliyyət hissi ilə hərəkət etməsi çox vacibdir. Müəssisələrin fəaliyyətlərini həyata keçirərkən içində olduqları cəmiyyət qarşısında öhdəlikləri var. Məqalədə əsas məqsəd korporativ sosial məsuliyyətin korporativ imicinə təsirini araşdırmaqdır. Tədqiqatda korporativ sosial məsuliyyətə sərmayə qoymağın vacibliyindən bəhs edilir, belə ki, bu, insanların təşkilata baxış tərzini yaxşılaşdırması və daha böyük imkanlar yaratmasına yol açır.

**Açar sözlər:** *Korporativ sosial məsuliyyət, imic, korporativ imic.*

### Влияние деятельности в области корпоративной социальной ответственности на имидж компании

## РЕЗЮМЕ

Сегодня предприятия, которые стремятся только к получению прибыли, независимо от цели служения сознательному обществу, имеют крайне низкие шансы на успех. Таким образом, для бизнеса очень важно адаптироваться к изменениям, которые будут происходить в обществе, и действовать с чувством социальной ответственности с точки зрения долгосрочных интересов. У предприятий есть обязательства перед обществом, в котором они работают. Основная цель статьи - исследовать влияние корпоративной социальной ответственности на корпоративный имидж. Исследование подчеркивает важность инвестирования в корпоративную социальную ответственность, поскольку это улучшает отношение людей к организации и создает больше возможностей.

**Ключевые слова:** *Корпоративная социальная ответственность, имидж, корпоративный имидж.*

### Impact of Corporate Social Responsibility activities on Company Image

## ABSTRACT

Today, businesses that only aim to make a profit, regardless of the purpose of serving a conscious society, have extremely low chances of success. Thus, it is very important for businesses to adapt to the changes that will occur in society and to act with a sense of social responsibility in terms of long-term interests. Enterprises have obligations to the society in which they operate. The main goal of the article is to investigate the impact of corporate social responsibility on corporate image. The research highlights the importance of investing in corporate social responsibility as it improves the way people view the organization and creates greater opportunities.

**Keywords:** *Corporate social responsibility, image, corporate image.*

UOT: 331

# TƏŞKİLAT MƏDƏNİYYƏTİNİN ELEKTRON TİCARƏTİN İNKİŞAFINA TƏSİRİ

**TURAC ABBASOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*E-mail: turac.abbasova@brg.az*

Günümüzdə artıq elektron ticarət fəaliyyəti yüksək sürətlə artaraq ölkə iqtisadiyyatının inkişafı üçün zəruri şərtlərdən birinə çevrilmişdir. Azərbaycanda da ölkə iqtisadiyyatının inkişafı üçün e-ticarət dövriyyəsini artırmaq yönündə bir sıra işlər görülməkdədir. Elektron ticarətin inkişafında və uğurlu olmasında bir sıra faktorlar vardır ki, onlardan biri də təşkilat mədəniyyətidir. Təşkilat mədəniyyəti təşkilat üzvləri tərəfindən qəbul edilmiş və onun daxili şöbələrinə məxsus olan əxlaqi davranış, performans, hissiyat, inanc və eyni zamanda işçilərin kollektiv davranışlarını əhatə edir. Elektron ticarət fəaliyyətləri həcm baxımından böyüməyə davam etdikcə, təşkilatlara olan tələblərin artması onların müştərilər, təchizatçılar və biznes tərəfdaşları ilə qarşılıqlı əlaqə üsullarını dəyişir. Bu gün bütün firmaların məqsədi mənfəət qazanmaqla yanaşı, inkişaf etmək və tanınmaqdır. Təşkilat mədəniyyətinin vacibliyi elektron ticarətdə əhəmiyyətinin artması və inkişaf etmək istəyən bütün təşkilatlarda idarəetmə fəaliyyətinin müəyyən edicisi kimi qəbul edilən bir meyar olması ilə əlaqələndirilir.

Bildiyimiz kimi insanlar vaxtının əksər hissəsini öz iş yerlərində keçirir və iş prosesi zamanı təşkilatda baş verən hadisələr və ya onlara göstərilən münasibətlər işçilərin işdən sonrakı şəxsi həyatına da təsir göstərir. Özlərindən asılı olmasa belə, şüuraltı olaraq təşkilatdakı narazıçılıq və ya xoş məmnuniyyət hissi çalışanın ailə həyatına öz təsirlərini göstərir. Yəni, işdən razı ayrılan işçi ailəsinə rahat və məmnun, narazı gedən işçi isə gərgin hisslərlə qayıdır. Hətta bir müddət sonra maaş nə qədər yüksək olsa belə, təşkilat rəhbərləri düzgün münasibət bəsləmədiyinə görə təşkilatdan ayrılmaq qərarına gəlir. Məhz bu səbəbdən təşkilat mədəniyyətinin nə olduğu və şirkətdəki əhəmiyyətini anlamaq lazımdır. 1980-ci illərdən bəri əhəmiyyətli bir idarəetmə problemi olaraq təyin olunan təşkilat mədəniyyəti idarəetmə ədəbiyyatında çox araşdırılmışdır. Scheinə görə, təşkilati mədəniyyət təşkilat üzvləri tərəfindən paylaşılan əsas fərziyyələrin və inancların daha dərin səviyyəsi kimi müəyyən edilir (1, s.5). Pacanowsky və Donnel-Trujillioya görə, təşkilat mədəniyyəti problemin təkcə bir hissəsi deyil, elə bütövlükdə problemdir. Fikrimizcə, mədəniyyət təşkilatın malik olduğu deyil, nə olduğudur (2, s.116).

Növbəti fikirə görə, düzgün təşkilat mədəniyyətinin formalaşması üçün təşkilat rəhbərinin ilk dəfədən düzgün üsul seçməli olduğu ifadə edilir. Əgər təşkilat rəhbərləri öz işçiləri ilə düzgün münasibət qura bilsə, öz təşkilat üsulunu çalışana düzgün başa sala bilsə, işçi təşkilatın məqsədini başa düşər və bu da iş performansına təsir göstərər. Yəni, qısacası bütün təşkilatı bir yerdə saxlayan orda istifadə edilən üsuldur (3. s.10).

Təşkilat mədəniyyəti texnologiyanın mənimsənilməsi səviyyəsindən də asılıdır. Buna görə də təşkilat mədəniyyəti elektron ticarətə təsirini zəiflədə və ya gücləndirə bilər (4. s.2).

Kotler və Kellere görə, müştəri yönümlü şirkətlər yalnız məhsul və ya xidmətləri deyil, əlaqələri də inkişaf etdirməlidir. Müəlliflərin fikrinə görə, təşkilatların uğuru alışdan tutmuş texniki xidmətə qədər müştərilərdən asılıdır. Bir təşkilatın müştərisi olmazsa, iş də yoxdur deməkdir. Məhsulların hazırlanması, xidmətlərin göstərilməsi, fabriklərin quraşdırılması, işçilərin işə götürülməsi və s. üçün yeganə səbəb müştərilərdir. Müştəri məmnuniyyəti işdən həzz və ya məyusluq hissidir. İşçilərin performansı müştərilərin gözləntisindən aşağı düşərsə, müştəri narazıdır, performans gözləntilərə cavab verirsə, müştəri məmnundur. Əgər müştəri yüksək dərəcədə məmnundursa, müştəri uzun müddətə sadiq qalır və şirkət haqqında müsbət danışmaqla insanlara tanıdır (5. s.69).

Biz daim dəyişən və sürətlə inkişaf edən bir dünyada yaşayırıq. Tez-tez texnologiya, xidmətlər, məhsullar, sosial vərdişlər, rəqabət kimi çox şey dəyişir. Bu səbəbdən təşkilatlar dəyişən zamana uyğunlaşmaq və təkmilləşmək üçün dəyişməyə məcbur olur. Amma iş dünyasında dəyişiklik nə qədər kiçik olsa belə, mürəkkəb və vacibdir. Xırda bir dəyişiklik təşkilat mədəniyyətinin dəyişməsinə və ya yenidən formalaşmasına gətirib çıxara bilər (6. s.18).

Cameron və Quinnə görə, dəyişməyən təşkilatlar yüksək müqavimət göstərən təşkilatlar kimi görünür.

Bu təşkilatlar isə sabit olduqlarını bildirirlər. Lakin burada dəyişməzlik sabitlik deyil, durğunluqdur (7. s.55).

Cameron və Quinn təşkilat mədəniyyətinin klan mədəniyyəti, iyerarxik mədəniyyət, adokratiya mədəniyyəti, rəqabət mədəniyyəti olaraq dörd təməl bölmədən ibarət olduğu fikrini irəli sürmüş və təşkilat mədəniyyətini incələmək üçün "Təşkilat mədəniyyəti Qiymətləndirmə Aləti" adlı ölçmədən istifadə etmişdir. Yaradılmış bu ölçmə bir çox milli, beynəlxalq tədqiqatlarda, və doktorantura tezislərində istifadə edilmiş və hələ də öz güncəlliyini qorumaqdadır. Hətta Cameron və Quinnin "Rəqabətli Dəyərlər Modeli" təşkilat mədəniyyətində dəyişiklikləri müəyyən edən və istiqamətləndirən tədqiqatlardan biri olmuşdur. Rəqabətli Dəyərlər Modeli üslubların, dəyərlərin, fərziyyələrin və məlumatların işlənməsi, proseslərin tənzimlənməsində üstünlük verilən, məlum və qəbul edilən proqramlarla yüksək uyğunluq modelidir.

Klan mədəniyyətinə görə, təşkilat böyük bir ailə kimidir. Təşkilatda menecer mentor kimi görünür. Təşkilatda sədaqət və ənənə bir yerdə saxlanılır və öhdəlik yüksəkdir. Təşkilat komanda işinə, iştiraka və konsensusa diqqət yetirir. Təşkilatda işçilərin ehtiyacları nəzərə alınır, komanda işi və iştiraka dəstək verilir.

Adokratiya mədəniyyətinə malik olan təşkilat dinamik, təşəbbüskardır. Təşkilatda insanlar özlərini riskə atırlar. Onlar yenilikçi və risk götürən insanlar kimi görünürlər. Təşkilatı bir yerdə saxlayan şey təcrübələrə sadiqlikdir və yenilikdir. Eyni zamanda, təşkilat uzunmüddətli inkişaf və yeni resursların əldə edilməsinə önəm verir. Təşkilatda dəyişiklik gözlənti deyil, zərurət olaraq görülür.

Rəqabət mədəniyyətinin üstünlük təşkil etdiyi təşkilat nəticəyönümlüdür. Əsas narahatlıq işin görülüb-görülməməsidir. Təşkilatdakı insanlar rəqabətədavamlı və məqsədyönlüdürlər. Onların liderləri möhkəm, sərt, məhsuldar, tələbkar və rəqabətlidir. Bir sözlə, təşkilatın uzunmüddətli diqqəti rəqabətli fəaliyyətlərə və ölçülə bilən məqsəd və vəzifələrə yönəlmişdir.

İyerarxik mədəniyyətin hakim olduğu təşkilatlar çox formal və strukturlaşdırılmış yerdir. Bu təşkilatlarda şəxslərin vəzifələri qayda və prosedurlarla müəyyən edilir. Təşkilat rəhbəri yaxşı koordinator və idarəçi olmaqdan qürur duyur. Rəsmi qaydalar və siyasətlər təşkilatı ayaqda saxlayır. Əsas dəyər kimi səmərəlilik, etibarlılıq, sürətli və hamar iş çatdırılması nəzərdə tutulur. İşçilər qərar qəbuletmə prosesinə daxil edilmir, qaydalar və prosedurlarla sınaqdan keçirilir. İşçilərin yüksəldilməsi həm də onların qaydalar və siyasətlər haqqında biliklərindən asılıdır.

Bu fikirləri ümumi bir şəkildə toplayıb, təşkilat mədəniyyətini bu şəkildə başa düşə bilərik: Təşkilat mədəniyyəti təşkilatın bütün üzvləri tərəfindən qəbul edilən və insan davranışlarına istiqamət verən fərziyyələr, inanclar və dəyərlər toplusudur. Təşkilat mədəniyyətinin başlıca məqsədi təşkilatlara öz vəzifələrini daha məhsuldar yerinə yetirməyə kömək etmək, təşkilatın səmərəliyini praktiki artırmaq və təşkilat üzvlərinin dəyərini formalaşdırmaqdan ibarətdir.

Təşkilat mədəniyyətini dərk etmiş bir şəxs düzgün münasibət formalaşdıra, şirkətin əsas məqsədini anlaya, müştəri problemlərini həll edə, kollektiv yoldaşlarını dəyərləndirə, hər hansı bir çətin situasiyanı idarə edə bilər ki, bu da öz növbəsində təşkilat performansını formalaşdırır. Məhz bu səbəbdən təşkilat menecerləri, rəhbərlər və çalışanlar təşkilat mədəniyyətinin zəruriliyini başa düşməlidir.

Günümüzdə texnologiyanın inkişafı və istifadə nisbətinin artmasıyla ticarət anlayışı dəyişmiş və fərqli ticarət fəaliyyəti ortaya çıxmışdır (8. s.415). Texnoloji inkişaflar ilə əlaqədar ekonomik fəaliyyətlər artmış, müxtəlif ölkələrdə yaşayan insanlar və təşkilatlar arasında bilgi paylaşımı daha rahat bir formaya gəlmişdir. Bu texnoloji inkişaflar ilə əlaqədar ortaya çıxan elektron ticarət şirkətlərə böyük qazanc gətirmiş və beləliklə ticarətdə sürətlə yerini almışdır.

Elektron ticarət proseslərin elektron formada həyata keçirilməsi yolu ilə daha sürətləndirilmiş şəkildə informasiya və yaxud da müəyyən məhsul və xidmətlərin istehlakçıya ötürülməsini və müştərilərin məhsul və xidmətlərə baxmaq, müxtəlif məlumatlar əldə etmək üçün internet vasitəsi ilə onlayn mağazalara daxil olmasını özündə ehtiva edir. Ticarətin elektron formada həyata keçirilməsi bir çox biznes subyektlərinə şirkətin imkanlarını və biznes performanslarını artırmaq üçün şərait yaradır. Şirkətlər bu yolla daha ucuz və daha səmərəli kanallar vasitəsi ilə bazara çıxış imkanı əldə edirlər.

Firmalar çox vaxt e-ticarətə biznesin aparılması, əməliyyat performansını yaxşılaşdırmaq üçün bir vasitə kimi və ya tamamilə yeni bir platforma kimi xərcləri azaldaraq böyük perspektivləri olan iş görmək üçün əlavə bir vasitə kimi baxırlar (9. s.17).

Kotler və Kellerə görə, müştəriyönümlü şirkətlər yalnız məhsul və ya xidmətləri deyil, əlaqələri də inkişaf etdirməlidir. Müəlliflərin fikrinə görə, təşkilatların uğuru alışdan tutmuş texniki xidmətə qədər müştərilərdən asılıdır. Bir təşkilatın müştərisi olmaz-

sa, iş də yoxdur deməkdir. Məhsulların hazırlanması, xidmətlərin göstərilməsi, fabriklərin quraşdırılması, işçilərin işə götürülməsi və s. üçün yeganə səbəb müştərilərdir. Müştəri məmnuniyyəti işdən həzz və ya məyusluq hissidir. İşçilərin performansı müştərilərin gözləntisindən aşağı düşərsə, müştəri narazıdır, performans gözləntilərə cavab verirsə, müştəri məmnundur. Əgər müştəri yüksək dərəcədə məmnundursa, müştəri uzun müddətə sadiq qalır və şirkət haqqında müsbət danışmaqla insanlara tanıdır.

E-ticarət hazırda bütün ölkələrdə istifadə edilsə də, bir çox ölkələrdə elektron ticarət bazarı bir sıra müxtəlif xarakterli problemlərə malikdir. Bu problemləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1.Alıcı və satıcı arasında olan inamsızlıq. Onlayn alış-veriş zamanı alıcıların ən çox narahat olduğu mövzulardan biri ilkin ödəniş etməkdir. Vətəndaş təbii olaraq, virtual aləmdə tanımadığı satıcıya pul ödəməyə cəhd göstərə bilmir və satıcı da hər hansı bir ilkin ödəniş olmadan məhsulu çatdırmır. Alıcı qarşısındakı satıcıya güvənmir və pulunun batmasından qorxduğu üçün bir-birlərinə qarşı inamsızlıq hissi yaranır. Eyni zamanda bəzi saytların "https" sertifikatına sahib olmaması halında istifadəçilər şəxsi məlumatlarının təhlükəsizliyinə əmin olmayaraq onlayn ödəniş etməkdən çəkinməsi əsas problemlərdən biridir.

2. Əhalinin kifayət qədər elektron ticarətdən məlumatlı olmaması. Xüsusi ilə yaşlı insanların ənənəvi ticarətə üstünlük verdiyi hər kəsə məlumdur. Bir çox insanların eektron ticarət saytlarından məlumatlı olmaması və yə saytdan istifadə edə bilməməsi də e- ticarətin inkişafına mənfi təsir edir. Eyni zamanda əhalinin plastik kartlardan yalnız maaş məqsədilə istifadə etməsi və kartdan ödəniş əməliyyatlarını bacara bilməməsi də e-ticarətin inkişafına mane olan səbəblərdəndir.

3. Zəmanətin olmaması və çatdırılma sistemində problemlər. Saytdan alış-veriş zamanı məhsulun yararsızlığı və ya çatdırılmaması halında ödənişin geri qaytarılması zəmanətini öz öhdəliklərinə götürməmələri alıcıların əsas problemlərindən biridir. Həmçinin zədələnmiş məhsulların zəmanət təqdim edən saytların geri qaytarılma prosesində vaxtın çox uzanması səbəbindən insanlar onlayn ticarətdən çəkinirlər.

4. Yerli saytların idarə olunmasının tələb olunan səviyyədə olmaması. Günümüzdə ən çox yayılan problemlərdən biri internetdən qeydiyyatdan keçərkən şəxsi məlumatların yayılması qorxusudur. Bəzi yerli saytların "https" sertifikatına sahib olmaması istifadəçilərin onlayn mağazalardan alış-veriş etməməsinə səbəb olur.

5. Regionlarda e-ticarət sektorunun olduqca zəif inkişafı. Məlum olduğu kimi, e-ticarət mağazalarından ən çox istifadə edənlər daha çox əhalisi olan, mərkəzi şəhərlərdir. Digər kiçik bölgələrdə internet problemi, əhalinin kifayət qədər məlumatlı olmaması və ən əsası, bu kimi bölgələrdə karqoların az olması, çatdırılma problemləri istehlakçıların hələ də ənənəvi ticarəti e-ticarətdən üstün tutmalarına səbəb olmuşdur.

6. Sahibkarların yalnız yerli bazar üçün çalışması. Belə ki, yerli saytlar daha çox yerli əhali üçün məhsul satışı həyata keçirir. Ölkəmizdə çox sayda sahibkarın yerli saytları beynəlxalq səviyyədə tanıtımında problemlər yaşanır. Bu problemlərə Azərbaycandan xarici ölkələrə daşımalar olduqca yuxarı tariflərlə həyata keçirilməsi, yerli onlayn ticarət platformalarının dil seçiminin, əsasən, Azərbaycan və rus dilləri ilə məhdudlanmasını nümunə gətirə bilərik. Çox təəssüf ki, xaricdən ölkəmizə çatdırılma həyata keçirən şirkətlərin (www.mover.az, colibri.az, limak.az və s.) sayı gündən-günə artsa da, xaricə çatdırılma həyata keçirən müəssisələr demək olar mövcud deyil.

Elektron ticarət sisteminin təklif etdiyi başqa bir üstünlük, ümumi marketinq xərclərinin, bazar araşdırması məsrəflərinin azalmasıdır. İnternet saytından məlumatları əldə etmək və əhaliyə bildirmək, müştərilərlə əlaqədar məlumat əldə etmək və səmərəli şəkildə istifadə etmək həm təşkilatın rəqabət üstünlüyünə sahib olmasına, həm də təşkilatın öz dəyərini formalaşdırmasına səbəb olur. Sifarişin işlənməsi, sifarişin yerinə yetirilməsi və çatdırılması və marketinq kimi əməliyyat aspektlərini təkmilləşdirmək üçün e-ticarətdən istifadə etmək olar (10. s.25).

Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da elektron ticarət son dövrlərdə əsasən də, pandemiyadan sonra inkişaf etməyə başladı. E-ticarət yalnız onlayn alış-veriş üçün deyil, həmçinin xidmətlərin əhaliyə onlayn çatdırılmasında, informasiya cəmiyyətinin qloballaşmasında da böyük rol oynayır. Ölkəmizdə 2005-ci ildə "Elektron Ticarət haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması, 2017-ci il 1 yanvar tarixindən isə "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi və eyni zamanda www.azexport.az kimi portalın yaradılması bu sahəyə meyilin artdığının sübutudur. Respublikada elektron ticarət anlayışı 2005-ci ildə "Elektron Ticarət haqqında" qanunun qəbul olunması ilə formalaşmağa başladı. Bu Qanun 2005-ci ildə qəbul olunmasına baxmayaraq, 3 il sonra elekt-

ron ticarət fəaliyyətinə başlandı. Bu gecikmənin əsas səbəblərindən biri ölkəmizdə internet üzərindən ödəmənin mümkün olmaması idi. Daha sonra 2018-ci ilin dekabrında "Silverkey Azərbaycan" şirkətinin "Visa" və "MasterCard" tərəfindən xüsusi lisenziya almış "GoldenPay" adlı onlayn ödəmə sistemini qurması elektron ticarətin inkişafında addımlamağa səbəb oldu. Bu kimi dəyişikliklər Azərbaycanın elektron ticarət bazarında ciddi dəyişikliklərə səbəb oldu. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına görə, Azərbaycanda 2016-cı ildə elektron ticarətin dövriyyəsi 13 mln.manat artmışdır. 2017-ci ilin sonuna elektron ticarət sistemindən istifadə olunan dövriyyənin ölkəmizin ümumi ticarət dövriyyəsindəki xüsusi çəkisi 0.3% artmışdır. E-ticarətdə əməliyyatların həcmi 2021-ci il ərzində 7 milyard 208 milyon manat təşkil etmişdir. Bu da 2020-ci il ilə müqayisədə 3 milyard 332 milyon manat (86%) artım deməkdir. E-ticarətin 6 milyard 629.64 milyon manatı debet kartları ilə ölkə daxilində edilən əməliyyatlardır. Bu nəticə ölkə daxilində olan e-ticarətin daha da genişlənməsini göstərir. E-ticarətin inkişafının "Elektron hökumət" Dövlət Proqramının prioritetlərindən biri olması, internet istifadəçilərinin sayının gündən-günə artması, gənc əhalinin daha çox onlayn ticarətə üstünlük verməsi, eləcə də beynəlxalq tendensiyalar Azərbaycanda e-ticarət həcmini artırmışdır. Eyni zamanda bu hissədə ölkəmizin elektron ticarət sektoruna təsir edən mənfi və müsbət faktorları araşdırılmışdır. Hətta bəzi şirkətlər üzərində təşkilat mədəniyyətinin təsirləri araşdırılmışdır. Məsələn, "Zappos" yarandığı gündən etibarən müştəri ilə maraqlanan ayaqqabı satışı ilə məşğul olan bir şirkətdir. "The New Hire Training" proqramı şirkət mədəniyyətinə dərindən nüfuz edir. Gələcək rolundan asılı olmayaraq hər kəs ilk dörd həftə ərzində bu təlimə ən azı 30 saat sərf etməlidir. Bu proqram yeni işə qəbul olunanlara "Zappos" mədəniyyətini ən yaxşı şəkildə yaşamağa imkan verir. Şirkətin əsas dəyərləri xidmət vasitəsi ilə müştəriləri təəccübləndirmək, baş verən dəyişikliklərə açıq olub, onları qəbul etmək, idarə etmək və ofisdə əyləncə yaratmaqdır. Bu təşkilatda menecerlər öz departamentindəki bütün işçilərdən, xüsusilə, uğurlu olanlar üçün karyera yollarının yaradılmasına cavabdehdirlər. Hətta şirkət yeni işə götürülən işçilərə bir neçə həftə sonra 1000 dollar bonus təklifi edir və işin onlar üçün uyğun olmadığını düşünürlərsə, işdən çıxa biləcəklərini belə təklif edir. Yəni, şirkət heç kimin ilişib qalmasını istəmir. Şirkətlər arasında qeyri-adi təşkilat mədəniyyəti ilə fərqlənən şirkətlər arasında ilklərdədir. "Ən yaxşı mədəniyyətə sahib olduğumuzdan əmin olmaq üçün qısamüddətli mənfəətdən və ya gəlir artımından imtina etməyə hazırıq" - Tony Hsieh.

Digər bir nümunə olaraq LL Bean şirkətini göstərə bilərik. Ömürlük zəmanət və pulsuz çatdırılma kimi təkliflərlə müştəri sadiqliyini artıran əsas şirkətlərdən biridir. Şirkət fəaliyyətini 103 il davam etdirməsinə baxmayaraq, şirkətdə kadr dəyişikliyi cəmi 3% təşkil edir. Şirkətin əsas dəyərlərinə işçilərin xarici geyimlərinə xüsusi diqqət, idman salonuna endirimli üzvlük, işçilərə endirimlər, təhsil haqqının ödənilməsi kimi üstünlükləri nümunə gətirə bilərik. İdarəetmə baxımından "LL Bean" karyera inkişafını müzakirə etmək üçün işçilərlə təkbətək görüşür, müntəzəm olaraq dərslər və seminarlar keçirir. "LL Bean" öz mədəniyyət tanıtımını bu sözlərlə ifadə edir: "Bu şirkətdəki hər bir işçi indiyə qədər ən vacib insandır". Bu düşüncə tərzinə görə şirkət təşkilat mədəniyyəti nümunələri arasında birinci yerdədir.

**Nəticə**

Bu məqalə təşkilat mədəniyyəti ilə elektron ticarət səviyyəsi arasındakı əlaqənin xarakterini, təşkilatlarda elektron ticarətin mənimsənilməsi prosesini araşdırır. İT qəbulu və e-ticarət sahəsində araşdırmalar göstərdi ki, elektron ticarət fəaliyyətlərinin həcmində artım davam etdikcə, təşkilatlarla qarşılıqlı əlaqə üsullarını dəyişdirmək üçün artan tələblər olacaq. Təşkilatların rəqabət qabiliyyətini saxlamaq üçün şirkətin e-ticarət imkanları, onların təşkilati mədəniyyəti anlayışının mənimsəməsi çox vacib görünür. Empirik tapıntı müxtəlif təşkilat mədəniyyətlərinin hökmranlığı e-ticarətin müxtəlif yetkinlik səviyyələrinə gətirib çıxardığını göstərir. Tədqiqatın nəticəsi təşkilat mədəniyyətinin əhəmiyyətini və onun e-ticarətin inkişafına təsirini ortaya qoyur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Schein, E. H. 2004. Organizational culture and leadership (3rd ed.): San Francisco: Jossey-Bass.*

*2. Pacanowsky, M & Donnel-Trujillio, N "Communication and Organizational Cultures" The Western journal of Speech Communaciaton, 1982, p.115-130.*

*3. Cameron, K. and Quinn, R. Diagnosing and changing organizational culture: Based on the competing values framework, Addison-Wesley, Reading, MA, 1999. p. 10.*

*4. Mohtaramzadeh. M, Ramayah. T & Cheah. J "B2B E-Commerce Adoption in Iranian Manufactu-*

*ring Companies" Analyzing the Moderating Role of Organizational Culture", International Journal of Human–Computer Interaction, (2017: 2)*

*5. Garay R. R "The organizational culture. A potential strategic asset from a management perspective". University of the Latin American Educational Center Rosario, Argentina, 2009, p. 68-71.*

*6. Prigogine A.I. "Organizational culture and its transformation". Social sciences and modernity, 2003, p.13-23.*

*7. Cameron, K. S., & Freeman, S. J. (1991). Cultural congruence, strength, and type: Relationships to effectiveness. Organizational Change and Development, 5, 23-58.*

*8. AKÇİ. Y. ve Annaç Göv, S. (2015). Tüketicilerin E-Ticaret Algılarının İncelenmesi (Gaziantep ve Adıyaman Örneği). Mehmet Akif Ersoy Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 1(13), 413-433.*

*9. Gibbs, J., Kraemer, K. and Dedrick, J. (2003) Environment and policy factors shaping global ecommerce diffusion: A cross-country comparison, The Information Society, 19, 1, 5-18.*

*10. Marıa J "Relevance Of E-Commerce For The Current Company", 2014, p. 17-25.*

## XÜLASƏ

Məqalə şirkətlərin təşkilat mədəniyyətinin araşdırılmasına, praktikada elektron ticarətə təsirinə və bu proseslərin məzmununun öyrənilməsinə, struktur təhlilinə həsr olunmuşdur. Elektron ticarət hərtərəfli tədqiq edilsə də, e-ticarətin inkişafı səviyyəsində təşkilati mədəniyyətin əhəmiyyəti lazımi dərəcədə araşdırılmamışdır. Qlobal təşkilatlar e-ticarətdən istifadə edərək işgüzar əlaqələri kəskin şəkildə təkmilləşdirə bilərlər. Bu vəziyyət zaman-zaman təşkilatı dəyişməyə də məcbur edə bilər. Bu səbəbdən təşkilatların e-ticarət imkanlarında rəqabətə davam gətirə bilməsi üçün onların innovasiya, risk götürmə və çevikliyi təşviq edən təşkilat mədəniyyəti mühitini mənimsəmələri çox vacibdir. Bu yazının məqsədi müxtəlif təşkilat mədəniyyəti təsirlərin elektron ticarətin inkişafında empirik şəkildə araşdırmaqdır.

**Açar sözlər:** *Təşkilat mədəniyyəti, elektron ticarət, e-ticarətin inkişafı.*

## SUMMARY

The article focuses on the study of the organizations of the companies, the impact on electronic commerce in practice and the study of these processes, the analysis of the structure. Although e-commerce has been studied every now and then, the need to neutralize organizational culture to enable e-commerce to thrive has not been explored. Global organizations have been able to improve business relationships by using e-commerce. At this time, the situation may force the organization to change. It is critical that these aid organizations can continue to grow in their commercial capabilities, and that they adopt an organizational culture that fosters innovation, risk-taking, and flexibility. The purpose of this paper is to empirically investigate the social organizational effects in the development of electronic commerce.

**Keywords:** *Organizational culture, e-commerce, e-commerce development.*

## РЕЗЮМЕ

Статья посвящена изучению организационной культуры компаний, ее влиянию на электронную коммерцию на практике, а также изучению содержания этих процессов, структурному анализу. Хотя электронная коммерция широко изучалась, важность организационной культуры на уровне развития электронной коммерции изучена недостаточно. Глобальные организации могут значительно улучшить деловые отношения с помощью электронной коммерции. Эта ситуация может вынуждать организацию время от времени меняться. Таким образом, чтобы организации оставались конкурентоспособными в сфере электронной коммерции, крайне важно, чтобы они приняли среду организационной культуры, которая поощряет инновации, принятие рисков и гибкость. Целью данной статьи является эмпирическое исследование влияния различных организационных культур на развитие электронной коммерции.

**Ключевые слова:** *Организационная культура, электронная коммерция, развитие электронной коммерции.*

UOT 330.3(1-664)"713";
339.97(1-664)"713"

# ERMƏNİSTANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İSTİQAMƏTLƏRİ

**SƏFTƏR VƏLİZADƏ**
*AMEA İqtisadiyyat İnstitutunun doktorantı*
*E-mail: seftervelizade@gmail.com*

## Giriş

Digər postsovet ölkələri kimi Ermənistan da 90-cı illərin əvvəlindən etibarən xarici ölkələr ilə özünün iqtisadi əlaqələrini inkişaf etdirməyə başlamışdır. Sovet İttifaqının çökməsi ilə Ermənistanda yaşanan iqtisadi böhran onun istehsal imkanlarını azaltmaqla xarici ticarət əlaqələrini inkişaf etdirməyə müəyyən maneələr yaratmışdır. Dünya bazarında mövcud olan standartlara uyğun olan məhsulların istehsalı imkanının zəif olması da Ermənistan istehsalçıları üçün xarici bazarlara girmək imkanlarını məhdudlaşdırmışdır. Bundan başqa, Ermənistanın 90-cı illərin əvvəllərindən etibarən Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və bunun nəticəsində baş vermiş Birinci Qarabağ müharibəsi də Ermənistanın iqtisadiyyatının, o cümlədən xarici ticarət əlaqələrinin inkişafına mane olmuşdur. Qeyd edilən problemlərin mövcudluğu Ermənistanda daha çox idxala meyilli olan ticarət əlaqələrinin formalaşmasına gətirib çıxarmışdır. İstehsal imkanlarının az olduğu şəraitdə əhalinin müxtəlif istehlak məhsullarına olan tələbatını qarşılamaq üçün Ermənistan ixracdan daha çox idxal etmək məcburiyyətində qalmışdır ki, bu da illər ötdükcə Ermənistanın ticarət balansının mənfi saldosunun artmasına gətirib çıxarmışdır. Bu isə son nəticədə Ermənistan iqtisadiyyatının xarici ölkələrdən və bazarlardan olan asılılığının artmasına səbəb olmuş və həmin bazarlarda baş verən qiymət dəyişiklikləri Ermənistan iqtisadiyyatına da birbaşa təsir etmişdir. Ermənistan bir sıra strateji məhsulların idxalında da xarici ölkələrdən asılı vəziyyətə düşmüşdür ki, bu asılılıq da bir çox hallarda Ermənsitana qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edilmişdir. Ermənistan ilə Azərbaycan arasında 1994-cü ildə atəşkəs elan olunduqdan sonra Azərbaycanda sürətli iqtisadi inkişaf mərhələsi başlasa da Ermənistan özünün işğalçılıq siyasəti səbəbindən sürətlə inkişaf edə bilməmişdir. İşğala görə Ermənistanın Azərbaycan və Türkiyə ilə sərhədləri bağlanmış (beynəlxalq sərhədlərinin təxminən 80%-i) və xarici ticarət əlaqələrinin qurulmasında Gürcüstan və İrandan asılı vəziyyətə düşmüşdür. Bununla da faktiki olaraq Ermənistan blokada vəziyyətinə düşmüşdür. Daha sonra, Rusiya və Gürcüstan arasında yaranmış siyasi problemlər səbəbindən Ermənistanla Rusiyanı əlaqələndirən və Abxaziyadan keçən əsas dəmiryolunun bağlanması Ermənistanın öz məhsullarını quru yolu vasitəsilə digər ölkələrə göndərmək imkanlarını daha da azaltmışdır.

Ermənistanın blokada vəziyyətinə düşməsi və son illərdə Azərbaycan tərəfindən işğala görə Ermənistana qarşı həyata keçirilən uğurlu izolyasiya siyasətinin təsiri nəticəsində Ermənistan regionda həyata keçirilən beynəlxalq nəqliyyat və enerji layihələrindən kənarda qalmışdır və bu da onun xarici iqtisadi əlaqələrini inkişaf etdirmək imkanlarını daha da məhdudlaşdırmışdır. İstehsal imkanlarının zəif olması ilə yanaşı istehsal edilən məhsulların, xüsusilə də qısa zamanda xarab ola bilən məhsulların beynəlxalq bazarlara çıxarılması imkanlarının məhdud olması Ermənistanın xarici iqtisadi əlaqələrinin inkişafına mane olmuşdur. Qeyd edilən problemlər son on ildə də Ermənistanın ticarət əlaqələrinin formalaşmasına və strukturuna ciddi təsir göstərmişdir. Bu məqalənin əsas məqsədi də son on ildə Ermənistanın xarici iqtisadi əlaqələrinin inkişafı dinamikasını və ticarət əlaqələrinin struktunu nəzərdən keçirmək və yuxarıda qeyd edilən problemlərin bu əlaqələrin qurulmasına və inkişafına necə təsir etdiyini müəyyən etməkdir [7].

## 1. Ticarət əlaqələrinin dinamikası

Ermənistanın xarici iqtisadi əlaqələrinin son on ildə inkişaf səviyyəsini müəyyən etmək üçün, ilk öncə, ticarət əlaqələrinin dinamikasını nəzərdən keçirmək lazımdır. Ermənistan Statistika Komitəsinin elan etdiyi rəqəmlərə nəzər yetirsək görərik ki, 2011-2021-ci illərdə Ermənistanın xarici ölkələrdən idxalı əsasən artıma meyilli olmuşdur. Əgər 2011-ci ildə idxalın həcmi 4.145 milyard ABŞ dolları (bundan sonra dollar) həcmində olmuşdursa [3], bu göstərici 2021-ci ilə qədər 29% artaraq 5.36 milyard dollar səviyyəsinə çatmışdır (Cədvəl 1) [1]. Lakin bu illər ərzində idxalın səviyyəsi sabit şəkildə dəyişməmiş və bəzi illərdə idxalın səviyyəsində azalma müşahidə edilmişdir. Belə ki, 2015-ci ildə idxalın səviyyəsi əvvəlki il ilə müqayisədə 36% azalaraq 3.24 milyard dollar səviyyəsinə düşmüşdür [2]. Növbəti ildə isə ye-

nidən 1%-dən bir qədər çox artmışdır. Sonrakı illərdə isə idxalın həcmi sürətlə artmağa başlamış və 2019-cu ildə son 10 ilin ən yüksək həddinə, yəni 5.53 milyard dollara çatmışdır. İdxal 2020-ci ildə pandemiyanın təsiri ilə 4.56 milyard dollara qədər azalsa da 2021-ci ildə yenidən 17% artaraq 5.36 milyard dollara qədər artmışdır (Cədvəl 1). Nəzərdən keçirilən dövrdə idxalın orta artım tempi 3.9% səviyyəsində olmuşdur.

**Cədvəl 1. Ermənistanın xarici ticarət əlaqələri (milyon dollar)**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *İdxal* | 4145 | 4261 | 4386 | 4424 | 3239 | 3273 | 4097 | 4975 | 5529 | 4564 | 5362 |
| *İxrac* | 1334 | 1380 | 1479 | 1547 | 1485 | 1792 | 2224 | 2413 | 2647 | 2537 | 3016 |
| *Dövriyyə* | 5479 | 5641 | 5865 | 5971 | 4724 | 5065 | 6321 | 7388 | 8176 | 7101 | 8378 |
| *Balans* | -2811 | -2881 | -2907 | -2877 | -1754 | -1481 | -1873 | -2562 | -2882 | -2027 | -2346 |

*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi*

İdxalda olduğu kimi, 2011-2021-ci illərdə ixracın həcmində də əsasən artım müşahidə edilmişdir. Yalnız 2015 və 2020-ci illərdə ixracın həcmi əvvəlki il ilə müqayisədə azalmışdır. Bu azalma qeyd edilən illərdə cəmi 4% təşkil etmişdir (Cədvəl 1). Bunun əksinə olaraq, 2017 və 2021-ci illərdə ixracın həcmində kəskin artım baş vermişdir. Belə ki, 2017-ci ildə ixracın həcmi əvvəlki il ilə müqayisədə 24% və ya 432 milyon dollar artaraq 2.2 milyard dolları ötmüşdür. 2021-ci ildə isə ixracın həcmi 2020-ci il ilə müqayisədə 479 milyon dollar və ya 18% artaraq 3 milyard dolları ötmüşdür. Ümumilikdə, 2011 və 2021-ci illəri müqayisə etsək, Ermənistanda ixracın həcmi 2.26 dəfə artmışdır. Bu illər ərzində ixracın orta artım tempi 8.9% təşkil etmişdir [1, 2, 3].

Baxılan dövrdə idxal və ixracın həcmində baş verən oxşar dəyişikliklər ticarət dövriyyəsinin həcminin də oxşar formada dəyişməsinə gətirib çıxarmışdır. Belə ki, ticarət dövriyyəsinin həcmi də 2015 və 2020-ci illərdə əsaslı şəkildə azalmışdır. Bu azalma 2015-ci ildə 1.25 milyard dollar, 2020-ci ildə isə 1.07 milyard dollar səviyyəsində olmuşdur. Qalan illərdə isə ticarət dövriyyəsinin həcmi əvvəlki il ilə müqayisədə artmışdır. Xarici ticarət dövriyyəsinin ən aşağı həddi 2015-ci ildə (4.7 milyard dollar), ən yüksək həddi isə 2021-ci ildə (8.4 milyard dollar) müşahidə edilmişdir [1, 2, 3].

Son on ildə Ermənistanın xarici ticarət əlaqələrində idxal və ixracın səviyyəsi və onların artım tempi arasında olan fərq onu göstərir ki, bu illər ərzində Ermənistanda ticarət balansının böyük defisiti formalaşmışdır və bu, Ermənistan üçün əsas iqtisadi problemlərdən birinə çevrilmişdir. 2011-2016-cı illər ərzində ticarət defisitinin həcmində azalma müşahidə edilsə də 2017-ci ildən etibarən defisit yenidən artmağa başlamışdır. 2011-ci ildə ticarət defisiti 2.81 milyard dollar təşkil etmiş, 2016-cı ildə 1.48 milyard dollara qədər azalmışdır (Cədvəl 1). 2011-2016-cı illərdə defisitin orta illik azalma tempi təxminin 11% təşkil etmişdir. Bundan sonra ticarət defisiti artmağa başlamış və 2019-cu ildə 2011-ci ildəki səviyyəni ötərək 2.88 milyard dollara bərabər olmuşdur. 2020-ci ildə ticarət defisiti pandemiyanın iqtisadiyyata təsiri nəticəsində 2 milyard dollara qədər azalsa da 2021-ci ildə yenidən 15% və ya 319 milyon dollar artaraq 2.34 milyard dollara çatmışdır [5].

Ölkələrin xarici ticarət əlaqələrinin onun daxili iqtisadi proseslərinə təsirini müəyyən etmək üçün "ticarət açıqlığı əmsalı"ndan istifadə edilir. Bu əmsal hər hansı bir ölkənin ticarət dövriyyəsinin Ümumi Daxili Məhsula nisbəti əsasında hesablanır. Bu əmsalın alimlər tərəfindən qəbul edilmiş tərifinə əsasən əmsal nə qədər yüksək olarsa, bu xarici ticarət əlaqələrinin ölkə iqtisadiyyatına təsirinin bir o qədər güclü olduğunu və bu da həmin ölkənin iqtisadiyyatının daha davamlı olduğunu göstərir. Bu əmsalın əhəmiyyətini nəzərə alaraq, Ermənistanın xarici ticarət əlaqələrinin nə dərəcədə səmərəli olduğunu müəyyən etmək üçün son on ildə Ermənistanın ticarət açıqlığı əmsalının (TAƏ) dinamikasını nəzərdən keçirək.Ermənistanda TAƏ 2011-ci ildə 54% səviyyəsində olsa da 2015-ci ilə qədər tədricən azalaraq 45% səviyyəsinə düşmüşdür (Qrafik 1).Bundan sonrakı illərdə TAƏ artmağa başlamış və 2019-cu ildə 60% səviyyəsinə çatmışdır. 2020-ci ildə müəyyən qədər (4%) azalsa da 2021-ci ildə yenidən 60% səviyyəsinə qalxmışdır. 2020-ci ildə TAƏ-nin dünya ölkələri üzrə orta göstəricisi 52% təşkil etmişdir. Ermənistanın bu əmsalı 2020-ci ildə orta göstəricidən bir qədər yüksək olmuşdur [4]. Dünya üzrə orta göstərici ilə müqayisədə əmsalın bu səviyyəsi yaxşı sayılsa da Ermənistanda ticarət balansının defisitinin yüksək olması Ermənistanın xarici ticarət əlaqələrinin və iqtisadiyyatının davamlılığı ilə bağlı suallar doğurur. Ticarət defisitinin yüksək olması ölkədən valyuta axınının baş verməsinə və idxal edilən məhsullardan olan asılılığın yüksək olmasına gətirib çıxarır.

**Qrafik 1. Ermənistanın ticarət açıqlığı əmsalı**




*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi və Dünya Bankı.*

Buna baxmayaraq, Ermənistan ölkədaxili tələbatı ödəmək və zəruri məhsulların çatışmazlığının qarşısını almaq üçün idxalın tələb olunan səviyyəsini qorumağa məcburdur. Eyni zamanda, istehsal səviyyəsinin mövcud iqtisadi şərtlər daxilində artırılması imkanlarının çox olmaması ticarət defisitinin yüksək olaraq qalmasına gətirib çıxarır. Belə şərtlər daxilində TAƏ göstəricisi yaxşı olsa da Ermənistanda ticarətin iqtisadiyyatın davamlılığına şərait yaratdığını demək olmaz. TAƏ göstəricisi idxal və ixracın cəmi əsasında hesablandığından bu göstərici ticarət defisitinin ticarət əlaqələrində və ya iqtisadiyyatın inkişafında oynadığı rolu özündə ehtiva edə bilmir. Bu göstərici daha çox ticarət dövriyyəsinin iqtisadiyyatda rolunun nə dərəcədə olduğunu müəyyən etməyə imkan verir. Buna görə də Ermənistanın bu əmsalı yüksək olsa da onun ticarət defisitinin səviyyəsi iqtisadiyyat üçün əsaslı risklər daşıyır.

Ermənistanın xarici ticarət əlaqələrinin xarakterini və inkişaf səviyyəsini müəyyən etmək üçün bu əlaqələrin müxtəlif məhsullar baxımından strukturunu da nəzərdən keçirmək lazımdır. Bu, həm də Ermənistanda hansı istiqamətlər üzrə istehsal imkanlarının daha yüksək və ticarət əlaqələrinin strukturunun məhsullar baxımından nə dərəcədə çoxşahəli olduğunu müəyyən etməyə imkan verəcəkdir.

## 2. İdxalın strukturu

Son on ildə Ermənistanın idxalının strukturuna məhsul qrupları baxımından nəzər salsaq görərik ki, ən böyük paya mineral məhsullar sahib olmuşdur. Bu mineral məhsulların böyük hissəsini xaricdən, xüsusilə də Rusiyadan idxal edilən təbii qaz təşkil edir. Ermənistanın təbii qaz idxalının 85%-i Rusiyanın payına düşür ki, bu da idxalın 22%-dən çoxunu təşkil edir [8]. Son on ildə mineral məhsulların idxalda payının dinamikasına baxsaq, görərik ki, bu göstərici üzrə 2012-2018-ci illərdə azalma müşahidə edilsə də, bundan sonrakı dövrdə artıma meyilli olmuşdur. Belə ki, mineral məhsulların idxalda payı 2012-ci ildə 21.5% səviyyəsində olduğu halda 2018-ci ilə qədər tədricən azalaraq 14.5%-ə düşmüşdür (Cədvəl 2). Növbəti iki ildə yenidən artmağa başlamış və 2021-ci ildə 16.8% səviyyəsinə çatmışdır. Son üç ildə mineral məhsulların idxalda payının dinamikası idxalın ümumi dinamikasına uyğun şəkildə dəyişmişdir. Yəni, həm idxalın ümumi həcmi, həm də mineral məhsulların idxalda payı artmışdır. Baxılan dövrdə Ermənistanın idxalında ikinci ən böyük paya sahib olan məhsul isə maşınlar, avadanlıqlar və mexanizmlər olmuşdur. Bu məhsulların idxalda payı son on ildə əsasən artıma meylli olmuşdur. Yalnız 2019 və 2021-ci illərdə azalma müşahidə edilmişdir.

**Cədvəl 2. Ermənistanın xarici ölkələrdən idxalının strukturu**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mineral məhsullar | 19,8% | 21,5% | 19,9% | 19,4% | 19,7% | 17,8% | 15,7% | 14,5% | 14,7% | 16,4% | 17,5% |
| Qiymətli olmayan metallar və məhsulları | 7,9% | 7,3% | 6,8% | 7,4% | 7,7% | 6,7% | 7,1% | 6,9% | 6,3% | 7,9% | 7,3% |
| Qida məhsulları | 8,4% | 8,4% | 9,0% | 8,4% | 9,7% | 10,1% | 8,6% | 8,0% | 7,9% | 8,7% | 8,1% |
| Kimya sənayesi məhsulları | 7,3% | 7,7% | 8,2% | 7,9% | 9,4% | 10,0% | 9,9% | 7,9% | 8,5% | 9,1% | 8,5% |
| Bitki məhsulları | 5,8% | 6,1% | 5,6% | 5,4% | 5,9% | 5,0% | 4,7% | 40,6% | 4,2% | 5,6% | 5,4% |
| Qiymətli metallar və onlardan məhsullar | 5,2% | 4,2% | 6,7% | 6,8% | 3,6% | 4,9% | 5,7% | 5,8% | 5,4% | 3,2% | 4,6% |
| Maşınlar, avadanlıqlar və mexanizmlər | 13,7% | 14,1% | 13,2% | 13,5% | 12,8% | 14,3% | 15,3% | 18,8% | 15,6% | 19,0% | 16,8% |
| Digər | 31,9% | 30,8% | 30,6% | 31,1% | 31,1% | 31,0% | 32,9% | 33,7% | 37,4% | 30,1% | 31,8% |

*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi*

**Cədvəl 3. Ermənistanın xarici ölkələrə ixracının strukturu**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mineral məhsullar | 19,8% | 21,5% | 19,9% | 19,4% | 19,7% | 17,8% | 15,7% | 14,5% | 14,7% | 16,4% | 17,5% |
| Qiymətli olmayan metallar və məhsulları | 7,9% | 7,3% | 6,8% | 7,4% | 7,7% | 6,7% | 7,1% | 6,9% | 6,3% | 7,9% | 7,3% |
| Qida məhsulları | 8,4% | 8,4% | 9,0% | 8,4% | 9,7% | 10,1% | 8,6% | 8,0% | 7,9% | 8,7% | 8,1% |
| Kimya sənayesi məhsulları | 7,3% | 7,7% | 8,2% | 7,9% | 9,4% | 10,0% | 9,9% | 7,9% | 8,5% | 9,1% | 8,5% |
| Bitki məhsulları | 5,8% | 6,1% | 5,6% | 5,4% | 5,9% | 5,0% | 4,7% | 40,6% | 4,2% | 5,6% | 5,4% |
| Qiymətli metallar və onlardan məhsullar | 5,2% | 4,2% | 6,7% | 6,8% | 3,6% | 4,9% | 5,7% | 5,8% | 5,4% | 3,2% | 4,6% |
| Maşınlar, avadanlıqlar və mexanizmlər | 13,7% | 14,1% | 13,2% | 13,5% | 12,8% | 14,3% | 15,3% | 18,8% | 15,6% | 19,0% | 16,8% |
| Digər | 31,9% | 30,8% | 30,6% | 31,1% | 31,1% | 31,0% | 32,9% | 33,7% | 37,4% | 30,1% | 31,8% |

*Mənbə: Ermənistan Respublikasının Statistika Komitəsi*

Maşınlar, avadanlıqlar və mexanizmlər qrupuna aid olan məhsulların idxalda payı 2012-2015-ci illərdə cüzi azalmışdır və 12.8% səviyyəsinə düşmüşdür (Cədvəl 2). Daha sonra, 2018-ci ilə qədər artaraq 18.8% səviyyəsinə çatmışdır. 2021-ci ildə bu məhsulların idxalda payı 16.8% səviyyəsində olmuşdur. Bu məhsul qrupunun idxalda payının yüksək olması bu məhsulların istehsalının Ermənistanda demək olar

ki, olmaması ilə bağlıdır. Maşınqayırma və ağır sənaye sahələrinin inkişaf etmədiyi ölkələrin idxalında adətən bu məhsulların payı çox olur [1, 2, 3].

Ermənistanda qida sənayesinin inkişaf etməsinə baxmayaraq, hazır qida məhsulları da idxalın əsaslı hissəsini təşkil edir. Belə ki, statistik rəqəmlər göstərir ki, hazır qida məhsullarının Ermənistanın idxalında payının müəyyən dövrlərdə artıb və ya azalmasına baxmayaraq, son on ildə əsasən 8-9% ətrafında dəyişmişdir. Bu məhsul qrupunun idxalda payı mineral məhsullar, maşınlar, avadanlıqlar kimi məhsullardan fərqli olaraq çox böyük dəyişikliyə məruz qalmamışdır. Belə ki, hazır qida məhsullarının idxalda payı 2011-ci ildə 8.4%, 2015-ci ildə 9.7%, 2018-ci ildə 8%, 2020-ci ildə 8.7% səviyyəsində olmuşdur (Cədvəl 2)[1, 2, 3]. Bu məhsullar idxalda ən yüksək paya 2016-cı ildə malik olmuşdur (10.1%). 2021-ci ildə isə 8.1% səviyyəsində olmuşdur. Ermənistanın idxalında hazır qida məhsullarının payının çox olması bu ölkənin qida təhlükəsizliyinin təmin edilməsində idxal edilən məhsulların böyük paya malik olması ilə bağlıdır. Ermənistan yağ, şəkər məhsulları, konservləşdirlimiş ət məhsulları kimi məhsulları əsasən Rusiyadan idxal edir [7].

Qida təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyətə malik olan digər məhsul qrupu, yəni bitki məhsulları da Ermənistanın idxalında böyük paya sahib olan məhsullar sırasına daxildir. Lakin, bu məhsulların idxalda payı hazır qida məhsulları qədər yüksək deyildir. Belə ki, bitki məhsullarının idxalda payı son on ildə əsasən 5-6% ətrafında dəyişmişdir. Son illərə nəzər saldıqda isə görə bilərik ki, 2019-cu ildə bitki məhsullarının idxalda payı 4.2%, 2020-ci ildə 5.6%, 2021-ci ildə isə 5.4% səviyyəsində olmuşdur (Cədvəl 2). 2015-2019-cu illərdə bitki məhsullarının idxalda payı azalmaya meyilli olsa da son illərdə artmışdır. Ermənistanın idxalında bitki məhsullarının payının çox olması taxıl bitkilərinə olan tələbatın ödənilməsində idxal edilən məhsulların payının çox olması ilə bağlıdır. Nümunə üçün deyə bilərik ki, Ermənistan buğdaya olan tələbatının 99%-ni Rusiyadan idxal edilən buğda hesabına təmin edir.

Ermənistanın idxalında böyük paya sahib olan digər məhsullara isə qiymətli metallar və onlardan məhsullar, kimya sənayesi məhsulları, qiymətli olmayan metallar və onlardan hazırlanan məhsullar aiddir. 2021-ci ildə kimya sənayesi məhsullarının idxalda payı 8.5%, qiymətli metallar və onlardan hazırlanan hazırlanan məhsulların idxalda payı 4.6%, qiymətli metallar və onlardan məhsulların idxalda payı isə 8.1% səviyyəsində olmuşdur (Cədvəl 2). Bu məhsulların idxalda payı son on ildə də 2021-ci ildəki səviyyədən əsaslı şəkildə fərqlənməmişdir. Nəzərdən keçirdiyimiz dövrdə idxalda ən çox paya sahib olan məhsulların idxalda ümumi payı 2021-ci ildə 68% səviyyəsində olmuşdur. Ümumilikdə, idxalın strukturunun təhlili onu deməyə əsas verir ki, strateji əhəmiyyətə malik olan mineral, qida və bitki məhsulları idxalın əsaslı hissəsini təşkil edir və bu məhsullara olan tələbatın təmin edilməsində Ermənistanın idxaldan böyük asılılığı vardır.

### 3. İxracın strukturu

İdxalda olduğu kimi Ermənistanın ixracında da ən böyük paya sahib olan məhsullar mineral məhsullardır. Son on ildə bu məhsulların ixracda payı adətən 25%-dən, bəzi illərdə isə 30%-dən yüksək olmuşdur. Mineral məhsulların ixracda ən böyük paya sahib olduğu il 2015-ci il olmuşdur ki, həmin il bu göstərici 32.1% səviyyəsinə qədər artmışdır (Cədvəl 3). Ondan əvvəlki il isə bu göstərici ən aşağı səviyyədə, yəni 25% səviyyəsində olmuşdur. Son 2 ildə isə mineral məhsulların ixracda payı 30%-dən yüksək olmuşdur. 2021-ci ildə əvvəlki il ilə müqayisədə 1% azalaraq 31.1% səviyyəsinə düşmüşdür. Ermənistanın ixracında ikinci ən böyük paya sahib olan məhsul isə hazır qida məhsullarıdır. Bu məhsul qrupu idxalda da böyük paya sahib olan qruplardan olsa da idxal edilən və ixrac edilən hazır qida məhsulları fərqli məhsullardır. İxracda böyük paya sahib olan qida məhsullarına əsasən spirtli içkilər və koservləşdirilmiş meyvə və tərəvəz məhsulları aiddir. Son on ilə nəzər saldıqda görərik ki, hazır qida məhsullarının ixracda payı 2011-2014-cü illərdə sürətlə artmış, 2015-2019-cu illərdə bu artım davam etsə də daha zəif artım tempinə malik olmuşdur. 2019-cu ildə isə 24.3% səviyyəsinə qədər artmışdır. Bu, həm də son on ildə ən yüksək göstərici olmuşdur. Bundan sonrakı illərdə isə hazır qida məhsullarının ixracda payı azalmışdır. 2020-ci ildə bu göstərici 22.2%, 2021-ci ildə isə 14.4% olmuşdur [1, 2, 3].

Ermənistanın ixracında həm də qiymətli metallar və onlardan hazırlanan məhsullar əsaslı paya sahibdir. Bura əsasən mis, gümüş, molibden kimi metallar aiddir. Ermənistan bu ehtiyatlarla zəngindir və ona görə də mineral məhsullar ixracda böyük paya sahibdir. Bu məhsulların ixracda payı son on ildə sabit artım və ya azalma tempinə malik olmamış, illər üzrə fərqlənmişdir. Belə ki, qiymətli metallar və onlardan hazırlanan məhsulların ixracda payı 2011-ci ildə 13.8% səviyyəsində olduğu halda, 2013-cü ildə 12.7% səviyyəsinə qədər azalmışdır [3]. Daha sonra bu məhsulların ix-

racda payı 2016-ci ildə 18.8% səviyyəsinə qədər artsa da növbəti illərdə azalmışdır [2]. Azalma tempi son üç ildə də müşahidə edilmişdir və 2021-ci ildə 8.2% səviyyəsinə qədər düşmüşdür ki, bu da son on ilin ən aşağı göstəricisidir. Ermənistanın ixracında qiymətli metalların payının çox olması həm də onunla bağlı idi ki, Ermənistanın işğal etdiyi və qiymətli metallarla zəngin olan Azərbaycanın Qarabağ bölgəsində olan qiymətli metal yataqları qanunsuz şəkildə istismar edilirdi və daha sonra Ermənistanın məhsulu kimi xaricə ixrac edilirdi. 2020-ci ildə Azərbaycanın İkinci Qarabağ müharibəsində işğalda olan torpaqları azad etməsi Ermənistanın Qarabağda yerləşən qiymətli metal ehtiyatlarının böyük hissəsinə çıxış imkanını əlindən aldı. Elə buna görədir ki, 2021-ci ildə qiymətli metalların və onlardan hazırlanan məhsulların ixracda payı kəskin azalmışdır.

Qeyd edilən məhsullar ilə yanaşı, qiymətli olmayan metallar və onlardan hazırlanan məhsullar və tekstil məhsulları da Ermənistanın ixracında böyük paya sahib olan məhsullardır. Qiymətli olmayan metallar və onlardan hazırlanan məhsullar 2011-2013-cü illərdə hətta ixracda ikinci ən böyük paya sahib olan məhsul olmuşdur və sonrakı illərdə ixracda payı kəskin şəkildə azalmışdır. Belə ki, bu məhsul qrupunun ixracda payı 2011-ci ildə 27.4% səviyyəsində olsa da 2017-ci ildə 12.1% səviyyəsinə qədər azalmışdır. 2020-ci ildə isə 9% səviyyəsinə qədər düşmüşdür. Tekstil məhsullarının ixracda payı isə son on ildə əsasən artan tempə malik olmuşdur, yalnız 2019 və 2020-ci illərdə azalma müşahidə edilmişdir. Tekstil məhsullarının ixracda payı 2011-ci ildə 0.6% olduğu halda sonrakı illərdə tədriclə artaraq 2018-ci ildə 9.3%-ə çatmışdır. 2020-ci ildə 5.3%-ə qədər azalsa da 2021-ci ildə 10%-ə qədər artaraq son on ilin ən yüksək həddinə çatmışdır [2].

Son on ildə Ermənistanın ixracının strukturu və müxtəlif məhsul qruplarının ixracda payının dinamikası onu deməyə əsas verir ki, Ermənistan əsasən xammal və qida məhsullarının ixracını həyata keçirmişdir. Xammal şəklində ixrac edilən məhsullara əsasən qiymətli metallar, qiymətli olmayan metallar və mineral məhsullar aid olmuşdur. Bu üç məhsul qrupunun ixracda payı 2021-ci ildə 51.4% səviyyəsində olmuşdur. Ermənistanın ixracının bu məhsullardan asılı olması onun iqtisadiyyatını bu məhsulların dünya bazarlarında qiymətinin dəyişməsinə qarşı həssas edir. Ermənistan iqtisadiyyatında kənd təsərrüfatının da böyük paya sahib olması və işçi qüvvəsinin böyük hissəsinin bu sahədə çalışması ixracda hazır qida məhsullarının payının da yüksək olmasına gətirib çıxarmışdır.

**Nəticə**

Məqalədə aparılan təhlillər onu deməyə əsas verir ki, son on ildə Ermənistanın istər ixracının, istərsə də idxalının həcmi artıma meylli olmuşdur. Belə ki, 2011-2021-ci illərdə Ermənistanın xarici ölkələrdən idxalı orta hesabla illik 3.9% səviyyəsində artmışdır. Bu dövrdə ixracın orta illik artım tempi isə 8.9% təşkil etmişdir. Ümumilikdə, 2011 və 2021-ci illəri müqayisə etsək, Ermənistanda ixracın həcmi 2.26 dəfə artmışdır. Son on ildə Ermənistanın xarici ticarət əlaqələrində idxal və ixracın səviyyəsi və onların artım tempi arasında olan fərq xarici ticarət balansının böyük defisitinin formalaşmasına səbəb olmuşdur və bu Ermənistan üçün əsas iqtisadi problemlərdən birinə çevrilmişdir. Təkcə 2021-ci ildə Ermənistanın ticarət defisiti 15% və ya 319 milyon dollar artaraq 2.34 milyard dollara çatmışdır. Məqalədə eyni zamanda Ermənistanın ticarət açıqlığı əmsalı (TAƏ) nəzərdən keçirilmişdir. Ermənistanda bu əmsal dünya üzrə orta göstəricidən bir qədər yüksək olsa da ticarət balansının defisitinin yüksək olması Ermənistanın xarici ticarət əlaqələrinin və iqtisadiyyatının davamlı olduğunu deməyə imkan vermir.

Ermənistanın idxalının strukturuna gəldikdə isə mineral, qida və bitki məhsulları idxalın əsaslı hissəsini təşkil edir və bu məhsullara olan tələbatın təmin edilməsində Ermənistanın idxaldan böyük asılılığı vardır. İxracın strukturun təhlili isə onu göstərir ki, son on ildə Ermənistan əsasən xammal və qida məhsullarının ixracını həyata keçirmişdir. Xammal şəklində ixrac edilən məhsullara əsasən qiymətli metallar, qiymətli olmayan metallar və mineral məhsullar aid olmuşdur. Bu üç məhsul qrupunun ixracda payı 2021-ci ildə 51.4% səviyyəsində olmuşdur. Ermənistanın ixracının bu məhsullardan asılı olması onun iqtisadiyyatını bu məhsulların dünya bazarlarında qiymətinin dəyişməsinə qarşı həssas edir.

Ümumilikdə, Ermənistanın özünü işğal siyasəti ilə iqtisadi blokadaya salması və regional layihələrdən kənarda qalması onun iqtisadi inkişaf imkanlarını məhdudlaşdırmışdır. Bu da iqtisadiyyatın digər sahələri kimi, ticarət əlaqələrinin də inkişafına mane olmuşdur. İqtisadi inkişafın zəif olması istehsal imkanlarını azaltdığından ixrac imkanları da məhdudlaşmışdır. Bunun nəticəsidir ki, Ermənistanın idxaldan asılılığı artmış və böyük ticarət defisiti formalaşmışdır. İstehsal imkanlarının zəif olması həm də ixracın əsasən xammal formasında olan məhsullardan ibarət olmasına səbəb olmuşdur. Buna paralel olaraq strateji əhəmiyyətə malik olan mineral, qida və bitki məhsulları idxalın əsaslı hissəsini təşkil et-

mişdir. Bu isə Ermənistan iqtisadiyyatını bu məhsulların dünya bazarındakı qiymət dəyişikliklərinə qarşı həssas etmişdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Ermənistan Respublikasının Statistika Komitəsi, illik məcmuələr, xarici iqtisadi əlaqələri 2022, https://armstat.am/file/doc/99533523.pdf*

*2. Ermənistan Respublikasının Statistika Komitəsi, illik məcmuələr, xarici iqtisadi əlaqələri 2017, https://armstat.am/file/doc/99507803.pdf*

*3. Ermənistan Respublikasının Statistika Komitəsi, illik məcmuələr, xarici iqtisadi əlaqələri 2012, https://armstat.am/file/doc/99473898.pdf*

*4. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ticarət Açıqlığı (Trade openness), https://www.oecd-ilibrary.org/docserver/sti_scoreboard-2011-60-en.pdf?expires=1669637942&id=id&accname=guest&checksum=727EF3ED7E6B93B669B83A9C49F7E03E*

*5. Dünya Bankı, Ticarətin ÜDM-də payı (trade % of GDP), https://data.worldbank.org/indicator/NE.TRD.GNFS.ZS*

*6. Dünya Bankı, ölkələrin ÜDM-i (GDP),*

*7. Beynəlxalq Enerji Agentliyi, Bərpa olunan mənbələr və enerji səmərəliliyi Ermənistanın enerji idxalından asılılığını azalda bilər, https://www.iea.org/news/renewables-and-energy-efficiency-can-reduce-armenia-s-dependence-on-energy-imports-iea-policy-review-says*

*8. Eurasianet, Ermənistan və Rusiya ikitərəfli ticarətin dollarsızlaşdırılması üzərində işləyir, https://eurasianet.org/armenia-and-russia-working-to-dedollarize-bilateral-trade*

## XÜLASƏ

Məqalədə ilk olaraq Ermənistanın ticarət əlaqələrinin dinamikası nəzərdən keçirilir. Bu hissədə idxalın, ixracın, ticarət dövriyyəsinin və ticarət balansının dinamikası təhlil edilir və bunun əsasında ticarət əlaqələrinin inkişaf səviyyəsi müəyyən edilir. Birinci hissədə həm də Ermənistanın ticarət açıqlığı əmsalı (TAƏ) nəzərdən keçirilir və bunun əsasında ticarət əlaqələrinin nə dərəcədə davamlı olması müəyyən edilir. Məqalənin ikinci hissəsində isə Ermənistanın idxalının məhsul qrupları baxımından strukturu təhlil edilir və hansı məhsullardan asılılığın yüksək olduğu diqqətə çatdırılır. Məqalənin sonuncu hissəsində isə ixracın strukturu nəzərdən keçirilir və ixracın əsasını təşkil edən məhsullar müəyyən edilir.

**Açar sözlər:** *Ermənistanın xarici ticarət əlaqələri, Ticarət Açıqlığı Əmsalı, Ermənistanın idxalı, Ermənistanın ixracı.*

## RESUME

The article first examines the dynamics of Armenia's trade relations. In this part, the dynamics of import, export, trade turnover and trade balance are analyzed and the level of development of trade relations is determined based on this. In the first part, Armenia's trade openness coefficient (TAC) is also considered, and based on this, it is determined how sustainable trade relations are. In the second part of the article, the structure of Armenia's imports is analyzed in terms of product groups and it is pointed out which products are highly dependent on them. In the last part of the article, the structure of exports is reviewed and the products that form the basis of exports are determined.

**Key words:** *Armenia's foreign trade relations, Trade Openness Coefficient, Armenia's import, Armenia's export.*

## РЕЗЮМЕ

В статье впервые рассматривается динамика торговых отношений Армении. В этой части анализируется динамика импорта, экспорта, товарооборота и торгового баланса и на основе этого определяется уровень развития торговых отношений. В первой части также рассматривается коэффициент торговой открытости Армении (КОТ), и на его основе определяется, насколько устойчивы торговые отношения. Во второй части статьи анализируется структура импорта Армении по товарным группам и указывается, какие товары сильно зависят от них. В последней части статьи рассмотрена структура экспорта и определены товары, составляющие основу экспорта.

**Ключевые слова:** *внешнеторговые связи Армении, коэффициент открытости торговли, импорт Армении, экспорт Армении.*

UOT 331

ORCID: 0000-0002-3642-0512

# РОЛЬ АЛЬТЕРНАТИВНОЙ И ВОЗОБНОВЛЯЕМОЙ ЭНЕРГЕТИКИ В ЭНЕРГОКОМПЛЕКСЕ СТРАНЫ

**САМИРА ГУСЕЙНОВА**
*Бакинский Государственный Университет, докторант*

*E-mail: samira97@mail.ru*

В настоящее время энергетика является одной из неотъемлемых и важнейших составляющих человечества. Развитие научно-технического прогресса невозможно без энергетики и электрификации. Люди нуждаются в энергии, причем потребности в ней увеличиваются с каждым годом.

Энергетика является основой развития человеческого общества. Энергетические ресурсы используются как для промышленности, сельского хозяйства, транспорта, жилищно-коммунального хозяйства, так и для быстро растущего сектора информационных технологий и телекоммуникаций, а также других отраслей экономики.

Экономический рост всегда связан с увеличением производительности труда, а увеличение производительности труда в свою очередь связано с использованием новых технологий производства, работу которых обеспечивает энергетика. Не сложно сделать вывод, что существует прямая зависимость между производством и энергопотреблением, т.е. развитие производства приводит к росту потребления энергии. Для сохранения баланса между этими двумя показателями и для обеспечения резерва поддержания роста промышленности энергетика должна значительно (на 7-10%) опережать промышленность [2, стр207].

В Азербайджане в 2022 году на долю домашних хозяйств приходилось 44,6 процента конечного потребления энергии, на промышленность и строительство - 15,6 процента, на транспорт - 25,8 процента, на другие отрасли экономики - 14,0 процента. [6]

Для решения энергетической проблемы в Азербайджанской Республике, уменьшения зависимости от традиционных источников энергии приоритетным является эффективное использование всех видов энергетических ресурсов в комплексе, как невозобновляемых, так и возобновляемых, что обуславливает актуальность работ по созданию умных энергетических систем. В мире современная электроэнергетика рассматривается уже не как отрасль, а как система систем, включающая и «электрический мир» потребителя, и «умную» инфраструктурную сеть, и энергоинформационное объединение разнообразных источников генерации электроэнергии и объектов ее потребления. Основной целью электроэнергетики современного периода является экономическая, технологическая и социальная эффективность и надежность всей системы энергоснабжения на территории страны, то есть, реализуется концепция трех «Э» на основе комплексного энерго-эколого-экономического подхода

Энергетика будущего таким образом в последующем своем развитии должна решить три основных задачи:

• экономное использование невозобновляемых энергоресурсов (энергоресурсосбережение);

• эффективное использование энергии (с целью уменьшения потерь в процессе генерации, трансформации, передачи и потребления);

• увеличение использования возобновляемых (альтернативных ) энергоресурсов и стимулирование поиска новых источников энергии (развитие исследований по водородной энергетике и др).

Решение этих глобальных задач преследует три основные цели новой энергетической политики, сформулированные как:

• минимизация риска;

• защита климата;

•устойчивое развитие.

При создании эффективной системы производства, снабжения и потребления электроэнергии стоит учитывать следующие тенденции:

- непрерывный рост энергопотребления;

- увеличение требований к качеству услуг и надежности энергетического снабжения;

- использование более экологически чистых источников энергии и уменьшение отрицательного воздействия на природу;

- комбинирование концентрированной и распределенной генерации, т.е. развитие де-

централизованных и локальных систем энергоснабжения в комплексе с централизованным энергоснабжением от крупных ТЭЦ;

- широкое развитие использования в энергосистемах ВИЭ;

В следующей диаграмме наглядно можно увидеть данные энергозависимости и энергетической самодостаточности Азербайджана с 2012 по 2021 годы [6].




По статистическим данным можно сделать вывод, что Азербайджан полностью покрывает свою энергозависимость, а это в свою очередь подразумевает обеспечение энергетической безопасности страны.

В общей трактовке энергетическая безопасность – это состояние защищенности граждан, общества и государства от угрозы дефицита энергии и топливно-энергетических ресурсов, состояние общества и экономики, которое позволяет поддерживать необходимый уровень в энергопотреблении и совокупность условий, при которых отсутствует дефицит энергии. Несмотря на то, что обеспечивается энергетическая безопасность страны, встает вопрос про структуру производства энергетических ресурсов, а именно доля возобновляемой и альтернативной энергетики в общем балансе. За 2021 год доля электроэнергии из возобновляемых источников энергии составила лишь 5,8% из общего производства электроэнергии. [6]




В рамках национальных приоритетов социально-экономического развития «Азербайджан-2030» альтернативная энергетика представляет собой качественно новую модель энергетического развития национальной экономики и планируется увеличение доли альтернативных источников энергии от текущих 17 процентов до 30 процентов. Производство одного миллиарда киловатт-часов электроэнергии из возобновляемых источников энергии позволит ежегодно экономить около 245 миллионов кубометров природного газа [5].

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Родионов, В.Г. Энергетика: проблемы настоящего и возможности будущего / М.:ЭНАС, 2010 .— 344 с*

*2. М. М. Ковалев, А. С. Кузнецов. / Будущее белорусской энергетики на фоне глобальных трендов : моногр. / – Минск : Изд. центр БГУ, 2018. – 223 с.*

*3. Елистратов В. В. Возобновляемая энергетика. Изд. 3-е доп. – СПб.: Изд. Политехн. Ун-та, 2016. – 424 с.*

*4. Алиев Т.Н. / Восстановление экономики карабаха и восточного зангезура на основе коцепций устойчивого и инклюзивного развития/ The scientific heritage No 82 (2022)*

*5. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər." / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

*6. https://www.stat.gov.az/source/balance_fuel/*

## РЕЗЮМЕ

В статье рассматривается роль альтернативной и возобновляемой энергетики в энергокомплексе Азербайджана, отмечены проблемы в современном энергетическом балансе страны, а также даны пути решения данных проблем. Наглядно показаны данные энергозависимости и

энергетической самодостаточности Азербайджана за послeние 9 лет, а также доля электроэнергии из возобновляемых источников энергии в общем производстве электроэнергии. В статье делается вывод, что страна полностью покрывает свою энергозависимость, а это в свою очередь подразумевает обеспечение энергетической безопасности страны. Структура производства энергетических ресурсов, а именно доля возобновляемой и альтернативной энергетики в общем балансе недостаточно высока, но в рамках Национальных приоритетов «Азербайджан-2030» прогнозируется и ожидается повышение данного показателя.

**Ключевые слова:** *энергетика, альтернативная и возобновляемая энергетика, энергокомплекс, энергозависимость, энергетическая безопасность.*

**XÜLASƏ**

Məqalədə Azərbaycanın enerji kompleksində alternativ və bərpa olunan enerjinin rolundan bəhs edilir, ölkənin müasir enerji balansındakı problemlər, həmçinin bu problemlərin həlli yolları göstərilir. Azərbaycanın son 9 ildə enerji asılılığı və özünütəminatı göstəriciləri, eləcə də bərpa olunan enerji mənbələrindən əldə edilən elektrik enerjisinin ümumi elektrik enerjisi istehsalında xüsusi çəkisi aydın şəkildə göstərilir. Nəticədə, ölkə öz enerji asılılığını tam təmin edir və bu, öz növbəsində, ölkənin enerji təhlükəsizliyinin təmin olunmasını nəzərdə tutur. Enerji resurslarının istehsalının strukturu, yəni bərpa olunan və alternativ enerjinin ümumi balansda payı kifayət qədər yüksək olmasa da, “Azərbaycan-2030” Milli Prioritetləri çərçivəsində bu göstəricinin artması proqnozlaşdırılır və gözlənilir.

**Açar sözlər:** *enerji, alternativ və bərpa olunan enerji, enerji kompleksi, enerji asılılığı, enerji təhlükəsizliyi*

**SUMMARY**

The article discusses the role of alternative and renewable energy in the energy complex of Azerbaijan, points out the problems in the modern energy balance of the country, and also gives ways to solve these problems. The data of energy dependence and energy self-sufficiency of Azerbaijan over the past 9 years are clearly shown, as well as the share of electricity from renewable energy sources in total electricity generation. The article concludes that the country fully covers its energy dependence, and this, in turn, implies ensuring the energy security of the country. The structure of production of energy resources, namely the share of renewable and alternative energy in the overall balance, is not high enough, but within the framework of the National Priorities "Azerbaijan-2030", an increase in this indicator is predicted and expected

**Keywords:** *energy, alternative and renewable energy, energy complex, energy dependence, energy security*

**UOT 338.47**

# DISCUSSIONS ON CRYPTO ACCOUNTING AND ITS IMPACT ON FINANCIAL REPORTING

*ORCID: 0000-0002-0887-5210*

**SULTAN NIFTALIYEV**
*Azerbaijan State University of Economics (UNEC), PhD student*

*E-mail: sultanniftaliyev95@gmail.com*

Money has transformed from one form to another in the historical process. The commodity subject to exchange has turned into seashells, seashells into gold and silver money, gold and silver money, paper money, paper money, plastic money, plastic money into virtual money and finally crypto money. Cryptocurrency; It is a virtual currency traded electronically.

**Features:**

• They do not have physical assets.
• There is no center.
• Not controlled by any authority.

It provides a fast, low-cost and secure money transfer between the parties.

• In the crypto money system, money is not printed, money is discovered.

Accounting, taxation and auditing of cryptocurrencies are of great importance.

• Although in some countries, there is no legal legislation prepared for crypto money users in our country.

The existence of more than a thousand types of cryptocurrencies in the world has led to the formation of a stock market, and the interest in money has created a supply-demand balance and has caused it to be traded like a security, thanks to the increase in value and decrease in value.

• The fact that it is very difficult to follow this currency causes illegal activities to be carried out. In short, by using this currency, you can evade taxes and facilitate bribery and favor.

• Countries do not prohibit this money on the one hand, and on the other hand do not say that you can use it.

There are more than a thousand types of cryptocurrencies in the world. The 8 most used ones are given below.

• Bitcoin. BTC.
• Ethereum. ETH.
• Binance Coin. BNB.
• Tether. USDT.
• cardano ISLAND.
• Solan. LEFT.
• XRP. XRP.
• polkadot DOT.

### Taxation of Cryptocurrencies

There is no legal regulation on taxation of cryptocurrencies.

Cryptocurrency transaction is subject to income or corporate tax, depending on the seller's liability status. Since there is a good or service here, the VAT issue also arises.

Cryptocurrency Accounting

There is no legal guideline describing how to make payments and collections with cryptocurrencies. Money structurally, it is considered to be an intermediary for payment, collection and some functions.

These cryptocurrencies; Accounting should be carried out by taking into account how these monies are used.

When we think of crypto money as a payment tool;

Opening a new sub-account can be deducted under the 10 Stock Values group. It is true that virtual currencies have a unique exchange in which their value increases and decreases. In this respect, it is appropriate that they can be recorded as foreign currencies are accounted for. In this case, an account such as a gold crypto money safe of 100 safe accounts can be opened. “The foreign exchange gain or loss” on the foreign exchange account numbered 611, which is used in the increase or decrease in the value of the foreign currency, is transferred to the accounting records. Expenses incurred in the transfer, purchase and sale of cryptocurrencies can be tracked in the 611.10 “Commission Expenses” Account.

Example for companies that account crypto-assets like inventory:

1 Bitcoin on 01.01.2023 = 30 000 AZN

5 bitcoins were purchased.

On 15.01.2023 1 Bitcoin = 35 000 AZN

3 Bitcoin Converted To AZN on 15.03.2022

1 Bitcoin on 31.01.2023 = 40 000 AZN

The First transaction for accounting Cryptocurrency inflow to the firm for Azerbaijani Companies is:

DR 207 "Other inventory" 150 000 AZN

CR 601 "Revenue" 150 000 AZN

Company decided to convert 3 bitcoin cryptocurrencies to AZN on 15.01.2023:

DR 223 "Bank account" 105 000 AZN

CR 207 "Other inventory" 90 000 AZN

CR 611-8 "Foreign Currency gain" 15 000 AZN

The remaining 2 bitcoin will be in inventory and their price will be 60 000 AZN. In the closing balance it can be reassessed and the gain or loss for the bitcoin can be accounted. In the end of year the cryptocurrencies have to be evaluated and the gain or loss has to be recognized. Let`s say that on 31.12.2023 cryptocurrencies market price is 40 000 AZN. Then the remaining portion of bitcoins have to be accounted in new price. This changes will amend the balance sheet and Profit or loss account. In the end of year bitcoins impairment things has to be accounted:

DR 207 "Other inventory" 20 000 AZN

CR 611 "Gain for impairment" 20 000 AZN

Overall the closing balance bitcoin amount will be 80 000 AZN, not 60 000 AZN. And this gain will be accounted in "Profit or loss statement" and "Statement of Financial Position". This accounting purpose is for the companies who intend to use cryptocurrencies in short term. If the cryptocurrencies are used for long term, then we can recognize them in intangible assets or stocks.

So company decided to use them as a long term asset and account them in financial asset account:

DR 181 "Investing or financial asset"

Cr 223 "Bank account"

And so if the conversion takes place, then the previous accounting has to be placed. Impairment and gain or loss has to be recognized also.

### Control of Cryptocurrency

It is important to reach accurate and reliable information that the information can be seen by everyone at any time and that it is not possible to make any unannounced changes in the transactions on the network.

The lack of a centralized structure of the blockchain and the fact that the people who trade cryptocurrencies cannot be detected are among the factors that prevent auditing.

It is not possible to track cryptocurrencies trading cryptocurrencies or used for other purposes, and to identify users. It is stated that the creation of smart contracts may be more appropriate in terms of auditing.

Blockchain = blockchain

Each node in the decentralized blockchain constantly organizes new data into blocks and chains them together in an "add-only" mode. This add-only structure is an essential part of blockchain security. No one on any node can modify or delete data in previous blocks, only add it to the chain. The fact that the chain is splicable is one of the key security features of blockchain.

### BLOCK CHAIN = BLOCKCHAIN TRADING

• The computer is connected to the processing network.

• As each transaction takes place, a data "block" is recorded

• These transactions show the movement of a product or an intellectual property.

Data block can record selected information: who, what, when, where, how much and even in what situation

Each block is linked to its predecessors and subsequent ones.

• As an asset moves from one place to another or changes ownership, these blocks form a data chain. Blocks verify the exact time and order of transactions. The blocks are securely connected to each other to prevent any block being changed or another block being inserted between two existing blocks.

• Transactions are blocked in an irreversible chain (blockchain).

• Each additional block strengthens the verification of the previous block and therefore the entire blockchain. This provides a fundamental strength of immutability, giving the blockchain a tamper-evident structure. This creates a transaction ledger that you and other network members can trust, eliminating the possibility of a malicious user's interference.

## Result

Apart from being a medium of exchange, crypto money can be an investment tool, can be bought and sold, decentralized, etc. The subject of the study is the question of how businesses that have crypto money or operate with this type of money will account for crypto money. In this study, the opinions and suggestions about how to account for cryptocurrencies are discussed. It has been seen that the global accounting institutions and organizations that have expressed their opinions on this subject mainly agree on the classification of cryptocurrencies as intangible assets. However, considering the business model in which cryptocurrencies are held, it has been suggested that it would be appropriate to register them in other stocks that are not within the scope of IAS 2. cryptocurrencies, It has been determined that there is a consensus on the issue of cash and cash equivalents and not having the characteristics of a financial instrument. But cryptocurrencies held for short term will be accounted in inventories for IAS 2. It has been suggested that the value over which cryptocurrencies will be measured should be determined according to whether they are intangible assets or to be held by an intermediary in order to benefit from short-term price fluctuations and to be recognized in the other stocks class.

## SOURCE


*1. Gökgöz, A. and Dizkırıcı, S.A (2018). Cryptocurrencies and bitcoin accounting in Turkey. Journal of Accounting, Finance and Auditing Studies, 92–105.*

*2. Kaplanhan, F. (2018). Evaluation of crypto money in terms of Turkish legislation. The Bitcoin Case Journal of Tax Issues. 353, 105–123.*

*3. Kizil, E. (2019). Taxation and accounting of crypto money in Turkey. Financial Solution, 29(155), 179–196.*

*4. Serçemeli, M. (2018). Accounting and taxation of cryptocurrencies. Financial, Political & Economic Commentaries, 33–66.*

*5. Yalcin, S. (2019). Accounting for crypto exchange instruments. Journal of Accounting and Finance, (81), 101–120.*

*6. Softer, M. (2019). Cryptocurrency and its types, bitcoin phenomenon and accounting. International Journal of Society Research, 9(12), 1008–1029.*


## SUMMARY


Cryptocurrencies, which have been mentioned the most in the global economy in recent years, are increasing their usage areas day by day. One of the problems arising from the economic definition and use of these assets is the accounting of these assets. With the definition of the said assets, they need to be aligned with the accounting information system depending on the purpose of use and the retention period. In this thesis, Blockchain technology, which is the technology that enables the use of these assets, is mentioned. Then, how these assets are defined in Turkey and other states and how they should be accounted for is investigated.



**Key words:** *Cryptocurrency, accounting, plastic money,spherical.*

UOT: 336.69:339.76:338.22.01

# QLOBAL ŞƏRAİTDƏ İQTİSADİYYATIN İNKİŞAFININ TƏMİN OLUNMASINDA MALİYYƏ BAZARLARININ ROLU

**TÜRKAN NƏBİYEVA**
*Bakı Dövlət Universitetinin*
*"Dünya iqtisadiyyatı" kafedrasının doktorantı*

*E-mail: tnabiyeva23@gmail.com*

Müasir dövrdə maliyyə bazarının öyrənilməsi kifayət qədər aktualdır, çünki o, istənilən dövlətin maliyyə sisteminin ən vacib hissəsidir. Maliyyə bazarının əsas məqsədi, ilk növbədə, cəmiyyətin maddi və pul fondlarının bir-biri ilə əlaqəli və balanslaşdırılmış şəkildə hərəkətini təmin edən mexanizm olmasıdır. Həmçinin maliyyə bazarı iqtisadiyyatın səmərəliliyinin şərti və kapitalın sektorlararası daşınması mexanizmi kimi çıxış edir. Müvəqqəti boş pul vəsaitlərinin müxtəlif təsərrüfat subyektləri arasında bilavasitə yenidən bölüşdürülməsinə gəlincə, bu, müvafiq maliyyə aktivləri ilə əməliyyatlar əsasında reallaşdırılır. Maliyyə bazarının fəaliyyətinin obyektiv şərti müəyyən subyektin maliyyə resurslarına olan tələbatı ilə bu ehtiyacı ödəmək üçün mənbələrin mövcudluğu arasında uyğunsuzluğu aradan qaldırmaqdır. Belə ki, bir qayda olaraq, bəzi qurumların vəsaitləri var, digərlərinin isə onlara ehtiyacı var.

İqtisadi nəzəriyyədə pulun vasitəçiliyi ilə (ümumbəşəri ödəniş vasitəsi kimi) müxtəlif növ maddi və qeyri-maddi sərvətlərin mübadiləsində baş verən münasibətlərin bütün məcmusu maliyyə bazarı adlanır. Bəzi iqtisadi əmtəələrin digərləri ilə dəyişdirilməsi, bəzi ölkələrin valyutasının digərlərinin valyutası ilə dəyişdirilməsi, qiymətli kağızlarla ticarət, borc vermək və s. - bütün bunlar müasir maliyyə bazarında həyata keçirilən əməliyyatların çeşidləridir. Əməliyyatların miqyasına görə maliyyə bazarını iki əsas kateqoriyaya bölmək olar: 1. Milli maliyyə bazarı və 2. Beynəlxalq maliyyə bazarı. Milli bazarda əməliyyatlar vahid dövlətin ərazisində həyata keçirilir. Müvafiq olaraq, o, tamamilə milli qanunvericiliyə tabedir. Beynəlxalq bazar isə bütün ayrı-ayrı milli maliyyə bazarlarının məcmusundan başqa bir şey deyil və buna görə də heç bir ayrı-ayrı dövlətin qanunlarına tabe ola bilməz (onun bu məqsədlər üçün xüsusi olaraq yaradılmış beynəlxalq normaları, qaydaları və standartları var). İstənilən maliyyə bazarı aşağıdakılara üstünlük verir: 1) Beynəlxalq ticarət; 2) İnvestorlar və treyderlər üçün investisiya və qazanc; 3) Müxtəlif şəxslər, şirkətlər və hətta hökumətlər arasında qiymətli aktivlərin mübadiləsi; 4)Risklərin idarə edilməsi (hedcinq); 5) Kapital axtaranları (borcalanları), ona sahib olanları və onu artırmaq istəyənləri (investorları) birləşdirmək; 6) Maddi kapitalın toplanması və onun artırılması. Maliyyə bazarı ÜDM-in əsasını təşkil edir və o, həm də ölkədə baş verən iqtisadi proseslərə güclü təsir göstərir. Maliyyə bazarının funksiyalarına gəlincə, klassik ədəbiyyatda aşağıdakı funksiyalar fərqləndirilir: qiymətli kağızların satışı ilə sərbəst vəsaitlərin səfərbər edilməsi; istehsal prosesinə investisiya qoyuluşu; iqtisadiyyatı cilovlamaq üçün resursların yenidən bölüşdürülməsinə köməklik; iqtisadiyyatın səmərəliliyinin artırılması; maliyyə aktivlərinin qiymətlərinin formalaşması; məlumatlandırıcı. İlk öncə, maliyyə bazarı maksimum səmərəliliyə nail olmaq üçün həmin bazar iştirakçıları arasında sonradan yenidən bölüşdürülməsi üçün müvəqqəti sərbəst pul vəsaitlərinin və digər aktivlərin toplanmasına hesablanıb. Burada maliyyə bazarının rolu əhalinin əmanətlərini və müəssisənin resurslarını real sektorda investisiyalara çevirməkdən ibarətdir. Maliyyə resurslarının yenidən bölüşdürülməsi ən çox dünya maliyyə mərkəzlərində, maliyyə xidmətləri göstərən və ya tələb edən təşkilatların mərkəzlərində (banklar, birjalar, maliyyə və sığorta şirkətləri və s.) reallaşdırılır [1, s.274]. Maliyyə bazarını formalaşdırarkən qiymətli kağızlar bazarına xüsusi diqqət yetirilir, çünki maliyyə bazarı və xüsusilə qiymətli kağızlar bazarı və ya fond bazarı bütövlükdə bütün maliyyə sisteminin və iqtisadiyyatın vəziyyətinin çox mühüm göstəricisidir. Müxtəlif bazar iştirakçıları ilə qiymətli kağızlarla əməliyyatlar aparmaqla zəruri maliyyə resurslarının toplanması və onların yenidən bölüşdürülməsi imkanlarının təmin edilməsi qiymətli kağızlar bazarının əsas məqsədlərindəndir. İnvestisiyalaşdırma üçün müvəqqəti sərbəst maliyyə resurslarının səfərbər edilməsi, təkrar bazarın inkişafı, beynəlxalq standartların tələblərinə cavab verən müxtəlif bazar infrastrukturlarının formalaşdırılması, marketinq tədqiqatlarının aktivləşdirilməsi, idarəetmə sisteminin və bazar mexanizminin təkmilləşdirilməsi və digərləri həmin bazarların əsas vəzifələrindəndir [2, s.36].

Qeyd edək ki, Azərbaycanda maliyyə bazarının inkişafı məqsədilə onun əsas tərkib elementlərindən hesab olunan qiymətli kağızlar bazarında özünütənzimləyici təşkilatların formalaşdırılması böyük önəm daşıyır. Belə institutlar təkcə bir çox ölkələrdə də mövcuddur ki, bu da həmin ölkələrin qiymətli kağızlar bazarının daha sürətli və sağlam inkişafına və beynəlxalq maliyyə bazarlarına sürətli inteqrasiyasına münbit şərait yaradır. Azərbaycanda qiymətli kağızlar bazarının inkişafı məqsədilə zəruri olan mühüm tədbirlərdən biri qiymətli kağızlara dövlət zəmanət sisteminin tam formalaşdırılması ilə bağlıdır. Bu problemin həlli ölkədə özəl şirkətlərə kredit verilməsi prosesində dövlət qiymətli kağızlarının girov kimi istifadəsinə imkan verə bilər [3, s.14]. Qiymətli kağızlar bazarının səmərəli şəkildə formalaşdırılması məqsədilə onun institusional bazasının yaxşılaşdırılması və inkişaf səviyyəsinin yüksəldilməsi, tənzimləyici mexanizmlərinin bu sahədə böyük təcrübəyə malik dünya ölkələrinin tənzimləyici mexanizmlərinə uyğun təkmilləşdirilməsi və həmin bazarların beynəlxalq standartlara uyğunlaşdırılması, iqtisadiyyatda kapitallaşma dərəcəsinin yüksəldilməsi, beynəlxalq maliyyə bazarlarına inteqrasiyasına şəraitin formalaşdırılması əsas vəzifələrdəndir [4, s.58]. Maliyyə bazarlarında qiymətli kağızlarla bağlı xidmətlərin tərkib və strukturunun genişləndirilməsi, əhalinin və sahibkarlıq subyektlərinin bu xidmətlər və onların effektivliyi, artıq müəyyən edilmiş strateji məqsəd və prioritet inkişaf vəzifələrinin reallaşdırılması barədə maarifləndirilməsi istiqamətində tədbirlər görülməlidir. Bu baxımdan, mövcud maliyyə mexanizmlərinin maksimum dərəcədə təkmilləşdirilməsinə və ya yenilənməsinə xüsusi diqqət yetirilməlidir [5, s.45].

Müasir şəraitdə maliyyə bazarında əsas rollardan birini maliyyə vasitəçiləri oynayır. İstənilən ölkənin maliyyə sisteminə aşağıdakı maliyyə vasitəçiləri daxildir: 1) Banklar; 2) İnvestisiya fondları; 3) Sığorta şirkətləri; 4) Brokerlər; 5) Pensiya fondları və s. Maliyyə vasitəçiləri əhəmiyyətli miqdarda pul toplayırlar, buna görə də onlar ölkə iqtisadiyyatına ən mühüm investisiya mənbəyidirlər. İnvestor öz imkanlarından və üstünlüklərindən asılı olaraq istər müstəqil, istərsə də vasitəçinin köməyi ilə investisiya edə bilər. Birbaşa sərmayə qoyuluşu zamanı investor hansı investisiya obyektinin investisiya üçün uyğun, hansının uyğun olmadığına özü qərar verir, bununla bağlı riskləri öz üzərinə götürür [6, s.74]. Maliyyə vasitəçilərinin yerinə yetirdiyi funksiyaları nəzərdən keçirək: 1) maliyyə resurslarına tələb və təklifi tənzimləməklə maliyyə bazarında tarazlığı təmin etmək; 2) bazarın tələblərinə uyğun maliyyə alətləri yaratmaq; 3) miqyas iqtisadiyyatı vasitəsilə tranzaksiya xərclərini azaltmaq; 4) əmanətçilərin risklərinin diferensiallaşdırılmasını həyata keçirmək, habelə onların azaldılmasını təmin etmək; 5) maliyyə bazarında asimmetrik məlumat problemlərini həll etmək; 6) peşəkar aktivlər portfelinin idarə edilməsi xidmətlərinin göstərilməsi vasitəsilə maliyyə alətlərinin likvidliyinin artmasına gətirib çıxarmaq. Göründüyü kimi, maliyyə vasitəçiləri ən mühüm funksiyanı yerinə yetirirlər, yəni investor və ya əmanətçi olan fiziki və hüquqi şəxslərin müvəqqəti boş pul vəsaitlərinin genişləndirilmiş təkrar istehsal üçün bu resurslara ehtiyacı olan fiziki və ya hüquqi şəxslərə səmərəli şəkildə yenidən bölüşdürülməsini təmin edirlər. Nəticədə maliyyə vasitəçilərinin inkişafı iqtisadiyyatın digər sahələrinin formalaşmasına və inkişafına təkan verir. Deməli, maliyyə vasitəçilərinin olması cəmiyyətdə iqtisadi proseslərin stabil inkişafına kömək edir.

Qeyd edək ki, bank istənilən ölkənin iqtisadiyyatında əsas maliyyə vasitəçilərindən biridir. Banklar ölkənin sosial və iqtisadi inkişafında həlledici rol oynayır. Bəzi şəxslərin artıq vəsaitlərini toplayır, digər şəxslərə də kredit verir. Bankın gəliri, ilk növbədə, əhalidən alınan əmanətlər və verilən kreditlər arasında faiz dərəcələri fərqi hesabına formalaşır. Banklar da kredit götürə və kreditlə təmin edə bilər, həmçinin qiymətli kağızlara investisiya qoya bilər. Bankların iqtisadiyyatda funksiyaları bunlardan ibarətdir: vəsaitlərin sonradan kredit kapitalına çevrilməsi ilə ölkə iqtisadiyyatında toplanması; ölkə əhalisinin əmanət yatırmağa stimullaşdırılması; kreditləşmədə vasitəçilik; ödəniş əməliyyatlarında vasitəçilik; informasiya və məsləhət xidmətlərinin göstərilməsi və fond bazarında vasitəçilik. Banklara xas olan müəyyən rolun yerinə yetirilməsi müvafiq əməliyyatların reallaşdırılması ilə mümkün olur. Müasir şəraitdə banklar təkcə öz ölkəsi daxilində deyil, həm də onun hüdudlarından kənarda bir çox proseslərdə iştirak edir ki, bu da onlara müxtəlif maliyyə bazarlarında xarici iqtisadi və müxtəlif qiymətli kağızlarla əməliyyatlarda fəal iştirak etməyə imkan verir [7, s.27]. İstənilən bankın əsas fəaliyyəti bank xidmətlərinin göstərilməsidir. Bank xidməti dedikdə, müştərinin tələbatını ödəyən bank əməliyyatlarının məcmusu

başa düşülür. Bank əməliyyatı adı altında isə müştərilərə xidmət göstərmək və bankın öz ehtiyaclarını ödəmək üçün bank işçilərinin sifarişli və məntiqi tamamlanmış hərəkətlər toplusu başa düşülür. Bankın rolu və maliyyə bazarındakı yeri daha çox onun maliyyə sabitliyi, müştərilərə müxtəlif maliyyə xidmətləri göstərmək, müxtəlif səviyyələrdə müxtəlif problemləri həll etmək qabiliyyəti ilə müəyyən edilir.

Azərbaycanda banklar maliyyə bazarının əsas iştirakçılarından olduğundan onların mövcud vəziyyətinin təhlili böyük maraq doğurur (bax: şəkil 1).




**Şəkil 1. Azərbaycanda maliyyə bazarının əsas iştirakçıları (mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumat bazası əsasında müəllif tərəfindən tərtib edilib).**

Şəkil 1-dən göründüyü kimi, Azərbaycanda maliyyə bazarının əsas iştirakçılarından olan bankların sayında azalma əsasən özəl bankların sayında artım olmuşdur. Belə ki, 2016-cı ildə özəl bankların sayı 30 olduğu halda, artıq 2022-ci ildə onların sayı 23-ə düşmüşdür [8]. Özəl bankların əsas hissəsini xarici kapitallı banklar təşkil etmişdir. Banklar ölkənin bütün kredit sisteminin səmərəliliyinə təsir göstərir [9, s.70]. Bankların vəzifəsi firma və şirkətlərə ticarət və ya istehsal dövrünün maliyyələşdirilməsini, onların strateji və cari məqsədlərinə nail olunmasını təmin etməkdən və uzunmüddətli fəaliyyətinə zəmanət verən ödəniş, nağd pul, sığorta, investisiya xidmətləri göstərməkdən ibarətdir. Banklar fərdi müştərilərə uzunmüddətli fərdi məqsədlərə nail olmağa töhfə verən gündəlik kredit və maliyyə xidmətləri göstərir. Bankların Mərkəzi Bankla qarşılıqlı əlaqəsi ölkənin maliyyə sisteminin vəziyyətinə sistemli nəzarəti həyata keçirmək imkanı verir. Bundan başqa, banklar hökumət və dövlət orqanlarının səmərəli iqtisadi siyasət aparması alətlərindən biridir. Bundan əlavə, banklar qiymətli kağızlar, ödəniş sənədləri, çeklər, səhmlər, veksellər, akkreditivlər, istiqrazlar buraxa, qiymətli kağızları və ödəniş sənədlərini alıb saxlaya bilər. Banklar həmçinin valyuta əməliyyatları həyata keçirə, həm ölkə daxilində, həm də xaricdən qiymətli daşlar, metallar ala bilərlər.

Məlumdur ki, maliyyə institutları maliyyə bazarının əsas oyunçularıdır. Qlobal iqtisadiyyatda kapitalın hərəkəti sərbəst olduğundan maliyyə institutları qlobal miqyasda borc alma, borc vermək, investisiya qoymaq və maliyyə xidmətləri göstərmək funksiyalarını reallaşdırmaq məqsədilə aparıcı maliyyə mərkəzlərində öz bölmələrini yaratmaq imkanı əldə edirlər. Beləliklə, maliyyə bazarlarının qloballaşmasına innovasiyaların tətbiqi proseslərində əsas rol maliyyə institutlarına verilir, çünki innovasiya onların rəqabət mübarizəsinin tərkib hissəsinə çevrilir [10, s.39]. Maliyyə bazarında başqa xidmətlər göstərən qurumlar da var. Amma bu qurumlar həm də sərbəst nağd pulun investisiyaya çevrilməsinə öz töhfəsini verir. Bu təşkilatlara növbətilər daxildir: 1) qiymətli kağızlar bazarının brokerlər, dilerlər, depozitarlar, qəyyumlar və s. kimi peşəkar iştirakçıları; 2) faktorinq və forfeytinq şirkətləri; 3) lizinq şirkətləri; 4) fond və valyuta birjaları.

Milli maliyyə bazarlarında hansı maliyyə vasitəçilərinin üstünlük təşkil etməsi baş verən əməliyyatların xüsusiyyətlərindən asılıdır. Məsələn, ABŞ, Yaponiya, Kanada maliyyə bazarında fond bazarı, Çin, Almaniya, İsveçrənin maliyyə bazarında isə bank vasitəçiliyi üstünlük təşkil edir. Azərbaycanda isə kredit tipli maliyyə vasitəçilərinin inkişafı ən xarakterikdir.

Ümumiyyətlə, ölkənin maliyyə bazarının əsas elementi kimi bank sektorunun fəaliyyət göstərməsi dövlət tərəfindən ən ciddi şəkildə tənzimlənməlidir, çünki banklar milli valyutanın sabitliyini və təhlükəsizliyini öz iqtisadi fəaliyyətindən asılı vəziyyətə salırlar.

Bazar iştirakçıları arasında maliyyə aktivlərinin ticarəti müxtəlif maliyyə institutlarının vasitəçiliyi ilə baş verir. Bazarın fasiləsiz işləməsini, investorlar arasında yeni investorların yerləşdirilməsini təmin edənlər məhz onlardır. Maliyyə bazarında geniş çeşiddə xidmət göstərən çoxlu sayda maliyyə vasitəçilərinin olması onlar arasında rəqabətin güclənməsinə və beləliklə, müxtəlif növ maliyyə xidmətlərinin qiymətlərinin aşağı düşməsinə şərait yaradır. Maliyyə vasitəçiləri maliyyə bazarının zəruri iştirakçılarıdır, investorlara maliyyə aktivlərinə vəsaitlərin ope-

rativ şəkildə qoyulmasını və vəsaitlərin investisiya prosesindən çıxarılmasını təmin edirlər. İnvestisiya tələb edən bazar iştirakçılarına maliyyə vasitəçiləri öz rəqabətli mövqelərinə uyğun ödəniş müqabilində vəsaitlərdən istifadə etməyə kömək edirlər. Borcalanın bazarda rəqabətli mövqeyi nə qədər yüksəkdirsə, maliyyə resurslarından istifadə haqqı da bir o qədər aşağı olur.

Deməli, maliyyə vasitəçiliyinin inkişafı daxili maliyyə bazarının restrukturizasiyasında ən mühüm perspektivli istiqamətdir. Azərbaycanda balanslaşdırılmış və səmərəli maliyyə vasitəçiliyi mexanizminin yaradılması da vacibdir. Maliyyə vasitəçiliyinin inkişafı kapitalın səmərəli yenidən bölüşdürülməsinə, habelə maliyyə resurslarının təklifinin genişlənməsinə səbəb olmalıdır. Maliyyə vasitəçiliyinin inkişafı aşağı risk səviyyəsini təmin edən, etibarlı nəzarət sistemi və düzgün maliyyələşdirmə ilə, eləcə də şəffaflıq siyasəti, iştirakçılar tərəfindən məlumatların tam şəkildə açıqlanması ilə təmin edilən sistemin fəaliyyətinə töhfə verir.

## YEKUN

Beləliklə, maliyyə bazarlarını müasir iqtisadiyyatın hərəkətverici qüvvəsi və mexanizminin əsası adlandırmaq olar. Onlar nə qədər koordinasiyalı və səmərəli işləsələr, iqtisadiyyat bir o qədər sürətlə inkişaf edər. Bu baxımdan, maliyyə bazarlarının inkişafı zəruridir ki, bunun üçün də bir qrup tədbirlərin görülməsi zərurəti diqqət çəkir:

1. Maliyyə xidmətləri istifadəçilərinin hüquqlarının qorunması və ölkə əhalisinin maliyyə savadlılığının yüksəldilməsi.
2. Əhali, sahibkarlar üçün maliyyə xidmətlərinin əlçatanlığının artırılması.
3. Qiymətli kağızlar bazarının və kreditləşmənin inkişafı;
4. Maliyyə bazarının tənzimlənməsinin təkmilləşdirilməsi, o cümlədən proporsional tənzimləmənin tətbiqi, maliyyə bazarı iştirakçılarının üzərinə düşən tənzimləmə yükünün optimallaşdırılması;
5. Maliyyə bazarında elektron və innovativ qarşılıqlı fəaliyyət mexanizmlərindən istifadənin stimullaşdırılması və s.

**Açar sözlər:** *qlobal şərait, iqtisadiyyat, maliyyə, maliyyə bazarları, maliyyə xidmətləri, iqtisadiyyatın inkişaf problemləri.*

## ƏDƏBİYYAT:


*1. Машкина, Н.А. Международные финансовые рынки. Особенности финансового рынка России / Н.А. Машкина, О.В. Асеев, Н.Б. Черных // Вестник Курской государственной сельскохозяйственной академии. – 2018. № 9, – с. 273-279.*

*2. Məmmədova, N.A. Azərbaycanda qiymətli kağızlar bazarı və onun inkişaf perspektivləri. Audit – 2021. 4 (34), – s.35-46.*

*3. Nasıyeva, A.M. Qloballaşma şəraitində maliyyə bazarlarının müasir vəziyyəti və inkişaf istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, – Bakı, 2018,–26 s.*

*4. Kərimova, G.R. Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri. Audit 3 (2020), Cild 29, – s. 53-64.*

*5. Aslanov, E.Ş. Azərbaycanda qiymətli kağızlar bazarının inkişaf etdirilməsinin aktual problemləri və perspektivləri. Audit № 4, Cild 26, 2019, – s.37-48.*

*6. Улыбина, Л.К. Финансовые посредники и их роль в развитии финансового рынка / Л.К. Улыбина, К.А. Татаренко // Вектор экономики. – 2020. № 12(54), – с. 74*

*7. Дуйшеналиева, З.Т. Роль банков в развитии финансового рынка / З.Т. Дуйшеналиева, А.С. Сталбекова // Известия Иссык-Кульского форума бухгалтеров и аудиторов стран Центральной Азии. – 2020. № 4(31). – с. 26-33.*

*8. Azərbaycan Respublikası Mərkəzi Bankı.- https://www.cbar.az/page-188/credit-institutions.*

*9. Озерова, Э.К. Пути повышения эффективности функционирования коммерческого банка / Э.К. Озерова, У.М. Абдылдаева //. – 2020. № 4(31), – с. 70-74.*

*10. Сорокоумов, В.С. Глобализация мировых финансовых рынков / В. С. Сорокоумов, Ю.С. Жаркова // Проблемы науки. – 2018. № 8(32), – с. 38-41.*


## РЕЗЮМЕ
## РОЛЬ ФИНАНСОВЫХ РЫНКОВ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

В статье исследована роль финансовых рынков в обеспечении экономического развития в условиях глобализации. Раскрыта сущность

формирования и развития финансовых рынков. Отдельно анализирован рынок ценных бумаг как одна из составляющих финансового рынка. Рассмотрены финансовые посредники, которые играют ключевую роль в интенсификации развития финансовой системы страны в целом. Систематизированы функции финансовых посредников и определены особенности их деятельности. Отмечено значение мер, направленных на развитие банковской системы, функции банков и виды основных банковских услуг. Анализированы основные участники финансового рынка Азербайджана и рассмотрено расширение финансовых услуг в стране с учетом глобальных воздействий. Подготовлен ряд предложений и рекомендаций по рассматриваемым проблемам.

**Ключевые слова:** *глобальная среда, экономика, финансы, финансовые рынки, финансовые услуги, проблемы развития экономики.*

## SUMMARY
## THE ROLE OF FINANCIAL MARKETS IN ECONOMIC DEVELOPMENT IN THE CONTEXT OF GLOBALIZATION

The article explores the role of financial markets in ensuring economic development in the context of globalization. Disclosed is the essence of the formation and development of financial markets. Separately, the securities market is analyzed as one of the components of the financial market. Financial intermediaries which are a key role in intensifying the development of the country's financial system as a whole are considered. The functions of financial intermediaries are systematized and the peculiarities of their activities are determined. The importance of measures aimed at the development of the banking system, the functions of banks and the types of basic banking services is noted. The main participants of the financial market of Azerbaijan are analyzed and the expansion of financial services in the country taking into account global impacts is considered. A number of proposals and recommendations are prepared on the issues under consideration.

**Keywords:** *global environment, economy, finance, financial markets, financial services, problems of economic development.*

UOT 332.1; 332.122(1-21)

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İSTEHSAL POTENSİALI GÖSTƏRİCİLƏRİ

**AYTAC ƏLİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-maila: aliyeva.aytac1600@gmail.com*

## GİRİŞ

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində istehsal potensialının göstəricilərinə dair hər bir araşdırma günümüzdəki geosiyasi bir şəraitdə olduqca aktual sayılmaqdadır. Artıq bir çox ölkələrdə və regionlarda getdikcə xatırlanan bir faktdır, ölkəmiz igid ordumuz sayəsində 2020-ci ildə öz qədim torpaqlarını 30 illik müddətdən sonra Ermənistan işğalından azad etmişdir. Bu ərazilərdə möhkəmlənmə və nəzarət prosesi işləri tamamlandıqca istehsal potensialının qiymətləndirilməsi işğaldan azad edilmiş ərazilərimizin Azərbaycan iqtisadiyyatına uğurlu reinteqrasiyası məqsədi ilə mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad olunan ərazilərin müxtəlif təbii ehtiyatlarla və faydalı qazıntılarla zənginliyi faktoru Azərbaycanın iqtisadi artımını əhəmiyyətli dərəcədə yüksəldə bilmək potensialını formalaşdırır. Hamımıza aydındır ki, işğal müddəti ərzində bu ərazilərdə infrastruktura ciddi ziyan dəymişdir və bu infrastrukturun yenidən qurulması üçün iri həcmdə investisiyalar lazım olacaqdır. İşğaldan azad edilmiş rayonlarımızda təbii ehtiyatların mövcudluğu, infrastrukturun cari vəziyyəti, yerli işçi qüvvəsinin bacarıq və təcrübəsi kimi istehsal potensialı göstəricilərinin qiymətləndirilməsi ərazinin restrukturizasiyası və tərəqqisi üçün universal bir strategiyanın işlənib hazırlanmasına gətirib çıxaracaqdır. Əlavə olaraq, həmin bölgənin istehsal potensialı yalnızca ölkəmizin iqtisadiyyatının tərəqqisi deyil, həm də ümumilikdə regional inkişaf baxımından da əhəmiyyətlidir. Beləliklə, bu mövzu hazırkı geosiyasi kontekstdə yüksək aktuallıq kəsb edir və bu sahələrin istehsal potensialının qiymətləndirilməsi onların Azərbaycan iqtisadiyyatına uğurlu reinteqrasiyası baxımından əhəmiyyət kəsb etməkdədir.

Ümumilikdə bir istehsal təşkilatının sabit fəaliyyəti məhz onun maliyyə resurslarının sabitliyi hesabına formalaşır. Firmaların bazar mövqelərinin müəyyənedici əsas faktoru da məhz odur. İstehsal prosesi məhz cəmiyyətin var olması və tərəqqisi məqsədi ilə zəruri sayılan müəyyən maddi nemətlər formalaşdırmaq üçün insanların təbiətin substansiyasına olan təsirləri fəaliyyətidir (7).

İstehsal prosesinin təşkil edilməsinin birbaşa olaraq mahiyyətindən doğan bazis vəzifələri məhz aşağıda sadalananlardır (7):

- istehsal prosesinin ayrı-ayrı maddi elementləri arasında kommunikasiyanın yaranması;
- istehsalın maddi elementləri ilə onun fərdi elementləri arasında kommunikasiyanın təminatı;
- istehsal prosesinə cəlb edilən insanların bir-birləri ilə kommunikasiyasının formalaşdırılması.

Ölkəmizin iqtisadiyyatı 2020-ci ildə dünyanı öz cənginə alan koronavirus pandemiyasının təsirlərindən artıq 2 ilə yaxındır ki özünü bərpa edib desək, yanılmarıq. Ötən (2022) ilin birinci altı ayı, yanvar-iyun ayları ərzində Azərbaycan tərəfindən başqa ölkələrlə təxminən 25 milyard ABŞ dolları həcmdə ticarət əməliyyatları icra olunmuşdur və müvafiq rəqəm öncəki ilin (2021) həmin dövrü ilə müqayisədə təqribi olaraq 75 % çoxdur. 2022-ci il yanvar-iyun aylarında "xarici ticarət dövriyyəsi"nin məhz təqribi 18,5 milyard ABŞ dolları qədər olan hissə ixracın payına, təxminən 6,5 milyard ABŞ dolları qədər olan hissəsi isə idxalın payına düşmüşdür. Ümumilikdə, 06.2021 tarixindən 06.2022 tarixinədək olan dövr ərzində ölkəmizdəki idxal təxmini olaraq 18 % qalxmış, ixracımız isə 2 dəfəyə yaxın artmışdır (12).

İşğaldan azad olunan regionumuzda istehsalın və istehsal müəssisələrinin fəaliyyətinin bərpası üçün mövcud potensialı qiymətləndirmək məqsədi ilə sözügedən ərazilərimizdə sənayenin cari statistik göstəricilərinin təhlilinin aparılması zəruridir. Növbəti cədvəlin əsasında "regionlar üzrə sənayedə fəaliyyət göstərən şirkətlərin sayı" göstəricilərinə istinadən həm Şərqi Zəngəzur və həm də Qarabağ iqtisadi rayonlarının müvafiq göstəricilərini təhlil edək (9).

**Cədvəl 5: "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlar üzrə sənayedə fəaliyyət göstərən müəssisələrin ümumi sayı".**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu** | **65** | **71** | **74** | **78** | **85** |
| Ağdam rayonu | 10 | 10 | 12 | 12 | 14 |
| Füzuli rayonu | 12 | 14 | 12 | 13 | 14 |
| Xocavənd rayonu | 2 | 2 | 2 | 3 | 3 |
| Şuşa rayonu | 1 | 1 | 2 | 2 | 3 |
| Xocalı rayonu | - | 1 | 1 | 1 | 1 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **10** | **14** | **14** | **13** | **12** |
| Cəbrayıl rayonu | 3 | 4 | 4 | 3 | 3 |
| Qubadlı rayonu | 2 | 2 | 2 | 2 | 2 |
| Kəlbəcər rayonu | 1 | 1 | 1 | 1 | 2 |
| Zəngilan rayonu | 2 | 2 | 2 | 2 | 2 |
| Laçın rayonu | 2 | 5 | 5 | 5 | 3 |

*Mənbə: (9) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldəki məlumatlara görə, son 5 ilin göstəricilərinə əsasən müvafiq regionlarda fəaliyyət göstərən müəssisələrin ümumi saylarında dinamik bir artım müşahidə edilə bilir. Qarabağ iqtisadi regionunda ümumi sənaye üzrə şirkətlərin sayında 2021-ci ildə 2017-ci illə müqayisədə təxminən 31%-lik artım müşahidə olunub. Sözügedən müqayisəyə əsasən, Şərqi Zəngəzur iqtisadi regionunda məhz 20% yüksəliş olmuşdur (9).

Ağdam rayonunda əsas istehsal perspektivi məhz şərabçılıqla bağlıdır. Hacıyev C.G. (2021) qeyd edir ki, ümumilikdə, Ağdam rayonunda olan şərab sənayesi bir vaxtlar həm sürətli və həm də şaxələndirilmiş yüksəlişə nail olmuşdur. Müvafiq şirkətlərin hazırladıqları məhsullar mövqelərini masa şərabı formasında qoruyub saxlayırdı. Ağdam şərabının keyfiyyət baxımından seçilən bir məhsul olaraq tanınmasının yüksəlməsinə görə bu rayonda şərab sənayesində yüksəlişin bundan sonra da davam edəcəyini gözləyə bilərik. Müvafiq rayonda əkilmiş üzümlüklərin, şərab zavodlarının və şərab satışlarının sayının artması ilə birlikdə sənayenin tərəqqisini əks etdirmişdir (1).

Hacıyev C.G. (2021) belə qənaətə gəlir ki, yaxın 5 ildə Ağdam rayonuna investisiya əhəmiyyətli dərəcədə artacaqdır (1). Əlbəttə ki, müəllifin bu fikri ilə razılaşmamaq olmaz.

**Cədvəl 6: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlar üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manatla ifadədə".**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu** | **24415** | **28253** | **24173** | **20153** | **194776** |
| Ağdam rayonu | 12693 | 12609 | 13731 | 13105 | 23812 |
| Xocavənd rayonu | 381 | 225 | 598 | 648 | 544 |
| Xocalı rayonu | - | 1 | 1 | 1 | 1 |
| Şuşa rayonu | 7 | 8 | 8 | 15 | 657 |
| Tərtər rayonu | 11334 | 15411 | 9836 | 6385 | 12163 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **4442** | **2823** | **2991** | **2543** | **7888** |
| Cəbrayıl rayonu | 3910 | 2171 | 2251 | 2050 | 4891 |
| Kəlbəcər rayonu | 225 | 253 | 248 | 224 | 353 |
| Qubadlı rayonu | 35 | - | - | - | - |
| Laçın rayonu | 214 | 376 | 492 | 268 | 2644 |
| Zəngilan rayonu | 58 | 22 | - | - | - |

*Mənbə: (10) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Beləliklə, "sənaye üzrə məhsulun dəyəri" hər iki regionda son 5 il müddətində dinamik və stabil artım tendensiyası göstərib. Qarabağ regionunda 2021-ci ildə bu artım 2017-ci ildəkinin 7 misli qədər olmuşdur, hansı ki, 2020-ci illə müqayisədə isə 9,6 dəfə artmışdır. Ağdam rayonunda 2021-ci ildə 2017 illə müqayisədə təxminən 2 dəfəyə yaxın bir yüksəliş tendensiyası görülmüşdür. Şuşa üzrə "sənayedə ümumi məhsul dəyəri" 2019-da 8.000 AZN olmuşdur, hansı ki, bu göstərici 2020-ci ildə 15.000-ə və 2021-ci ildə isə 657.000 AZN-ə yüksəlmişdir (10).

Şərqi Zəngəzur rayonu üzrə isə qeyd edilən göstərici 2021-ci ildə 2017-ci illə müqayisədə 1,78 dəfə yüksəlmişdir. Bu, 2020-ci illə müqayisədə 3,1 dəfə artım deməkdir. İqtisadi regionda artım üzrə lider olan və həcm göstəricisinə görə isə ikinci olan Laçın rayonudur, hansı ki, burada qeyd edilən göstərici üzrə 2021-ci ildə 2017-ci illə müqayisədə təxmini olaraq 13 dəfəyə yaxın artım müşahidə edilmişdir (10). Aşağıdakı cədvəldən isə sözügedən regionlar üzrə sənaye məhsulunun həcmində "qeyri-dövlət sektorunun xüsusi çəkisi" göstəricisini nəzərdən keçirək.

**Cədvəl 7: "Qarabağ və Şərqi Zəngəzur üzrə sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, % ilə ifadədə".**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu** | **29** | **36** | **50** | **47** | **66** |
| Ağdam rayonu | 2 | 2 | 3 | 5 | 38 |
| Füzuli rayonu | 20 | 21 | 31 | 31 | 47 |
| Xocalı rayonu | - | - | - | - | - |
| Xocavənd rayonu | 21 | 53 | 78 | 55 | 57 |
| Şuşa rayonu | 100 | 100 | 100 | 100 | 2 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **1** | **7** | **11** | **6** | **62** |
| Cəbrayıl rayonu | 0 | 0 | 0 | 0 | 50 |
| Kəlbəcər rayonu | 0 | 0 | 0 | 0 | - |
| Qubadlı rayonu | 100 | - | - | - | - |
| Laçın rayonu | 0 | 51 | 64 | 57 | 92 |
| Zəngilan rayonu | - | - | - | - | - |

*Mənbə: (11) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Göründüyü kimi, "işğaldan azad olunan ərazilərimizdə sənaye məhsulunun həcmində özəl sektorun payı" get-gedə artmaqdadır. 2017-ci ildə Qarabağ iqtisadi rayonu üzrə bu göstərici 29% və Şərqi Zəngəzur üzrə 1 % idisə, 2021-ci ildə müvafiq olaraq 66% və 62% təşkil etmişdir. Qarabağ iqtisadi rayonunda 57%-lə Xocavənd rayonu və Şərqi Zəngəzur iqtisadi regionu üzrə isə 92%-lə Laçın rayonu üstünlük təşkil edir. Beləliklə, deyə bilərik ki, sözügedən ərazilərimizin dirçəldilməsi, bərpasında təkcə dövlət idarələri deyil, məhz özəl sektor müəssisələri də rol oynayır. Və bildirməliyik ki, özəl sektoru üzrə kiçik, mikro və orta müəssisələrin bu göstəriciyə nail olması prinsipcə və praktiki olaraq mümkün deyil, ona görə də həmin regionun inkişafında əsas rol oynayan məhz iri sənaye müəssisələri olmuşdur. Bundan başqa qeyd edilməlidir ki, "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" əsasən hazırda analiz edilən müvafiq bölgələrdə fəaliyyət göstərməkdə olan şirkətlərə və fərdi sahibkarlara müvafiq ödənişlərdə - sosial sığorta, kommunal, vergi və s. müəyyən güzəştlər tətbiq edilir, habelə onların maliyyə resurslarına çıxış əldə edib rəqabətədavamlı olmaları üçün də dövlət tərəfindən müxtəlif formalarda stimullar verilir (8).

Beləliklə, məqalədə edilən təhlillər onu göstərir ki, işğaldan azad edilən ərazilərimizin istehsal perspektivləri yüksəkdir və təkmilləşdirilməsi üçün daha innovativ layihələrin icrasını və daha geniş dövlət proqramlarının tərtibatını tələb edir.

**Açar sözlər:** *sənaye, istehsal, Qarabağ iqtisadi regionu, Şərqi Zəngəzur.*

## ƏDƏBİYYAT SİYAHISI:


1. Hacıyev C.G. "Ağdam rayonunda istehsal müəssisələrinin bərpası". Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları, 2021, 171-175.
2. Həsənov H. Tikinti materialları istehsalı müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətində idarəetmənin təkmilləşdirilməsi xüsusiyyətləri. Turan-Sam, 2011, 3(9), səh.68-72.
3. Hümbətova A.R. "İstehsal müəssisələrində xərclər uçotunun əhəmiyyəti". Konfrans materialları, 2021, səh.228-229.
4. İsgəndərli F.İ. "İşğaldan azad olunan torpaqlarda investisiya qoyulmalı olan sahələr və perspektivləri". Konfrans materialları, 2021, səh.236-237.
5. Kərimova N.E. "İstehsal prosesində keyfiyyətin təmin edilməsi mərhələləri". Konfrans materialları, 2021, səh.126-127.
6. Mahmudova İ.M. "Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişaf perspektivləri". Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu, respublika elmi konfransı, Sumqayıt, 2020, səh.348-353.
7. Касперович С.А., & Коновальчик Г.О. (2012), "Организация производства и управление предприятием учебное пособие". Минск : БГТУ, 2012, 344 стр.
8. https://e-qanun.az/framework/48628
9. https://www.stat.gov.az/source/industry/az/020.xls
10. https://www.stat.gov.az/source/industry/az/021.xls
11. https://www.stat.gov.az/source/industry/az/023.xls
12. https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e72368_az.html


## ПОКАЗАТЕЛИ ПРОИЗВОДСТВЕННОГО ПОТЕНЦИАЛА НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Исследование показателей производственного потенциала на освобожденных территориях Азербайджанской Республики считается очень актуальным в сегодняшней геополитической ситуации. Во многих странах и регионах все чаще вспоминают факт, что благодаря нашей храброй армии наша страна освободила свои древние земли от армянской оккупации в 2020 году после 30-летнего периода. Поскольку в этих районах завершаются работы по укреплению и кон-

тролю, оценка производственного потенциала имеет большое значение для успешной реинтеграции наших освобожденных территорий в экономику Азербайджана. Именно фактор богатства этих территорий различными природными ресурсами и полезными ископаемыми формирует потенциал для значительного увеличения экономического роста Азербайджана. Всем нам ясно, что инфраструктура в этих районах серьезно пострадала в период оккупации, и для восстановления этой инфраструктуры потребуются большие инвестиции. Оценка показателей производственного потенциала, таких как наличие природных ресурсов, текущее состояние инфраструктуры, навыки и опыт местной рабочей силы в наших освобожденных регионах, приведет к разработке универсальной стратегии реструктуризации и развития территория. Кроме того, производственный потенциал этого региона важен не только для развития экономики нашей страны, но и для развития региона в целом. Таким образом, данная тема весьма актуальна в современном геополитическом контексте, а оценка производственного потенциала этих территорий важна с точки зрения их успешной реинтеграции в экономику Азербайджана.

**Ключевые слова:** *промышленность, производство, Карабахский экономический регион, Восточный Зангезур.*

## INDICATORS OF PRODUCTION POTENTIAL IN THE LIBERATED TERRITORIES

A research on the indicators of the production potential in the liberated territories of the Republic of Azerbaijan is considered very relevant in today's geopolitical situation. It is a fact that is increasingly being remembered in many countries and regions, thanks to our brave army, our country liberated its ancient lands from Armenian occupation in 2020 after a 30-year period. As the strengthening and control process works are completed in these areas, the assessment of the production potential is of great importance for the purpose of successful reintegration of our liberated territories into the economy of Azerbaijan. It is the factor of richness of these areas with various natural resources and minerals that forms the potential to significantly increase the economic growth of Azerbaijan. It is clear to all of us that the infrastructure in these areas was seriously damaged during the occupation period, and large investments will be needed to rebuild this infrastructure. The assessment of indicators of production potential, such as the availability of natural resources, the current state of infrastructure, the skills and experience of the local workforce in our liberated regions, will lead to the development of a universal strategy for the restructuring and development of the territory. In addition, the production potential of that region is important not only for the progress of our country's economy, but also for regional development in general. Thus, this topic is highly relevant in the current geopolitical context, and the assessment of the production potential of these areas is important in terms of their successful reintegration into the economy of Azerbaijan.

**Keywords:** *industry, production, Karabakh economic region, Eastern Zangezur.*

UOT 336.71; 336.72;
347.732; 336.77; 368

# SIĞORTA ŞİRKƏTLƏRİNİN RƏQƏMSALLAŞDIRILMASI GÖSTƏRİCİLƏRİNİN SIĞORTANIN ARTIM DİNAMİKASINA TƏSİR DETERMİNANTLARININ TƏHLİLİ

**CEYHUN MƏMMƏDLİ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: ceyhunmammadl@gmail.com*

## GİRİŞ

Metodiki və praktiki aspektdə, sığorta Azərbaycan iqtisadiyyatının real və maliyyə sektorları ilə müqayisədə yeni bir sahəsidir. Bu və digər obyektiv səbəblərdən ölkəmizdə bu sahənin inkişafı bir sıra Avropa ölkələrinə nisbətdə xeyli geri qalır. Bazarda sığortanın hərtərəfli inkişaf etməməsi və nəticədə arzuolunan bir səviyyədə olmaması əhalinin sığorta xidmətlərindən istifadə etməsinə də öz neqativ təsirini göstərir. Lakin buna baxmayaraq, ölkədə inkişaf etmiş və strukturlaşmış sığorta sektorunun yaradılmasına hər zaman ehtiyac vardır. Qeyd etmək vacibdir ki, sığorta məhsul və xidmətlərinin yüksək səviyyədə göstərilməsi və bunun nəticəsi olaraq əhalinin məmnunluğunun təmin olunması hər bir sığorta şirkətinin başlıca məqsədidir. Məhz bu səbəbdən Azərbaycanın sığorta şirkətlərində rəqəmsallaşma göstəricilərinin səviyyəsinin artırılması əsasında sığorta bazarının idarəetmə və tənzimlənmə keyfiyyətinin təkmilləşdirilməsi bu gün aktual məsələlərdən biri sayılır.

İctimai praktikada sığorta fondunun üç əsas təşkilati forması inkişaf etmişdir ki, onun resurslarına mülkiyyət subyektləri dövlət, ayrı-ayrı təsərrüfat subyektləri və sığortaçıdır. Bu baxımdan dövlət mərkəzləşdirilmiş sığorta (ehtiyat) fondu, istehsalçının risk fondu (özünü sığorta) və sığortaçının sığorta fondu ayrılır (2).

Dövlət mərkəzləşdirilmiş sığorta (ehtiyat) fondu milli mənbələrdən nağd və pul şəklində formalaşır. Natura şəklində daim bərpa olunan məhsul, mal, xammal, yanacaq, qida və s. ehtiyatlarını təmsil edir, pul şəklində maliyyə ehtiyatları (qızıl, zərgərlik və s.) şəklində çıxış edir. Bu fondun məqsədi zərərin ödənilməsini təmin etmək, təbii fəlakətlərin və böyük qəzaların nəticələrini aradan qaldırmaqdır. İstehsalçı risk fondu dedikdə, hər bir təsərrüfat subyekti tərəfindən mərkəzləşdirilməmiş qaydada, bir qayda olaraq, təbii ehtiyatlar şəklində ayrı bir fondun yaradılması başa düşülür. Aqrosənaye kompleksində toxum və digər təbii fondlar, özəl sahibkarlıqda - əlverişsiz iqtisadi şəraitdə bu cür fəaliyyətləri təmin edən fondlar, müştərilər tərəfindən çatdırılan məhsullar üçün ödənişlərin gecikməsi, habelə bank kreditləri və kreditlər üzrə faiz ödənişləri formalaşır.

Sığortaçının sığorta fondu, sığortalıların fondlarından mərkəzləşdirilməmiş şəkildə formalaşır, çünki sığorta haqları hər biri tərəfindən ayrıca ödənilir. Sığorta fondunun xərcləri ciddi şəkildə hədəflənir və sığortaçı tərəfindən müəyyən edilmiş sığorta qaydalarına və şərtlərinə uyğun olaraq sığorta məbləğlərinin (fərdi sığorta) və zərərin (əmlak sığortası) ödənilməsi üçün nəzərdə tutulmuşdur (7).

Sığorta xidmətləri bazarının səmərəli işləməsi daxili iqtisadiyyatın mütərəqqi inkişafının sistemdaxili amillərindən biridir. Eyni zamanda, iqtisadi sahədə Azərbaycan cəmiyyətinin qarşısında duran vəzifələrin uğurla həlli üçün dünya iqtisadi münasibətləri sisteminə daxil olmasının effektiv mexanizmlərinin formalaşdırılması vacibdir (2).

Əvvəl qeyd etdiyimiz kimi, sığorta bazarının tərəqqisi digər iqtisadi sektorların inkişafı ilə bilavasitə əlaqəlidir ki, bu inkişafı reallaşdıran başlıca amillər kimi ölkənin sosial-iqtisadi durumunu, sığorta şirkətlərinin maliyyə potensialını, göstərilən sığorta məhsul və xidmətlərinin səviyyəsini, bu sahədə peşəkar mütəxəssislərin mövcudluğunu, sığorta fəaliyyətini tənzimləyən qanunvericilik normalarını, o cümlədən sağlam rəqabət mühitinin yaradılmasını göstərə bilərik.

İndi iqtisadiyyatın dinamik inkişaf etməsi üçün geniş və daha dolğun informasiyaya tələb artır. Son zamanlar daha yüksək inteqrasiya edilmiş sistemdə Biq datanın müxtəlif sferalarda olan iqtisadi, statistik analitik və sosial informasiyanın artması və mürəkkəbliyi müşahidə edilir. Bu tendensiya sığorta şirkətlərində də özünü göstərir. Ümumiyyətlə, informasiya texnologiyalarının istifadəsi ilə qarşıya qoyulan məqsəd və vəzivələrə daha tez və daha asan çatmaq olur. İnformasiya texnologiyalarının, o cümlədən rəqəmsallaşmanın iqtisadiyyata gətirdiyi nailiyyətlər isə, sözsüz ki, çox yüksəkdir. Bu baxımdan, sığorta şirkətlərinin informasiya texnologiyaları vasitəsilə inkişafı mühüm əhəmiyyət daşıyır.

Beynəlxalq inteqrasiya proseslərində, xarici ölkələr arasında beynəlxalq maliyyə sahəsində əməkdaşlıq, əhali və biznes üçün ən əlverişli şəraitin yaradılması və buna görə də davamlı iqtisadi artımın təmin edilməsi üçün müsbət imkanlarla yanaşı, risklərin davamlı və sistemli qiymətləndirilməsini və bu cür proseslərlə əlaqəli xarici çağırışlara vaxtında cavab verilməsini zəruri edir. Rəqəmsal texnologiyaların istifadəsi sığorta proqramlarının rəqabət qabiliyyətində yeni amillərin yaranmasına səbəb olur (3).

Ölkəmizin maliyyə bazarında son illərdə təkcə elektron bankçılıq xidmətlərindən istifadədə müsbət dinamika müşahidə edilməkdir. 2020-ci il bank müştərilərinin cari hesabları üzrə aparılan köçürmələrin sayında 75.20%-i və həcmində isə 61.60%-i məhz e-bankçılıq vasitəsilə reallaşdırılmışdır.

**Qrafik 1: Cari hesablar üzrə müştəri köçürmələrinin strukturu (həcm üzrə, %)**




*Mənbə: https://uploads.cbar.az/assets/cf20ce4afe57-62718226b3dc0.pdf, məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Ölkəmizdə kart infrastrukturu üzrə 2019-2021-ci illər ərzində mühüm irəliləyişlər baş vermişdir. Belə ki, 2021-ci il tarixinə qədər ölkədə fəaliyyət göstərən banklar, eləcə də poçt rabitəsinin milli operatorunun emissiya olunmuş ödəniş kartlarının ümumi sayı 9,6 milyon ədəd olmuş, habelə bu kartların 39%-i isə təmassız kartlardır. Ödəniş kartlarının ümumi sayında 2019-2021-ci illə müqayisədə 44%, həmçinin təmassız kartların sayında isə 5.5 dəfə artım olmuşdur.

| İlkin formalı polipropilen | 104,3 | 85,25 % | - | Pomidor | 150,8 | 7,25 % | - |
| Meşə fındığı | 95,1 | - | 5,65 % | Metanol (metil spirti) | 120,7 | 58,60 % | - |
| Karbamid | 93,4 | 937,7 % | - | Meşə fındığı | 93,7 | - | 1,47 % |
| Xurma | 91,5 | 40,98 % | - | Xurma | 89,5 | - | 2,18 % |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 88,7 | 134,65 % | - | İlkin formalı polipropilen | 84,8 | - | 18,69 % |
| Metanol (metil spirti) | 76,1 | 65,07 % | - | Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 84,6 | - | 4,62 % |

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır (https://www.stat.gov.az/).*

vestisiya axınının təşviqi və dövlət sektoruna yardım 2025-ci ilə qədər Azərbaycanın iqtisadi artım proqnozlarının əsas təməl daşını təşkil edir. Azərbaycan 2025-ci ilə qədər qlobal bazarlara, texnologiyalara və Dördüncü Sənaye İnqilabının maliyyəsinə bərabər çıxış imkanı verən rəqabət mühiti yaradacaqdır. Qeyd edək ki, gələcək perspektivdə Azərbaycanda yerli şirkətlərin böyüməsini və xarici investorların beynəlxalq normalara uyğun əməliyyatlarını dəstəkləyən biznes mühiti inkişaf etdirilməsi hədəflər daxilindədir. Biznes əməliyyatları üçün dünya standartlarına nail olmaq, əlverişli investisiya şəraitini təşviq etmək və qlobal dəyər zəncirlərinə qoşulmaq biznesin aparılmasının asanlığına töhfə verən üç mühüm sahə hesab olunur [5].

**Açar sözlər:** *iqtisadi rəqabətqabiliyyətlilik, iqtisadi islahatlar, iqtisadi artım, qlobal bazar.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycanın Xarici Ticarəti 2009/ Statistik məcmuə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2009.*

*2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə / 2022. Bakı: 2022.*

*3. Azerbaycan Ülke Bülteni, Ankara, DEİK Araştırma Daire Başkanlığı Yayını, Nisan 2006.*

*4. Fikret A. SSCB'deki Çöküş'ün Sonuçları ve Doğan Fırsatlar / Tercüman Gazetesi, 8 Mayıs 1992.*

*5. Qurbanov F. Azərbaycanda turizmin inkişaf strategiyası / "İqtisadi inkişaf" elmi-praktiki jurnal, 2001, No. 1.*

*6. ÖZDEMİR, B. Azerbaycan Ekonomisi ve Azerbaycan-Türkiye Ticari İlişkileri / Diyalog Azerbaycan İş Dünyası Dergisi, TÜSİAB Cemiyeti, Mart2003.*

## КОНКУРЕНТОСПОСОБНОСТЬ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА И ПРИОРИТЕТЫ ЕЕ РОСТА

### Резюме

Появление нового уровня экономических отношений предполагает переход к устойчивому развитию, сопровождающемуся глобальными процессами. В связи с этим с учетом мировой экономической динамики должен формироваться новый уровень межгосударственных взаимоотношений в экономической сфере для перехода к устойчивому развитию. Проблемы конкурентоспособности экономики Азербайджана, связанные с переходом социально-экономического развития на инновационную модель, играют важную роль в теории национальной экономики. Обеспечение постоянного повышения благосостояния азербайджанского народа на основе формирования, развития и управления конкурентными преимуществами страны является одной из основных целей стратегии устойчивого развития Азербайджана в «Стратегической дорожной карте на перспективу национальной экономики Азербайджана».

Роль национальной экономики в мире и ее место в первую очередь определяются уровнем экономического развития этой страны, ее конкурентоспособностью на мировом рынке, а также объемом ее природного и экономического потенциала. При этом она эквивалентна конкурентоспособности страны на мировом рынке и конкурентоспособности производимой ею продукции на мировом рынке. Когда Азербайджан вступает в глобальный экономический процесс,

он должен в первую очередь учитывать свои национальные интересы. Национальные интересы состоят в развитии самостоятельной национальной экономики.

**Ключевые слова:** *экономическая конкурентоспособность, экономические реформы, экономический рост, глобальный рынок.*

## COMPETITIVENESS OF THE AZERBAIJAN ECONOMY AND PRIORITIES DRIVING ITS GROWTH

### Summary

The emergence of a new level of economic relations implies a transition to sustainable development accompanied by global processes. In this regard, taking into account the global economic dynamics, a new level of interstate mutual economic relations should be formed for the transition to sustainable development. The problems of the competitiveness of the Azerbaijani economy, related to the transition of socio-economic development to the innovation model, play an important role in the theory of the national economy. Ensuring the continuous improvement of the welfare of the Azerbaijani people based on the formation, development and management of the country's competitive advantages is one of the main goals of the sustainable development strategy of Azerbaijan in the "Strategic Roadmap for the perspective of the national economy of the Republic of Azerbaijan".

The role of the national economy in the world and its place are primarily determined by the level of economic development of that country, its competitive ability in the world market, as well as the volume of its natural and economic potential. At the same time, it is equivalent to the competitive ability of the country in the world market and the competitiveness of the products it produces in the world market. When Azerbaijan enters the global economy process, it should first consider its own national interests. National interests consist of the development of an independent national economy.

**Keywords:** *economic competitiveness, economic reforms, economic growth, global market.*

UOT 658; 005

# MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARININ TƏTBİQİ ŞƏRAİTİNDƏ VERGİ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

**QƏDİR BABALI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*E-mail: Qedir.babali@gmail.com*

## GİRİŞ

Maliyyə Hesabatları Beynəlxalq Standartları publik şirkətlərin maliyyə hesabatları üçün mühasibat uçotu qaydaları toplusudur və bu da onları ardıcıl, şəffaf və bütün dünyada asanlıqla müqayisə olunan edir (3).

O, ilk dəfə 2003-cü ildə nəşr edilmişdir. O, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən hazırlanmışdır və Avropa İttifaqı da daxil olmaqla, bütün dünyada 144-dən çox yurisdiksiya və ölkə tərəfindən qəbul edilmişdir. MHBS-dan əvvəl Beynəlxalq Mühasibat Uçotu Standartları (BMHS) tənzimlənirdi.

Bir çox ölkədə mövcud olan çoxmillətli şirkətlərin meydana çıxması ilə qlobal mühasibat uçotu çərçivəsinə ehtiyac daha da gücləndi. Bu, IASB-nin yaranmasına səbəb oldu. IASB maliyyə, audit, mühasibat standartları və təhsil sahəsində hibrid ekspertləri olan müstəqil qrupdur. Şura üzvlərinin vəzifəsi maliyyə uçotu standartlarını hazırlamaq və dərc etməkdir.

IASB yalnız maliyyə hesabatlarının, işgüzar əməliyyatların və xarici investisiyaların düzgün işlənməsini, şərhini və başa düşülməsini təmin edəcək beynəlxalq maliyyə hesabatları sisteminin layihələndirilməsi məqsədi ilə yaradılmışdır. IASB mühasibat uçotu üçün hamılıqla tanınmış prinsiplər çərçivəsini müəyyən edən BMS və daha sonra MHBS təqdim etdi.

MHBS ona əməl edən hər bir şirkətin riayət etməli olduğu mühasibat uçotu standartlarını və təcrübələrini müəyyən edir. Mühasibat uçotu kitablarında təsərrüfat əməliyyatlarını qeyd edərkən əməl edilməli olan qaydalar kitabıdır. Həmçinin, maliyyə hesabatlarında şəffaflıq və ardıcıllıq təmin edildiyi üçün hökumətlər ondan birbaşa və dolayı xarici investisiyaları tənzimləmək üçün istifadə edirlər.

Beynəlxalq Maliyyə Hesabatı Standartları beynəlxalq maliyyə hesabatı sistemini təmsil edir və bir çox məqsədlərə xidmət edir. Maliyyə dünyasındakı əhəmiyyətli məqsədlərindən bəziləri aşağıdakılardır (5):

1. Ümumi qayda yaratmaq. Onun əsas məqsədlərindən biri hamını eyni səhifəyə gətirmək üçün ümumi hüququn mümkün qədər çox yurisdiksiya və ölkə tərəfindən təqdim edilməsini və qəbul edilməsini təmin etməkdir. O, hər kəsin eyni təlimatlara əməl etməsini və biznes fəaliyyəti haqqında hesabat vermək üçün universal üsul qəbul etməsini təmin edir.

2. Təhlil. Bu, maraqlı tərəflərə şirkətin fəaliyyətini təhlil etməkdə və maliyyə vəziyyətini şərh etməkdə kömək edir. Məsələn, korporasiyalar və hökumətlər etibarlı maliyyə hesabatları hazırlamaq üçün bu standartlardan istifadə edirlər. O, maliyyə məlumatlarını dəqiqlik və ardıcıllıqla təsnif etməyə və hesabat verməyə kömək edir. Bu cür maliyyə qeydləri daha yaxşı başa düşməyə kömək edir və qərar qəbul etməyə kömək edir.

3. Etibarlı maliyyə qeydlərinin hazırlanmasına kömək etmək. Beynəlxalq Maliyyə Hesabatları Standartlarına riayət etməklə, mühasibat uçotu kitablarında təqdim olunan məlumatların düzgün, etibarlı, vahid və onun qaydaları çərçivəsində müvafiq olması ehtimal edilir. Maliyyə qeydlərinin yüksək keyfiyyəti investorlara əsaslandırılmış iqtisadi qərarlar qəbul etməyə kömək edir.

4. Hesabatda müqayisəliliyi, şəffaflığı və çevikliyi təmin etmək. Mühasibat uçotunun aparılmasında ardıcıllıq ölkələr üzrə uyğun şirkətlərin maliyyə qeydlərini asan müqayisə etməyə imkan verir. Bu cür müqayisələr investorlara investisiya qoymazdan əvvəl riskləri və imkanları müəyyən etməyə imkan verir. Nəticədə xarici ticarəti və investisiyaları təşviq edir. Həm də öz maraqlı tərəflərinə bütün müvafiq məlumatların təqdim edilməsində tam açıqlama tələb edir. Bununla belə, prinsiplərə əsaslanan qaydalar o qədər də sərt deyil və şirkətlərə öz qaydalarında onlara uyğunlaşmaq imkanı verir.

O, bir çox ölkələr və dünya iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Onun əhəmiyyəti budur (5):

1. Şəffaflıq O, şirkətlər, kiçik firmalar və dövlət qurumları tərəfindən hazırlanan maliyyə hesabatlarının şəffaflığını və hesabatlılığını təşviq edir. Nə-

ticə etibarilə, o, hər hansı saxlama və vəsaitlərin, əməliyyatların və qalıqların qeyri-qanunilikləri ilə səhv və manipulyasiya dərəcəsini minimuma endirir. Bundan əlavə, o, həm də işin ardıcıllığını və aydınlığını stimullaşdırır.

2. Vahidlik və Hərtərəfli. Beynəlxalq Maliyyə Hesabatları Standartları hesabatların təqdim edilməsində və başa düşülməsində vahidliyi müəyyən etmək üçün hazırlanmışdır. Hər kəs standartlara əməl etdikdə və onları tanıdıqda, şirkətlər və agentliklər üçün dünya iqtisadiyyatlarına öz artımlarını hərtərəfli müqayisə etməyə kömək edən ümumi qanuna əməl etmək asan olur. Bundan əlavə, hər kəs üçün oxumaq asandır.

3. Təhlükəsizlik və Axın. O, əməliyyatların gedişatını izləməyə kömək edir, vəsaitlər haqqında məlumatı qeyd edir və ölkələr arasında birbaşa və dolayı xarici investisiyalar üçün təhlükəsizlik səviyyəsinə nail olmaq istiqamətində işləyir. Bu mühasibat uçotu standartı biz əhəmiyyətli aktivlərlə işləyərkən və ya ağır əməliyyatlara girərkən vacibdir.

4. Hesabatlılıq. O, səriştəsiz maliyyə hesabatlarının boşluğunu aradan qaldırmaqla hesabatlılığı gücləndirir. Buna əməl olunmazsa, şirkətlər cərimələnə bilər. Məsələn, keçən il Yohannesburq Birjası Tongaat Hulett Ltd şəkər firmasını cərimələdi. Onun maliyyə hesabatları, hesab hesabatları və digər məlumat təfərrüatları BMHS-ə uyğun gəlmirdi və səhv idi (5):

Ölkə iqtisadiyyatının qurulması və onun qlobal maliyyə əməliyyatları sisteminə inteqrasiyası hökumətin əsas məqsədlərindən idi. Beynəlxalq mühasibat uçotu standartlarının və qaydalarının tətbiqi də bu prosesin mühüm tərkib hissəsi idi.

Maliyyə əməliyyatlarının uçotu və hesabatı ilə bağlı normativ-hüquqi aktların yaradılması da həyata keçirilmişdir. Bu əsasnamələr əsasında hazırlanmış ən mühüm sənədlərdən biri də Azərbaycan Prezidentinin 29 iyun 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Mühasibat uçotu haqqında" Qanun olmuşdur.

Qanun Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslər tərəfindən mühasibat uçotu fəaliyyətinin aparılmasının əsaslarını müəyyən edir. O, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fəaliyyətini tənzimləyir (6).

Tarixən mühasibat uçotu anlayışı insanların təsərrüfat fəaliyyətinə başladığı ilk dövrlərdə yaranmışdır. Təsərrüfat fəaliyyəti ilə bağlı əməliyyatların genişlənməsi və dövlət idarəçiliyinin yaranması cəmiyyətdə təsərrüfat əməliyyatlarının uçotunun təfərrüatlı deyil, ümumi qəbul edilmiş qaydalar əsasında aparılmasını zəruri etmişdir (1).

Bununla əlaqədar olaraq hər bir dövlətdə təsərrüfat uçotunun ümumi qaydaları müəyyən edilmiş, mühasibat uçotu bir elm və qanun yaradıcılığı kimi inkişaf etdirilmişdir. 19-cu əsrin ortalarında səhmdar cəmiyyətlərinin inkişafı və vergi sahəsində dəyişikliklər nəticəsində vergi qanunvericiliyinin gücləndirilməsi zərurəti yarandı. Bu baxımdan, dövlətin fiskal maraqlarının təmin edilməsi, vergilərin dövlət xəzinəsinə ödənilməsinə nəzarətin həyata keçirilməsi məqsədilə mühasibat uçotu məlumatlarından geniş istifadə edilmiş, vergi qanunvericiliyində vergi uçotuna aid qaydalar öz əksini tapmışdır. Dünyanın əksər ölkələrində mühasibat və vergi uçotu məsələləri ayrıca qanunvericilik aktları ilə tənzimlənir.

**Qrafik 1. Mühasibat uçotu ilə vergi uçotu arasındakı oxşarlıqlar**




*Mənbə: Tanrıverdiyev Q. (2015). "Vergi uçotu ilə mühasibat (maliyyə) uçotunun müqayisəsi"*

Amma buna baxmayaraq, hər iki sahənin qanunvericiliyi həmişə sıx bağlı olub. Belə ki, hər hansı bir ölkənin vergi qanunvericiliyinə nəzər salsaq görərik ki, bu sahənin qanunvericiliyində mühasibat uçotu terminologiyasından geniş istifadə olunur. Belə terminlərə əsas vəsaitlər, qeyri-maddi aktivlər, ehtiyatlar, balans dəyəri, amortizasiya, gəlir, məxaric, mənfəət və s. Vergitutma uçotunun əsas əhə-

miyyəti ondan ibarətdir ki, onun materialları müəssisələrin dövriyyəsi, mənfəəti və digər göstəriciləri haqqında geniş məlumat əldə etməyə imkan verir. Buna baxmayaraq, vergi uçotunun prinsipləri, uçot göstəricilərini təsdiq edən sənədlərin məqsədi və siyahısı vergi qanunvericiliyi ilə müəyyən edilir. Təcrübədə mühasibat uçotu və vergi uçotunun həm oxşar, həm də fərqli cəhətləri mövcuddur. Vergi uçotu ilə mühasibat uçotunun əsas fərqi ondan ibarətdir ki, vergi uçotu sistemi vergi ödəyicisinin özü tərəfindən müəyyən edilir. Mühasibat uçotu ilə vergi uçotu arasındakı oxşarlıqlar adətən aşağıdakı qrafik 1-də verilmişdir.

Mühasibat və vergi uçotu arasındakı fərqlər daimi və ya müvəqqəti ola bilər. Daimi fərqlər, bəzi gəlir və ya xərc məbləğlərinin maliyyə hesabatı (Mühasibat uçotu) məqsədləri üçün tanınması, lakin vergi məqsədləri (vergi uçotu) üçün heç vaxt tanınmaması (nəzərə alınmaması) səbəbindən yaranan fərqlərin məbləğləridir. Daimi fərqlərin, eləcə də müvəqqəti fərqlərin səbəbi Vergi Məcəlləsinin müddəalarının tələbləridir. Vergi Məcəlləsinin tələblərinə görə, bəzi xərclər "gəlirdən çıxılmayan" və "nisbətən məhdud gəlir endirimi" kimi təsnif edilir (7).

**Şəkil 1. Mühasibat uçotu və vergi uçotu arasında müvəqqəti fərqlər yaradan hallar**

| Müvəqqəti fərqləri yaradan hallar üzrə müqayisə | | |
|---|---|---|
| Mühasibat uçotunda | Vergi uçotunda | |
| Müxtəlif amortizasiya hesablamalarının tətbiqi nəticəsində müxtəlif amortizasiya xərclərinin yaranması | Maddə 114 | Amortizasiyanın yalnız bir metodunun tətbiqi nəticəsində amortizasiya xərclərinin yaranması |
| Aktivin yenidən qiymətləndirilməsi nəticəsində dəyərin artması və ya azalması | Maddə 143, 104.5 | Aktivlərin dəyərinə yenidən qiymətləndirilmədən yaranan artımın daxil edilməməsi və ya mənfəət vergisinin vergitutma obyektinə aid edilməməsi |
| Bəzi xərclərin kapitallaşdırılması tələbinin olması | Maddə 113 | Məsələn, elmi-tədqiqat, layihə-axtarış və təcrübə konstruktor işlərinə çəkilən xərclərin kapitallaşdırılmayaraq vergi tutulan xərclərə aid edilməsi |
| Gəlirin və xərcin uçotu zamanı yalnız hesablama metodun tətbiq olunması tələbi | Maddə 130 | Gəlirin və xərcin uçotu zamanı həm hesablama, həm də kassa metodunun tətbiq olunması |

*Mənbə: Tanrıverdiyev Q. (2015). "Vergi uçotu ilə mühasibat (maliyyə) uçotunun müqayisəsi"*

Vergi uçotu, mühasibat uçotunun bir hissəsi olmaqla, vergi və Vergi hesabatının hazırlanması məqsədi ilə mühasibat qaydasında rəsmiləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Həmçinin, vergi uçotu vergi bazasının düzgün müəyyənləşdirilməsi üçün mühasibat məlumatlarında müstəqil və ya zəruri düzəldici hesablamalar aparmaq hüququna malikdir.

Düzəliş hesablamaları sistemsiz bir şəkildə, yəni hesablama yolu ilə əldə edilən düzəlişləri mühasibat uçotunda əks etdirməklə aparılır. Bu, vergi hesablamaları, cədvəllər və ya vergi kartları şəklində təqdim olunan məlumatları təşkil etmək və toplamaq üçün hazırlanmış vergi qeydlərinin işlənməsinə və təsdiqlənməsinə imkan verir.

Vergi uçotunun əsas məqsədi vergi məqsədləri üçün müəssisədə baş verən hər bir iş əməliyyatının necə əks olunması barədə tam və düzgün məlumatların formalaşdırılmasıdır.

Aşağıda vergi uçotunun əsas funksiyaları nəzərdən keçirilir:

1. Ödəyicilərin vergi öhdəliklərini düzgün müəyyənləşdirmək və müəyyən edilmiş qaydada qeydiyyata almaq üçün lazım olan ilk məlumatları toplayın;
2. Mühasibat və vergi reyestrlərində və mühasibat hesablarında ilk vergi məlumatlarını vaxtında əks etdirin;
3. Vergi ödəyicisinin vergi öhdəliklərinin səviyyəsini düzgün müəyyənləşdirin;
4. Düzgün və etibarlı Vergi hesabatının formalaşdırılması;
5. Vergi məlumatlarının və Vergi hesabatının formalaşmasına nəzarət.

Beləliklə, vergi uçotu mühasibat uçotunun bir hissəsi olaraq vergi öhdəliklərinin düzgün və obyektiv hesablanması və təşkilatın Vergi hesabatının hazırlanması üçün lazım olan maliyyə məlumatlarının toplanması, qeydiyyatı və işlənməsini əhatə edir.

**Açar sözlər:** *Vergi uçotu, MHBS, şəffaflıq, hesabatda müqayisəlilik.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Chavez A.L. (2018). "IFRS and taxatıon: challenges and opportunıtıes for tax admınıstratıons". Tax Admınıstratıon revıew cıatlaeatlıef Nº 43 https://www.ciat.org/Biblioteca/Revista/Revista_43/ingles/2018_TR_43_Chavez.pdf*

*2. Kobylewski C. (2022). "Common Income Tax Reporting Differences Between IFRS and US GAAP". Bloomberg tax (online paper). https://news.bloombergtax.com/tax-insights-and-commentary/common-income-tax-reporting-differences-between-ifrs-and-us-gaap*

*3. Palmer B. ( 2022). "What Are International Financial Reporting Standards (IFRS)?". Investopedia (online paper) https://www.investopedia.com/terms/i/ifrs.asp*

4. Tanrıverdiyev Q. (2015). "Vergi uçotu ilə mühasibat (maliyyə) uçotunun müqayisəsi". 18 səh. http://muhasib-az.narod.ru/kitab/muhasib/vergi_muhasibat_ucotu.pdf

5. Vaidya D. (2022). "Understanding IFRS". Wallstreetmojo Team (online paper) https://www.wallstreetmojo.com/ifrs/

6. https://e-qanun.az/framework/5458 - Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu

7. https://www.e-qanun.az/framework/46948 - Azərbaycan Respublikasının Vergi Məcəlləsi

## CHARACTERISTICS OF TAX ACCOUNTING UNDER APPLICATION OF INTERNATIONAL STANDARDS OF FINANCIAL REPORTING

### Summary

The creation of normative-legal acts related to the accounting and reporting of financial transactions has also been implemented. One of the most important documents prepared on the basis of these regulations was the Law "On Accounting" approved by the Decree of the President of Azerbaijan dated June 29, 2004. The law defines the basics of accounting activities by legal and natural persons in the Republic of Azerbaijan. It also regulates the activities of natural persons engaged in entrepreneurial activities.

Tax accounting, being a part of accounting, is designed for the preparation of taxes and tax reports in an accounting manner. Also, tax accounting has the right to make independent or necessary corrective calculations in accounting data for the correct determination of the tax base.

Adjustment calculations are carried out in an unsystematic way, that is, by reflecting the adjustments obtained by calculation in accounting. It allows the processing and verification of tax records prepared to organize and collect data presented in the form of tax calculations, tables or tax cards.

The main purpose of tax accounting is the formation of complete and correct information on how to reflect every business transaction that takes place in the enterprise for tax purposes.

**Keywords:** *Tax accounting, IFRS, transparency, comparability in reporting.*

## ОСОБЕННОСТИ НАЛОГОВОГО УЧЕТА ПО МЕЖДУНАРОДНЫМ СТАНДАРТАМ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ

### Резюме

Также осуществлено создание нормативно-правовых актов, связанных с учетом и отчетностью финансовых операций. Одним из важнейших документов, подготовленных на основе этих положений, стал Закон «О бухгалтерском учете», утвержденный Указом Президента Азербайджана от 29 июня 2004 года.

Закон определяет основы бухгалтерской деятельности юридических и физических лиц в Азербайджанской Республике. Он также регулирует деятельность физических лиц, занимающихся предпринимательской деятельностью. Налоговый учет, являясь частью бухгалтерского учета, предназначен для составления налогов и налоговой отчетности в бухгалтерском порядке. Также налоговый учет вправе производить самостоятельные или необходимые корректирующие расчеты в данных бухгалтерского учета для правильного определения налоговой базы.

Корректировочные расчеты осуществляются бессистемно, то есть путем отражения корректировок, полученных расчетным путем, в бухгалтерском учете. Это позволяет обрабатывать и проверять налоговые отчеты, подготовленные для организации и сбора данных, представленных в виде налоговых расчетов, таблиц или налоговых карт.

Основной целью налогового учета является формирование полной и достоверной информации о том, как отразить каждую хозяйственную операцию, совершаемую на предприятии, для целей налогообложения.

**Ключевые слова:** *Налоговый учет, МСФО, прозрачность, сопоставимость в отчетности.*

**UOT 338:61**

# ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN MAHİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**RAMİN İSAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: isayev_1988@bk.ru*

## GİRİŞ

Bu məqalədə əhalinin sosial müdafiəsinin mahiyyəti və əhəmiyyəti qiymətləndirilir. Əhalinin sosial müdafiəsi sosial siyasət və proqramlar vasitəsilə insanların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün hökumətlər tərəfindən həyata keçirilən tədbirlər məcmusudur. Bu məqalədə əhalinin sosial müdafiəsinin mahiyyəti və məqsədi, onun bütün dünyada tətbiqi, uğurları və çətinlikləri nəzərdən keçirilir.

Məqalədə əhalinin sosial müdafiəsinin yoxsulluğun azaldılması, sosial ədalətin təmin edilməsi, sosial təminatın artırılması, insan hüquqlarının müdafiəsi, səhiyyə xidmətlərindən istifadə, təhsil və iş imkanlarının artırılması kimi bir çox müxtəlif məqsədlər üçün istifadə edildiyi vurğulanır.

Dünyada əhalinin sosial müdafiəsi üçün çoxlu müxtəlif proqramlar və siyasətlər həyata keçirilir. Bu proqramlara tibbi sığorta, işsizlik sığortası, sosial müavinətlər, qocalıq və əlillik sığortası, təhsil müavinətləri və mənzil müavinətləri daxildir. Məqalədə bu proqramların bütün dünyada tətbiqi, müxtəlif ölkələrdə uğurları və çətinlikləri müzakirə olunur.

Bunun nəticəsidir ki, əhalinin sosial müdafiəsi insanların həyat keyfiyyətinin yaxşılaşdırılması və yoxsulluğun azaldılması üçün mühüm vasitədir. Lakin bu proqramların uğurlu və davamlı olması üçün maliyyə resursları, yaxşı idarəçilik, bərabərlik və sosial ədalət kimi amillər nəzərə alınmalıdır.

### Azərbaycanda yoxsulluğun azaldılması və mövcud vəziyyət

Azərbaycanda yoxsulluq səviyyəsi 2021-ci ilə kimi təxminən 5% təşkil edir.

Azərbaycan hökuməti yoxsulluğun azaldılması və sosial müdafiə tədbirləri ilə bağlı müxtəlif addımlar atıb. Bunlara yoxsul ailələrə və sosial yardıma ehtiyacı olan insanlara pul yardımı proqramları, işsizlik müavinəti, pensiya və əlilliyə görə müavinət kimi sosial müdafiə proqramları daxildir. Bundan əlavə, ölkə səhiyyə, təhsil və mənzil kimi əsas xidmətlərə çıxışı təmin etməyə çalışır (3).

**Şəkil 1: Yoxsulluq həddi və yoxsulluğun səviyyəsi**




| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 119.3 | 125.2 | 129.6 | 135.6 | 148.5 | 165.7 | 175.2 | 185.5 | 194.9 | 204.7 |
| Yoxsulluq səviyyəsi, faizlə | 6.0 | 5.3 | 5.0 | 4.9 | 5.9 | 5.4 | 5.1 | 4.8 | 6.2 | 5.9 |

*Mənbə: https://www.stat.gov.az/search/?q=sosial+m%C3%BCdafi%C9%99*

### Azərbaycanda sosial təminatı - əhalinin mənzil şəraiti

Sosial ədalət sosial fərqləri aradan qaldırmaq və hər kəsin bərabər imkanlara malik olmasını təmin etmək səylərini əhatə edən bir anlayışdır.

Azərbaycan hökuməti sosial ədaləti təmin etmək üçün müxtəlif proqramlar həyata keçirir. Bundan əlavə, səhiyyə, təhsil və mənzil kimi əsas xidmətlərin hər kəs üçün əlçatan olmasını təmin etmək üçün araşdırmalar aparılır (4).

Bununla belə, Azərbaycan hökuməti sosial ədaləti təmin etmək üçün müxtəlif islahatlar aparır. Bunlara vergi sisteminin yenidən qurulması, təhsil və səhiyyə sistemlərinin təkmilləşdirilməsi, işsizliyin azaldılması və kənd sakinlərinin həyat şəraitinin yaxşılaşdırılması kimi tədbirlər daxildir.

Son illər Azərbaycanda əhalinin mənzil şəraiti xeyli yaxşılaşıb. Bununla belə, hələ də mənzil şəraiti qənaətbəxş olmayan insanlar var.

Son illər Azərbaycanda, xüsusən də böyük şəhərlərdə yeni mənzil layihələri, binalar tikilir. Bu layihələr yüksək standartlara uyğun mənzil tikintisini təmin edib, əhalinin mənzil şəraitini yaxşılaşdırıb. Bundan əlavə, əhalinin mənzil şəraiti dövlət tərəfindən verilən mənzil kreditləri hesabına təmin edilir.

**Şəkil 2: Dövlət hesabına əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və mənzillərin güzəştlə əldə edilməsi**




| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **Dövlət hesabına mənzil alan və yaşayış şəraitini yaxşılaşdıran ailələrin sayı** | **501** | **1,764** | **2,484** | **4,402** | **4,562** | **5,610** | **3,258** |
| *onlardan:* | | | | | | | |
| Böyük Vətən Müharibəsi iştirakçıları, əlilləri, həlak olan hərbi xidmətçilər və onlarla eyni hüquqlu olanlar | 11 | 8 | 1 | - | - | - | - |
| Qarabağ müharibəsi iştirakçılarına, əlillərinə, həlak olanların və həqiqi hərbi xidmətdə olanların ailələrinə | 206 | 140 | 102 | 151 | 914 | 1,567 | 1,522 |
| Gənc ailələr | 68 | 86 | 2 | - | - | 21 | 1 |
| Çoxuşaqlı ailələr | 204 | 182 | - | - | - | 15 | - |
| **Mənzilləri güzəştlə əldə edən ailələrin sayı** | **-** | **-** | **-** | **278** | **1,112** | **898** | **1,163** |

*Mənbə: https://www.stat.gov.az/source/healthcare/*

Azərbaycan hökuməti əhalinin mənzil şəraitinin yaxşılaşdırılması üçün müxtəlif proqramlar həyata keçirir. Bu proqramlar arasında yoxsul ailələrə mənzil yardımı, şəhərə çevrilmə layihələri, mənzil kreditləri və kirayə haqlarının tənzimlənməsi kimi tədbirlər var. Bundan əlavə, ölkədə bəzi şəhər ərazilərinin yenidən qurulması və müasirləşdirilməsi istiqamətində işlər aparılır.

**Azərbaycanda insan hüquqlarının müdafiəsi**

Azərbaycan hökuməti insan haqları ilə bağlı müəyyən addımlar atıb. Məsələn, ölkədə bəzi hüquqi tənzimləmələr edilib, işgəncə və pis rəftara qadağa qoyulub, qadınların hüquqları ilə bağlı bəzi hüquqi tənzimləmələr edilib. Bundan əlavə, insan hüquqları sahəsində fəaliyyət göstərən bəzi qeyri-hökumət təşkilatlarına dəstək verilir.

**Səhiyyə xidmətləri**

Səhiyyə xidmətlərinə əlçatanlığı artırmaq üçün hökumət səhiyyə sahəsində çalışan kadrların sayının artırılması, səhiyyə müəssisələrinin və avadanlıqlarının yenilənməsi, səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi kimi addımlar atmalıdır. Bundan əlavə, tibbi sığorta sisteminin daha effektiv olması və səhiyyə xidmətlərinin xərclərinin azaldılması səhiyyə xidmətlərinə çıxışı artıra bilər.

**Şəkil 3: Səhiyyənin əsas göstəriciləri**




| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Bütün ixtisaslardan olan həkimlərin sayı, min nəfər | 31.9 | 32.5 | 31.8 | 31.8 | 32.0 |
| əhalinin hər 10 000 nəfərinə | 32.6 | 32.9 | 32.0 | 31.8 | 31.8 |
| Orta tibb işçilərinin sayı, min nəfər | 52.8 | 54.0 | 55.7 | 54.8 | 53.3 |
| əhalinin hər 10 000 nəfərinə | 54.0 | 54.8 | 55.9 | 54.8 | 53.1 |
| Xəstəxana müəssisələrinin sayı | 566 | 563 | 570 | 518 | 342 |
| onlarda çarpayılarının sayı, min | 44.1 | 44.0 | 44.3 | 44.5 | 39.1 |
| əhalinin hər 10 000 nəfərinə | 45.1 | 44.7 | 44.5 | 44.5 | 38.9 |
| Xəstəxana çarpayılarının ümumi sayından: | | | | | |
| xəstə uşaqlar üçün çarpayıların sayı, min | 5.9 | 5.8 | 6.0 | 5.5 | 4.3 |
| hamilə və zahı qadınlar üçün çarpayıların sayı, min | 4.4 | 4.4 | 4.4 | 4.2 | 3.4 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı | 1737 | 1741 | 1726 | 1723 | 1663 |
| onlardan: | | | | | |
| qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan müəssisələrin sayı | 130 | 130 | 131 | 118 | 106 |
| uşaq poliklinikaları, ambulatoriyaları və uşaq şöbəsi olan tibb müəssisələrinin sayı | 248 | 248 | 248 | 248 | 230 |
| Ambulator-poliklinik müəssisələrin gücü (bir növbədə gəlişlərin sayı), min | 105.2 | 104.9 | 106.5 | 105.1 | 106.9 |
| əhalinin hər 10 000 nəfərinə | 107.6 | 106.4 | 107.0 | 105.1 | 106.6 |
| Körpələr evlərinin sayı | 4 | 4 | 4 | 4 | 4 |
| onlarda: | | | | | |
| yerlərin sayı | 215 | 215 | 215 | 215 | 215 |
| uşaqların sayı, nəfər | 175 | 147 | 121 | 82 | 74 |
| o cümlədən valideynini itirmiş uşaqların sayı | - | - | - | 2 | 2 |

*Mənbə: https://www.stat.gov.az/source/healthcare/*

**Təhsil**

Təhsilə əlçatanlığı artırmaq üçün hökumət məktəblərin sayını artırmaq, təhsil sistemini təkmilləş-

dirmək və tələbələrin təhsil xərclərini azaltmaq kimi addımlar atmalıdır. Bundan əlavə, əlverişsiz qruplar üçün təhsil proqramlarının yaradılması və uşaqların məktəbə qəbulunu artırmaq üçün həvəsləndirici siyasətlərin həyata keçirilməsi də təhsilə çıxış imkanlarını artıra bilər.

### İş imkanları

Hökumət iş imkanlarına çıxışı artırmaq üçün iş yerlərinin yaradılması siyasətinə diqqət yetirməlidir. Xüsusilə, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi və məşğulluq yaradan sektorların dəstəklənməsi iş imkanlarını artıra bilər. Bundan əlavə, əlverişsiz qruplar üçün məşğulluq proqramlarının yaradılması və müəssisələr tərəfindən bu qruplara üstünlük verilməsi iş imkanlarına çıxışı artıra bilər (4).

Əhalinin sosial müdafiəsi məsələsi ölkələrin inkişafı və sosial rifahın yüksəldilməsi üçün həyati əhəmiyyət kəsb edir. Bu məqalədə Azərbaycanda əhalinin sosial müdafiəsinin xarakterindən və onun vəziyyətindən bəhs edilir.

Azərbaycanda əhalinin sosial müdafiəsini təmin etmək üçün müxtəlif siyasət və proqramlar həyata keçirilir.

**Açar sözlər:** *Əhali, sosial müdafiə, əhalinin rifahı.*

### ƏDƏBİYYAT

*1. Abdukhakimov A. (2019) "Social Protection in Azerbaijan: Current Situation and Prospects", 345 p.*

*2. Gasimov M. and Hasanov F. (2016), "Social protection and poverty reduction in Azerbaijan" 411 p.*

*3. "Social Protection in Azerbaijan: Issues and Policy Options" - The World Bank (2012)*

*4. "Social Protection Systems in Azerbaijan" - International Labour Organization (2017)*

*5. Seyidov B. (2017), "Social Welfare System and Social Policies in Azerbaijan: Comparative Analysis", 528 p.*

*6. https://www.stat.gov.az/search/?q=sosial+m%C3%BCdafi%C9%99*

*7. https://www.stat.gov.az/source/healthcare/*

## ASSESSMENT OF THE NATURE OF SOCIAL PROTECTION OF THE POPULATION

### Summary

This article evaluates the nature and importance of social protection of the population. Social protection of the population is a set of measures implemented by governments to improve the quality of life of people through social policies and programs. In this article, the nature and purpose of social protection of the population, its implementation, successes and difficulties around the world are reviewed.

The article emphasizes that social protection of the population is used for many different purposes, such as reducing poverty, ensuring social justice, increasing social security, protecting human rights, using health services, increasing education and job opportunities.

Many different programs and policies are implemented for the social protection of the population around the world. These programs include health insurance, unemployment insurance, social security benefits, old-age and disability insurance, education benefits, and housing benefits. The article discusses the application of these programs around the world, their successes and challenges in different countries.

As a result, social protection of the population is an important tool for improving people's quality of life and reducing poverty. However, for these programs to be successful and sustainable, factors such as financial resources, good governance, equity and social justice must be considered.

**Keywords:** *Population, social protection, population welfare.*

# ОЦЕНКА ХАРАКТЕРА СОЦИАЛЬНОЙ ЗАЩИТЫ НАСЕЛЕНИЯ


**Резюме**

В данной статье оцениваются сущность и значение социальной защиты населения. Социальная защита населения представляет собой комплекс мер, реализуемых государством для улучшения качества жизни людей посредством социальной политики и программ. В данной статье рассмотрены сущность и цель социальной защиты населения, ее реализация, успехи и трудности во всем мире.

В статье подчеркивается, что социальная защита населения используется для самых разных целей, таких как сокращение бедности, обеспечение социальной справедливости, повышение социальной защищенности, защита прав человека, использование медицинских услуг, повышение уровня образования и возможностей трудоустройства.

Для социальной защиты населения во всем мире реализуется множество различных программ и политик. Эти программы включают медицинское страхование, страхование по безработице, пособия по социальному обеспечению, страхование по старости и инвалидности, пособия на образование и жилищные пособия. В статье рассматривается применение этих программ по всему миру, их успехи и проблемы в разных странах.

В результате социальная защита населения является важным инструментом повышения качества жизни людей и сокращения бедности. Однако для того, чтобы эти программы были успешными и устойчивыми, необходимо учитывать такие факторы, как финансовые ресурсы, надлежащее управление, равенство и социальная справедливость.


**Ключевые слова:** *Население, социальная защита, благосостояние населения.*

UOT 339.9

# AZƏRBAYCAN İQTİSADİYYATININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASI PROSESİNİN ƏSASLARI

**LEYLA MƏMMƏDOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: leyla.m.98@mail.ru*

## GİRİŞ

Azərbaycanın iqtisadi inkişafına, dünyaya inteqrasiyasına səbəb olan ən başlıca faktor təbii ki, müstəqilliyin əldə edilməsi idi. Çünki yalnız müstəqil dövlətə malik olan millət öz iqtisadiyyatının, mədəniyyətinin, tarixinin, zəngin sərvətlərinin yeganə sahibi olaraq ölkəsinin inkişafı uğrunda mübarizə apara bilərdi.

Bu gün artıq Azərbaycan 30 ildən çoxdur ki, müstəqil dövlətdir. 2020-ci il sentyabrın 27-də başlamış və noyabrın 10-a qədər davam edən 44 günlük müharibədə Azərbaycanın qələbəsi, torpaqlarını işğaldan azad etməsi Azərbaycanın gücünü, qüdrətini, əzmkarlığını, cəsarətini bir daha dünyaya sübut etdi. Təbii ki, siyasi cəhətdən müstəqillik qazanmaq milli iqtisadiyyatın formalaşmasında mühim rol oynayan amillər sırasındadır. İkinci mühim amil isə ölkənin yerləşdiyi coğrafi məkan, iqlim şərtləri və mövqeyi ilə bağlıdır. Dünyada mövcud olan 11 iqlim qurşağından 9-na malik olan Azərbaycan əlverişli iqlim şəraitinə, geniş otlaq sahələrə, münbit torpaqlara sahib bir ölkədir. Tarixi "İpək Yolu"nun keçid trayetktoriyasında yerləşməsi Azərbaycanın coğrafi mövqe baxımından imkanlarını daha çox genişləndirmişdir.

İqtisadi inkişafın reallaşmasına səbəb olan 3-cü amil isə ölkənin malik olduğu təbii ehtiyat mənbələridir. Sink, mis, qurğuşun, dəmir mədəni, mədən suyu, qaya duzu, az miqdarda isə qızıl, gümüş və s. təbii ehtiyatlara malik olması onun iqtisadi inkişafı üçün olduqca vacib amildir. Azərbaycanın ən mühim təbii sərvəti isə ölkəmizin zəngin neft və qaz yataqlarıdır. Məhz neft amili müstəqillik qazandıqdan sonra dövlətin başlıca gəlir mənbəyinə çevrilmişdir.

Yuxarıda sadalanan amillərin hər birinə sahib olan Azərbaycanın müstəqillikdən sonrakı inkişafını 2 dövrə bölmək olar: 1991-2003 və 2003-cü ildən sonrakı dövr. Hər iki mərhələdə müxtəlif inkişaf meyilləri sərgilənmiş və lazımi nəticələr əldə edilmişdi. Birinci mərhələdə əsasən istehesal prosesində sürətli geriləmə, qiymət səviyyəsinin və inflyasiyanın yüksək həddə olması, əhalinin real gəlirlərindəki azalma, ölkə ərazisində işsizlərin sayının artması, maliyyə-bank sektorundakı nizamsızlıq və s. hallar müşahidə olunmuşdu. Bu dövrdə əsas məqsəd inflyasiyaya qarşı mübarizə aparmaq, iqtisadiyyatda inhisarçılığın qarşısının alınması, milli valyutanın stabilləşdirilməsi və ölkə iqtisadiyyatına xarici investorların cəlb edilməsi idi.

2003-cü ildən bəri Azərbaycanda milli iqtisadiyyatın inkişafı prosesində yeni dövr başlandı. Respublika Prezidenti İlham Əliyev bu mərhələ üçün yeni inkişaf konsepsiyaları irəli sürdü. Həmin konsepsiyaların əsasında iqtisadi azadlıq, iqtisadiyyatın xarici amillərdən asılılığının azaldılması, davamlı inkişafa nail olmaq və s. məqsədlər dayanırdı. Bütün bu konsepsiyalar, öz növbəsində, Azərbaycanın iqtisadi siyasətində və iqtisadi inkişafında müəyyən struktur dəyişikliklərinə səbəb oldu. Bundan sonrakı 10 il ərzində milli iqtisadiyyatın yeni modelinin formalaşdırılması prosesləri sürətlə davam etmişdir. Əsas məsələlər isə aşağıdakılardan ibarət olmuşdur:

1. Makroiqtisadi sabitliyin qorunub saxlanılmasına nail olunmuş;
2. İqtisadiyyatın diversifikasiyası prosesi sürətlənmiş;
3. Qeyri - neft sektorunun inkişafı üçün mühim addımlar atılmış;
4. Regionların inkişafı məqsədilə dövlət proqramları həyata keçirilmiş;
3. Milli valyutanın sabitliyi təmin olunmuş;
4. Bank sistemində etibarlılıq yüksəldilmiş;
6. Sahibkarlığa dövlət dəstəyi artırılmışdır.

2003-cü ildə başlayan bu mərhələnin əvvəlki illərdən əsas fərqi ondan ibarət idi ki, neft sektorundan əldə olunan gəlirlərdən digər sektorların inkişafına investisiya şəklində yönəldilmələr həyata keçirilmişdi.

Müstəqillik illərindən sonra Azərbaycan dünya ölkələri birliyinə daxil olaraq öz iqtisadi və siyasi qüdrətini daha da artırmışdır. Qərb mütəxəssislərinin fikrinə görə, dünyada 5 əsas geoiqtisadi məkan mövcuddur ki, bunlara Türkiyə. Ukrayna, Cənubi Koreya, İran və Azərbaycan aiddir. Azərbaycan Avropa Şurasına qəbul edildikdən sonra NATO, Aİ və digər dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə əlaqələr daha intensiv hal almağa başlamışdır.

Müstəqillik qazandıqdan sonra Azərbaycanın tərəfdaşlığa imza atdığı ilk təşkilatlardan biri Avropa Şurası olmuşdur. Azərbaycanın təşkilata bərabərhüquqlu üzv olmaq üçün ilk rəsmi müraciəti 1992-ci ildə olmuşdur. Lakin, bu müraciət, təşkilat tərəfindən müsbət qarşılanmamış, bununla yanaşı Qarabağ məsələsində Azərbaycana qarşı bəyannamə qəbul olunmuşdu. Sonrakı illərdə isə əlaqələr dərinləşdikcə təşkilatın Azərbaycanla bağlı olan mövqeyi də dəyişmişdi. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1996-cı ilin iyununda Azərbaycana AŞ tərəfindən "Xüsusi dəvət edilmiş qonaq" statusu verildi və ölkəmiz 2001-ci ildə təşkilatın bərabərhüquqlu üzvü oldu. Həmin dövrdən etibarən Azərbaycan üçün Avropa ölkələri ilə müxtəlif aspektlərdə tərəfdaşlıq üçün əlverişli zəmin yaranmış və Avropaya inteqrasiya olunmaq istiqamətində mühim nailiyyət əldə edilmişdi.

Avropa İttifaqı Qafqaz regionunda enerji sahəsində, nəqliyyat sisteminin inkişafında, tranzit dəhlizlərinin yaradılmasında və s. fəal siyasət həyata keçirərək, mühüm nailiyyətlər əldə olunmasında əsas rol oynayan təşkilatlardan biridir. Müstəqillikdən sonrakı ilk illərdə Aİ ilə Azərbaycan arasındakı əlaqələr beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşdırılması, neft və qaz kəmərləri sisteminin inkişafı və s.məqsədlər üçün yaradılan "TRASECA" və "İNOGATE", maliyyə cəhətdən və texniki yardımı nəzərdə tutan "TACİS", təhsil sistemində inteqrasiyaya xidmət edən "TEMPUS" və s. kimi proqramlar zəminində baş tutmuşdur.

SSRİ-nin süqutundan sonrakı dövrdə postsovet respublikalarına texniki və maliyyə yardımı göstərmək məqsədilə "TACİS" proqramı yaradıldı. Proqramın icrası zamanı Azərbaycanla əməkdaşlıq insan resursları, özəl sektorun inkişafı və infrastruktur sisteminin gücləndirilməsi ilə bağlı idi. Bununla yanaşı, proqram çərçivəsində yoxsulluğun azaldılması istiqamətində də davamlı tədbirlər həyata keçirilmiş, qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin artırılmasına kömək göstərilmiş, bir sıra enerji layihələri tətbiq olunmuş, nəqliyyat sisteminin inkişafı məqsədilə hərtərəfli addımlar atılmışdır.

Müstəqillikdən sonra Azərbaycanda tətbiq olunan proqramlardan biri də "İNOGATE" olmuşdur. Avropa İttifaqı tərəfindən müstəqillik əldə etmiş ölkələrə maliyyə yardımını nəzərdə tutan bu proqram çərçivəsində Azərbaycan da daxil olmaqla başqa on beş dövlətin də iştirakı ilə neftin və qazın ixracı ilə bağlı saziş imzalanmışdır. Bu proqram eyni zamanda Azərbaycanda transsərhəd layihələrin tətbiqi üçün imkanlar yaratmış, bununla yanaşı investisiya fondları, xüsusi maliyyə institutlarından və s. investisiyanın cəlb edilməsinə də şərait yaratmışdır.

Aİ tərəfindən maliyyələşdirilən "ECHO" yardım proqramı isə Azərbaycanda və digər region ölkələrində humanitar sahədə layihələrin icrası ilə məşğul olaraq ümumi dəyəri yüz milyon avrodan çox olan 25 layihənin həyata keçirilməsinə nail olmuşdur.

2004-cü ildən etibarən Aİ region dövlətləri ilə münasibətdə yeni cığır açaraq, yeni qonşuluq siyasətini həyata keçirməyə başlamışdır. Bu siyasət çərçivəsində Avropa İttifaqının ən yaxın şərq dövlətləri, həmçinin Azərbaycanla münasibətlərində 2 tərəfli və çoxtərəfli əlaqələri daha da dərinləşdirməsi, sıx əməkdaşlıq Avropaya inteqrasiya üçün mühim yeniliklərin yaranmasına səbəb olmuşdu. Bu siyasət region dövlətlərinə iqtisadi, siyasi, mədəni və başqa bir çox sahədə inkişaf vəd edərək yeni "AQTA"," TVİNNİNQ", "TAİEX"," ERASMUS", "MUNDUS" və s. kimi proqramların tətbiqinə başlamışdır.

2008-ci ildən etibarən isə "Şərq tərəfdaşlığı" çərçivəsində Aİ ilə münasibətlər daha da dərinləşmişdi. Yeni saziş çərçivəsində azad ticarət zonalarının yaardılması, ətraf mühitin mühafizəsi, təşkilata üzv olan ölkələr arasında vizaların ləğvi, enerji məsələləri ilə bağlı layihələrin icrası və s. nəzərdə tutulmuşdu. Həmin sənəddə enerji təhlükəsizliyi ilə bağlı Azərbaycanın mövqeyi və Aİ ilə əməkdaşlığı yüksək səviyyədə qiymətləndirilərək, Azərbaycanın enerji ehtiyatlarının Avropa üçün nə dərəcədə önəmli olduğu da xüsusilə vurğulanmışdı.

Ölkəmizin bir tərəfdən cənub-qərbi və cənub-şərqi, digər tərəfdən isə Mərkəzi Asiya ölkələri kimi üç əsas subregionun kəsişməsində yerləşməsi onu nəhəng transkontinental layihələrin əsas iştirakçılarından birinə çevirmişdir. 1994-cü il sentyabr ayının 20-də bu istiqamətdə ən vacib addımlardan biri atılaraq "Əsrin müqaviləsi" adlanan müqaviləyə imza atılmışdır. Paytaxt Bakıda imzalanan bu müqaviləyə dünyanın 11 şirkətini birləşdirən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanı kimi ölkələri qoşulmuşdur. Həmin şirkətlər arasında "BP", "Türkiye petrolleri", "Yunako", "Statoyl", "MakDermott" və s. yer alırdı.

Bu müqavilə Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istifadəsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsini nəzərdə tuturdu. Müqavilə imzalandıqdan sonra 12 dekabr tarixində qüvvəyə minmiş və onun icrası üçün ardıcıl əməliyyatlar həyata keçirilməyə başlamışdır. Müqavilə şərtlərinə əsasən, hasil olunan neftin 253 milyon tonu Azərbaycana, 64 milyon tonu isə digər neft şirkətlərinə məxsus olmalı idi. Geridə qalan 194 milyon ton isə müxtəlif xərclərin ödənilməsinə sərf olunacaqdı. Müqavilədə bundan başqa, neft hasilatı prosesində çıxarılacaq 55 milyard kubmetr səmt qazı qarşılıqsız olaraq Azərbaycana çatmalı idi. Layihənin bu şərti müqavilənin ölkəmiz üçün iqtisadi əhəmiyyətinin artmasında önəmli rol oynamışdı. Çünki müqavilənin 1993-cü ilin iyun ayında imzalanmış versiyasında səmt qazının hazırki vəziyyətdən fərqli olaraq Azərbaycana satılması nəzərdə tutulmuşdu. Bütün bu həyata keçirilən tədbirlər Azərbaycanda iqtisadiyyatın inkişafı, inteqrasiyası prosesində mühüm nailiyyətlər əldə edilməsinə səbəb olmuşdur ki, bunlara aşağıdakıları misal gətirə bilərik:

1. Müqavilənin icrası nəticəsində əsas ixrac boru kəmərinin tikintisinə başlanılmış, Azərbaycan neftinin dünya bazarına nəqli üçün ilk addımlar atılmışdı;
2. Beynəlxalq maliyyə institutlarında ölkəmizin kredit qabiliyyəti yüksəlmişdi;
3. Müxtəlif sahələrə investisiya qoyuluşlarında artım baş vermişdi;
4. Azərbaycanın öz iqtisadi siyasətini həyata keçirmək imkanı yaranmışdı;
5. Rəqabətə əsaslanan məhsulların istehsalında yeni texnologiyalar tətbiq olunmağa başlamış, sənaye sahələrinin modernləşməsi baş vermişdi.

“Əsrin müqaviləsi” imzalanarkən yaranmış ən vacib məsələ hasil olunan məhsulların dünya bazarına nəql edilməsi problemi idi. Bu məsələ uzun müzakiərlərə səbəb olmuş və nəticədə bir-birinin ardınca “Bakı-Qroznı-Novorossiysk”, “Bakı-Supsa” , “Bakı-Tbilisi-Ceyhan” neft kəmərləri, “Bakı-Tbilisi – Ərzurum” qaz kəməri istifadəyə verilmiş və “TAP” və “TANAP” layihələrinin icrasına başlanılmışdır. Həyata keçirilən bütün bu layihələr, beynəlxalq və regional təşkilatların işində yaxından iştirak ölkəmizin dünyaya inteqrasiya olunmasında mühüm əhəmiyyət kəsb edən əsas faktorlardır. Azərbaycanın Dünya Bankı, İslam İnkişaf Bankı, Ümumrusiya Bərpa və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, QDİƏT və s. kimi digər dünya bankları və təşkilatlarla sıx əməkdaşlıq etməsi ölkəmizin dünyaya inteqrasiyasının sübutu kimi qiymətləndirilə bilər.

Beləliklə, Azərbaycanın bu gün yürütdüyü mükəmməl və çevik xarici siyasət və eyni zamanda milli maraqlara cavab verən səmərəli və uğurlu nəticələri bilavasitə Heydər Əliyev irsinin, onun uzaqgörənliklə müəyyən etdiyi və davamlı olaraq inkişaf edən, xarici siyasət strategiyasının bəhrəsi hesab olunur. Hazırda ölkəmizin dünyanın bir çox nüfuzlu təşkilatlarına üzv olması, dünyada 170-dən çox ölkə ilə diplomatik münasibət qurması, Respublikada xarici ölkələrin əksəriyyətinin səfirlik, konsulluq və s. kimi rəsmi nümayəndəliklərinin fəaliyyəti təsadüfi hadisə deyil. Bununla yanaşı, dünyanın 62 ölkəsində Azərbaycanın səfirlikləri, konsulluqları və daimi nümayəndəlikləri mövcuddur. Ulu Öndərin əsasını qoyduğu uğurlu xarici siyasətin başlıca vəzifələrinə: respublikanın müstəqilliyinin qorunması, iqtisadi və siyasi təhlükəsizlik məsələləri baxımından müxtəlif ölkələrin təhlükəsizlik sistemlərilə əlaqələr yaradılması, ölkəmizin dünyəvi təşkilatlarda təmsil olunması, dünyanın müxtəlif dövlətlərilə müxtəlif sahələrdə tərəfdaşlığın qurulması, eyni zamanda milli maraqları Azərbaycanın mənafeyi ilə uyğunlaşan ölkələrlə müttəfiqlik münasibətlərinin yaradılması, ölkənin demokratik və azad bazar iqtisadiyyatı fonunda inkişafı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş beynəlxalq qaydaların icrası, regionda hərbi-siyasi gərginliyin aradan qaldırılmasına şəraitin yaradılması, davamlı xarici iqtisadi siyasətin yürüdülməsi və digər bir sıra məsələlərin icrası aiddir. Bütün bu vəzifələr və onların icrasına yönəldilən fəaliyyət Azərbaycan Respublikasının beynəlxalq, regional və dövlətlərarası münasibətlər səviyyəsində atdığı addımlarda və imzaladığı müqavilələrdə öz əksini tapmışdır.

**Açar sözlər:** *iqtisadi inteqrasiya, geoiqtisadi məkan, azad ticarət zonası.*

## ОСНОВЫ ПРОЦЕССА ИНТЕГРАЦИИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА В МИРОВОЕ ХОЗЯЙСТВО

**Резюме**

Экономическая интеграция является одним из наиболее часто обсуждаемых вопросов в последнее время. Это понятие означает передачу национальных экономик, культур, науки и техники стран мира, опыта, накопленного в определенной сфере, друг другу, взаимодополняемость этих стран, взаимодействие и сотрудничество. Конечно, с этой точки зрения Азербайджан должен добиться больших успехов в своем экономическом развитии, основывать свою внешнюю политику на мировом опыте, стать участником проектов мирового уровня, привлекать иностранные инвестиции в экономику страны и т.д. среди стран, включенных в процесс интеграции с целями. Присоединение к этому процессу, имеющему большое значение для экономики Азербайджана, обострилось за годы независимости и получило большее признание со стороны других стран мира, что в свою очередь привело к установлению дипломатических отношений со многими странами, установлению взаимных экономических отношений, и в то же время интеграции экономики Азербайджана в мировое хозяйство и самое главное, Азербайджан, который уже признан как экономический и правовой субъект, начал проявлять свою силу в различных экономических сферах.

Cədvəl 2-də bəzi ölkələrin Mərkəzi Banklarının pandemiyanın əvvəlindən istifadə etdiyi bir sıra alətlər göstərilmişdir. Həmçinin qeyd edilir ki, pandemiyaya qarşı görülən tədbirlər "ənənəvi" və "qeyri-ənənəvi" alətlər arasındakı fərqə son qoymuşdur (3). Nəinki İEÖ, hətta inkişaf etməkdə olan bazarlar da "yeni alətlərdən" istifadə etməyə başlamışdır. İnkişaf etməkdə olan bazarlar aktivlərin satın alınması tədbirlərini həyata keçirərkən daha ehtiyatlı davranaraq öz alışlarını kiçik həcmdə tutmuş və aktivlərini məhdudlaşdırmışlar. Avropa Mərkəzi Bankı ilkin olaraq kəmiyyət yumşaldılması (QE) proqramının tətbiq edilməsi zamanı ehtiyatlı davranmış və məhsuldarlığın artmasından sonra alışlarının çevikliyini artıran "Pandemiya Fövqəladə Satınalmalar Proqramını (PEPP)" qəbul etmişdir.(3; 4)

**Cədvəl 1: Pandemiya zamanı Mərkəzi Bankların istifadə etdikləri alətlər**

| Mərkəzi Banklar | Faiz dərəcəsinin azaldılması, irəli təlimatlandırma | | | Aktiv alışları | | Likvidlik və kredit dəstəyinin təmin edilməsi | | | | | Yumşaldıcı tənzimləmə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Faiz endirimləri | Mənfi dərəcələr | İrəli təlimatlar | Suveren borc | Digər aktivlər | Likvidlik təminatı | F/x svop istifadəsi | Valyuta | Birbaşa kreditləşmə | Bankkreditini təşviqedən proqramlar | Tsiklik kapital buferi | Kapital tələbləri |
| İnkişaf etmiş ölkələr | | | | | | | | | | | | |
| Avstraliya | + | | + | + | + | + | + | | | + | | + |
| Kanada | + | | + | + | + | + | | | | | | + |
| Avropa zonası | | + | + | + | + | + | + | | | + | | + |
| Yaponiya | | + | + | + | + | + | + | | | + | | + |
| İsveç | | | + | + | + | + | + | | | + | + | |
| İsveçrə | | + | + | | | + | + | + | | + | + | + |
| Birləşmiş Krallıq | + | | + | + | + | + | + | | | + | + | + |
| ABŞ | + | | + | + | + | + | | | + | | | + |
| İnkişaf etməkdə olan ölkələr | | | | | | | | | | | | |
| Braziliya | + | | + | | | + | | + | | + | | + |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çili | + | | + | | + | + | | + | | + | | + |
| Çin | + | | | | | + | | | | + | | |
| Hindistan | + | | + | + | + | + | | + | | + | | + |
| İndoneziya | + | | | + | | + | + | + | | + | | |
| Rusiya | + | | | | | + | | + | | + | | + |
| Cənubi Afrika | + | | | + | | + | | | | | | + |
| Türkiyə | + | | | + | | + | + | + | | + | | |

*Mənbə: English B. və başqaları,"Monetary policy and central banking in the Covid era: Key insights and challenges for the future", 2021*

2008-ci ilin qlobal böhranından fərqli olaraq, pandemiya başladığı zaman Mərkəzi Banklar daha sürətli davranmışlar. İlkin olaraq faiz dərəcələrinin endirilməsi Avstraliya, Kanada, ABŞ kimi inkişaf etmiş ölkələrlə yanaşı, Çili, Çin, Hindistan, Türkiyə və s. kimi İEOÖ-də də tətbiq edilmişdir.(4) Qabaqcıl inkişaf etmiş ölkələri qiymətləndirdikdə FED, İngiltərə Mərkəzi Bankı, Avropa Mərkəzi Bankı və Yaponiya Bankının pandemiyaya qarşı oxşar reaksiya verdiklərini görmək olar. İEÖ-də Mərkəzi Banklar aşağı olan faiz dərəcələrini daha da endirmişlər. Pandemiyanın başlanğıclarında Avropa Mərkəzi Bankının və Yaponiya Bankının uçot dərəcələri sıfır dərəcəsinə yaxın, ABŞ-da 1,50%-1,75%, Böyük Britaniyada isə 0,75% arasında idi.

ABŞ dollarından beynəlxalq bazarlarda geniş istifadə edildiyindən FED likvidlik çatışmazlığının qarşısını almaq məqsədi ilə digər Mərkəzi Banklar ilə valyuta svop əməliyyatlarını genişləndirmiş, svop faizlərini aşağı endirmiş, repo əməliyyatlarını həyata keçirmişdir. FED-in zaman-zaman istifadə etdiyi alətlərdən biri olan QE proqramları pandemiyanın iqtisadiyyata vurduğu zərəri minimuma endirmək üçün də həyata keçirilmiş və balans genişləndirilmişdir. 2020-ci ilin mart ayında qəbul etdiyi qərara əsasən, birinci mərhələdə 700 milyard ABŞ dolları, ikinci mərhələdə 300 milyard, növbəti mərhələdə isə 625 milyard ABŞ dolları dəyərində istiqrazların satın alınacağı elan edilmişdir. Avropa Mərkəzi Bankı da avronun əlçatanlığını təmin etmək üçün qeyri-Avropa mərkəzi banklarına svop və repo əməliyyatlarının həyata keçirilməsi imkanını təmin etmişdir. Uçot dərəcələrini aşağı endirmək mümkün olmayan ölkələr qeyri-ənənəvi monetar siyasətdən istifadə edərək daha çox maliyyə aktivləri satın almışdır. ABŞ, Avropa, Yaponiya və İngiltərənin Mərkəzi Bankları əsasən korporativ istiqrazları, ipoteka ilə təmin edilmiş aktivləri satın almış, əsas sektorlara kreditlərin verilməsi kimi üsullardan istifadə etmişlərdir. Bu tədbirlər bankların balans hesabatlarının genişlənməsinə təsir göstərmişdir. ABŞ Federal Ehtiyat Sistemi, Avropa Mərkəzi Bankı, İngiltərə Bankı və Yaponiya Bankı aktivlərin alınması tədbirləri nəticəsində 2020-ci ilin sonu, 2019-cu ilin sonu ilə müqayisədə ümumi olaraq balansını 8,5 trilyon ABŞ dolları qədər genişləndirmişdir (4). Bununla yanaşı, bəzi İEOÖ fərqli cür yanaşma tətbiq etmişdir. Məsələn, Türkiyənin pul siyasətini həddən artıq yumşaltması nəticəsində inflyasiya artdığından sonradan monetar siyasət sərtləşdirilmişdir. Kövrək maliyyə sisteminə və yüksək inflyasiyaya malik olan Braziliyada da müvəqqəti izacə verilməsinə baxmayaraq dövlət istiqrazları satın alınmamışdır. Rusiyada da inflyasiya ilə əlaqədar olaraq, aktivlərin satın alınması üzrə proqramlar həyata keçirilməmişdir. (5)

Pandemiyanın geniş vüsət aldığı 2020-ci ildə qlobal artım -3,06% olduğu halda, 2021-ci ildə bu göstərici 6,11% olmuşdur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müsbət inkişaf müşahidə edilsə də, inflyasiyanın artımı da müşahidə edilmişdir. İqtisadi artımın əldə edilməsində kreditlərin genişləndirilməsinin və aşağı faiz dərəcələrinin təsiri böyük olmuşdur. Başqa sözlə, stimullaşdırıcı tədbirlər və dövlət tərəfindən dəstəklənən kreditlər iqtisadi canlanmanın sürətlənməsində və artmasında əsas amillər olmuşdur. Bu isə rifahı yüksəldən sağlam iqtisadi artım hesab edilməmişdir. Belə iqtisadi siyasətin nəticəsi inflyasiya şəklində özünü göstərmişdir (6). Son meyilləri nəzərə alaraq, 2021-ci ilin sonu üçün Beynəlxalq Valyuta Fondu həm İEÖ, həm də İEOÖ üçün inflyasiya üzrə proqnozunu yüksəltmişdir. 2021-ci ilin noyabr ayı üçün inflyasiya əvvəlcədən müəyyənləşdirilmiş hədəf ilə müqayisədə ABŞ-da 3,4 dəfə, Avro zonasında 2,5 dəfə, Gürcüstanda 4,2 dəfə, Qazaxıstanda 1,5 dəfə, Rusiyada isə 2,1 dəfə yüksəlmişdir. İnflyasiyanın yüksək olması səbəbindən bir sıra ölkələrdə pul siyasəti sərtləşdirilmişdir (2). Müvafiq olaraq, Türkiyədə inflyasiya 2020-ci ildə 14,60%, 2021-ci ildə isə 21,48% artaraq 36,08%-ə yüksəlmişdir. Növbəti ildə də inflyasiya kəskin artmış, 2022-ci ilin ilk 5 ayında 73,50% olmuşdur. Uçot dərəcəsi 2020-ci ilin dekabr ayında 17% təyin edilmiş, 2021-ci ilin dekabr ayından 2022-ci ilin avqust ayına qədər isə 14% səviyyəsində sabit saxlanılmışdır. Uçot dərəcəsinin azalması

daha da inflyasiyanın artmasına səbəb olmuşdur ki, bu da inflyasiya səviyyəsi ilə uçot dərəcəsi arasında mənfi əlaqənin olduğunu göstərir (8).

2021-ci ildə Azərbaycan Mərkəzi Bankının maliyyə sabitliyi siyasəti pandemiyanın maliyyə sektoruna yaratdığı mənfi təsirlərin azaldılmasına yönəldilmişdir. Requlyativ yumşalma rejiminin istifadəsi maliyyə sektorunun bütün seqmentlərinin stabil fəaliyyətinin təmin edilməsinə imkan yaratmışdır. Həmin ildə bank sektorunun fəaliyyətinin qorunması istiqamətində də tədbirlər görülmüşdür. Bank sektorunun kapital adekvatlığı göstəricisi minimum requlyativ tələbi 1,8 dəfə, ani likvidlik əmsalı isə 58,3 faiz olmaqla 30 faiz olan minimum tələbi 1,9 dəfə üstələmişdir. 2021-ci ilin əvvəlindən etibarən Azərbaycan Mərkəzi Bankı pandemiya ilə əlaqədar tətbiq edilən requlyativ yumşalma rejimindən mərhələli çıxış çərçivəsində bəzi tədbirlər həyata keçirmişdir (2). Pandemiya ilə əlaqədar olaraq pul siyasətinin yumşaldılması nəticəsində Mərkəzi Bankın depozit əməliyyatları və qısamüddətli notları üzrə faiz dərəcələrində azalma müşahidə edilmişdir. 2020-ci ildə manatla pul bazası ilin əvvəlindən 7,1% artmışdır. Gəlir və xərclər əsasında formalaşan vahid xəzinə hesabının dəyişməsi, iqtisadiyyata likvidlik dəstəklərinin göstərilməsi pul təklifinin dəyişməsinə təsir göstərən amillər olmuşdur (1). Hazırda inflyasiya xeyli yüksək olduğundan MB uçot dərəcələrinin, faiz dəhlizinin yuxarı və aşağı sərhədləri üzrə faizlərin artırılması haqqında qərar qəbul etmişdir. Ümumilikdə illik inflyasiya azalmağa başlasa da proqnozlaşdırılan səviyyəsi hədəflənmiş göstəricidən yüksək olmaqda davam edir. Baza ssenari üzrə fərziyyələrin sabit qalması halında 2023-cü ildə proqnozlara görə illik inflyasiyanın 8% səviyyəsində olması planlaşdırılır. İllik inflyasiya göstəricilərinin azalması halında pul siyasətinin sərtləşdirilməsi tədbirləri azaldılaraq normal pul siyasəti həyata keçiriləcəkdir (7).

Pandemiya zamanı bankların daha çox kapital və likvidlikləri olduğundan onlar daha möhkəm olmuşlar. Səhmlərin qiymətlərinin aşağı düşməsinə baxmayaraq, bank sektoru ilə bağlı maliyyə sabitliyinə xələl gətirə biləcək risklər çox aşağıdır. Maliyyə sabitliyi üçün bir sıra tədbirlər həyata keçirilə bilər. Bunlara bank sektorunda baş verən proseslərin daim nəzarət orqanları tərəfindən diqqətlə izlənilməsi və bank sistemindən kənardakı maliyyə sabitliyi təhlükələrinə qarşı xəbərdar olmaq, şəffaf fəaliyyətin həyata keçirilməsi üçün banklarla sıx əməkdaşlığın edilməsi, maliyyə sabitliyini qorumaq üçün qlobal səviyyədə əməkdaşlığın edilməsi və s. aiddir (9).

Nəticə olaraq, görülən tədbirlər COVID-19 pandemiyası ilə əlaqədar olaraq maliyyə bazarlarında yaranan daralmanın qarşısını almaq və bu yolla maliyyə bazarlarında vəziyyəti sabitləşdirmək məqsədi daşıyır. Maliyyə sistemindəki zəif nöqtələrin yaxşı təhlil edilməsi sabitləşmə prosesinin sürətləndirilməsinə, ölkələrin iqtisadi dinamikasının güclənməsinə imkan yaradacaqdır.

**Açar sözlər:** *Mərkəzi Bank, maliyyə sabitliyi, monetar siyasət, pandemiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatı*

*2. Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyanatı*

*3. English B. və başqaları,"Monetary policy and central banking in the Covid era: Key insights and challenges for the future". Monetary policy and central banking in the Covid era, 2021, CEPR PRESS*

*4. Karter Ç., "Koronavirüs salgınının para politikaları üzerine etkileri". Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi, 2021, Cilt 8, №3, s.675-692*

*5. Kuzucu S.,"Türkiye Cumhuriyet Merkez Bankası'nın Covid-19 pandemisine karşı para politikasının bir değerlendirmesi", Doğuş Üniversitesi Dergisi. 2022, №23, s.265-279*

*6. Sertkaya B. və Baş S., "Covid-19 salgınının Türkiye ekonomisi üzerine etkileri: riskler ve olası senaryolar", Dicle Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2021, Cilt 11, №21, s.147-167*

*7. Ülger Ö.,"TCMB-nin Covid-19 Salgını Sürecinde Uyguladığı Para Politikalarının Değerlendirilmesi". Maliye ve Finans Yazıları, 2022, Cilt 36, №118, s.101-129*

*8. https://www.cbar.az/press-release-4093/on-interest-rate-corridor-parameters*

*9. https://www.imf.org/en/Blogs/Articles/2020/03/11/blog030920-monetary-and-financial-stability-during-the-coronavirus-outbreak*

**Оценка влияния денежно-кредитной политики на обеспечение финансовой стабильности в период пандемии и в постпандемический период**

**РЕЗЮМЕ**

Распространение пандемии привело к повышению волатильности на международных рынках. В период пандемии велика роль государства в формировании финансовой системы и реализации важных механизмов. Центральные банки пытались обеспечить финансовую стабильность, используя "традиционные" и "нетрадиционные" инструменты денежно-кредитной политики. В постпандемический период меры денежно-кредитной политики были ужесточены, так как уровень инфляции начал расти.

**Ключевые слова:** *Центральный банк, финансовая стабильность, денежно-кредитная политика, пандемия.*

**Assessment of the effects of monetary policy in ensuring financial stability during the pandemic and post pandemic**

**SUMMARY**

The wide spread of the pandemic has caused increase of volatility in international markets. The role of the state is great in the formation of the financial system and the implementation of important mechanisms during the pandemic. Central banks have tried to ensure financial stability by using "conventional" and "unconventional" monetary policy instruments. As the inflation rate started to increase in the post-pandemic era monetary policy measures have been tightened.

**Key words:** *Central Bank, financial stability, monetary policy, pandemic.*

UOT 338.43

# MAL-QARANIN SÜRƏTLİ BƏDƏN ÇƏKİSİ ARTIMINDA GENİŞ VƏ MƏHDUD QİDALANMA METODLARI

**ƏKRƏM MAHMUDZADƏ**
*Azərbaycan Dövlət Aqrar Universiteti, magistrant*
*E-mail: akrem.mahmudzade1996@gmail.com*

## Giriş

Ulu öndər Heydər Əliyevin respublikada rəhbərlikdə olduğu illərdə Azərbaycan hökumətinin diqqət mərkəzində ən ümdə vəzifələrdən biri kənd təsərrüfatının inkişafına qayğının artırılması olmuşdur.

Ümummilli Liderimizin ikinci dəfə ölkə rəhbərliyinə gəlməsi ilə Azərbaycan iqtisadiyyatında yeni inkişaf mərhələsi başlandı. Ölkə Prezidenti aqrar sahədə də vəziyyəti araşdıraraq, kənd təsərrüfatının inkişafına diqqətin artırılması üçün bütün qüvvələri səfərbər etdi.

Bildiyimiz kimi, aqrar islahatların həyata keçirilməsinin ilk addımları Naxçıvan Muxtar Respublikasında atılıb. Hələ Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri işləyərkən 1992-ci ilin aprel ayında muxtar respublikanın Ali Məclisinin sessiyasında aqrar islahatlara dair xüsusi qərarlar qəbul olunmuşdu.

Heydər Əliyev respublikada ictimai bölmədə heyvandarlığın tənəzzülə uğramasının, sahənin zərərlə işləməsinin, heyvandarlıq məhsullarına süni surətdə aşağı qiymət qoyulmasının, satılmış məhsulun dəyərinin vaxtında alına bilməməsinin, istehsal, emal və istehlak arasında iqtisadi mütənasibliyin pozulmasına səbəb olduğunu nəzərə alaraq heyvandarlığın özəlləşdirilməsini sürətləndirdi.

Ulu Öndər Heydər Əliyevin fəaliyyəti ilə kənd təsərrüfatının əsas sahəsi olan heyvandarlığın özəlləşdirilməsi artıq öz bəhrəsini vermiş, başqa respublikalardan idxal olunan heyvandarlıq məhsullarına olan asılılıq aradan qaldırılmış və əhalinin ət və süd məhsullarına tələbatı respublikadaxili istehsalla tam təmin olunur.

Heydər Əliyev respublikamızda kənd təsərrüfatının inkişafının növbəti mərhələsini və istiqamətlərini özünəməxsus uzaqgörənliklə çox düzgün və dəqiq müəyyən edərək növbəti tədbirlər həyata keçirməyə başladı.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2009-cu il 14 aprel tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

Proqramda aqrar sahənin və kənd ərazilərinin inkişaf etdirilməsinə xüsusi diqqət verilir. Sənəddə kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, həmin məhsulların emalı, tədarükü və satışının təkmilləşdirilməsi, bu sahələrin maddi-texniki, elmi və kadr bazasının yaxşılaşdırılması əsas hədəflərdəndir.

Bu məqsədlə proqramda "Regionlarda kənd təsərrüfatı məhsullarının tədarükü üzrə infrastrukturun yaradılmasının və marketinq xidmətlərinin dəstəklənməsi", "Aqroemal müəssisələri şəbəkəsinin genişləndirilməsinin və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə mütərrəqi texnologiyaların tətbiqinin dəstəklənməsi", "Cins heyvandarlıq komplekslərinin inkişaf etdirilməsi" və "Aqrofermaların yaradılmasının dəstəklənməsi", habelə digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Artıq bu tədbirlərin icrasına 2009-cu ildən etibarən başlanmışdır və hazırda uğurla davam etdirilir. Təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar inkişafa dövlət himayəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan müasir aqrar-sənaye kompleksinə malik ölkəyə çevrilir.

Heydər Əliyevin həyata keçirdiyi siyasi, təşkilati tədbirlər, eyni zamanda aqrar islahatların aparılması və görülən digər işlər tezliklə öz bəhrəsini verməyə başladı. Və nəticədə isə aqrar sahədə dönüş yarandı.

Ulu Öndər hər zaman aqrar islahatların vacibliyini xüsusi vurğulayırdı,: "Aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm, eyni zamanda, son dərəcə əhəmiyyətli, məsuliyyətli və taleyüklü məsələdir".

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, ölkədə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükə-

sizliyinin təmin edilməsi, ölkədə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə yeni heyvandarlıq kompleksləri yaradılır.

Respublikada ət və süd məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi məqsədilə dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 264,1 milyon manat olan 49,9 min başlıq 27 müasir cins heyvandarlıq kompleksinin yaradılmasına 111,7 milyon manat güzəştli kredit ayrılıb.

**Mal-qaranı kökəldən qidalanmanın əsas prinsipləri:**

• Heyvanın öz genetik strukturunda inkişaf qabiliyyəti optimal qida maddələri, minerallar və əlavələrlə təmin edilir.

• Müasir kökəlmə cavan və diri çəki almağa yararlı heyvanlarla aparılmalıdır.

• Ətin tərkibi keçmişdəki kimi yağlı ət şəklində olmamalı, zülalla zəngin olmalıdır.

• Heyvanların erkən kökəlməsi optimal kökəlmənin qarşısını alır.

Müəssisədə tələb olunan zəruri şərait: açıq yer, heyvan sığınacağı, yem, su. Avadanlıqlar: Mal-qara, tərəzi, jurnal, qələm, kağız, iş paltarı, proyektor, sinif mühiti, ölçən xətkeş, sayğac, kompüter.

**Qiymətləndirmə:** Moduldakı hər təlim fəaliyyətindən sonra siz təqdim olunmuş ölçmə vasitələri ilə özünüzü qiymətləndirəcəksiniz. Modulun sonunda müəllim modul tətbiqləri vasitəsilə əldə etdiyiniz bilik və bacarıqları ölçmə alətindən (çoxsaylı seçim testi, doğru-yanlış testi, boşluqları doldurun və s.) ölçməklə sizi qiymətləndirəcək.

İnsanın qidalanması iki əsas mənbədən asılıdır. Birincisi tərəvəz, ikincisi isə heyvan qidasıdır. Ət heyvani qidalardan biridir. Mal əti zülalla zəngin və qidalı olduğundan geniş istifadə olunur. Ölkəmizdə iribuynuzlu mal-qaranın kökəldilməsi geniş tətbiq olunur. Lakin onların əksəriyyəti ailə biznesi formasındadır və bir neçə baş heyvandan ibarətdir.

Heyvan ehtiyatımızın çox olmasına baxmayaraq, kifayət qədər qırmızı ət istehsal edə bilmirik. Bunun səbəbi; mədəni cins heyvanlardan geniş istifadə edilmir və fermerimiz düzgün proqram tətbiq etmir. Əsas odur ki, yaxşı baxım və qidalanma ilə keyfiyyətli və ucuz ət istehsal olunsun. Mal-qaranın kökəltmə müəssisələri qısa, orta və uzunmüddətli kökəltmə proqramlarını həyata keçirir. Qurban bayramı üçün xüsusi olaraq uzunmüddətli kökəltmələr var. Kökələn heyvanlar adətən erkək heyvanlar və ya steril inəklər olur.

Əsas odur ki, düzgün kökəltmə proqramı seçilsin, düzgün qulluq və qidalanma ilə yüksək məhsuldar, keyfiyyətli ət əldə olunsun. Bu modulla siz; Kökəltmə üçün uyğun heyvanı və kökəltmə müddətini seçəcək, keyfiyyətli və ucuz qaba və qatı yemlərdən istifadə etməklə sağlam və bol məhsul əldə edəcəksiniz.

Lazımi mühit, alətlər və materiallar təmin edildikdən sonra siz texnikaya uyğun kökəltmə üçün uyğun heyvanları seçərək kökəltmə proqramı hazırlaya biləcəksiniz. Heyvandarlıq müəssisələrində müxtəlif kökəltmə proqramlarından istifadənin səbəblərini araşdırın. Hansı heyvanlar kökəltmə üçün daha uyğundur? Səbəbləri araşdırın.

**Kökəltmə proqramının hazırlanması**

Kökəltmə: İstehlakçının tələbatını ən qısa müddətdə və iqtisadi cəhətdən ödəyəcək keyfiyyətdə karkas əldə etmək üçün heyvanların intensiv yemlənməsi kimi müəyyən edilə bilər.

Ot tövləsi. Heyvandarlıqda ən münasib proqramın bu olduğunu söyləmək çox düzgün deyil. Müxtəlif vəziyyətlər üçün faydalı olan proqramdan istifadə etmək lazımdır. Seleksiyaçı mövsümə, yem vəziyyətinə, iqtisadi vəziyyətə, tövlənin ölçüsünə və otlaq vəziyyətinə uyğun proqram tərtib edir. Ancaq gözlənilən və ya gözlənilməz vəziyyət yarandıqda, kökəltmə proqramında dəyişikliklər edilə bilər.

Yalnız bu növ heyvanları almaqla qışlayır və ya kobud yem və otlaqlardan istifadə edərək kökəlməyə hazır vəziyyətə gətirirlər. Bəzi müəssisələr buzovların yetişdirilməsi ilə yanaşı, normal inkişafı təmin etmək üçün danaların bir hissəsini saxlayır və bir-iki yaşına qədər bəsləyirlər.

Müəssisələrin bəziləri də kökəldəcəkləri cavan heyvanları əvvəlcədən alıb kökəltməyə hazır vəziyyətə gətirirlər.

Kökəltməyə yararlı buzovlar. Kökəltməyə hazırlanmış heyvanlara "mal heyvanları" deyilir. Bu ehtiyat heyvanların yaşı 6-24 aydır.

Bu heyvanlar üçün kökəltmə demək olar ki, nəzərə alınmır. Onlar yalnız kökəltməyə hazırlıq kimi qidalanırlar.

1.3.2.2. Gənc erkək mal-qaranın kökəltmə proqramı. Erkəklər dişilərə nisbətən daha tez kökəlir, kq çəki artımı üçün daha az yem istehlak edir və daha arıq olur. Lakin aşağı bədən çəkisi ilə (100-150 kq)

intensiv qidalanan heyvanlar erkən fizioloji yetkinliyə çataraq kökəldiklərindən intensiv qidalanan heyvanlardan 50-100 kq aşağı bədən çəkisi ilə kəsimə göndərmək mümkündür. -300 kq.

Geniş qidalanma və məhdud qidalanma; Sürətli bədən çəkisi artımının əsas hədəf olmadığı hallarda tətbiq edilir. Məsələn, otlaq imkanlarının yaxşı olduğu və ya yemin dəyərinin çox aşağı olduğu hallarda məhdud qidalanma aparıla bilər. Heyvanın qidalanmasının böyük hissəsi otlaqdan, qalan hissəsinin 85%-i çox az konsentrasiyalı yemdir, duz və mineral ehtiyacları kənardan qarşılanır.

Vitaminlər verilmir.

3.4. Kastrasiya edilmiş cavan mal-qara. Kökəltmə. Cavan mal-qara onlara qulluq zamanı bəzi çətinliklərə yol verməmək üçün axtalanır. Xüsusilə otlaqlarda kökəltmədə tətbiq olunan kökəltmə üsuludur.

Axtalanmış heyvanlarla müqayisədə gündəlik diri çəki artımını və kökəltmə diri çəkisini 10% az təmin edir. Bir kq diri çəki artımı üçün sərf olunan yem miqdarı daha yüksək olacaqdır.

Düyə Kökəltmə damazlıq düyələrlə aparılır. Onlar cavan erkək mal-qaraya nisbətən gündəlik çəki artımını 10-20% az göstərirlər. Otlaqda aparılsa, iqtisadi cəhətdən uğurlu olar.

Mal-qaranın az hissəsini düyələrin kökəldilməsi təşkil edir. Ümumiyyətlə, hamilə olmayan dişi və ya müxtəlif səbəblərdən çoxalmayan heyvanlardan istifadə edilir. İntensiv üsul tətbiq olunan düyə kökəltmədə kəsim çəkisi 350 kq olduğu halda, kökəltmə hibridləri ilə kökəltmədə 400 kq-a çatır.

**DƏMİR**

Kökəlmə - heyvanlarda ət məhsuldarlığını və keyfiyyətini artırmaq üçün tətbiq edilən qidalanma proqramıdır.

• Heyvandarlığın məqsədi heyvanların hər gün müəyyən diri çəki artımını təmin etməkdir. Genetik quruluşun icazə verdiyi ölçüdə ən yüksək keyfiyyətli ət istehsal etmək üçün heyvanların xüsusi qidalanmaya məruz qalmasıdır.

Kökəltmədə iki mühüm termin var

• Bunlardan birincisi, adətən gündəlik bədən çəkisi artımı (GCAA) olaraq təyin etdiyimiz bədən çəkisi artımıdır (CAA).

- Bunu sadə hesablasaq, kökəltmə zamanı bədən çəkisi kökəlmənin sonunda bədən çəkisindən çıxarılır və kökəlmə müddətinə bölünür.

- İkincisi, yemdən (stavkadan) faydalanmaq qabiliyyətidir (YYO) və hər kq diri çəki artımı üçün istehlak edilən quru maddə əsasında yem miqdarını ifadə edir.

- Bunun üçün kökəlmə dövründə istehlak edilən yemin quru maddəsi hesablanaraq kökəlmə müddətinə bölünür. Nəticə dəyəri GCAA-ya bölünür və YYO tapılır və YYO dəyərinin aşağı olması arzu edilir.

- Gənc heyvanlarda yemə çevrilmə nisbəti daha yaxşıdır.

**1. Heyvanın cinsi:**

• Heyvandan alınacaq diri çəki artımı ilk növbədə heyvanın genetik quruluşu ilə məhdudlaşır. Baxım və qidalanma şərtləri ilə bu həddə çatırıq.

• Mədəniyyət cinsləri və xaçlar gündə 1200-1600 q CAA təmin etdiyi halda, yerli cinslərdə bu miqdar 800-1000 q arasındadır.

• Kökəlmə tədqiqatlarında daha məhsuldar olan kultur cinsləri və xaçlar ölkəmizdə mal-qaranın 65%-ni təşkil edir.

• Bu cinslər arasında ən çox rast gəlinənlər Holşteyn (qara-ağ tünd qırmızı), Mantafon (İsveçrə Qəhvəyi) və Simentaldır.

• Bu heyvanların genetik quruluşu gündə 1400-1600 q diri çəki almağa uyğundur.

**2. Yaş**

• Yaş mal-qaranın kökəlmə qabiliyyətinə təsir edən mühüm amildir.

• Kökələcək heyvanlar cavan olmalıdır. Bu heyvanların kökəlmə qabiliyyəti daha yüksəkdir.

• Gənc heyvanlar istehlak etdikləri qidaları əzələ, orqan, toxuma və sümük inkişafında istifadə edirlər. Onların sağ qalma səviyyəsi və qidalanma tələbləri aşağıdır. Bu hadisələr bir yaşından kiçik heyvanlarda daha çox özünü göstərir.

• Mədəni cins və hibridlərdə inkişaf yetkinlik dövrünə qədər davam edir. Bu müddət 18 aydır. Yerli cinslərdə 2,5-3 yaşında olur.

• Bu yaşlarda kökəlmə dayandırılmalıdır. Çünki bu dövrə qədər həqiqi böyümə, yəni orqanlarda əzələ, orqan, toxuma və sümüklərdə artım baş verir.

• Yağ sintezi üçün istehlak edilən qida maddəsinin miqdarı eyni əzələ sintezi vahidi üçün istehlak edilən qidadan daha yüksəkdir.

• Heyvan yaşlandıqca 1 kq CAA üçün istehlak edilən yem DM miqdarı artır.

• Yaş və SFL arasındakı əlaqəni müəyyən etmək

üçün aparılan bir araşdırmada (…) 0-1, 1-2, 2-3 və 3-4 yaşlarında müvafiq olaraq 5.08; 11.26; 17,02 və 23,45 kq olduğu müəyyən edilib.

• Heyvanın yaşlandıqca enerji ehtiyacı artır, zülal ehtiyacı isə azalır.

• Mal-qaranın böyüməsi 1 yaşa qədər ən yüksək səviyyədə olur, sonrakı yaşlarda isə azalır. • Birinci ildə artımı 100%, ikinci ildə 70%, üçüncü ildə isə 50% kimi qəbul etsək.

**3. Mənşəyi**

• Damazlıq dəyəri yüksək olan öküzlərdən alınan balalardan istifadə etmək daha rahatdır.

• Məlum mənbədən alınan heyvanlara qulluq, qidalanma şəraiti, xəstəliklər və digər çoxalma problemləri haqqında daha yaxından biliklər əldə edilir.

• Yüksək kökəlmə performansına nail olmaq olar, çünki balanın ala biləcəyi CAA, kökəldən buzovun valideynlərini bilməklə daha yaxşı müəyyən edilə bilər.

**4. Şərtlər**

• Vəziyyət deyildikdə, heyvanın inkişaf və kökəlmə vəziyyəti başa düşülür.

• Balalar dövründə yaxşı baxım və bəslənmə görmüş, skelet quruluşu qurulmuş, lakin sonradan xəstəlik olmayan səbəblərdən (aclıq, baxımsızlıq, stress və s.) zəifləmiş heyvanlarla uğurlu kökəlmə aparılır.

• Vəziyyəti aşağı olan heyvanlar lazımi şəraitlə (çiləmə, peyvənd, yaxşı yem tərkibi) təmin edildikdə və kökəlmədən əvvəl balanslaşdırılmış qidalandıqda, həmyaşıdları ilə müqayisədə rəqabət qabiliyyətli (rəqabətli) böyümə və daha sürətli kökəlmə performansı təmin edərək, aralarındakı CA fərqini aradan qaldırır.

• Həmçinin, onlar zəif və yüngül olduqları üçün ucuzdurlar. Onlar istehlak etdikləri yemin kiçik bir hissəsini yaşayış payı üçün, daha çoxunu isə CAA üçün xərcləyirlər.

**5. Qulluq və sağlamlıq**

• Kökələcək heyvanlar daxili və xarici parazitlərə qarşı pestisidlərlə qidalanmalı və lazımi peyvəndlər edilməlidir.

• Heyvanları alarkən canlı gözləri, parlaq və hamar tükləri, inkişaf etmiş boyun və çiyinləri olan, arxadan baxıldığında tam bud və omba üçün uyğun olan heyvanlara üstünlük verilməlidir.

**6. Yem**

• Yaxşı yem tərkibi tələb olunur. Məlum olduğu kimi, xərclərin təxminən 70 faizini yem təşkil edir.

**Qidalanma vahidi**

• Yemin saxlanıla biləcəyi qapalı sahələr, yem hazırlama və avadanlıq bölmələri yem bölməsində yerləşdirilməlidir.

DÖŞƏMƏNİN XÜSUSİYYƏTLƏRİ və QİDA YERİ SEÇİMİ

• Yarımaçıq və sərbəst tövlələrdə saxlanılan mal-qara daha məhsuldar, sağlam və canlı olur.

• Yarımaçıq və açıq təsərrüfatda yetişdiricilərin ən böyük qorxusu heyvanların soyuqluğudur.

• Heyvanlar müsbət 10 və mənfi 10 °C temperaturda optimal şəkildə yaşayırlar.

• Heyvanlar mənfi 18 °C-də soyuqluq hiss etməyə başlayır. Bu səbəbdən sözügedən tövlələr təkcə sahil bölgələrimiz üçün deyil, həm də İç Anadolu kimi qışı soyuq keçən bölgələr üçün uyğundur.

• Tövlələr yarı açıq tikiləcəksə, qapalı tərəfi bölgədə hökm sürən külək və yağışların qarşısını alacaq şəkildə olmalıdır.

• Ölkəmizdə ümumiyyətlə, sərt və soyuq qış küləkləri şimaldan və şimal-şərqdən əsdiyi üçün tövlələrin cənuba baxan tərəfləri açıq olmalıdır.

**Kökəltmə üçün heyvan seçimi**

• Kökəltmədə istifadə olunacaq heyvanı seçərkən nəzərə alınmalı olan məsələləri irq, yaş, cins və vəziyyət kimi sadalaya bilərik.

• Heyvan alarkən mövsüm nəzərə alınmalıdır.

• Kökəlmənin bitmə tarixi ət bazarının uyğun olduğu dövrə uyğun gəlməlidir.

• Alınacaq heyvanların baş-ayaq-boyun və bədən quruluşu kökəlməyə uyğun xüsusiyyətləri, bədənin duruşunu, yerişini, heyvanın səsə həssaslığını, gözünün və saçının parlaqlığını, nəmliyini göstərməlidir. Burun güzgüsü, gövdəsi, iştahı, axınları və xəstəlik vəziyyəti araşdırılmalıdır.

• Xəstə, yararsız, şübhəli heyvanlar alınmamalıdır. Şən, canlı görünüşlü, inkişaf etmiş boyun və çiyinləri olan, arxadan baxıldığında tam bud və ombası olan və ya dolğunluğa uyğun olanlara üstünlük verilməlidir.

• Satın alınarkən baytar hesabatı və peyvənd sertifikatı tələb edilməlidir.

İzolə:

• Müəssisəyə xaricdən yeni gətirilən heyvanlar heç vaxt orada əvvəllər aparılmış heyvanların arasına qoyulmamalıdır.

• Heyvanlar müxtəlif mənbələrdən gəldiyi üçün müxtəlif mikroorqanizmlərlə yüklənə bilirlər. Köhnə mal-qaranı yoluxdura bilərlər. Bu xəstə heyvanlar təcrid olunmaqla ətraf mühitdən çıxarıla bilər.

• Lazım olan peyvəndlər edilmədikdə, bu peyvəndlər edilir.

• Yerli baytarlıq təşkilatına müraciət edilməklə ayaq və ağız peyvəndi və digər zəruri peyvəndlər (məsələn, qarayara, botulizm, İBR, Paraqrip-3) aparılır. Bu təcrid zamanı peyvəndin qüvvəyə minməsi üçün tələb olunan vaxt təxminən 15 gündür.

• Heyvanlara daxili və xarici parazitlərə qarşı səpilir.

• İzolyasiya sahəsində heyvanları yeni yeməyə alışdırmağa diqqət yetirir. Bunun üçün; - Yeni gələn heyvanlara ilk gün yemək üçün quru ot və yarım kilo konsentrat yem verilir. - Qatılaşdırılmış yemin miqdarı hər gün 300-350 qram artırılır, kobud yem azaldılır. Heyvanlar kökəltmə kobud yeminə öyrəşiblər. 2 həftə ərzində heyvan qarışıq yemə və kobud yemə tam öyrəşir.

## QİDALANMA ÜSULLARI VƏ QİDALANMA PRİNSİPLƏRİ

• Kökəltmə üsulları yaşa, vaxta, mövsümə, orta və qidalanma üsullarına görə dəyişə bilər.

- Heyvanların yaşına uyğun olaraq dana kökəltmə, cavan mal-qara kökəltmə, qoca mal-qaranın kökəldilməsi;

- Müddətinə görə, qısa, orta və uzunmüddətli kökəltmə;

- Qidalanma proqramına əsasən, kökəltmə üsullarını ekstensiv, yarımintensiv və intensiv kökəlmə kimi nəzərdən keçirə bilərik.

**Heyvandarlıqda işlər**

• Kökəltmənin əvvəlində heyvanların çəkisinin çəkilməsi, kökəltmənin nə vaxt dayandırılacağının müəyyən edilməsi, kökəltmə sonunda isə diri çəkisinin müəyyən edilməsi.

• Kökəltmənin sonunda çatacağı düşünülən bədən çəkisindən kökəltməyə başlayan çəki çıxarılaraq kökəltmə müddətinə bölünərək gündəlik bədən çəkisi artımı tapılır.

• Heyvandarlığın məqsədi iqtisadi cəhətdən müəyyən diri çəkiyə çatmaqdır.

• Heyvanlar həyatlarını, ilk növbədə, istehlak etdikləri yemlə təmin edirlər.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Xalq qəzeti.- 2009.- 22 avqust.- S. 3.*

2. *Azərbaycan qəzeti - 2010.- 25 aprel.- S. 4.*

3. *https://gencalimler.az/az/news/2819/*

4. *https://www.agro.gov.az/az/heyvandarliq*

5. *https://www.agro.gov.az/az/heyvandarliq/maldarliq/etlik-maldarliq*

6. *https://president.az/az/articles/view/29758/print*

7. *https://heyvandarliq.az/oxu/olk-mizd-tlik-maldarliq-haqqinda/*

8. *AKCAN, A. (1986). Sığınacaq havası və heyvan sığınacaqlarında məhsuldarlığa təsiri. Heyvandarlıq Simpoziumu. Nəşr №:16, səh. 55-56, Tokat.*

9. *CESAR, S. M. (1986). Pəhriz yağının, mövsümün və cins növünün mal əti sükanlarının yem sahəsinin performansına və karkas xüsusiyyətlərinə təsiri. anim. yetişdirilmiş.*

10. *Abstr. 54: Abst. 86.*

11. *DAHLQUIST, J. M. və MADER, T. L. (1990). Ətraf mühit və obyekt*

12. *artan sükan yemi-lot performans. J. Anim. elm. 68: Əlavə. 1,256.*

13. *PRESTON, T. R. və WILLIS, M. B. (1975). İntensiv mal əti istehsalı. Berqamot mətbuatı. səh. 166-176, 386-399., Oksford.*


## XÜLASƏ


Kökəlmə proqramının hazırlanmasının önəmi

Kökəlmə proqramı hazırlayarkən, seleksiyaçı əvvəlcədən sərmayəni görmək və geri qaytarmaq istəyir. Bu səbəbdən kökəltməyə başlamazdan əvvəl bu işin gəlir və xərclərini hesablayır və ona uyğun hərəkət edir. Kökəltmə müddəti, kökəldiləcək heyvanların vəziyyəti və sayı, istifadə ediləcək kökəltmə növü və yemin vəziyyəti kimi meyarlar seleksiyaçı tərəfindən nəzərdən keçirilir.

Ən uyğun kökəltmə proqramını seçir və tətbiq edir. Önəmli olan sağlam, bol və ucuz ət əldə etməkdir. Məqsəd kökəltmə proqramı hazırlamaqla bunu təmin etməkdir.

Kökəltmə proqramında diqqət edilməli məsələlər

Kökəlmədən əvvəl müəyyən proqram hazırlanmalı olduğunu izah etdik. Bu səbəbdən heyvanların bəslənməsində əməl edilməli olan məqamlar aşağıdakılardır: Yemləmə vaxtı: Kökəlmə zamanına uyğun heyvan seçmək lazımdır.

Misal üçün, qısamüddətli kökəlmə üçün 3 yaşdan yuxarı heyvanlardan istifadə etmək lazımdır. Kiçik heyvanların qısa müddətə kökəldilməsi məqsədəuyğun deyil.

**Açar sözlər:** *Mal-qara, əmək xərcləri, ət məhsuldarlığı, mədəni cinslərlə çarpazlaşdırmaq, qidalanma, qatılaşdırılmış yem, mal-qaranın kökəldilməsi.*

## КРАТКОЕ СОДЕРЖАНИЕ

Важность разработки программы разведения Разрабатывая программу разведения, заводчик хочет увидеть и окупить первоначальные инвестиции. Поэтому, прежде чем начать набирать вес, он рассчитывает доходы и расходы этого бизнеса и действует соответственно.

Заводчик рассматривает такие критерии, как период откорма, состояние и количество животных, подлежащих откорму, тип используемого откорма и состояние корма.

Подбирает и реализует наиболее подходящую программу похудения. Главное – получить здоровое, обильное и дешевое мясо. Цель состоит в том, чтобы обеспечить это, разработав программу увеличения веса. Вопросы, которые необходимо учитывать в программе набора веса Мы объяснили, что перед набором веса необходимо подготовить определенную программу. По этой причине при кормлении животных необходимо соблюдать следующие моменты: Время кормления: необходимо выбирать животных в соответствии со временем откорма.

Например; На краткосрочный откорм следует использовать животных старше 3 лет. Кратковременный откорм мелких животных нецелесообразен.

**Ключевые слова:** *Животноводство, затраты труда, выход мяса, скрещивание, питание, концентрированные корма, откорм крупного рогатого скота.*

## SUMMARY

The Importance of Developing a Breeding Program When developing a breeding program, the breeder wants to see and recoup the initial investment. Therefore, before starting to gain weight, he calculates the income and expenses of this business and acts accordingly.

Criteria such as the period of fattening, the condition and number of animals to be fattened, the type of fattening to be used and the condition of feed are considered by the breeder. Selects and implements the most appropriate weight loss program. The important thing is to get healthy, plentiful and cheap meat. The goal is to ensure this by developing a weight gain program.

Matters to be considered in the weight gain program We have explained that a certain program must be prepared before gaining weight. For this reason, the points that should be followed in animal feeding are as follows:

Feeding time: It is necessary to choose animals according to the time of fattening.

For example; Animals older than 3 years should be used for short-term fattening. Short-term fattening of small animals is not appropriate.

**Key words:** *Livestock, labor costs, meat yield, crossbreeding, nutrition, concentrated feed, cattle fattening.*

UOT 336.1; 336.22

# FİSKAL QAYDALARIN TƏTBİQİNİN KONSEPTUAL ƏSASLARI

**NURİYYƏ MƏMMƏDOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: nuriyye.memmedova.2000@gmail.com*

## GİRİŞ

Fiskal qaydalar fərdi büdcə parametrlərinə kəmiyyət məhdudiyyətlərinin tətbiq edilməsini təmin edir. Hər şeydən əvvəl, ölkənin uzunmüddətli strateji maraqlarını siyasi qərarlar qəbul edən məmurların yaxın maraqlarından qorumaq vacibdir. Seçki rəqabəti siyasi qüvvələri bütövlükdə iqtisadiyyatın ən çox ehtiyac duyduğu xərclərə deyil, seçicilər üçün ən çox görünən və cəlbedici olan xərclərə üstünlük verməyə təşviq edir. Digər tərəfdən, kontrtsiklik fiskal siyasətin həyata keçirilməsi makroiqtisadi sabitliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və praktikada bu siyasət yalnız məhdudlaşdırıcı fiskal qaydaların tətbiqi ilə mümkündür.

Kontrtsiklik büdcə siyasətinin mahiyyəti ondan ibarətdir ki, dövlət iqtisadi şəraitin əlverişli olduğu illərdə qazandığından az xərcləyir və bu illərdə formalaşan ehtiyatlar dövlətə maliyyə resursuna olan tələbatını ödəmək üçün gəlir kəsirlərini kompensasiya etməyə imkan verir.

### Fiskal qaydaların dövlət maliyyəsinin idarə olunmasında rolu

Ümumiyyətlə, dövlət siyasətinin məqsədlərini çatdırmaq və effektiv vasitə kimi xidmət etmək üçün belə qaydalar sadə və şəffaf olmalıdır. Şəffaflıq fiskal qaydaların aydın şəkildə müəyyən edilməsini və uyğunsuzluğun asanlıqla aşkar edilməsi və aradan qaldırılması üçün tələblərin müəyyən edilməsini şərtləndirir. Əgər qaydada imtina bəndi varsa (məsələn, iqtisadi şərtlər qaydadan kənara çıxmağa imkan verirsə), belə imtinanın tətbiq olunduğu hallar aydın şəkildə müəyyən edilməlidir. Qaydada müəyyən edilmiş göstəricilər üzrə əldə edilmiş nəticələrin hesabatı da nəzərdə tutulmuş digər təcrübələrə uyğun olmalıdır.

Son on ildə bir sıra ölkələr fiskal qaydalar və fiskal hesabatlılıq (və ya şəffaflıq) qanunlarını fiskal intizamı və siyasət nəticələrini təkmilləşdirmək mexanizmi kimi tətbiq ediblər. Bu cür tənzimləmələr, bir qayda olaraq, maliyyə riskləri haqqında ictimaiyyəti məlumatlandırmaq da daxil olmaqla, siyasət məqsədləri və onlara necə nail olmaq barədə aydın bəyanat verməklə fiskal şəffaflığı artırır. Bu qanunların funksiyalarından biri odur ki, onlar fiskal siyasətin etibarlılığını artırmaq və hesabatlılığı təkmilləşdirməklə fiskal konsolidasiyaya dəstək yaratmağa kömək edir (7).

Avtonom fiskal qaydalar diskresion müdaxilənin əhatə dairəsini məhdudlaşdırmaqla makroiqtisadi siyasətin etibarlılığını artırmaq üçün nəzərdə tutulmuşdur (6). Bunlara balanslaşdırma, büdcə öhdəlikləri, xərc limitləri və borc limitləri kimi müddəalar daxildir. Məsələn, Maastrixt müqaviləsinə əsasən, Avropa Birliyinin vahid valyutasını axtaran ölkələr büdcə kəsirlərini və borc səviyyələrini məhdudlaşdırmağa razılaşdılar və mərkəzi banklardan borc götürməyə məhdudiyyətlər qoydular.

BVF-ə görə, fiskal qaydalar hazırda dünyada 80 ölkədə var, 60-dan çox ölkədə borc limiti, 60-dan az ölkədə büdcə kəsiri qaydalar, 20 ölkədə xərcləmə qaydaları və 10 ölkədə gəlir limiti var. Büdcə gəlirləri təbii sərvətlərdən asılı olan ölkələr üçün bu qaydalar daha vacibdir. Çünki təbii sərvətlərin satıldığı dünya birjalarında qiymətlər çox dəyişkəndir və bu bazarlarda qiymətlər vaxtaşırı qalxıb kəskin şəkildə enir. Yüksək qiymət mühitində yüksək xərclər resurs səmərəsizliyi riskini artırır, aşağı qiymət mühitində büdcə xərclərinin kəskin azaldılması isə iqtisadiyyatda ciddi şoklar yaradır. Bu kontekstdə fiskal qaydalar pro-tsiklik xərcləmə siyasətlərindən qaçmaq üçün mühüm mexanizm kimi qəbul edilir (9).

Fiskal siyasət məsələləri bütün dünyada hökumətlər üçün aktualdır. Keyns nəzəriyyəsi nöqteyi-nəzərindən fiskal siyasət kontrtsiklik olmalı, dövlət borcu isə dövlət və özəl istehlakın hamarlanması üçün alət rolunu oynamalıdır. Məhz bu fərziyyə tarixən dünyanın bir çox ölkələrində maliyyə siyasətinin əsasına çevrilmiş və son nəticədə, xüsusən də son qlobal böhrandan sonra yüksək borc yükündən irəli gələn problemləri və dövlətin davamlılığını təmin etmək zərurətini ortaya qoyduqdan sonra məhdudiyyətlərlə üzləşmişdir. Nəticədə yaranan məhdudiyyətlər əksər ölkələrdə fiskal qaydaların

tətbiqini zəruri edir ki, hökumətlər əsassız büdcə kəsirlərinə, dövlət borcunun qeyri-davamlı həddə yığılmasına, makroiqtisadi qeyri-sabitliyə və gələcək nəsillər üçün borc yükünün ədalətsiz yenidən bölüşdürülməsinə yol verməsin (4).

**Fiskal münasibətlərin iqtisadi inkişafa təsiri**

Fiskal siyasətin həyata keçirilməsi prosesində dövlət büdcəsinin gəlirləri xarici iqtisadi konyunkturadan asılı olur və mümkün qiymət tərəddüdləri dövlət büdcəsinin gəlirlərinin dəyişməsi ilə nəticələnir. Eyni zamanda fiskal siyasətin krizis dövründə reallaşdırılmasının xarakterik xüsusiyyəti mövcuddur: belə ki, demokratik şəraitdə və həmçinin siyasi səbəblərə görə üstünlük diskresion stimullaşdırıcı fiskal siyasət alətlərinə verilir. Lakin daxili tənzimləyicilər canlanma və inkişaf mərhələlərində işə düşürlər. Fiskal siyasət transformasion proseslərin və digər xarici faktorların ciddi təsiri altında olur ki, bu da iqtisadi tsiklin fazalarında fiskal siyasətin reallaşdırılmasının dəqiq mexanizminin müəyyən edilməsini çətinləşdirir. Bu xüsusiyyət onunla bağlıdır ki, iqtisadi tsiklin bir fazasında vergi yükünün artırılması ÜDM-in azalması ilə müşahidə olunduğu halda, iqtisadi tsiklin digər fazasında ÜDM-in artımı müşahidə edilmişdir. Daima tərəddüd etdiyinə yaxud dəyişdiyinə görə vergi yükü səviyyəsinin dinamikasının ümumi istiqaməti mövcud deyildir. Dövlətin fiskal siyasətinin aşkar edilmiş mərhələlərinin təhlili, o cümlədən xarici və yerli tədqiqatçıların fiskal siyasətin mahiyyətinə baxışlarının təkamülü onu göstərir ki, fiskal siyasətin təyin edilməsində vahid anlayış mövcud deyildir. Bunu nəzərə alaraq, müəllif tərəfindən verilən anlayışın müasir formada interpretasiyası təklif edilmişdir. Dövlətin fiskal siyasət anlayışının müəyyən edilməsində müəllifin xidməti fiskal siyasətin həyata keçirilməsi istiqamətinin onu həyata keçirən subyektlərdən asılı olması ilə nəticələnən subyektiv yanaşmanın tətbiqindən ibarətdir, hansı ki, bu subyektlər iqtisadi tsiklin fazalarından asılı olaraq gəlirlərin ya əlindən alınması ya da mənimsənilməsi prosesində iştirak edə bilərlər. İnsanların və cəmiyyətin artan tələbatının təmin edilməsi istehsalatın geniş miqyasda daimi olaraq yenilənməsini şərtləndirir və bunların həyata keçirilməsi investisiyalar qoyulmadan və ölkənin elmi-texniki potensialını inkişaf etdirmədən mümkün deyildir.

**Müasir dövrdə fiskal qaydalar: beynəlxalq təcrübə**

Resurslarla zəngin ölkələrdə çalışan iqtisadçılar və dövlət maliyyəsi mütəxəssisləri tez-tez hasilat sənayesi sektoru, onun iqtisadiyyatı, idarəetməsi və problemləri, eləcə də təbii sərvətlərin səmərəli idarəsini tələb edən məsələlərlə qarşılaşırlar.

Son illərdə dünyanın əksər ölkələrində qeyri-sabitliyin artması müşahidə olunur ki, bu da bazar mexanizmlərinin strukturunun dəyişdirilməsini, aparıcı korporasiyaların strategiyalarının yenilənməsini, eləcə də sabit mütərəqqi iqtisadiyyatın təmin edilməsi məqsədilə dövlətin daha səmərəli bərpa tədbirlərinin həyata keçirilməsini zəruri etmişdir (6).

Büdcə kəsiri və dövlət borcunun göstəricilərinin artması fiskal siyasətin dəyişdirilməsini tələb edirdi. Tənəzzülün aradan qaldırılmasının ilkin mərhələlərində BVF və Avropa Komissiyasının tövsiyələrinə əsasən borc artımını tənzimləmək üçün büdcə xərclərini məhdudlaşdırmaq və gəlirləri artırmaq yolu ilə qənaət tədbirlərinin tətbiqi zərurətə çevrildi. Lakin bu siyasət büdcə düzəlişlərinin iqtisadiyyatın və maliyyə sisteminin inkişafına təsirini nəzərə almadan, ilk növbədə, dövlət maliyyəsi sferasında qeyri-mütənasibliklərin məhdudlaşdırılmasına yönəldilmişdi. Təcrübədə büdcə kəsirinin Avropa Komissiyasının tövsiyə etdiyi səviyyəyə endirilməsi beş il ərzində baş verib və dövlət borcunun göstəricilərinin bərpasına hələ də nail olunmayıb. 2017-ci ildə Aİ-28 ölkələrində dövlət borcunun ÜDM-ə nisbəti 2007-ci illə müqayisədə 24,1 faiz çox olub.

Fiskal sistemin inkişafı problemlərinin həllinə yanaşmaların işlənib hazırlanmasına yönəlmiş nəzəri tədqiqatlar dövlət idarəçiliyi təcrübəsinin tələblərindən xeyli geri qalırdı. Bu səbəblə, iqtisadi və sosial inkişaf tendensiyaları, eləcə də ayrı-ayrı ölkələrin xüsusiyyətləri nəzərə alınmadan həyata keçirilən fiskal konsolidasiyanın davam etdirilməsinə tənqidlər gücləndi. Fiskal risklərin məhdudlaşdırılması üçün fiskal siyasətin aparılmasına yeni yanaşmaların işlənib hazırlanması və tətbiqi təklif edilirdi.

Sosial-iqtisadi inkişafa yönəldilmiş büdcə siyasətinin aparılması məsələlərinə S. Blankart kimi alimlər böyük diqqət yetirmişlər (T.P. Boqdan, V.M. Gets, T.İ. Efimenko, M. Kannano, T. Keristin, M. Lazar və b). Fiskal siyasətin təkmilləşdirilməsi üçün istifadə edilən innovativ mexanizmlərdən biri də BVF tərəfindən tövsiyə olunan fiskal qaydaların tətbiqi idi.

Fiskal qaydalar hökumətin parlament, qeyri-dövlət ixtisaslaşmış qurumları, ictimai təşkilatlar tərəfindən büdcə vəsaitlərinin idarə edilməsinə nəzarəti gücləndirməyə yönəlib. Eyni zamanda, onların tətbiqi hökumətin fiskal məsuliyyətini artırmalı, onu büdcə əməliyyatlarının səmərəliliyini, şəffaflığını artırmağa və dövlət maliyyə idarəçiliyində yenilikləri tətbiq etməyə təşviq etməlidir.

Bununla yanaşı, büdcə siyasəti məsələlərində qeyri-məhdud səlahiyyətlərə malik olan siyasətçilər xərcləri azaltmaqda maraqlı deyillər. Köklü dəyişikliklərə yalnız onların səlahiyyətləri əhəmiyyətli dərəcədə məhdudlaşdıqda nail olmaq mümkündür. Prosessual məhdudiyyətlərə aşağıdakılar daxildir:

- xərclərin ödənilməsi mənbələri olduqda onların artırılmasına icazə verilməsi,
- dövlət gəlirlərinin ayrı-ayrı növlərinin məqsədyönlü istifadəsi prinsiplərinin tətbiqi,
- dövlət borcunun planlı şəkildə ödənilməsi prosedurunun tətbiqi, büdcə ayırmalarının sekvestrləşdirilməsi.

Aİ ölkələrinin alimlərinin tərifinə əsasən, qaydalar hökumətin fiskal məsuliyyətinin artırılmasına, büdcə əməliyyatlarının idarə edilməsinin təkmilləşdirilməsinə, ictimaiyyətlə ünsiyyətin yaxşılaşdırılmasına, habelə büdcə əməliyyatlarının şəffaflığının artırılmasına yönəlmişdir. Bunlara dövlət xərclərinin göstəricilərinin yaxşılaşdırılması, dövlət investisiyalarının artırılması, əməyə həvəsləndiricilərin gücləndirilməsi, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi yolu ilə ortamüddətli artım perspektivlərinin yaxşılaşdırılması daxildir.

